# BÖYÜK İNSAN HAQQINDA

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI-2004

B20(04)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
"Azərbaycan" nəşriyyatının nəşri

B20(04) **Böyük insan haqqında.** - Bakı, "Azərbaycan" nəşriyyatı, 2004. - 296 s.

B $\frac{48004000\ 000\text{-}020(04)}{M\ 670(07)\text{-}2004}$ Sifarişlə

İSBN 9952-33-002-2

© Azərbaycan nəşriyyatı, 2004.



# TƏSƏLLİ

Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyev taleyin hökmü ilə öz xalqının ümummilli liderinə çevrildi. 1969-cu ildən Sovet Azərbaycanına başçılıq edən, sonradan dünyanın ən böyük 2 dövlətindən birinin - SSRİ-nin ali hakimiyyətində təmsil olunan, 1993-cü ildən müstəqil Azərbaycanın başçısı olan Heydər Əliyev bütün bu illərdə öz adını dünya tarixinə bir lider kimi yazmağa müvəffəq oldu.

Heydər Əliyev Azərbaycan xalqını daim irəliyə apardı, öz bilik və bacarığını, istedadını xalqının xoş güzəranının qurulmasına sərf etdi.

Azərbaycan xalqının ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev bu illər ərzində daim tərəqqisi üçün çalışdığı, böyük tarixi keçmişi ilə qürur duyduğu doğma Azərbaycanı bir dövlət kimi zamanın ağır sınaqlarından çıxartdı.

Buna görə də hər bir azərbaycanlı Heydər Əliyevə həmişə minnətdar olduğunu bildirir, onun adını çox uca tutur.

Heç nə əbədi olmadığı kimi heç kəs də əbədi yaşamır...

...2003-cü il dekabrın 12-də bu böyük şəxsiyyət vəfat etdi. Bu xəbər kimliyindən asılı olmayaraq hər bir azərbaycanlını sarsıtdı. Dünyanın ən nüfuzlu şəxsləri də kədərimizə şərik oldular, Azərbaycana başsağlığı ünvanladılar.

Tarixdə başqa belə bir şəxsiyyət xatırlanmır ki, onun vəfatı zamanı təmsil etdiyi xalqın bütün ayağı yer tutanı onunla vidalaşmağa gəlsin.

Rəsmi məlumata görə ilk 7 gün ərzində Heydər Əliyevin məzarını 4 milyona (!) yaxın insan ziyarət etdi... Kədərə dözməyib ürəyi partlayanlar, intihar edənlər də oldu.

Hamının ürəyi dolu idi. Hamı böyük insan barədə öz ürək sözlərini söyləmək istəyirdi. Odur ki, az qala hər bir müəssisədə, təşkilatda xatirə kitabları açıldı. Bu kitablara ürək sözlərini yazmaq üçün insanlar növbələrə dayandılar...

Bu kitab həmin o hüznlü günlərdə böyük öndərə sonsuz ehtiramı öz səhifələrinə hopdurub. Dünyanın ən önəmli şəxslərinin, habelə onu yaxından tanıyıb onunla çiyin-çiyinə addımlayanların xatirə sözləri bu kitaba həkk olunub.

Adətən adamın bir yaxını öləndə dərddən sarsılsa da, gündəlik qəzet səhifələrində verilən başsağlıqları ilə maraqlanır, onları yığıb toplayır. Bunlar ona bir təsəlli olur.

Bu kitabsa bütün Azərbaycan xalqına bir təsəllidir.





# PROLOQ

Qürur doğurası bir haldır. Görün bir Heydər Əliyev haqqında o hüznlü günlərdə nələr söylənilib, nələr deyilib. Kitab boyu bu səpgili fikirlər daha geniş şəkildə sizlərə təqdim ediləcək. Ancaq biz onların bir hissəsini qısaca, müqəddimə əvəzi olaraq diqqətinizə çatdırırıq. Əslində bu kəlmələr cild-cild kitabların deməyə aciz olduqlarını deyir. Buyurun, bu sadə, təmtəraqsız, həqiqətən də ürəkdən gələn sözləri siz də oxuyun... Heydər Əliyevin xatirə kitabının proloqu elə məhz belə olmalı idi. Və bu proloqdan doğan epiloq isə hələ yazılmaqdadır. Onun son nöqtəsinin nə zaman qoyulacağı bəlli deyil.

Heydər Əliyevin ölümündən sonra dünya bir qədər balacalaşmışdır.

***Riçard ARMİTAC.***

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur.

***Corc BUŞ.***

Mübaliğəsiz demək olar ki, o, siyasət nəhəngi idi.

***Vladimir PUTİN.***

O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi.

***Toni BLEYER.***

Mənim iki vətənim var - Böyük Britaniya və Hindistan. Mən bu ölkələrin dahi şəxsiyyətləri ilə fəxr edirəm. Heydər Əliyev haqqında düşünərkən, mən onu, mübaliğəsiz olaraq, Uinston Çörçill və Cəvahirlər Nehru ilə müqayisə edirəm.

***Caşvant ŞAH.***

Belə bir kəlam var: insan öz ömrü boyu ağac əkməli, ev tikməli və oğul böyütməlidir. Heydər Əliyev öz ömrü boyu çiçəklənən Azərbaycan adlı bir bağ salmış, adı müstəqil Azərbaycan olan bir ev qurmuş, Azərbaycan xalqının gələcəyini etibar etdiyi ləyaqətli bir oğul böyütmüşdür.

***Villem VAN'T VOUT.***

Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın uzunmüddətli iqtisadi firavanlığının əsasını qoydu.

***Dik ÇEYNİ.***

Onun gənc nəslə qayğısı digər dövlətlərin liderləri üçün nümunə ola bilər.

***Yuri YEMİLİAN.***

Onun nurlu adı, vətəni naminə gördüyü böyük işlər insanların yaddaşında əbədi yaşayacaqdır.

***Aman TULEYEV.***

Bu itki bütün Müstəqil Dövlətlər Birliyi üçün, keçmiş ümumi vətənimizdə - Sovet İttifaqında yaşayan insanlar üçün itkidir.

***Vladimir RUŞAYLO.***

O, qeyri-adi bacarığa və fitri müdrikliyə malik olaraq, özünün bütün şüurlu həyatını Vətənə xidmətə həsr etmişdir.

***Yuri YAROV.***

Onun təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də dünya birliyi qarşısında xidmətləri böyükdür.

***II İLİYA.***





Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adıyla bağlıdır.

***Murtuza RƏHİMOV.***

Təkcə Azərbaycanın yox, dünya türklüyünün görkəmli liderlərindən biri olan fəxri sədrimiz Heydər Əliyevin yeri uzun illər doldurulmayacaqdır.

***Akkan SUVER.***

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən - Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır.

***Mehriban ƏLİYEVA.***

O, prinsipiallığı, yüksək vətəndaş mövqeyi, siyasi müdrikliyi, cəsarətliliyi və son dərəcə alicənablığı ilə həmişə fərqlənirdi.

***Murad ZYAZİKOV.***

Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir.

***Kirsan İLYUMJİNOV.***

Bu güclü və cəsur insanı tanıyanların hamısı onun nurlu xatirəsini qəlbində saxlayacaqdır.

***Boris YELTSİN.***

O, yeni ideyalara və dialoqa həmişə hazır olmaqla, öz əqidəsinə sadiq qalan prinsipial bir insan idi.

***Canni BUKİKKİO.***

Onun adı dünya tarixinə həmişəlik yazılacaqdır.

***L. SLUTSKİ.***

Biz həqiqətən Böyük insanı, Qoca Qafqazın məğrur oğlunu itirdik.

***Q. MAXAÇOV.***

Heydər Əliyevin bütün həyat yolu xalqa fədakarcasına xidmətə parlaq nümunədir.

***Aleksandr TORŞİN.***

Heydər Əliyev tarixi bir yol qoyub. Biz bu yolun davamçılarıyıq.

***Akif AĞATALIBOV.***

Zaman keçdikcə, bizi bu böyük insandan ayıran vaxt intervalı artdıqca, onun gördüyü tarixi işlər daha aydın dərk ediləcək.

***Ramiz MEHDİYEV.***

Heydər Əliyev Azərbaycan xalqının qəlbində özünə əbədi, böyük və əzəmətli abidə ucaldıb.

***Əli ƏHMƏDOV.***

Heydər Əliyev bütün yaxşı olanları özündə toplamışdı.

***Nazim İBRAHİMOV.***

Biz, sıravi insanlar onun on il əvvəl gördüyünü yalnız indi görə bilirik.

***Natiq AĞAMİROV.***

O, xalqının qayğısına qalırdı və özünü xalqına fəda etdi.

***Çlaubenq ÇLU.***





Heydər Əliyev Rusiyanın ali dövlət mükafatına - Müqəddəs Apostol Andrey Pervozvannı ordeninə və Rusiyanın ən nüfuzlu ictimai mükafatına - "Sivilizasiyaların dialoqu" Beynəlxalq Andrey Pervozvannı mükafatına layiq görülmüş yeganə şəxsdir.

***V. YAKUNİN.***

Allah mənə ölkənizə gəlməyi qismət edərsə, ilk işim mərhum Heydər Əliyevin məzarını ziyarət edərək Fatihə oxumaq olacaq.

***İ. Ertan DƏMİRƏR.***

Öz böyük nüfuzu və fəaliyyəti ilə o, Azərbaycanın davamlı tərəqqisi üçün əvəzsiz töhfə verdi.

***Yanes DRNOVŞEK.***

Şəxsən mən onunla görüşlərdən Azərbaycan və Amerika arasındakı strateji əlaqələri formalaşdırmaq kimi nadir imkan əldə etdim.

***Zbiqnev BJEZİNSKİ.***

Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə.

***Herri HOULİHƏN.***

Heydər Əliyev böhranlı dövrdə, mübarizə anlarında taleyüklü qərarlar qəbul ediləcək vaxtda millətin ehtiyac duyduğu lider idi.

***Efraim SNEH.***

Bir çox ölkələrdə yeni zəmanənin yaradıcıları onun nadir təcrübəsindən mütləq bəhrələnəcəklər.

***Oljas SÜLEYMENOV.***

Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

***İlham ƏLİYEV.***

O, Azərbaycanı inkişaf edən sənaye respublikasına, dünya birliyində layiqli yer tutan ölkəyə çevirə bilmişdir.

***Valentina TEREŞKOVA.***

Ən çətin vəziyyətlərdə yeganə düzgün və dəqiq qərar tapmaq bacarığı həm ölkədə, həm də bütün dünyada ona şöhrət və hörmət qazandırdı.

***Georgi ŞYOKİN.***

Terrora qarşı müharibə, enerji məsələləri üzrə əməkdaşlıq, ipək yolunun bərpası, GUÖAM-la bağlı səyləri və yardımı, açıq qapı iqtisadi siyasəti onun davamlı irsinin sütunlarıdır.

***Kurt UELDON.***

Onun ideyaları Azərbaycana qulluq etdi, amma bunlar bütün Qara dəniz regionu üçün çox dəyərli və mühüm idi.

***Valeri ÇEÇELAŞVİLİ.***

Həyatımda ondan daha gözəl və müdrik kişi tanımırdım.

***Alla PUQAÇOVA.***

Heydər Əliyevin adı təkcə Azərbaycan xalqının qəlbində deyil, həm də bütün bəşəriyyətin tarixində əbədi qalacaqdır.

***İoan POP DE POPA.***





Elə insanlar var ki, mübaliğəsiz olaraq onlar tarixi yaradırlar. Heydər Əliyev belə insanlar sırasına daxildir.

***Yevgeni PRİMAKOV.***

Onun adı siyasətçi və dövlət xadiminin ən yüksək nüfuzu və müdrikliyinin təcəssümü olmuşdur.

***Vitali İQNATENKO.***

Heydər Əliyev mənim ailə səadətimin bünövrəsini qoymuşdur.

***Məhəmməd Xeyir VADİ.***

Bu dahi insan digər dahilərdən qat-qat böyükdür.

***Nikas SAFRONOV.***

Onun işinin davam etdirilməsi təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün əhəmiyyətlidir.

***Frenk VERRASTRO.***

O, həyatdan köçərkən elə məşəllər yandırmışdır ki, onlar əzabkeş Azərbaycan xalqına, həqiqətən kömək edəcəkdir.

***Andrey LOGİNOV.***

Heydər Əliyev böyük amal naminə qəhrəman kimi həlak oldu.

***Boris VOROVİÇ.***

Heydər Əliyev hər bir millətin şərəfi ola bilərdi.

***Sergey BABURİN.***

O, yaddaşlarda yaşamaqda davam edəcək və onun ölkənizə verdiyi töhfə heç vaxt unudulmayacaqdır.

***Mişel DANE.***

Heydər Əliyev YUNİSEF-in yaddaşında uşaq hüquqlarının güclü müdafiəçisi kimi qalacaqdır.

***Karol BELLAMİ.***

Dost və qardaş Azərbaycan mənəviyyatına, xeyirxahlığına və vətənpərvərliyinə görə ən yaxşı kişisini itirdi.

***Rəfiq HƏRİRİ.***

Heydər Əliyev bizim üçün həmişə yüksək siyasi müdriklik, bəsirət və uzaqgörənlik nümunəsi olacaqdır.

***Mixail LEBEDEV.***

Amerika öz böyük dostunu itirdi.

***Virciniya HEYS-UİLYAMS.***

O, dünya siyasəti tarixində görkəmli dövlət xadimi və siyasətçi kimi qalacaqdır.

***Kanat SAUDABAYEV.***

Heydər Əliyev Şərq müdrikliyinin təcəssümü və zəmanəmizin böyük siyasətçisi idi.

***Meret ORAZOV.***

O, yalnız Azərbaycanın prezidenti deyil, həm də ailəmizin sevinc və kədər hisslərini bölüşən insan kimi xatirimizdə qaldı.

***Riç və Ənn KOZLARİÇLƏR.***





Heydər Əliyev Sovet İttifaqının, Qafqazın və öz ölkəsinin tarixində iz qoyacaqdır.

***Jil REMİ.***

Onun adı tariximizə minnətdarlıqla yazılmışdır.

***Aleksandr KALYAGİN.***

Peşəkarlığına və yüksək siyasi keyfiyyətlərinə görə Siyasi Büroda, Sovet İttifaqında və dünya liderləri arasında onun tayı-bərabəri yox idi.

***V. KAZNAÇEYEV.***

Təbii müdrikliyi, geniş həyat təcrübəsi, misilsiz intellektual potensialı və güzəştsiz mövqeyi ona Azərbaycandan kənarda da böyük hörmət qazandırmışdı.

***Haşim COCOHADİKUSUMO.***

Belə böyük şəxsiyyətləri tarix neçə yüz ildən bir dünyaya bəxş edir.

***Dr. Nuridə ATƏŞİ.***

Fəxr edirəm ki, Heydər Əliyevi tanıyırdım, onunla dostluq edirdim.

***A. KULİKOV.***

O, hər şeydən əvvəl, öz xalqının və dövrünün ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirmiş parlaq şəxsiyyət idi.

***İqor MOİSEYEV.***

Dağlıq Qarabağ kimi ağrılı bir məsələnin sülh yolu ilə həlli yolunun axtarılmasında prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti unudulmazdır.

***Ambruaz DÜPON.***

O, ömrünü sadəcə, Azərbaycana yox, türk dünyasına həsr edən əvəzedilməz dahi bir liderdir.

*Hidayət QARACA.*

Azərbaycan tarixində Heydər Əliyev bu ölkəyə iftixar, nüfuz və qüdrət bəxş etmiş adam kimi yadda qalacaqdır.

*Rob SÜBHANİ.*

O, qüvvəsini, sağlamlığını əsirgəmir, yuxu və istirahəti unudur, həmişə ilk növbədə ölkə barədə, sonra isə özü haqqında düşünürdü.

*Boris ŞKOLNİKOV.*

Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınması və etimad qazanmasının əsasını qarşılıqlı anlaşma siyasətində tarazlıq yaratmaqla qoymuşdur.

*H. KESLER.*





**Azərbaycan xalqının ümummilli lideri,**
**Azərbaycan Respublikasının**
**eks-prezidenti**
**HEYDƏR ƏLİRZA oğlu ƏLİYEVİN**
**vəfatı ilə bağlı**

**RƏSMİ MƏLUMAT**

2003-cü il dekabr ayının 12-də Bakı vaxtı ilə saat 19.00-da Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərinin tibb klinikasında Azərbaycan xalqının ümummilli lideri, Azərbaycan Respublikasının eks-prezidenti Heydər Əlirza oğlu Əliyev uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.

# NEKROLOQ

Azərbaycan xalqına ağır itki üz vermişdir. Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının eks-prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əlirza oğlu Əliyev 2003-cü il dekabrın 12-də ömrünün 81-ci ilində vəfat etmişdir.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.





Heydər Əliyev 1990-cı ilin 20 Yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

638

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının prezidenti seçilmişdi. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdi.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ic-



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

timai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə dar bir gündə qaldığını görüb onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdı. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə - 1960-cı illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi pərakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdı.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır.

Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.





Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır.

Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən, çox vaxt elə bədahətən söylədiyi fikirlərdə də parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin - Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində və bu ideologiyaya, əlbəttə, aşkarda daban-dabana zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan, Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdı.

Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından, 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin geriləsaid, mənfi meyllərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu. Respublikada kosmopolit bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə bir hal da, heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi mancələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1970-1985-ci illər baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir.

İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatda, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir.

70-ci illərdən başlayaraq iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən, zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80-ci illərin sonu - 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı.

Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.





Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək, uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969-82-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda ittifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bu, həmin dövr idi ki, hətta Moskvada, Sankt-Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi dövrün Bakı mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bu günümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqəlidir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq, milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin ittifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri - bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və





müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atma-

sı, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Heydər Əliyev 1992-ci ildən başlayaraq, türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünyamiqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək, yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən





müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

***Azərbaycan Respublikasının eks-prezidenti***
***Heydər Əlirza oğlu Əliyevin dəfn mərasiminin***
***təşkili üzrə Dövlət Komissiyası***

## QƏRƏNFİLLƏR VƏ ŞAMLAR

Qara xəbəri eşidən kimi sarsıntı keçirən insanlar dekabrın 13-də axın-axın prezident Sarayının qarşısına gələrək, bir vaxtlar Heydər Əliyevi bu əzəmətli binadakı iş otağına aparan pillələrə gül-çiçək, tər qərənfillər düzür, yolboyu şamlar yandırırdılar. Polislər və hərbçilər Ali Baş Komandanın xatirəsini hərbi duruşla yad edib salamlayırdılar. Göz yaşlarını saxlaya bilməyən minlərlə sadə insan öz liderinə sədaqətini, dərin hörmət və ehtiramını bu cür ifadə edirdi.

Həmin gün axşam Azərbaycan prezidenti İlham Əliyev Prezident Sarayı qarşısına toplaşan insanların yanına gələrək, onlara öz adından və Azərbaycan dövləti adından minnətdarlığını bildirdi, xalqımıza səbir dilədi.





## CƏNAZƏ VƏTƏNƏ GƏTİRİLDİ

Dekabrın 14-də xalqımızın ümummilli lideri Heydər Əliyevin cənazəsi Bakıya gətirildi.

Prezident Heydər Əliyevin yaratdığı abidələrdən biri olan Binə beynəlxalq hava limanında matəm ovqatı vardı. Hava limanının binasında prezident Heydər Əliyevin qara lentlə haşiyələnmiş portreti asılmış, Azərbaycanın dövlət bayrağı endirilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Əliyevlər ailəsinin üzvləri, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının üzvləri, dövlət və hökumət nümayəndələri burada idilər.

Hava limanında fəxri qarovul düzülmüşdü.

Prezident Heydər Əliyevin cənazəsini Klivlenddən gətirən "Boinq-727" təyyarəsi saat 13.30 radələrində hava limanında yerə endi.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı cənazəni gətirən təyyarəyə qalxdı.

Qurucusu Heydər Əliyev olan Azərbaycan ordusunun əsgərləri Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin ifa etdiyi matəm musiqisinin sədaları altında cənazəni təyyarədən düşürdülər. Tabutun üzərinə respublikamızın Dövlət bayrağı çəkilmişdi.

Prezident Heydər Əliyevin cənazəsi xüsusi avtomobilə - katafalka qoyuldu. Matəm karvanı paytaxta yola düşdü. Hava limanından şəhərə gedən yola, küçələrə Azərbaycan paytaxtının on minlərlə sakini çıxmışdı. Matəm karvanının keçdiyi yol boyunca qırmızı qərənfillər düzülmüşdü. Azərbaycan paytaxtının sakinləri - dünya görmüş ağsaqqallar və ağbirçəklər, prezident Heydər Əliyevin ölkəmizin işıqlı sabahının qurucuları kimi böyük ümidlər bəslədiyi gənclər, "Heydər baba" sözləri dillərində əzbər olan məktəblilər matəm karvanını qəhərli göz yaşları ilə müşayiət edirdilər. Bu, Azərbaycan xalqının öz dahi oğluna sonsuz məhəbbətinin daha bir təzahürü idi. Bu insanları yollara, küçələrə çıxmağa heç kim məcbur etməmişdi.

Onları buraya gətirən insani hisslər, böyük Heydər Əliyevə son borclarını vermək istəyi idi. Bu kədərli, eyni zamanda daxilən qürur doğuran mənzərəni prezident Heydər Əliyevin cənazəsinin gətirildiyi Təzəpir məscidinədək seyr etmək olardı.

* * *

Matəm karvanı paytaxtın Təzəpir məscidinə gəldi.

Səhərdən məscidə toplaşmış din xadimləri xalqımızın böyük oğlunun ruhuna dualar oxuyurdular.

Azərbaycan prezidenti İlham Əliyev, mərhumun doğmaları, dəfn mərasimini təşkil edən Dövlət Komissiyasının üzvləri məscidin ibadət salonuna gəldilər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə matəm duası oxudu.

Sonra o, mərasimə toplaşanlara müraciətlə dedi: "Mən prezident Heydər Əliyev ilə axırıncı dəfə görüşəndə onu Təzəpir məscidinə dəvət etdim, dedim ki, Siz buraya çoxdan gəlmirsiniz. O, söz vermişdi ki, gələcək. Amma bu gün çox heyfislənirəm ki, biz buraya onun cənazəsini gətirdik. Heydər Əliyev kimi şəxsiyyətin dünyasını dəyişməsi biz müsəlmanlar üçün böyük itkidir. Ölkəmizdə bütün dinlərə və din adamlarına qayğıkeş münasibət bəslədiyinə, ibadətgahların təmirinə və tikintisinə yardımına görə biz Heydər Əliyevə həmişə minnətdar olmuşuq və olacağıq. Allah ona rəhmət eləsin!".

Mərhumun cənazəsi islam ənənələrinə və şəriətə tam uyğun şəkildə qüsl olundu. Tabut məscidin böyük ibadət salonunda qoyulduqdan sonra cənazə namazı qılındı.

Namaz başa çatdıqdan sonra ehsan verildi.





## ÜMUMXALQ VİDALAŞMA MƏRASİMİ

Dekabrın 15-də qədim Bakı, prezident Heydər Əliyevin geniş quruculuq işləri sayəsində son 30 ildə görkəmini büsbütün dəyişmiş paytaxtımız matəm libasına bürünmüşdü. Həmin gün səhər saat 9-dan Respublika sarayında Heydər Əliyevlə ümumxalq vidalaşma mərasimi başlandı. Sarayın qarşısından keçən prospektin hər iki tərəfinə qırmızı qərənfillər düzülmüşdü.

Heydər Əliyevin cənazəsi saraya gətirilərək, səhnədə postament üzərində qoyulmuş, ətrafına gül-çiçək düzülmüşdü. Tabutun üstünə Azərbaycanın dövlət bayrağı çəkilmişdi. Sarayın nəhəng salonu və səhnəsi matəmsayağı bəzədilmişdi. Səhnədə prezident Heydər Əliyevin böyük portreti asılmış, fəxri qarovul düzülmüşdü.

Səhnənin önündə çoxsaylı əklillər qoyulmuşdu.

Sarayın foyesində Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini, o cümlədən Azərbaycan prezidenti kimi xarici ölkələrə rəsmi səfərlərini, beynəlxalq tədbirlərdə iştirakını, dövlət və hökumət başçıları ilə görüşlərini əks etdirən fotoşəkillərdən ibarət stendlər qoyulmuşdu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Heydər Əliyevin yaxınları saraya gəldilər.

Respublika sarayına aparan küçələr insan selinə qərq olmuşdu. Azərbaycan paytaxtının sakinləri, idarə, təşkilat və müəssisələrin kollektivləri, respublikanın rayonlarının nümayəndələri xalqımızın dahi oğluna son borclarını vermək üçün axın-axın saraya gəlirdilər.

Əslində, vidalaşma mərasimi elə Heydər Əliyevin vəfatı xəbəri alınan günün ertəsi başlamışdı, insanlar axın-axın Prezident sarayının qarşısına gəlir, pilləkənlərə gül, əklil qoyur, xalqımızın böyük oğlunun, nəhəng siyasətçinin xatirəsinə sonsuz ehtiramlarını bildirirdilər.

Son vidalaşma mərasiminin miqyası isə bambaşqa idi. Azərbaycan xalqının bütün təbəqələrindən olan insanlar - qocalar, ağbirçəklər, cavanlar, məktəblilər Respublika sarayına axışır, insan seli küçələrə sığmırdı. Bu, qədirbilən Azərbaycan xalqının öz dahi oğluna sonsuz hörmət və ehtiramının daha bir sübutu idi...

Cənazənin önündən hərbçilər keçirlər. İstər-istəməz, Heydər Əliyevin Azərbaycanda ordumuzun inkişafı ilə bağlı hələ sovet dövründə Naxçıvans-

ki adına hərbi məktəbi yaratması və ilk milli hərbçi kadrların hazırlanması sahəsində xidmətləri yada düşür. Heydər Əliyev son 10 ildə Azərbaycanda ordu quruculuğu sahəsində çox böyük işlər görmüşdü və Ali Baş Komandan kimi fəxrlə deyirdi ki, indi bizim güclü ordumuz var. Bu, onun ən çox fəxr etdiyi uğurlardan biri idi...

Azərbaycanın xalq şairi Məmməd Araz, xəstəliyinə baxmayaraq, Heydər Əliyevə son borcunu verməyə gəlmişdi. Bu da təbiidir. Çünki Heydər Əliyev Azərbaycanda ədəbiyyatın, mədəniyyət və incəsənətin inkişafında misilsiz rol oynamışdır. O özünü yaradıcı adamların dostu hesab edirdi. Yaradıcılığına böyük hörmət bəslədiyi ədəbiyyat xadimlərindən biri də Məmməd Araz idi.

Ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önündən dərin hüznlə keçən, bəziləri isə göz yaşlarını saxlaya bilməyən Azərbaycan vətəndaşlarının yaşlı nəslə mənsub olanları bu nəhəng insanın xalqımız və dövlətimiz qarşısında xidmətlərini yada salarkən, yəqin ki, Respublika sarayının inşasını da xatırlayırlar. Tikintisi uzun illər yarımçıq qalmış bu əzəmətli bina da Heydər Əliyevin səyləri sayəsində 1972-ci ildə istifadəyə verilmişdi. Xalqımızın böyük oğlu bu sarayda neçə-neçə möhtəşəm tədbirlər keçirmiş, nitqlər söyləmiş, Azərbaycan prezidenti kimi and içmişdi. İndi isə xalqımız onunla, o da gözəl əsərlərindən biri olan bu sarayla son vidalaşmaya gəlmişdi. Sarayın salonunun orta cərgələrindən birində, Heydər Əliyevin həmişə əyləşdiyi kresloya bu dəfə gül dəstəsi qoyulmuşdu.

Prezident Heydər Əliyevə son borclarını vermək, dünyamiqyaslı siyasətçi kimi ona ehtiramlarını bir daha bildirmək üçün bir sıra xarici ölkələrin dövlət və hökumət başçıları, yüksək vəzifəli rəsmi şəxsləri, tanınmış şirkətlərin rəhbərləri də Bakıya gəlmişdilər. Onların adından salona əklillər gətirilir, özləri isə Azərbaycanın dahi övladının cənazəsi önündə baş əyir, prezident İlham Əliyevə və ailə üzvlərinə, xalqımıza bir daha səmimi başsağlığı verirdilər.

Heydər Əliyevin Azərbaycanla, xalqımızla bağlı arzuları bitib-tükənməz idi, vətənə, xalqa olan məhəbbəti hədsiz-hüdudsuz idi. Onun ürəyi Azərbaycan qədər geniş idi. O, dünyanın hansı nöqtəsinə gedirdisə, Azərbaycanı, onun problemlərini də ürəyində aparırdı. Bu problemlərin həlli üçün bütün gücünü, qüvvəsini, varlığını əsirgəmirdi. Hər yerdə Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyev düşünürdülər.

Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu. Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün çalışdı və bu yolda ömrünü şam kimi





əritdi. Lakin özü ərisə də, xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir...

Saraya insan axınının sonu görünmürdü. Vidalaşmaq istəyənlər saysız-hesabsız, vaxt isə az idi. Mərasimin sonu yaxınlaşırdı. ...Şeyxülislam Allahşükür Paşazadə ümummilli liderimiz Heydər Əliyevin ruhuna dua oxudu, cənazə Respublika sarayından çıxarıldı, Fəxri Xiyabana aparılmaq üçün top lafetinə qoyuldu.

Matəm karvanının önündə prezident Heydər Əliyevin portreti, çoxsaylı əklillər aparılırdı. Həzin, kədərli musiqi səslənirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Əliyevlər ailəsinin üzvləri, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının üzvləri, xarici ölkələrin dövlət və hökumət başçıları, Bakıdakı diplomatik korpusun nümayəndələri cənazəni müşayiət edirdilər.

Yol boyu prezident Heydər Əliyevin qara lentlə haşiyələnmiş çoxsaylı portretləri görünürdü, Azərbaycanın dövlət bayrağı endirilmişdi.

Küçələrdə izdihamın ucu-bucağı görünmürdü. Yüz minlərlə insan xalqımızın dahi oğlunu son mənzilə yola salırdı. Azərbaycan paytaxtı 1990-cı ilin qanlı yanvarından sonra ilk dəfə idi ki, belə bir izdihamın şahidi olurdu.

Prezident Heydər Əliyevi son mənzilə yola salanlar onun haqqında ürək yanğısı ilə danışır, qəm-qüssələrini bölüşdürür, onun əvəzsiz lider, qayğıkeş ata, dahi şəxsiyyət olduğunu, ideyalarının daim yaşayacağını vurğulayırdılar. Çoxları Heydər Əliyevin dünyasını dəyişdiyinə inanmaq istəmirdi, onun öz xalqının arasında olmamağını qəbul edə bilmirdi. Bu, dahi Heydər Əliyevin ölməzliyinin təcəssümü idi.

Xəzərdəki gəmilərin fit səsləri bütün şəhərə yayılırdı.

Yol boyu cənazəni müşayiət edənlər arasında qocaman aktrisa, Azərbaycan teatrının ağbirçəyi Nəsibə xanım Zeynalova da vardı. Səhhəti ilə bağlı çətinliyə baxmayaraq, o, Azərbaycan mədəniyyətinə və incəsənətinə daim qayğı göstərmiş prezident Heydər Əliyevlə vidalaşmağa gəlmişdi.

Böyük öndərini itirən insanlar kədərlərini göz yaşları ilə bildirirdilər. Bu, Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının göz yaşları idi.

Xalqın böyük oğlunu son mənzilə yola salanlar arasında respublikanın müxtəlif şəhər və rayonlarından gəlmiş minlərlə adam vardı. AzərTAc-ın müxbirləri onların bəzilərindən ürək sözlərini qələmə alırdılar.

**Sahib Məmmədov (Qazax rayonu):** — Ölüm sözünü dilimə gətirə bilmirəm, çünki Heydər Əliyev həmişə bizimlə olub və olacaqdır. O, bizə müstəqil Azərbaycan kimi bir dövləti əmanət qoyub gedir. Bu əmanəti göz

3. - 626

bəbəyi kimi qoruyub saxlamaq onun ölməz ruhu qarşısında bizim ən müqəddəs borcumuzdur. Heydər Əliyev Azərbaycan tarixində və xalqımızın qan yaddaşında əbədi yaşayacaqdır.

**Əli Quliyev (pensiyaçı, Ağcabədi rayonundakı "Qızıl ay" türk çadır şəhərciyindən gəlmiş ağdamlı məcburi köçkün):** — Biz Heydər Əliyevi həmişə böyük rəhbər kimi görmüşük və onun əziz xatirəsi həmişə ürəyimizdə yaşayacaqdır. O, biz qaçqın-köçkünlərin ümid yeri olub. Onun hər sözündən təsəlli tapmışıq, sabaha inamımızı itirməmişik. Heydər Əliyev yalnız cismən bizdən ayrılıb. Xalqımızın başı sağ olsun. Otuz beş min didərgin ağdamlı adından deyirəm: Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun.

**Hümbət Sadıqov (II qrup Böyük Vətən müharibəsi əlili):** — Heydər Əliyev insana qiymət verən, dəmir kimi möhkəm, ipək kimi yumşaq bir rəhbər idi. Mənim 82 yaşım var. Biz, çox az sayda qalmış 1941-45-ci illər müharibəsi əlilləri ona daha çox borcluyuq, o, bizə yüksək qiymət verirdi. Onun hər kəlməsi elə bil ömrümüzü uzadırdı. İnanıram ki, prezidentimiz İlham Əliyev də xalqımızın Atatürkü olan Heydər Əliyevin yarımçıq qalan işlərini layiqincə başa çatdıracaq. O dahi insan bizi cismən tərk etdi, ruhu isə həmişə bizim başımızın üstündə olacaqdır.

**Minayə Qəhrəmanova (Qarabağ müharibəsi veteranı):** — Deməyə söz tapmıram. Allah rəhmət eləsin. Onun işıqlı ideyalarının reallaşması üçün əl-ələ verib hamımız çalışmalıyıq. Mən müharibədə tibb bacısı olmuşam, qan-qadanın canlı şahidiyəm. İgidliklə vuruşan cavan oğlan və qızlarımızın qan içində həlak olduğunu görmüşəm. Xalqımızı ürəkdən sevən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində atəşkəs sazişi imzalandı və ötən müddət ərzində respublikamız ordu quruculuğunda çox böyük inkişafa nail oldu. Bizim yenilməz xalq olduğumuz fikrini o, bizə bir daha aşıladı. Onun mənalı həyatı isə gənclərimiz üçün ən zəngin örnəkdir.

**Şair Paşayev (Qusar rayonu):** — Rayonumuzun əhalisi Milli Məclisdən xahiş edir ki, Heydər Əliyevin xatirəsini əbədiləşdirmək məsələsi tezliklə həll edilsin. O, Azərbaycanda yaşayan milli azlıqların mənəvi atası idi, bütün xalqa, bəşəriyyətə gərək idi. Qəbri nurla dolsun.





## FƏXRİ XİYABANDA DƏFN

Respublika sarayına yol alan matəm karvanı Şəhidlər Xiyabanına yaxınlaşır. Burada Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş vətən övladları uyuyur. Prezidentimiz Heydər Əliyev müharibəni dayandırmasaydı, kim bilir, indi şəhidlərimiz nə qədər olardı. Heydər Əliyevin yaratdığı abidələrdən biri də bu xiyabandakı "Əbədi məşəl"dir. Həmin abidə dil açıb danışa bilsəydi, yəqin ki, deyərdi: "Sən bu torpağın ən böyük şəhidisən!" Matəm karvanı saat 16.00 radələrində Fəxri Xiyabana çatdı.

Xiyabanın girəcəyində fəxri qarovul düzülmüşdü.

Fəxri Xiyabanın ətrafı öz müdrik rəhbərini və ulu öndərini son mənzilə yola salmaq üçün əklillər və gül-çiçək dəstələri gətirmiş insanlarla dolu idi.Cənazə top lafetindən endirilərək, məzarın yanına gətirildi. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə matəm duası oxuduqdan sonra cənazə məzara endirildi.

Müdafiə Nazirliyinin nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndi. Toplardan yaylım atəşi açıldı.

Prezident Heydər Əliyevin dini və mənəvi dəyərlərimizə verdiyi yüksək qiymətdən, müqəddəs ziyarətgahlarımızın bərpasına göstərdiyi qayğıdan hər zaman razı qalan din xadimləri mərhum prezidentin ruhuna Yasin surəsi oxudular. Şeyxülislam Hacı Allahşükür Paşazadə dəfn mərasiminə toplaşanlara müraciətlə dedi: — Bu gün bizim üçün çox qəmli bir gündür. Bu yolu gələrkən düşündüm ki, mən ömrümdə iki dəfə bu qədər insan seli görmüşəm. Birinci dəfə 20 Yanvar hadisələri zamanı bu qədər insanın küçələrə çıxaraq öz əzizlərini yola saldığının şahidi olmuşam. Bu gün isə xalq müstəqil Azərbaycanın qurucusu, istəkli və əziz prezidentini, öndərini son mənzilə yola salmaq üçün küçələrə çıxmışdır.

Allah-Təala ona rəhmət eləsin!

* * *

Sonra şeyxülislam Fəxri Xiyabanın ətrafına toplaşmış yüz minlərlə insana müraciətlə dəfn mərasiminin davam edəcəyini və buraya gəlmiş camaatın hamısının öz sevimli və əziz prezidentinin məzarını ziyarət edə biləcəyini elan etdi.

Dəfn mərasimində iştirak edən dövlət və hökumət başçıları, digər xarici qonaqlar, səfirlər Azərbaycan prezidenti İlham Əliyevə bir daha səmimi başsağlığı verdilər.

Saat 17.00 radələrindən başlayaraq, Azərbaycan vətəndaşları xalqımızın ümummilli liderinə sonsuz məhəbbətinin, onun misilsiz xidmətlərinə görə dərin minnətdarlığının ifadəsi olaraq, prezident Heydər Əliyevin məzarına axışmağa başladı. Gözlərində yaş, qəlblərində kədər qarışıq qürur olan ağsaqqallar, ağbirçəklər, gənclər, Heydər babanı məsum baxışları ilə son mənzilə yola salmış uşaqlar saysız-hesabsız əklillər, gül-çiçək arasında görünməz olmuş məzarın önündən keçir, onun müqəddəs ruhu qarşısında baş əyirdilər.

Fəxri Xiyabana insan axını gecə yarıyadək davam etdi.

Allah prezident Heydər Əliyevə rəhmət eləsin, qəbri nurla dolsun!

Vidalaşma və dəfn mərasimi Azərbaycan televiziyası vasitəsilə ölkənin bütün telekanalları ilə birbaşa yayımlandı.





## BİR DƏQİQƏLİK SÜKUT

Dekabrın 15-də ümummilli lider, prezident Heydər Əliyevin dəfn günü saat 17.00-da bütün Azərbaycan ərazisində bir dəqiqəlik sükut elan edildi.

Nəqliyyatın hərəkəti dayandırıldı, insanlar kədər sükutuna qərq oldular. Ölkə sakinləri görkəmli siyasi xadimin xatirəsinə öz ehtiramlarını belə ifadə etdilər.

# DƏFNDƏ İŞTİRAK EDƏN XARİCİ QONAQLAR

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR

Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər 20 nəfərlik nümayəndə heyətinin, o cümlədən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hilmi Özkökün müşayiəti ilə dekabrın 15-də Bakıya gəldi.

Türkiyə prezidenti AzərTAc-ın müxbirinə dedi ki, mən qardaş Azərbaycan xalqının kədərini bölüşürəm və qardaşlarıma başsağlığı verirəm.

Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər və qardaş ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hilmi Özkök, habelə onları müşayiət edən rəsmi şəxslər Binə hava limanından ilk öncə prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəldilər.

Qardaş ölkənin rəhbəri adından Heydər Əliyevin cənazəsi önünə əklil qoyuldu. Prezident Əhməd Necdət Sezər və ordu generalı Hilmi Özkök türk xalqının böyük dostu Heydər Əliyevin cənazəsi önündə baş əyərək, onun unudulmaz xatirəsinə hörmət və ehtiramlarını bildirdilər. Cənab Əhməd Necdət Sezər dövlətimizin başçısı İlham Əliyevə, onun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi, ölkəmizin rəhbərinə və xalqımıza Tanrıdan səbir dilədi.

Türkiyə Respublikasının prezidenti və onu müşayiət edən şəxslər Azərbaycan-Türkiyə dostluğunun tarixinə yeni parlaq səhifələr yazmış Heydər Əliyevin Fəxri Xiyabanda dəfnində iştirak etdilər.

Dəfn mərasimindən sonra prezident Əhməd Necdət Sezər, nümayəndə heyətinin üzvləri dövlətimizin başçısı İlham Əliyevə yaxınlaşaraq bir daha ona başsağlığı verdilər, prezident Heydər Əliyevə Uca Allahdan rəhmət dilədilər.





## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN

Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının prezidenti Vladimir Putin 100 nəfərlik nümayəndə heyəti ilə dekabrın 15-də Bakıya gəldi.

Böyük siyasətçi və dövlət xadimi Heydər Əliyevlə bağlı xatirələrini yada salan Rusiya Federasiyasının prezidenti Vladimir Putin AzərTAc-ın müxbirinə dedi: “Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün keçmiş ittifaq miqyasında tanınmış şəxsiyyət idi. Onun barəsində müxtəlif fikirlər var idi, amma mən şəxsən onunla tanış olduqdan və birgə işlədikdən sonra Heydər Əliyevə münasibətim kökündən dəyişdi. Başa düşdüm ki, o, heyrətamiz insan, ağıllı, dəqiq, bacarıqlı rəhbər, əsl siyasətçidir. Heydər Əliyevin miqyası Azərbaycanın hüdudlarından çox-çox kənara çıxmışdı. Açıq deyim, Azərbaycanın bəxti gətirmişdir ki, dövlətin başında Avropa və dünya miqyasında tanınan bir siyasətçi dururdu. O, bir tərəfdən beynəlmiləlçi, digər tərəfdən isə öz yurdunun vətənpərvəri idi. Heydər Əliyev həm də Rusiyanın dostu idi. Bu böyük insanın vəfatı onu tanıyanların hamısını, o cümlədən şəxsən məni çox kədərləndirmişdir. Onunla şəxsi, çox səmimi münasibətlərimiz var idi. Allah rəhmət eləsin. Qəbri nurla dolsun”.

...Rusiya dövlətinin başçısı və onu müşayiət edən nümayəndə heyəti Binə hava limanından prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəldi.

Prezident Vladimir Putinin adından ümummilli lider Heydər Əliyevin cənazəsi önünə əklil qoyuldu. Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin nurlu xatirəsi önündə ehtiramla baş əyən prezident Vladimir Putin dövlətin rəhbəri İlham Əliyevə və ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi, onlara səbir və təmkin dilədi.

...Cənab Putin Rusiya-Azərbaycan əlaqələrinin əsası unudulmaz Heydər Əliyev tərəfindən qoyulmuş xətt üzrə bundan sonra da inkişaf edəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyev Azərbaycanın böyük oğlunun xatirəsinə yüksək ehtiramına və xalqımızın kədərinə qəlbən şərik olduğuna görə Rusiya dövlətinin başçısı Vladimir Putinə təşəkkürünü bildirdi.

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA

Prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Ukrayna dövlətinin başçısı Leonid Kuçma dekabrın 15-də Bakıya gəldi.

Prezident Leonid Kuçma AzərTAc-ın müxbirinə dedi: "Azərbaycanın əvəzsiz lideri Heydər Əliyev mənim və Ukrayna xalqının yaxın dostu idi. Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf edib möhkəmlənmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcəkdir".

Sonra prezident Leonid Kuçma prezident Heydər Əliyevlə vidalaşmaq üçün Respublika sarayına gəldi. Ümummilli lider Heydər Əliyevin cənazəsi önünə Ukrayna dövlətinin başçısı adından əklil qoyuldu.

Ukrayna rəhbəri Heydər Əliyevə ehtiram əlaməti olaraq, onun cənazəsi önündə baş əydi, Azərbaycan prezidenti İlham Əliyevə və onun ailə üzvlərinə öz adından və Ukrayna xalqı adından dərin hüznlə başsağlığı verdi, dünya siyasət aləmində xüsusi yeri və rolu olmuş Heydər Əliyevə Allahdan rəhmət dilədi.

## QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV

Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev prezident Heydər Əliyevlə vidalaşmaq üçün dekabrın 15-də Bakıya gəldi.

O, jurnalistlərlə söhbətində dedi: "Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Hamımıza məlumdur ki, Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görüb. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışdı. Allah ona rəhmət eləsin".

Sonra Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev Azərbaycanın ümummilli lideri Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəldi. Onun adından prezident Heydər Əliyevin cənazəsi önünə əklil qoyuldu. MDB ölkələri rəhbərlərinin müdrik ağsaqqalı və güvənc yeri olan həmkarına ehtiramını onun unudulmaz xatirəsi önündə baş əyməklə bildirən prezident Nursultan Nazarbayev Azərbaycanın rəhbəri İlham Əliyevə və onun ailə üzvlərinə, yaxınlarına dərin hüznlə başsağlığı verdi.





## ABŞ PREZİDENTİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ BRENT SKOUKROFT, DÖVLƏT KATİBİNİN MÜAVİNİ ELİZABET CONS, SENATOR SEM BRAUNBƏK

ABŞ-Azərbaycan münasibətlərinin inkişafında əvəzsiz xidmətləri olan prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Amerika Birləşmiş Ştatları prezidentinin xüsusi nümayəndəsi general Brent Skoukroft, dövlət katibinin müavini Elizabet Cons, senator Sem Braunbək dekabrın 15-də Bakıya gəldilər.

Nümayəndə heyəti prezident Heydər Əliyevlə vidalaşma mərasiminin keçirildiyi Respublika sarayında oldu. Heydər Əliyevin cənazəsi önünə ABŞ prezidenti Corc Buşun adından əklil qoyuldu. General Brent Skoukroft ABŞ-Azərbaycan münasibətlərinin inkişafında müstəsna xidmətləri olmuş Heydər Əliyevə ehtiramını onun nurlu xatirəsi önündə baş əyməklə bildirdi. Sonra o, ABŞ prezidentinin, rəhbərlik etdiyi nümayəndə heyətinin adından və öz adından Azərbaycan dövlətinin başçısı İlham Əliyevə dərin hüznlə başsağlığı verdi.

## FRANSANIN MÜDAFİƏ NAZİRİ MİŞEL ALYO-MARİ

Fransa Respublikasının müdafiə naziri Mişel Alyo-Mari Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Bakıya gəldi.

Xanım Alyo-Mari Azərbaycanın ümummilli lideri, Fransa xalqının sədaqətli dostu Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gedərək, öz ölkəsinin prezidenti Jak Şirakın adından cənazə önünə əklil qoydu.

Müstəqil Azərbaycanın Fransada tanınmasında böyük xidmətləri olmuş Heydər Əliyevin cənazəsi önündə baş əyərək, ona dərin ehtiramını bildirən Mişel Alyo-Mari ölkəmizin rəhbəri İlham Əliyevə və onun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdi.

## İRANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MƏHƏMMƏD RZA ARİF

Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün İran İslam Respublikasının birinci vitse-prezidenti Məhəmməd Rza Arif dekabrın 15-də Bakıya gəldi.

İİR-in birinci vitse-prezidenti Məhəmməd Rza Arif AzərTAc-ın müxbirinə dedi: "Görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı İranda da böyük üzüntü və kədər hissi ilə qarşılanmışdır. Azərbaycan-İran münasibətlərinin inkişafında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Azərbaycanlı qardaş və bacılarımın kədərini bölüşərək, Tanrının sevimli bəndələrindən olan Heydər Əliyevin şəxsiyyətinə dərin hörmət və ehtiramımı bildirir, Allahdan ona rəhmət diləyirəm".

Məhəmməd Rza Arif hava limanından prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəldi. Azərbaycanın qurucusu Heydər Əliyevin cənazəsi önünə İran prezidenti adından əklil qoyuldu. Məhəmməd Rza Arif Azərbaycan prezidenti İlham Əliyevə İran xalqı adından dərin hüznlə başsağlığı verdi.

## GÜRCÜSTAN PREZİDENTLİYİNƏ NAMİZƏD MİXAİL SAAKAŞVİLİ

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Gürcüstan prezidentliyinə namizəd Mixail Saakaşvili dekabrın 15-də Bakıya gəldi.

Binə hava limanında Mixail Saakaşvili AzərTAc-ın müxbirinə dedi: "Heydər Əliyev nəinki Azərbaycanda, bütün MDB məkanında və dünyada böyük nüfuza malik bir şəxsiyyət idi. Qafqaz respublikaları arasında, xüsusən Gürcüstanla Azərbaycan arasında əlaqələrin inkişaf etməsində Heydər Əliyevin müstəsna rolu olmuşdur. İndiki və gələcək nəsillər Heydər Əliyevin xidmətlərini heç zaman unutmayacaq, onun yaratdıqlarından bəhrələnəcəklər. Bundan sonra da Azərbaycan-Gürcüstan əlaqələri inkişaf edəcək, hər iki xalqın indiki və gələcək nəsilləri təməli qüdrətli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcəklər. Allah Heydər Əliyevə rəhmət eləsin".





Gürcüstan prezidentliyinə namizəd Respublika sarayına gələrək Heydər Əliyevlə vidalaşma mərasimində iştirak etdi, Azərbaycan prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verdi.

## MOSKVANIN MERİ YURİ LUJKOV VƏ RF XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VYAÇESLAV TRUBNİKOV

Təkcə Azərbaycanın deyil, vaxtilə Moskvada işlədiyi dövrdə Sovetlər birliyinin, həmçinin Rusiya paytaxtının inkişafında misilsiz xidmətləri olan prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün Moskva şəhərinin meri Yuri Lujkov və Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov dekabrın 15-də Bakıya gəldilər.

Yuri Lujkov prezident Heydər Əliyevin vəfatından kədərləndiyini bildirərək, AzərTAc-ın müxbirinə dedi ki, Azərbaycan xalqına ağır itki üz vermişdir. Biz böyük dövlət xadimini, dünyamiqyaslı siyasətçini itirmişik. Mən Heydər Əliyevi çoxdan tanıyırdım. O, hələ Moskvada işləyərkən dünyada sayılıb-seçilən rəhbərlərdən biri idi. Onun fenomenal yaddaşı hamını heyrətə salırdı. Heydər Əliyevin yoxluğu onu tanıyanların hamısını dərindən kədərləndirmişdir. Yeri behişt olsun.

Moskva şəhərinin başçısı Yuri Lujkov və Rusiya xarici işlər nazirinin birinci müavini Vyaçeslav Trubnikov Respublika sarayına gələrək, prezident Heydər Əliyevlə vidalaşma mərasimində iştirak etdilər. Onlar Azərbaycan xalqının unudulmaz oğlu Heydər Əliyevin cənazəsi önünə əklil qoydular, prezident İlham Əliyevə dərin hüznlə başsağlığı verdilər.

## DAĞISTAN RESPUBLİKASI DÖVLƏT ŞURASININ SƏDRİ MƏHƏMMƏDƏLİ MƏHƏMMƏDOV

Dağıstan Respublikası Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov prezident Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də Bakıya gəldi.

Məhəmmədəli Məhəmmədov AzərTAc-ın müxbirinə dedi ki, Heydər Əliyev Qafqaz xalqları üçün elə böyük işlər görüb ki, bu gün onların hamı-

sı qazandıqları müstəqillik və əmin-amanlıq üçün ona minnətdar olmalıdırlar. Heydər Əliyevin öz xalqı, habelə Dağıstan xalqı qarşısında çox böyük xidmətləri vardır. Dağıstan xalqı heç vaxt onu unutmayacaqdır. Mən Dağıstan xalqı adından və öz adımdan Heydər Əliyevin yaxınlarına, Azərbaycan prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verirəm. Allah əziz və unudulmaz Heydər Əliyevə rəhmət eləsin.

Sonra Dağıstan rəhbəri prezident Heydər Əliyevlə vidalaşmaq üçün Respublika sarayına gəldi. Onun adından ümummilli liderimiz Heydər Əliyevin cənazəsi önünə əklil qoyuldu. Ehtiram əlaməti olaraq Azərbaycanın böyük oğlunun cənazəsi önündə baş əyən Məhəmmədəli Məhəmmədov respublikanın prezidenti İlham Əliyevə və onun ailə üzvlərinə öz adından və Dağıstan xalqı adından dərin hüznlə başsağlığı verdi.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN

Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğan və onun başçılıq etdiyi nümayəndə heyəti bütün türk dünyasının lideri Heydər Əliyevin dəfn mərasimində iştirak etmək üçün dekabrın 15-də Bakıya gəldi.

Baş nazir Ərdoğan AzərTAc-ın müxbirinə dedi ki, Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq. Vəfatı hamımızı sarsıtmış möhtərəm Heydər Əliyev regionun inkişafı üçün çox böyük səy göstərirdi. Bu dahi şəxsiyyət Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Ərzurum qaz kəmərləri layihələrinin həyata keçirilməsi üçün çox çalışırdı. Biz də çox çalışmalıyıq ki, bu layihələr mütləq reallığa çevrilsin. Türkiyə-Azərbaycan münasibətləri elə möhkəm təməl üzərində qurulmuşdur ki, bunu heç bir qüvvə sarsıda bilməz. Əminəm ki, Azərbaycan prezidenti İlham Əliyev hörmətli Heydər Əliyevin yolu ilə gedərək, münasibətlərimizin inkişafına yeni töhfələr verəcəkdir.





Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan və onun başçılıq etdiyi nümayəndə heyəti Binə hava limanından prezident Heydər Əliyevlə vidalaşma mərasimi keçirilən Respublika sarayına gəldi.

Qardaş Türkiyə Respublikasının baş naziri adından prezident Heydər Əliyevin cənazəsi önünə əklil qoyuldu. Baş nazir Ərdoğan türk xalqının sədaqətli dostu Heydər Əliyevin cənazəsi qarşısında onun əziz xatirəsinə ehtiramını bildirdi.

Sonra Türkiyə hökumətinin başçısı Azərbaycan prezidenti İlham Əliyevə, onun ailə üzvlərinə Türkiyə hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verdi, onlara və Azərbaycan xalqına Allahdan səbir dilədi.

# DÜNYANIN ƏN NÜFUZLU ŞƏXSLƏRİNİN ÜRƏK SÖZLƏRİ

***Corc BUŞ,***
***ABŞ prezidenti:***

- Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin qorunub saxlanmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının prezidenti:***

- Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur...

O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim. Bu, böyük itkidir.





***Jak ŞİRAK,***
***Fransa prezidenti:***

- Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim.

Arzu edirəm ki, Minsk qrupu həmsədrlərinin dəstəyi ilə onun səyləri davam etdirilsin və uğurla nəticələnsin.

***Gerhard ŞRÖDER,***
***Almaniya Federativ Respublikasının federal kansleri:***

- Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

***Toni BLEYER,***
***Böyük Britaniyanın baş naziri:***

- Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxşılaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

***Dzünitiro KOİDZUMİ,***
***Yaponiyanın baş naziri:***

- Prezident Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasının, ölkənin bugünkü inkişafının təməlini qurmaqla bərabər, regionda sülh və sabitliyin qorunması istiqamətində misilsiz xidmət göstərən əvəzolunmaz bir lider idi.

***Əhməd Necdət SEZƏR,***
***Türkiyə Respublikasının prezidenti:***

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına, ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişaf edərək möhkəmlənməsinə böyük töhfə vermiş Heydər Əliyevin dünyasını dəyişməsi, Azərbaycanda olduğu kimi, Türk ulusunda da dərin kədər yaratmışdır.

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.





# ÖLKƏ MATƏM İÇİNDƏ

**SUMQAYIT**

Bütün Azərbaycan kimi, Sumqayıt da matəm içində idi, küçə və meydanlarda dövlət bayraqları endirilmiş, əyləncə tədbirləri təxirə salınmışdı. Şadlıq sarayları, bir çox mağazalar işləmirdi. Burada fəaliyyət göstərən müstəqil teleşirkət Fəxri xiyabandan matəm mərasimini yayımlayırdı.

Qüssə-kədərə qərq olan yüzlərlə sumqayıtlı bu günlər şəhər icra hakimiyyətinə gəlirdi. Binanın vestibülündə zəmanənin görkəmli dövlət və siyasi xadimi Heydər Əliyevin xatirə guşəsi yaradılmışdı. Xatirə kitabında ürək ağrısı ilə yazılan sözlərdə heyranlıq, qürur, eyni zamanda əvəzsiz itkinin ağrı-acısı ifadə edilirdi. Buraya qoyulan tər gül-çiçək dəstələri, əklillər şəhər sakinlərinin öz ümummilli lideri Heydər Əliyevin müqəddəs xatirəsinə dərin ehtiramının daha bir təsdiqi idi.

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi 30 ildən artıq müddətdə Sumqayıta 16 dəfə gəlmişdi. Şəhərin tarixinin yarısından çoxu onun adı ilə bağlı idi. Əslində sumqayıtlıların əməyi və məhəbbəti ilə ucaldılmış bu şəhər Heydər Əliyev dühasına abidə hesab olunmalıdır. Onun bu sənaye şəhərinin sakinlərinə qayğı və diqqətinin izləri hər yerdə görünürdü. İri kimya, neft kimyası, maşınqayırma, yüngül sənaye müəssisələri, neçə-neçə sosial-mədəni təyinatlı obyektlər, bütöv mikrorayonlar onun Sumqayıtla və sumqayıtlılarla qırılmaz əlaqəsinin əyani təsdiqi idi. Heydər Əliyev onların əksəriyyətinin açılışında şəxsən iştirak etmişdi.

Sumqayıtın bütün təhsil müəssisələrində xatirə dərsləri keçirilir, prezidentin siyasi irsi öyrənilirdi. Sinif otaqlarında qoyulmuş televizorlarda Heydər Əliyevin həyat və fəaliyyəti haqqında filmlər nümayiş etdirilirdi.

Şəhərin məhəllə və mikrorayonlarında ehsanlar verilir, Cümə məscidində isə Heydər Əliyevin ruhuna dualar oxunurdu.

**GÖYÇAY**

Heydər Əliyevin vəfatı ilə əlaqədar Göyçay rayonunda da bir sıra tədbirlər həyata keçirildi. Şəhərin mərkəzində yeni salınmış Heydər Əliyev parkında əbədi liderin böyük portreti qarşısında xatirə guşəsi yaradılmış, ora

televizor qoyulmuşdu. 13 dekabrdan başlayaraq göyçaylılar həmin yerə gələrək Heydər Əliyevə öz məhəbbət və ehtiramlarını bildirirdilər.

15 dekabr vida günü isə səhər saat 9-dan 17-dək on minlərlə göyçaylı Heydər Əliyev parkındakı təşkil olunmuş ünvana gələrək gül-çiçəklə, əklillərlə öz rəhbərlərinə sonsuz məhəbbətlərini ifadə etdilər.

Saat 16.00-da on mindən artıq göyçaylının iştirakı ilə vida mitinqi keçirildi.

Matəm günlərində şəhərdə 6 yerdə hər gün 1200 nəfərə yaxın adama ehsan verildi. Bütün idarə, müəssisə və təşkilatlarda müxtəlif matəm tədbirləri keçirildi, hər yerdə xatirə kitabları təşkil olundu, vətəndaşlar əbədi prezidentimizə olan ürək sözlərini yazırlar. Matəm günündən başlayaraq, hər gün minlərlə göyçaylı Heydər Əliyevin anma yerinə gələrək onu ziyarət etdi, əbədi liderin ruhuna dualar və Quran oxundu.

Şəhərin mərkəzində Heydər Əliyevin adına salınmış parkın yerləşdiyi prospektə onun adının verilməsi, həmin parkda təşkil olunmuş guşədə unudulmaz liderin heykəlinin qoyulması barədə rayon sakinləri tərəfindən çoxsaylı müraciətlər olundu.

**QUBA**

Böyük insanın vəfatı barədə kədərli xəbər Qubaya çatanda insanlar küçələrə axışdı, bir anda rayon icra hakimiyyətinin iclas zalı ağzınacan doldu. Qubanın axundu mərhumun ruhuna dua oxudu. Matəm komissiyası yaradıldı, Xatirə kitabı açıldı. Kitaba yüzlərlə qubalı öz ürək sözlərini yazaraq, Heydər Əliyevə olan hüdudsuz məhəbbətini ifadə etdi.

Quba şəhərində gündə iki dəfə ehsan verildi - günorta Ərdəbil məscidində, axşamlar isə “Sevinc” sarayında. Mağarlar və çadırlar rayonun bütün kəndlərində, o cümlədən dağ yəhudilərinin yaşadığı Qırmızı Qəsəbədə qurulmuşdu. Hər yerdə xalqı ağ günə çıxaran, sərbəst işləyib çörək qazanmaq üçün insanlara gözəl şərait yaradan böyük islahatçı Heydər Əliyevə ehsan verilir, onun ruhuna dua oxunurdu.

Rayonun bütün məktəblərində isə “Heydər Əliyev dərsləri” keçirildi.

Müdrik el atası Heydər Əliyevə Xaçmazda, Qusarda, Dəvəçidə, Siyəzən və Xızıda da tükənməz el məhəbbəti ən parlaq formada ifadə olundu. Hər gün bütün bölgələrdə ehsanlar verildi, dualar oxundu.





**ASTARA**

Dekabrın 15-də Astara rayonunun məsul şəxsləri, ağsaqqallar, veteranlar, dini icmanın nümayəndələri, tələbələr böyük rəhbər Heydər Əliyevin Astaranın mərkəzi meydanında qoyulmuş portreti önünə gəldi, onun əziz xatirəsini sükutla, gül-çiçək dəstələri ilə yad etdilər. Rayonun bütün yaşayış məntəqələrindən adamlar dəstə-dəstə mərkəzi meydana gəlir, rəhbərə öz ehtiram və məhəbbətlərini bildirirdilər.

Astaralı zəhmətkeş Bəsti Əliyeva böyük rəhbər haqqında sevgi və məhəbbətlə danışdı:

- O böyük şəxsiyyətin yoxluğuna heç cür inana bilmirəm. Heydər Əliyev Azərbaycanda inkişafın, yüksəlişin ilhamvericisidir. Bu gün hər bir ailədə onun zəhmətinin nişanələri vardır. Heydər Əliyevin böyük qayğı və mərhəmət bulağından su içənlərdən biri də mən olmuşam. 1982-ci il uyun ayının 30-da cənab Heydər Əliyev ömür-gün yoldaşı Zərifə xanımla birlikdə mənim fəhlə işlədiyim sovxoza gəlmişdi. Həmin gün ulu rəhbərimizlə görüşüb söhbət etmək xoşbəxtliyi mənə də nəsib oldu. Müdrik rəhbərimizin təklifi ilə sənədlərimi BDU-nun hüquq fakültəsinə verib, tələbə adını qazandım. Qrupumuzda oxuyan tələbələrin hamısı mənim kimi kasıb, fəhlə balaları idi. Bizim üçün bu imkanı Heydər Əliyev yaratmışdı. Bu gün ölkəmizdə yaşayan hər bir insan böyük və müdrik rəhbərimizin məhəbbətindən, mərhəmətindən özünə pay götürmüş, doğru və düzgün həyat yolu seçmişdir. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun!

Rayonun tanınmış ziyalısı, fəlsəfə elmləri namizədi Əlihəsən Həmzəyev Bəsti Əliyevanın fikirlərini davam etdirərək dedi:

- Ölkəmizin bütün vətəndaşları kimi, Azərbaycanın ziyalı ordusu da böyük kədər və hüzn içindədir. Heydər Əliyev müəllimlərin müəllimi idi. O, həmişə ziyalıları layiqincə qiymətləndirmişdir. Müəllim əməyinə həmişə yüksək qiymət vermişdir. Bu gün o, aramızda olmasa da, onun nuru, ziyası məmləkətimizi işıqlandırır. Biz bu ziyanın, bu nurun hərarətindən həmişə güc və qüvvət alacağıq.

Qonşu Lənkəran, Masallı, Yardımlı və Lerikdə də Heydər Əliyevin vəfatı on minlərlə insanı sarsıtdı...

## ŞƏKİ

Şəki də Heydər Əliyevə yas saxladı. 2003-cü ilin noyabr ayında Şəkidə olarkən bu şəhərə, şəkililərə həmişə xüsusi məhəbbət bəslədiyini bildirən bu böyük insanın vəfatı xəbəri hamını dərindən sarsıtmışdı.

Turan qəsəbəsində keçirilən matəm toplantısında iştirak edən el ağsaqqalları - Sosialist Əməyi Qəhrəmanı Baba Səmədov, Tehran Vəliyev bu ağır itkidən kədərləndiklərini bildirdilər və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verdilər. Prezident Heydər Əliyev hələ Naxçıvanda Ali Məclisin sədri vəzifəsində işləyərkən onunla görüşməyə müvəffəq olmuş bu el ağsaqqalları dahi rəhbərlə bağlı xatirələrin heç vaxt onların yaddaşından silinməyəcəyini bildirdilər.

Şəkililər müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi qarşısında son borclarını yerinə yetirmək və sonsuz ehtiramlarını bildirmək üçün şəhər icra hakimiyyətində, idarə və müəssisələrdə yaradılmış matəm guşələrinə gələrək, xatirə kitablarına ürək sözlərini yazdılar. Məscidlərdə dualar oxundu. Matəm günlərində bütün təhsil müəssisələrində birinci dərslər "anım dərsləri" oldu.

## BƏRDƏ

Bütün şərəfli ömrünü ölkənin tərəqqisinə həsr etmiş prezident Heydər Əliyevin vəfatı bərdəliləri də sonsuz kədərləndirdi. Xalqın böyük oğlunun xatirəsini yad etmək üçün dekabrın 15-də rayon icra hakimiyyətinin binası qarşısında minlərlə insan toplaşdı. Matəm musiqisi səsləndi. Burada dövlət bayraqları endirilmiş, Heydər Əliyevin böyük portreti qara lentlə haşiyələnmişdi. Ürək sözlərini yazmaq üçün matəm kitabı açılmış, stolun üzərində dahi rəhbərin müxtəlif şəkilləri, onun həyat və fəaliyyətini əks etdirən kitab və broşürlər düzülmüşdü. Bərdəlilərlə yanaşı, rayonda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlər də Heydər Əliyevə hörmət və ehtiramlarını bildirdilər. İctimaiyyətin nümayəndələri dahi şəxsiyyət və böyük insanın parlaq və işıqlı xatirəsini dərin məhəbbətlə yad etdilər. Ağsaqqallar, analar, Böyük Vətən müharibəsinin iştirakçıları, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi veteranları, əlillər, ziyalılar xalqa üz vermiş sonsuz kədərə şərik olduqlarını bildirdilər.





Başsağlığı verməyə gəlmiş ictimaiyyətin nümayəndələri AzərTAc-ın müxbirləri ilə öz kədərlərini bölüşdülər. Rayon Müharibə Veteranları Şurasının sədri, el ağsaqqalı Muxtar Kərimov dedi: "Dünyaşöhrətli siyasətçi, xalqımızın müdrik oğlu Heydər Əliyev bizim keçmişimiz, bu günümüz və gələcəyimizdir. O, müxtəlif vaxtlarda rayonumuzda 14 dəfə olmuşdur. Cənab Heydər Əliyev bərdəlilərin yaxın dostu, məsləhətçisi idi. Rayonumuzdakı irimiqyaslı quruculuq işləri məhz onun adı ilə bağlıdır. Onun vəfatı bütün türk dünyasının itkisidir. Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri daim xatırlanacaqdır. Biz onun müqəddəs ruhu qarşısında ehtiramla baş əyirik. Allah ona rəhmət eləsin, məzarı nurla dolsun".

Rayonun bütün kəndlərində, YAP rayon təşkilatında, idarə və müəssisələrdə, fabrik və zavodlarda, məktəblərdə, mədəni-maarif ocaqlarında, səhiyyə müəssisələrində də matəm mərasimləri keçirilir, ehsanlar verilir, mərhumun ruhuna dualar oxunurdu. Hər yerdə qara lentlərlə haşiyələnmiş guşələr yaradılmışdı və burada görkəmli siyasi xadimin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər və sənədlər nümayiş olundu. Rayonun bütün ümumtəhsil məktəblərində görkəmli dövlət xadiminə həsr olunmuş dərslər keçirilirdi.

* * *

Azərbaycan xalqına baş vermiş ağır itki, prezident Heydər Əliyevin vəfatı Ağcabədi, Tərtər, Laçın, Beyləqan rayonları ictimaiyyətinin böyük kədərinə səbəb oldu. Həmin rayonların bütün yaşayış məntəqələrində matəm mərasimləri keçirilir, ehsanlar verilir, dualar oxunur, adamlar böyük şəxsiyyət, dahi insan, xalqın müdrik oğlu Heydər Əliyevə sonsuz məhəbbət və ehtiramlarını bildirirdilər.

## SABİRABAD

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfat etməsi xəbərini Sabirabad rayonunun əhalisi kədər və hüzn hissi ilə qarşıladı. Matəmin birinci günü səhər ertədən insanlar axın-axın Heydər Əliyevin böyük portreti asılmış guşəyə gələrək başsağlığı verməyə başladılar. Ağsaqqallar, ağbirçək analar ağlayırdılar. Göz yaşlarını saxlaya bilməyən prezident təqaüdçüsü Zəminə Aslanova dedi:

- O böyük dahi insanın bir dünyası var idi - Azərbaycan! Bir amalı var idi - Azərbaycan! Bir dərdi var idi - Azərbaycan! Heydər Əliyev ölməzdir, həmişəyaşardır. Bu gün onun varlığının təcəssümü cənab İlham Əliyevdir. Heydər Əliyev dühasının işığında, prezident İlham Əliyevin rəhbərliyi altında xoşbəxt gələcək naminə hələ çox iş görəcəyik.

Rayon Müharibə Veteranları Şurasının sədri Zülfəli Əliyev xatirə kitabına yazdı: "Əziz Heydər Əliyevin ruhu qarşısında baş əyirik. O, əbədi bizimlədir".

Rayonun bütün kəndlərində camaat öz dahi rəhbəri ilə vida mərasimləri keçirdi. Onlar Heydər Əliyev guşəsinə tər gül-çiçəklər düzdülər, qəlblərinin dərinliklərindən gələn ürək sözlərini xatirə kitablarına yazdılar.

**CƏLİLABAD**

Cəlilabad rayonundakı Privolnı kəndinin sakini, prezident təqaüdçüsü, Sosialist Əməyi Qəhrəmanı Nüsrət Məmmədov AzərTAc-ın müxbirlərinə dedi:

- Yaşadığımız bu günlər bizim hər birimiz üçün ağır və kədərli günlərdir. Azərbaycan xalqına üz vermiş bu böyük itki mənim üçün xüsusilə ağırdır. Çünki mən ümummilli liderimiz, respublikamıza 34 il rəhbərlik etmiş möhtərəm Heydər Əliyevi şəxsən tanıyan, onunla görüşüb söhbət edən, müdrik kəlamlarını, ağıllı məsləhətlərini dinləyən yüzlərlə, minlərlə sadə zəhmət adamlarından biriyəm. O, çox böyük şəxsiyyət, uzaqgörən siyasətçi, xalqımızın vətənpərvər, cəsarətli oğlu idi. 1979, 1980, 1981-ci illər xatirimdən heç vaxt silinməyəcəkdir. Həmin illərdə cənab Heydər Əliyevlə 3 dəfə görüşmək şərəfi mənə nəsib olmuşdur. Bu görüşlər zamanı mənə ən çox təsir bağışlayan onun sadəliyi, səmimiliyi, zəhmət adamlarına, onların qayğılarına həssaslıqla yanaşması, hər kəsi səbirlə dinləməyi bacarması, ağıllı məsləhətlər verməsi idi. Həmin görüşlər indi də gözümün önündən kino lenti kimi gəlib keçir. Doğrudan da, onun həyatdan getməsinə inanmaq olmur. Onun vəfat etdiyini deməyə dilim gəlmir. Nə etmək olar. Allahdan xalqımıza səbir diləyirəm. Mən onun əziz xatirəsi qarşısında böyük ehtiramla baş əyirəm, Ulu Tanrıdan ona rəhmət diləyirəm.

**QƏBƏLƏ**

Qəbələ rayon ictimaiyyəti, təhsil işçiləri, ziyalılar, gənclər həmin hüznlü günləri bütün xalqla bir yerdə yaşadılar.





Rayonun hər yerində matəm mərasimləri keçirildi. Məscidlərdə ehsanlar verildi, Quran oxundu.

Dekabrın 15-də 50 nəfərə yaxın qəbələli Bakıya gəldi, prezident Heydər Əliyevin son mənzilə yola salınması mərasimində iştirak etdi.

Rayon icra hakimiyyətinin, idarə və müəssisələrin foyesində prezident Heydər Əliyevin qara haşiyəyə alınmış portreti qoyuldu, xatirə kitabları açıldı. Xatirə kitablarına ürək sözlərini yazan rayon əhalisi dahi insanın əziz xatirəsini və ideyalarını daim yaşadacaqlarına söz verdiklərini qeyd etdilər.

**QAX**

Bütün Qafqazda sülhün, sabitliyin, əmin-amanlığın təminatçısı Heydər Əliyevin vəfatı xəbəri Qaxda yaşayan azsaylı xalqların nümayəndələrini də dərindən kədərləndirdi. Əsrlərdən bəri birlikdə yaşayan, dostluq edən, sevinclərini, kədərlərini bir yerdə bölüşən ləzgilər, saxurlar, ingiloylar, ruslar və başqaları bu kədərli günlərdə Azərbaycan xalqının dərdinə şərik çıxdıqlarını bildirdilər.

Rayonun ağsaqqal ziyalılarından olan saxurlar Həbibullah Hacıyev, Bədrəddin Muradov, rus Qalina Şəfiyeva, ingiloylar Masiko Babacanaşvili, Tamara Patxataşvili və başqaları müdrik insana olan sevgi və ehtiramlarını bildirmək üçün rayon icra hakimiyyətinə gələrək, xatirə kitabına öz kədərlərini, ürək sözlərini qeyd etdilər. Öz ürək sözlərində onlar qonşu ölkələr və xalqlar arasında mehriban dostluq və iqtisadi-mədəni əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük xidmətlər göstərmiş Heydər Əliyevin ideya və arzularının həyata keçirilməsi işində Azərbaycan xalqına və onun gənc lideri İlham Əliyevə daim arxa duracaqlarını, kömək göstərəcəklərini xüsusi olaraq vurğuladılar.

Dekabrın 15-dən etibarən şəhərin müxtəlif meydanlarında, kəndlərdə Heydər Əliyevin nurlu xatirəsinə ehsanlar verildi, məscidlərdə dualar oxundu.

* * *

Heydər Əliyevin vəfatı Azərbaycanın qərb bölgələrində — Gəncə, Qazax, Şəmkir, Tovuz, Gədəbəydə də böyük hüzn və kədərə səbəb oldu. Bütün yaşayış məntəqələrində matəm mərasimləri keçirildi. Ehsanlar verildi, dualar oxundu.

Bu matəmli günlər 40 gün davam etdi.

**BALAKƏN**

Ümummilli lider Heydər Əliyevin xatirəsi Balakən rayonunda böyük ehtiramla yad edildi. Həmin ağrılı və kədərli günlərdə minlərlə insan rayon icra hakimiyyətində və YAP-ın rayon təşkilatında yaradılmış matəm guşəsinə gələrək, prezidentin portreti önünə gül-çiçək dəstələri qoydu. Müdrik rəhbərin 34 il Azərbaycana rəhbərlik etdiyi müddət ərzində qayğı göstərdiyi yüzlərlə insan xatirə kitabına öz ürək sözlərini yazdı.

Bütün təhsil müəssisələrində "Heydər Əliyevin şərəfli ömür yolu" mövzusunda dərslər keçirildi. Rayon mərkəzində və bütün kəndlərdə ehsanlar verildi, məscidlərdə dahi rəhbərin ruhuna dualar oxundu.

Heydər Əliyev itkisinin acısını yaşayan və ağır kədərdən hələ ayrılmayan balakənlilər öz ürək sözlərini "Azərbaycan" qəzetinin müxbirləri ilə bölüşdülər:

**Səriyyə Dibirova, əmək veteranı, prezident təqaüdçüsü:**

- Vətənimiz Azərbaycanın bu günlərdə keçirdiyi ümumxalq kədəri sonsuzdur. Heydər Əliyevi yaxından tanıyan, işdə onunla ünsiyyətdə olanlar bu itkinin acısını daha çox hiss edirlər. O, həm çox tələbkar, həm də son dərəcə həssas, diqqətli, qayğıkeş, humanist bir rəhbər idi. Onun xalqın istəyi ilə hakimiyyətə yenidən qayıdışından sonrakı dövrü - müstəqil Azərbaycan dövlətinin yaradılması, onun möhkəmləndirilməsi, dünyada tanıdılması üçün gördüyü işlər indiki nəslin gözü qarşısındadır. Ümumiyyətlə, Heydər Əliyev məktəbindən dərs almaq, onun rəhbərliyi altında işləmək böyük şərəf idi. Bu şərəfə nail olanlardan biri kimi mən də bu gün onun ruhu qarşısında baş əyirəm. Onun parlaq xatirəsi əbədi yaşayacaq.

**İSMAYILLI**

İsmayıllılılar türk dünyasının böyük oğluna yüksək ehtiram göstərdilər. Rayon mərkəzindəki meydanın baş tərəfində Heydər Əliyevin portreti qoyulmuşdu. İnsanlar əllərində əklillər, gül dəstələri portretin önündən keçir, əbədiyyətə qovuşan Heydər Əliyevin ruhu qarşısında baş əyirdilər. Müxtəlif təşkilatlar, məscidlər, rayon icra hakimiyyəti, Yeni Azərbaycan Partiyasının rayon təşkilatı, el ağsaqqalları, ayrı-ayrı adamlar ehsanlar verirdilər. Ehtiyacı daha çox olan sakinlərin evlərinə ehsan göndərilirdi.





Hər bir təşkilatda, məktəbdə, kənd icra nümayəndəliklərində matəm guşələri yaradılıb, xatirə kitabları açılmışdı. Az qala hər bir ismayıllılı öz ürək yanğısını xatirə kitabına köçürürdü.

Vaxtilə Heydər Əliyevlə şəxsən görüşüb onun məsləhətlərini dinləyənlər və əlinin hərarətini duyanlar bir yerə toplaşmışdılar. Xasay Xıdırov, Gülüstan Həsənova, Təşkilat Əzizov, Hüseyn Səfərov, Elmira Əliyeva, Alıcan Süleymanov, Gözəl Osmanova və başqaları bildirdilər ki, Heydər Əliyev İsmayıllıya, onun əhalisinə, təbiətinə böyük dəyər verirdi, qabaqcıl əməkçiləri adla tanıyırdı. Qayğısından onların hər birinə pay düşürdü. 1981-ci il dekabrın 5-də zəlzələdən sonra hörmətli Heydər Əliyevin İsmayıllıya gəlişi xalqa dayaq oldu. Bu gəliş yeni qəsəbələr salınması, zavodlar, məktəblər, mədəniyyət ocaqları tikilməsi ilə nəticələndi. Heydər Əliyevin qayğısı sayəsində İsmayıllı yenidən quruldu, yüksəldi, abadlaşdı, ucaldı. Bu gəliş hər bir rayon sakininə yaşamaq, yaratmaq həvəsi bəxş etdi.

**AĞDAM**

Ağdamın Ayaq Qərvənd kəndində böyük bir ərazidə yüz əlliyədək evdən ibarət məcburi köçkünlər şəhərciyi yerləşir. Rahat və hər cür şəraitlə təmin olunmuş bu evləri yerindən, yurdundan didərgin düşərək çadırlarda əziyyət çəkən insanlar üçün prezident Heydər Əliyev tikdirmişdi.

Dekabrın 12-də qara xəbəri eşidən kimi ağsaqqallardan tutmuş, ayağı yer tutan uşaqlara qədər hamı yola çıxdı. Səhərəcən yatmadılar. Bu, ümummilli liderə böyük ehtiram idi.

"Azərbaycan" qəzetinin müxbirlərinin verdiyi xəbərə görə dekabrın 13-də səhərdən başlayaraq qadınlar evlərin birində yas mərasiminə toplaşdı, kişilər isə şəhərciyin bir neçə yerində çadır qurmağa başladılar. Xalçadan, palazdan, stuldan qab-qacağa qədər, kimin evində nə varsa, hamı çadırlara daşıdı. Qız-gəlinlər göz yaşları içərisində ağılar söylədilər.

Ağdamın Çullu kəndindən olan Suğra xala adlı ağbirçək qadın dedi ki, mən onu həyatda bir dəfə görmüşəm, Ağdamda pambıq ustalarına orden və medallar təqdim edirdi. Ona heç ölüm yaraşmır, torpaq necə qıyıb, bağrına basacaq onu. Ağsaqqal Soltan kişi əlavə etdi: "Axşam düşəndə 3-4 kilometrlikdə ermənilər işıqlar yandırır, aramızdakı məsafə 10-15 dəqiqəlikdi. Amma hamımız Heydər Əliyevə arxalanıb, oturmuşduq burada. Ümid edir-

dik ki, Heydər Əliyev elə iş görəcək ki, bir gün orada ermənilərin yerinə özümüz işıq yandıracağıq".

Axşamüstü çadırda televizor quraşdırıldı. Adamlar sözün əsl mənasında sonsuz kədər və hüznlə böyük insan Heydər Əliyevin nəşinin qarşılanma mərasimini gözləyirdi. Bayırda isə cavanlar samovar qaynadır, çay paylayırdılar. Hamı bir-birinə başsağlığı verirdi. Şər qarışıb, qaranlıq düşsə də, nədənsə heç kəs axşam yeməyi üçün, işini, gücünü görmək üçün evinə tələsmirdi. Kədər insanları birləşdirmişdi.

- Hər birimizin qayğısına qalırdı, pambıqçı da, üzümçü də, həkim də, varlı-kasıb da onun üçün bir idi. Heç kəsə fərq qoymazdı. Qaçqın düşərgələrinə gələndə ən kasıbın-köməksizin daxmasının qapısını döyərdi, əl tutardı, dərdimizi dinləyərdi. Elə mehriban, gülərüz danışardı ki, elə bil dərdimizə dərman qoyurdu, - bu sözləri isə Bəsti adlı ağbirçək qadın dedi.

Dekabrın 15-də səhər açılanda bütün evlərin damından qara lentlər asılmışdı. Hamı dəstə-dəstə Quzanlıdakı məscidə doğru irəliləyirdi. Azərbaycanın böyük oğlu Heydər Əliyevə ehtiramlarını bildirmək istəyirdi.

**MİNGƏÇEVİR**

Mingəçevirin tikilməsi, qurulması ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Burada ucaldılmış hər binada, hər məktəbdə, hər mədəniyyət evində, səhiyyə ocağında, hər zavodda, hər fabrikdə Heydər Əliyevin silinməz izləri vardır.

Qara xəbəri eşidən kimi şəhər sakinləri axın-axın icra hakimiyyəti binasına, burada yaradılan xatirə guşəsinə ümummilli liderlə vidalaşmağa gəldilər. Sadə əmək adamları burada qoyulmuş xatirə kitabına səmimi ürək sözlərini göz yaşları içində yazırlar.

**YEVLAX**

Xəbər gələn andan şəhərin baş meydanı insanlarla dolub-boşalırdı. Bu hüznlü anlarda Yevlax Şəhər İcra Hakimiyyətinin binasında xatirə guşəsi düzəldilmişdi. Heydər Əliyevin qara haşiyəyə alınmış əzəmətli portretinin üst tərəfinə "Heydər Əliyev yaşamış, yaşayır və yaşayacaqdır" sözləri yazılmışdı.





Rəhbərin portreti önünə təzə, tər gül-çiçək və qərənfillər düzülmüşdü. Qara örtük çəkilmiş stolun üstünə xatirə kitabı qoyulmuşdu.

Sosialist Əməyi Qəhrəmanı, prezident təqaüdçüsü Şamama Həsənova kədərini "Azərbaycan" qəzetinin əməkdaşları ilə bölüşdü:

- Heydər Əliyev kimi şəxsiyyətlər fiziki cəhətdən dünyadan gedə bilərlər. Lakin o, öz əməlləri ilə bəşəriyyət durduqca yaşayacaq, and yerimiz, iman yerimiz olacaq. Bu xəbəri eşidəndən özümə gələ bilmirəm. Onunla görüşlərim bir-bir gözümün qarşısından keçir. Moskvada qurultaylar sarayında dediyi - "Şamama, görürsənmi, səni hara gətirmişəm?" sözlərini sanki indi deyir mənə. Demək istəyirəm ki, əziz lider, Siz tək məni yox, minləri, milyonları irəli aparmısınız.

Müharibə və əmək veteranı, respublikanın qabaqcıl maarif xadimi Nazxanım Səfərova öz ailə üzvləri ilə birlikdə xatirə guşəsinə yaxınlaşarkən göz yaşlarını saxlaya bilmədi, hıçqıra-hıçqıra: - Heydər Əliyevin yoxluğu ilə barışa bilmirik - dedi.

Yevlaxda məskunlaşan ağdamlı məcburi köçkün Məhəmməd Cabbarov, kəlbəcərli didərgin Qəzənfər Musayev, məcburi köçkün soydaşları adından "Başın sağ olsun, Vətən, başın sağ olsun, xalqım" - dedilər.

Xalq müəllimi, prezident təqaüdçüsü, Xaldan kənd orta məktəbinin direktoru Zahid Şöyübov xatirə kitabına "Heydər Əliyevin əziz və müqəddəs xatirəsi Azərbaycan xalqının, bizim hər birimizin qəlbində əbədi məskən salacaq, onun ideyaları uzun əsrlər yaşayacaq, xalqımızın tarixinə qızıl hərflərlə yazılacaqdır" sözlərini yazdı.

Qara qumaş parça fonunda Heydər Əliyevin portreti canlı görünürdü. Portretin ətrafına qoyulmuş saysız-hesabsız əklillər, gül-çiçək dəstələri, yandırılmış şamlar, səsləndirilən rekviyem, ana və bacıların həzin ağıları matəm hüznünü daha da artırırdı.

Yerli əhalinin istəyi və iradəsi ilə əbədi prezidentimizin yas mərasimini dini adətlərə uyğun təşkil etmək üçün baş meydanda eyni vaxtda 1000 nəfəri qəbul edəcək mağar qurulmuşdu. Matəm günlərində burada ehsan verilir, dini ayinlər həyata keçirilir, prezidentin ruhuna dualar oxunurdu.

## BİR ÖLÜMÜN ƏKS-SƏDASI

Təbii ki, Heydər Əliyevin vəfat etməsi xəbəri Azərbaycanın çərçivəsindən çıxdı, tezliklə bütün dünyaya yayıldı. Matəm mərasimləri quruldu, başsağlıqları verildi, onun xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Xarici KİV-in ən başlıca mövzularından biri dünya miqyaslı siyasətçi Heydər Əliyevin dünyadan getməsi oldu.

Həmin hüznlü günlərdə Heydər Əliyevi yaxından tanıyan dünyanın ən görkəmli siyasətçiləri və dövlət xadimləri bu qara xəbərdən sarsıldıqlarını birdirdilər...

### AVROPA ŞURASI HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD ETDİ

Avropa Şurası Nazirlər Komitəsinin dekabrın 17-də keçirilmiş növbəti iclasında Nazirlər Komitəsinin sədri - Niderlandın daimi nümayəndəsi Y. Landman Komitə adından çıxış edərək, Azərbaycanın ümummilli lideri prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına səmimi başsağlığı verdi. O, prezident Heydər Əliyevi görkəmli şəxsiyyət kimi səciyyələndirərək, bu dahi insanın rəhbərliyi altında Azərbaycanda sabitliyin bərqərar edildiyini, Azərbaycanın Avropa ailəsinə, xüsusən, Avropa Şurasına daxil olmasında xüsusi sözlər və xidmətlər göstərdiyini vurğuladı və xalqın kədərinə şərik olduğunu bildirdi.

Nazirlər Komitəsinin "Aqo" monitorinq qrupu adından çıxış edən İtaliyanın daimi nümayəndəsi P. Aqo Azərbaycan tərəfinə səmimi kədər hissini çatdırdı. O, Azərbaycana səfərləri çərçivəsində prezident Heydər Əliyevlə görüşlərinin xoş xatirəsini yada saldı, ölkənin demokratiya yolunda qazandığı uğurlarda bu şəxsiyyətin ümdə rolunu yüksək qiymətləndirdi.

Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyev ağır itki ilə bağlı Azərbaycan xalqının kədərinə şərik olduqlarına görə natiqlərə minnətdarlıq etdi, xalqın dahi rəhbəri haqqında söylədikləri xoş sözləri yüksək qiymətləndirdi.





Elə həmin gün Londondan səfərdən qayıdan Avropa Şurasının baş katibi Valter Şvimmer Azərbaycanın daimi nümayəndəliyinə gələrək, matəm kitabına prezident Heydər Əliyevin vəfatı ilə bağlı Azərbaycan xalqına səmimi başsağlığı sözləri yazdı.

### AZƏRBAYCANIN ABŞ-dakı SƏFİRLİYİNƏ VƏ BMT-dəki DAİMİ NÜMAYƏNDƏLİYİNƏ GƏLƏNLƏRİN ARDI-ARASI KƏSİLMİRDİ

Beynəlxalq aləmdə ən parlaq liderlərdən biri kimi tanınan Heydər Əliyevlə vidalaşmaq üçün müxtəlif dövlətlərin yüksək rütbəli təmsilçiləri, ABŞ-ın dövlət strukturlarının nümayəndələri və Azərbaycan diasporunun üzvləri Vaşinqtondakı Azərbaycan səfirliyinə gələrək Matəm kitabına kədərli ürək sözlərini yazdılar.

Nyu-Yorkda BMT Baş Məclisinin geniş iclasına sədrlik edən Hulian Hante gündəlikdəki məsələlərin müzakirəsinə keçməzdən əvvəl Baş Məclisin bütün üzvləri adından prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə bağlı Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verdi.

Səmimi sözlərinə görə sədrə təşəkkürünü bildirən Azərbaycanın BMT-dəki daimi nümayəndəsi səfir Yaşar Əliyev dedi ki, böyük dövlət xadimi, xalqının ümummilli lideri olan prezident Heydər Əliyevin vəfatı azərbaycanlılar üçün ağır itkidir. Azərbaycan bütün həyatını xalqına və ölkəsinə xidmətə, dünyanın bütün millətləri arasında sülh və anlaşmanın möhkəmlənməsinə həsr edən görkəmli oğlunu itirmişdir.

ABŞ dövlət katibinin birinci müavini Riçard Armitac Azərbaycanın Vaşinqtondakı səfirliyinə gələrək prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı verdi. O, Matəm kitabına ürək sözlərini yazdıqdan sonra AzərTAc-ın müxbirinə dedi:

- Dövlət katibi Kolin Pauell və ABŞ Dövlət Departamentindəki bütün həmkarlarım bu gün mənə qoşularaq Heydər Əliyevin ailəsinə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirlər. Bizim üçün o, həyatın özündən böyük bir insan idi. Məncə, dünya onun yoxluğundan bir qədər balacalaşmışdır. Biz Tanrının rəhmli və xeyirxah olduğuna inanırıq. Əminik ki, o, sonsuzadək Heydər Əliyevə rəhmli olacaqdır. Bilirik ki, millətiniz Heydər Əliyevin oğlu İlham Əliyevin rəhbərliyi altında bu ağır itkiyə tab gətirə biləcəkdir. Mənim xalqım Sizi tamamilə dəstəkləyəcəkdir.

***

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti Azərbaycan Respublikasının ümummilli lideri, prezident Heydər Əliyevin vəfatı ilə bağlı Azərbaycan xalqına başsağılığı göndərdi.

ABŞ prezidentinin mətbuat katibi Riçard Bauçerin bəyanatında deyilir ki, prezident Heydər Əliyev dekabrın 12-də səhər Ohayo ştatının Klivlend klinikasında vəfat etmişdir. Bununla bağlı Birləşmiş Ştatlar prezident İlham Əliyevə, onun ailəsinə, Azərbaycan hökumətinə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir.

**RUSİYA**

Prezident Heydər Əliyevin vəfatı haqqında kədərli xəbər Rusiyanın bütün aparıcı kütləvi informasiya vasitələrinin əsas mövzusuna çevrildi.

Rusiyanın ORT, RTR, NTV, TVS telekanalları xəbərlər proqramlarında hamı üçün hüznlü hadisə barədə məlumat verdi və Rusiya prezidenti Vladimir Putinin başsağlığı teleqramını oxudu.

Rusiyanın teleşirkətlərinin şərhçiləri vurğuladılar ki, Heydər Əliyevin vəfatı ilə bütöv bir dövr - böyük işlər və xariqələr dövrü də tarixə qovuşdu. Bildirdilər ki, Azərbaycanın ən yeni tarixinin əsas taleyüklü hadisələri - ölkənin sabitliyi və tərəqqisi mərhum prezident Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev görkəmli dövlət xadimi, bütün dünyanın adlı-sanlı siyasətçiləri arasında danılmaz nüfuzu olmuş beynəlxalq səviyyəli siyasətçi adlandırıldı. Onun Moskvada, ali dövlət hakimiyyəti orqanlarında fəaliyyəti xüsusi nəzərə çarpdırıldı.

Rusiyanın internet-qəzetləri və saytları da Azərbaycanın ümummilli liderinin vəfatı mövzusunu geniş müzakirə edir, Heydər Əliyevin həyatdan getməsinin Azərbaycan üçün böyük itki olduğunu bildirir və dərin hüznlə başsağlığı verirdilər. İnternet-saytlarda MDB dövlətlərinin və digər aparıcı dövlətlərin başçılarının verdikləri başsağlığıları da yerləşdirilmişdi.

* * *

Artıq dekabrın 13-də gecə Azərbaycanın Moskvadakı səfirliyinə rusiyalılardan və Rusiyada yaşayan azərbaycanlılardan telefon zəngləri daxil olmağa başlamışdı. Ölkənin dövlət qurumlarının nümayəndələri, siyasətçilər,





hökumət və qeyri-hökumət təşkilatlarının əməkdaşları, ayrı-ayrı vətəndaşlar səfirliyə zəng edərək, dərin hüznlə başsağlığı verir və Azərbaycan xalqı ilə birgə ürəkdən kədərləndiklərini bildirir, eyni zamanda xüsusi vurğulayırdılar ki, “sabiq prezident Heydər Əliyevin vəfatı əvəzsiz itkidir, millətin atası həyatdan getmişdir”. Başsağlığı vermək üçün Ümumrusiya Azərbaycan Konqresinə də bütün gecə səhərədək zənglər daxil olurdu, insanlar Azərbaycan xalqının əvəzedilməz liderinin xatirəsini yad etmək üçün buraya axışıb gəlirdilər.

Bu kədərli hadisə ilə əlaqədar səfirlikdə Azərbaycanın Dövlət bayrağı endirilmişdi.

...Matəm mərasimində iştirak etmək, Azərbaycanın və bütün dünyanın tarixində təkrarsız iz buraxmış böyük insanın xatirəsini anmaq üçün ertəsi gün səhər tezdən insanlar səfirliyə axışmışdılar.

* * *

Moskva vilayətinin qubernatoru Boris Qromov da görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar kədərini bildirmək üçün səfirliyə gəlmişdi. O, fikirlərini AzərTAc-ın müxbiri ilə bölüşərək dedi ki, Heydər Əliyevlə çoxdan, özü də yaxşı tanış idi: “Bakıda onunla tez-tez görüşmüşəm və bu insan şəxsən mənim üçün çox əzizdir, mənim və ailəmin həyatında onun çox böyük rolu olmuşdur. Heydər Əliyeviç Sovet İttifaqında da, bu böyük ölkə dağıldıqdan sonra da bir çoxları arasında xüsusi həyat mövqeyi ilə hər cəhətdən seçilmişdir. Mən Naxçıvana onun yanına getmişdim. Heydər Əliyeviç üçün çox çətin olan həmin vaxtlarda biz hamımız onu dəstəkləyirdik. Mən şadam ki, həyatımda belə bir insanla tanış olmuşam, bu isə gəlişigözəl sözlər deyildir. Bizim oxşar cəhətlərimiz çox idi və deyə bilərəm ki, o, mənim üçün böyük qardaş, ata, dost idi. Mən öz hisslərimi ifadə etməyə söz tapmıram. Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm, biz hamımız çox kədərlənmişik, bu, əvəzsiz itkidir”.

* * *

Heydər Əliyevlə sovet dövründə birlikdə işləmiş Rusiyanın müdafiə naziri Sergey İvanov Azərbaycanın Moskvadakı səfirliyinə gələrək, bu böyük şəxsiyyətin nurlu xatirəsini yad etdi.

Nazir əklil qoyduqdan və xatirə kitabına ürək sözlərini yazdıqdan sonra vurğuladı ki, Azərbaycan xalqı ilə birgə Rusiyada da, xüsusilə Heydər Əliyevi yaxından tanıyanlar kədər içindədirlər. S. İvanov dedi: "Təhlükəsizlik Şurasının katibi və müdafiə naziri işləyərkən mənə onunla bir neçə dəfə görüşmək şərəfi nəsib olubdur. Axı, mən bir vaxtlar onun tabeliyində, SSRİ DTK-da gənc əməliyyat işçisi idim, o isə DTK generalı idi. İndi ən səmimi, dərin hüzn dolu başsağlığı sözlərini yazarkən, bir neçə il bundan əvvəl Bakıda Heydər Əliyeviçlə birlikdə keçmişi xatırlamağımız yadıma düşdü. Mən çox təəssüflənirəm ki, Azərbaycanın çətin günlərində bu ölkəyə yenidən rəhbərlik edən və onu inamla gələcəyə aparan belə müdrik və zəkalı insan həyatdan getmişdir".

**TÜRKİYƏ**

Yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanənin böyük siyasi xadimi Heydər Əliyevin vəfatı barədə xəbər Türkiyədə dərin hüzn, qəm və kədərlə qarşılanmışdı. Türkiyənin "TRT", "NTV, "Si-en-entürk", "Xəbər-türk", "TGRT", "Samanyolu TV", "Kanal D" televiziyaları verilişlərini yarıda kəsərək, acı xəbəri tamaşaçılara çatdırmışdı.

Dekabrın 13-də Türkiyənin nüfuzlu və yüksək tirajlı "Hürriyyət", "Milliyyət", "Axşam", "Zaman", "Radikal", "Cümhuriyyət", "Türkiyə", "Yeni Şərq", "Tərcüman", "Posta", "Sabah", "Vətən", "Yeni Çağ" qəzetləri baş səhifələrində Heydər Əliyevin şəkillərini dərc edərək, "O, bir əfsanə idi" "Əfsanə lider vəfat etdi", "Heydər Əliyevi itirdik", "Azərbaycanda yas", "Türk dünyası liderini itirdi", "Heydər baba vəfat etdi" sərlövhəli xəbər və məqalələrə geniş yer ayırmışdı.

Türkiyə jurnalistləri Azərbaycanın sabiq prezidenti Heydər Əliyevin dolğun və zəngin həyatı, şanlı siyasət yolu haqqında ətraflı məlumat verərək, onun vəfatı barədə xəbərin bütün türk dünyasını dərindən sarsıtdığını vurğulamışlar. Onlar Azərbaycan xalqının kədərini bölüşür, Heydər Əliyevin hər zaman türklərin qəlbində yaşayacaq əfsanə olduğunu bildirirdilər.





* * *

Türkiyənin ali məktəblərinin azərbaycanlı məzunları da sonsuz kədər içində idilər. Türkiyə Universitetlərinin Məzunları İctimai Birliyindən AzərTAc-a daxil olmuş teleqramda deyilirdi:

- Türkiyə Respublikasında təhsil almış azərbaycanlı məzunlar liderimiz, Azərbaycan Respublikasının eks-prezidenti, görkəmli dövlət xadimi, türk dünyasının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatından kədərləndiyini bildirir və xalqımıza, bütün Türk dünyasına dərin hüznlə başsağlığı verirlər.

**UKRAYNA**

Azərbaycanın Ukraynadakı səfirliyi matəm içində idi. Azərbaycanın Dövlət bayrağı endirilmiş, xalqın ümummilli lideri, Heydər Əliyevin portreti qara haşiyəyə alınmış, xüsusi olaraq ayrılan otaqda masanın üstünə matəm kitabı və Ukraynada akkreditə olunmuş diplomatik korpusun vizit vərəqələri üçün qutu qoyulmuşdu.

Heydər Əliyevin vəfatı barədə ələmli və kədərli xəbər gələn kimi, təkcə Ukraynada deyil, səfirliyin akkreditə olunduğu Belarus və Moldovada da yaşayan azərbaycanlılar Azərbaycanın diplomatik nümayəndəliyinə ardı-arası kəsilmədən zəng vururdular. Gecədən xeyli keçənədək azərbaycanlılar və ukraynalılar səfirliyə gəlir və əvəzsiz itki ilə əlaqədar dərin hüznlə, səmimiyyətlə başsağlığı verirdilər. Hamının gözləri qüssə-kədərlə dolmuşdu.

* * *

AzərTAc-ın Kiyevdəki xüsusi müxbiri Ukraynanın əməkdar artisti, vokal sənəti üzrə bir çox beynəlxalq müsabiqələrin laureatı, Ukrayna Sərhəd Qoşunları Ansamblının solisti, Ukrayna Azərbaycanlıları Konqresinin "Azərbaycan" rəqs-xoreoqrafiya ansamblının bədii rəhbəri Qurban Abbasovdan qısa müsahibə aldı. O, Azərbaycan millətinin lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar öz kədərini ifadə etmək üçün Kiyevdəki səfirliyinə gəlmişdi.

Q. Abbasov dedi:

- Siyasət aləmində pərəstiş etdiyim, taleyimdə həlledici rol oynamış bir insanın - Heydər Əliyevin vəfatı barədə kədərli xəbər məni sarsıtdı. Mən əslən Novxanı kəndindənəm. Heydər Əliyevin istedadlı gənclərin başqa şəhərlərə təhsil almağa göndərilməsi kimi müdrik siyasəti sayəsində mən

1976-cı ildə göndərişlə P. Çaykovski adına Kiyev Konservatoriyasının vokal şöbəsinə qəbul edildim, onu bitirib peşəkar musiqiçi oldum. Mən istedadlı gənclərə, Azərbaycan mədəniyyətinin və incəsənətinin çiçəklənməsinə daim kömək etmiş böyük şəxsiyyət qarşısında həmişə borcluyam. Allah rəhmət eləsin!

* * *

Ukrayna xalqının böyük dostu prezident Heydər Əliyevin vəfatı bu ölkənin kütləvi informasiya vasitələrinin diqqət mərkəzində oldu. Elektron mətbuat, radio və televiziya dünyamiqyaslı siyasi xadim Heydər Əliyevin həyatı və fəaliyyəti haqqında öz oxucularına və dinləyicilərinə geniş informasiyalar verdi.

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev dekabrın 13-də H. Əliyevin vəfatı ilə əlaqədar nüfuzlu və populyar İCTV televiziyasına məxsusi müsahibə verdi.

**BELARUS**

Dekabrın 13-də Belarus Respublikasının televiziya və radiosunun bütün informasiya buraxılışları görkəmli siyasətçi və böyük dövlət xadimi Heydər Əliyevin vəfatı barədə xəbərlərlə başlandı. Bu xəbərlərdə Azərbaycan xalqının dahi oğlunun dünyasını dəyişməsi ilə bağlı kədər hissi ifadə olunurdu.

Belarus dövlət başçısının mətbuat katibi bildirdi ki, prezident Aleksandr Lukaşenko Azərbaycan prezidenti İlham Əliyevə və ailəsinə, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib.

**GÜRCÜSTAN**

"Heydər Əliyev Gürcüstanın və gürcü xalqının sadiq və qayğıkeş dostu idi". Bu sözləri Gürcüstan prezidentinin səlahiyyətlərini icra edən Nino Burcanadze "Rustavi-2" telekanalının canlı yayımında çıxışında bildirdi.

AzərTAc-ın Tbilisidən yaydığı xəbərə görə xanım Burcanadze zəmanənin ən görkəmli siyasi xadimlərindən biri olmuş Heydər Əliyevin vəfatından bütün Gürcüstanın kədərləndiyini qeyd edib. O deyib: "Xalqımızın Heydər Əliyevin vəfatından kədərlənməsi təbiidir, çünki biz gürcülər, eləcə də Gürcüstanda yaşayan başqa xalqlar, bu insanın qayğı və diqqətini həmişə hiss edirdi, Gürcüstanın ən ağır günlərində o öz həyanlığını, dəstəyini bizdən əsirgəmirdi".





Xanım Burcanadze "Rustavi-2" telekanalının birbaşa efirindən istifadə edərək, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə və bütün Azərbaycan xalqına səmimi hisslərlə başsağlığı verdi.

Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze isə dedi: "İllərdən bəri özümə ən vəfalı və əziz dostlardan biri bildiyim Heydər Əliyevin vəfatı məni sarsıtdı. İnanın, bu yaşda dost itirilməsi çox ağırdır. Amma nə etmək olar, görünür, taleyin hökmü belə imiş."

**İRAN**

Müasir Azərbaycan dövlətinin qurucusu, dünyaşöhrətli siyasi xadim və görkəmli şəxsiyyət Heydər Əliyevin vəfatı İranda da böyük kədər və üzüntü ilə qarşılandı. İranın televiziya kanallarında və kütləvi informasiya vasitələrində Azərbaycanın liderinin dünyasını dəyişməsi barədə məlumat, həmçinin onun həyatı, siyasi fəaliyyəti, Azərbaycan-İran münasibətlərinin inkişafındakı mühüm rolu və digər xidmətlərinə dair xüsusi verilişlər yayımlandı və məqalələr dərc olundu.

Bu kədərli hadisəni Azərbaycan xalqı ilə bölüşmək üçün Azərbaycanın Tehrandakı səfirliyinə yüzlərlə başsağlığı teleqramları və minlərlə telefon zəngləri daxil oldu. Səfirlik tərəfindən matəm tədbirləri həyata keçirildi. İranda yaşayan azərbaycanlılar, xarici ölkələrin vətəndaşları səfirliyin binasına gələrək başsağlığı verdi və türk dünyasının əvəzolunmuz lideri olan Heydər Əliyev şəxsiyyətinə dərin hörmət və ehtiramlarını bildirib Allahdan rəhmət dilədilər.

Dekabrın 15-16-da İran paytaxtında akkreditə olunan diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri üçün xatirə kitabı açıldı. Ayın 19-da cümə günü isə Tehrandakı böyük "Nur" məscidində yerli ictimaiyyətin nümayəndələri üçün matəm mərasimi keçirildi.

**TÜRKMƏNİSTAN**

Dekabrın 13-də Azərbaycan Respublikasının Türkmənistandakı səfirliyində prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar matəm mərasimi keçirildi.

Azərbaycanın Türkmənistandakı səfirliyi adından bu ölkənin Xarici İşlər Nazirliyinə, xarici ölkələrin Aşqabadda yerləşən səfirliklərinə və Beynəlxalq nümayəndəliklərə Heydər Əliyevin vəfat etməsi, dəfn mərasiminin təşkili üzrə Dövlət Komissiyasının məlumatı, səfirlikdə başsağlığı kitabının açılması haqqında notalar göndərildi.

Matəm mərasimi ilə əlaqədar səfirlikdə Azərbaycanın dövlət bayraqlarına və prezident Heydər Əliyevin portretlərinə qara lent bağlandı. Burada üzərində başsağlığı kitabı olan masa qoyuldu.

Aşqabadda yerləşən səfirliklərin və Beynəlxalq nümayəndəliklərin başçıları və əməkdaşları səfirliyə gələrək, Heydər Əliyevin portreti qarşısına əklil qoydu, bu böyük insanın xatirəsini bir dəqiqəlik sükutla yad etdi və başsağlığı kitabına ürək sözlərini yazdılar.

Türkmənistanda yaşayan bir çox xalqların nümayəndələri də səfirliyə gələrək, prezident Heydər Əliyevin portreti qarşısında əklillər qoydular, bu ağır itkinin bütün Türk dünyasının itkisi olduğunu qeyd etdilər.

* * *

Türkmənistan prezidenti Saparmurat Niyazov dekabrın 15-də səfirliyə gəldi. S. Niyazov prezident Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad etdi, Matəm kitabına ürək sözlərini yazdı.

Türkmənbaşı səfir Elxan Hüseynova başsağlığı verərək, dahi şəxsiyyət Heydər Əliyevin vəfat etməsi xəbərini ürək ağrısı ilə qarşıladığını və mərhumun dünyamiqyaslı siyasətçi və əvəzedilməz insan kimi xatirəsində həkk olunduğunu vurğuladı. O, Allahdan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə və xalqımıza səbir dilədi və bu kədərli günlərdə onların yanında olduğunu bildirdi.

Səfir E. Hüseynov prezident Heydər Əliyev haqqında xoş sözlər söylədiyinə, xalqımızın kədərinə şərik olduğuna görə Türkmənistan rəhbərinə minnətdarlıq etdi.

Türkmənistan Məclisinin sədri Övəzgəldi Atayev, xarici işlər naziri Rəşid Meredov, mədəniyyət və informasiya naziri Gözəl Nurəliyeva, Nazirlər Kabineti sədrinin müavini Yelli Qurbanmuradov, Aşqabad şəhərinin meri Amangəldi Rəcəbov və digər rəsmi şəxslər də prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı verdilər.





Aşqabaddakı səfirliklərin və beynəlxalq nümayəndəliklərin başçıları və əməkdaşları səfirliyə gələrək, Heydər Əliyevin portreti önünə əklil qoyaraq, mərhumun xatirəsini bir dəqiqəlik sükutla yad etdilər, Matəm kitabına ürək sözlərini yazdılar.

**ALMANİYA**

Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycanın Berlindəki səfirliyində matəm elan edildi, milli dövlət bayrağı endirildi. Almaniyada yaşayan azərbaycanlılar, orada akkreditə olunmuş diplomatik missiyaların nümayəndələri və səfirləri matəm günlərində qapılarını açıq saxlayan səfirliyə gəlib Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatından kədərləndiyini bildirir, onun qara haşiyəyə alınmış portreti qarşısında baş əyərək onunla vidalaşır, xatirə kitabına ürək sözlərini yazırdılar.

Matəmin ilk günü birinci olaraq başsağlığı vermək üçün Türkiyənin Almaniyadakı səfiri Mehmet Əli İrtemçelik gəlmiş, qardaş ölkənin səfirliyində də dövlət bayrağının endirildiyini və matəm edildiyini bildirərək, dərin hüznlə xatirə kitabına bu sözləri yazmışdı: "Azərbaycan xalqının dəyərli, seçkin, mümtaz övladı, böyük dövlət adamı Heydər Əliyevin vəfatı bütün türk dünyası üçün böyük itkidir. Türkiyə dövləti və xalqı qardaş Azərbaycanın kədərinə şərikdir. Əziz, qəhrəman Heydər Əliyevin adı türk dünyasında əbədi olaraq xatırlanacaq, onun adı və əməlləri hər zaman uca tutulacaqdır. Allah rəhmət eləsin, başımız sağ olsun".

Almaniya Xarici İşlər Nazirliyinin Asiya və Qafqaz ölkələri şöbəsinin nümayəndəsi Titmar Baxman federal kanslerin başsağlığı göndərdiyini bildirmiş, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Rusiya səfirləri birinci olaraq başsağlığı verməyə gəlmişdilər.

* * *

Azərbaycan milli mədəni və təbii irsinin qorunub saxlanması sahəsində həyata keçirdikləri layihələri prezident Heydər Əliyevlə dəfələrlə Bakıda görüşüb müzakirə edən "Azərbaycan Milli Parklar Proqramına beynəlxalq dəstək fondu"nun təşəbbüsçüsü olan Zuqqov Fondunun üzvləri ömrünü Azərbaycanın inkişafına həsr etmiş müdrik prezident, təbiət vurğunu Heydər Əliyevin vəfatını ürək ağrısı və dərin kədər hissi ilə qarşı-

lamışlar. Onlar Matəm kitabında yazmışlar: "Azərbaycan Respublikasının dahi rəhbəri, müdrik dövlət başçısı Heydər Əliyevin vəfatı bizi sarsıtmışdır. O, Almaniya Təbiəti Mühafizə Fondunun Azərbaycanda həyata keçirdiyi Milli Parklar Proqramının, ölkəsinin nadir, füsunkar təbiətinin mühafizəsi sahəsində həyata keçirilən işlərin ilhamçısı və əzmkar siyasi dəstəkçisi idi. Onun ailəsinə, Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk".

Vida mərasiminə gələnlərin axını səngimək, göndərilən başsağlığı teleqramlarının sayı azalmaq bilmirdi.

Polşa Respublikasının Almaniyadakı səfiri Andjey Birt səfirliyimizə ünvanladığı başsağlığı teleqramında yazır: "Heydər Əliyevin vəfatı xəbəri bizi sarsıtmışdır. Xalqınıza dərin hüznlə başsağlığı veririk".

Ağır itki ilə bağlı Azərbaycan xalqına və prezident Heydər Əliyevin ailəsinə başsağlığı teleqramına məşhur İohann Volfqanq Hötenin "İnsan dünyasını dəyişsə də, onun xoş əməlləri fani dünyada əbədi yaşayır" kəlamını epiqraf seçən alman professoru Yeva-Mariya Aux Heydər Əliyevin əbədiyyətə qovuşması ilə əlaqədar keçirdiyi sarsıntını belə ifadə etmişdir: "Nəcib insan, görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı xəbəri məni sarsıtmışdır. Heydər Əliyevin Azərbaycanın dirçəlişi, müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq aləmdə nüfuzunun artmasında, o cümlədən ikitərəfli Almaniya-Azərbaycan münasibətlərinin inkişafı sahəsində tarixi rolu danılmazdır. Ağır itki ilə əlaqədar dost Azərbaycan xalqına və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir, onların kədərinə şərik oluram".

**FRANSA**

Dünyanın görkəmli siyasətçilərindən biri olan prezident Heydər Əliyevin dünyasını dəyişməsi barədə xəbər, hər yerdə olduğu kimi, Fransada da böyük kədər hissi ilə qarşılandı.

Azərbaycan dövlətçiliyinin bərqərar olmasında əvəzsiz xidmətlər göstərmiş, ömrünü xalqına həsr etmiş Heydər Əliyevin xatirəsini yad etməyə, azərbaycanlıların dərdinə şərik olmağa, başsağlığı verməyə gələnlər üçün Azərbaycanın Parisdəki səfirliyində zəruri tədbirlər görülmüşdü. Səfirliyin binasındakı bayraq endirilmiş, xüsusi ayrılmış guşədə Heydər Əliyevin qara çərçivəyə salınmış şəkli asılmış, qara lent bağlanmış bayraq qoyulmuş,





başsağlığı verməyə gələnlərin ürək sözlərini yazması üçün Matəm kitabı asılmış, stolun üzərinə dahi rəhbərin həyat və fəaliyyətini əks etdirən kitab və broşürlər düzülmüşdü.

Fransanın Paris, Strasburq, Qrenobl və digər şəhərlərində yaşayan azərbaycanlılar və burada təhsil alan azəri tələbələr istirahət günü olmasına baxmayaraq, səfirliyə aramsız zənglər edir, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı verir, ürək sözlərini bildirirdilər.

Prezident Heydər Əliyevin vəfatı Fransanın kütləvi informasiya vasitələrinin də diqqət mərkəzində idi. Nüfuzlu mətbu orqanların səhifələrində və televiziya kanallarında Azərbaycanla Fransa arasında hərtərəfli əlaqələrin təməlini qoymuş və onun inkişafında böyük xidmətləri olmuş Heydər Əliyevin vəfatı ilə əlaqədar xəbərlər dərc edilirdi.

* * *

Strasburqda təhsil alan azərbaycanlı tələbələr də xalqlarının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladılar.

Gənc azərbaycanlılar AzərTAc-a ünvanladıqları məktubda xalqlarına başsağlığı verərək vurğuladılar ki, zəmanənin ən görkəmli dövlət və siyasi xadimlərindən olan Heydər Əliyevin vəfatı təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası, eləcə də bəşəriyyət üçün ağır itkidir. Onun Azərbaycan naminə, gənclərin xoşbəxt gələcəyi üçün gördüyü işlərin əvəzi yoxdur.

Məktubda daha sonra deyilirdi: "Prezident Heydər Əliyev Azərbaycana və xalqımıza sonsuz məhəbbəti ilə hamının qəlbində yer tutmuşdur. Onun əziz xatirəsi təkcə bizim deyil, milyonlarla insanların qəlbində daim yaşayacaqdır. Biz ona layiqli övladlar olacağıq və yolunu ləyaqətlə davam etdirəcəyik".

**AVSTRALİYA**

Avstraliyanın Sidney şəhərindəki Azərbaycanlılar Cəmiyyətindən və "Azərbaycanın səsi" radiosundan daxil olmuş məktubda prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar kədər hissləri ifadə edilirdi. İlham Əliyevə müraciətlə yazılmış məktubda deyilirdi:

"Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına ATAMIZ HEYDƏR BƏY ƏLİYEVİN vəfatı ilə bağlı ən dərin kədərimizi bildirərək, başsağlığımızı Sizə çatdırmaq istəyirik. Azərbaycan xalqı və bütün türk dünyası HEYDƏR BƏYİN vəfatı ilə ağır bir dərdlə üzləşmişdir. Böyük düha olan HEYDƏR BƏY ƏLİYEV həyatını Azərbaycan xalqının əmin-amanlığına, firavanlığına, xoş günlər görməsinə, dünyada tanınmasına həsr etmiş əvəzedilməz sərkərdə və müdrik rəhbər idi.

Acımız böyükdür... Lakin təməlini HEYDƏR BƏYİN qoyduğu işlərin Sizin kimi bir oğulun davam etdirəcəyinə, ürəyimizdə qalan arzularımızı həyata keçirəcəyinə olan ümidimiz sonsuzdur. Bütün Azərbaycan xalqının başı sağ olsun! Mərhuma Allahdan rəhmət diləyərək yerinin cənnət olmasını arzulayırıq. Axır qəminiz olsun! Allah Sizə torpağı sanı ömür versin! AMİN!"

### SƏUDİYYƏ ƏRƏBİSTANI

Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Elman Araslıdan alınan məlumata görə, matəm günlərində Heydər Əliyevin vəfatı ilə əlaqədar Səudiyyə Ərəbistanının rəsmi və ictimai dairələri Azərbaycan xalqına dərin hüznünü bildirir və başsağlıqlarını ifadə edirdilər.

Prezident Heydər Əliyevin vəfatı haqqında kədərli xəbər Səudiyyə Ərəbistanının bütün aparıcı kütləvi informasiya vasitələrində dərc olunmuşdu. Ölkənin Mərkəzi telekanalının xəbərlər proqramında və qəzetlərin birinci səhifələrində İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd bin Əbdüləzizin, vəliəhd, baş nazirin birinci müavini, Milli Qvardiyanın komandanı Abdulla bin Əbdüləzizin, baş nazirin ikinci müavini, müdafiə və aviasiya naziri Sultan bin Əbdüləzizin Azərbaycan prezidenti İlham Əliyevə göndərdikləri başsağlığı teleqramlarının mətni yayılmışdı.

Səudiyyə Ərəbistanının rəsmi, ictimai və işgüzar dairələrinin nümayəndələrindən səfirliyə daxil olan çoxsaylı məktub və teleqramlarda deyilirdi ki, həyatını Azərbaycan xalqına həsr etmiş prezident Heydər Əliyev müasir dünyanın ən görkəmli şəxsiyyətlərindən biri kimi dərin hörmət qazanmışdır.

Səudiyyə Ərəbistanında akkreditə olunmuş diplomatik missiyaların başçıları və nümayəndələri, Səudiyyə vətəndaşları Azərbaycan xalqının





kədərini bölüşmək üçün səfirliyə gəlir, Matəm kitabına başsağlığı sözləri yazırdılar.

Bu hüznlü günlərdə səfirliyə İslam Konfransı Təşkilatının Baş katibliyindən, İslam İnkişaf Fondundan, Səudiyyə İnkişaf Fondundan və bir sıra digər beynəlxalq və regional təşkilatlardan, o cümlədən bu ölkədə çalışan azərbaycanlı mütəxəssislərdən məktub və teleqramlar gəlməkdə idi.

Səfirlik zərurəti hiss edərək prezident Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş mətbuat bəyanatı hazırlayaraq, ölkədə akkreditə olunmuş beynəlxalq və regional təşkilatlara, diplomatik korpusa, habelə rəsmi və ictimai dairələrə, KİV-lərə göndərmişdi.

## VİDA SÖZLƏRİ

Hazırda ölkələrimizin bəhrələndiyi dostluq münasibətləri Heydər Əliyevin qətiyyəti və liderliyinin irsidir. Buraya bizim terrorizmə qarşı mübarizədə sıx əməkdaşlığımız da daxildir. Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın uzunmüddətli iqtisadi firavanlığının əsasını qoydu. O, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması yolunda çox çalışdı. Birləşmiş Ştatlar onun qoyduğu bu möhkəm əsaslar üzərində əlaqələri inkişaf etdirməyi davam edəcək, Azərbaycanın suverenliyini, firavanlığını və demokratik inkişafını dəstəkləyəcəkdir.

***Dik ÇEYNİ,***
***Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti.***

Prezident Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

***Xu SZİNTAO,***
***Çin Xalq Respublikasının sədri.***

Çox hörmətli İlham Əliyev!

Atanızın vəfatı xəbərini eşidərək kədərləndim.

Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

Britaniya xalqı adından Sizə dərin hüznlə başsağlığı verirəm.

***Britaniya kraliçası II ELİZABET.***





Prezident Heydər Əliyevin vəfatı barədə xəbəri kədər və təəssüf hissi ilə aldım. O, yenicə ayağa qalxan Azərbaycan Respublikasının sabitlik və tərəqqiyə qovuşmasında təsirli rol oynamış, gözəl Azərbaycan xalqının rifahı, asayişi naminə səy göstərmiş təcrübəli və məşhur siyasət xadimi olmuşdur.

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur.

***Seyid Məhəmməd XATƏMİ,***
***İran İslam Respublikasının prezidenti.***

Prezident cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına başsağlığı vermək istərdim.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda yaradılmış makroiqtisadi sabitlik xalqınızın rifahı naminə iqtisadiyyatın mütəmadi inkişafı üçün möhkəm əsas yaradır. Biz prezident Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi müddət ərzində Azərbaycan ilə Fond arasında yaranmış xoş münasibətləri yüksək qiymətləndiririk.

***Horst KÖHLER,***
***Beynəlxalq Valyuta Fondunun icraçı direktoru.***

Zati-aliləri cənab Heydər Əliyevin vəfatı ilə bağlı kədərli xəbəri eşidərkən dərindən qəmə batdım. Prezident Heydər Əliyevin bizim təşkilatın işini dəstəkləməsi və xüsusilə də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə Anlaşma memorandumunu şəxsən imzalaması yadımızdan çıxmaz.

***Kristian ŞTROHAL,***
***səfir, ATƏT-in Demokratik Təsisatlar***
***və İnsan Hüquqları Bürosunun direktoru.***

Heydər Əliyevin vəfatı xəbərini kədər hissi ilə aldım. Mən onunla iki dəfə görüşmək şərəfinə nail olmuşdum.

Cənab Heydər Əliyevlə görüşərkən onun nadir şəxsiyyətlərə xas olan dahiyanə xüsusiyyətlərinin şahidi olmuşdum. O, Azərbaycana sülh və əmin-amanlıq gətirən böyük şəxsiyyət idi.

***Henk Markart ŞOLTS,***
***Beynəlxalq Prokurorlar Assosiasiyasının baş katibi.***

Heydər Əliyevin həyat yolu öz xalqına, regionda və bütün planetdə sülhə və sabitliyə xidmətin nümunəsidir. Onun cəmiyyət naminə titanik zəhməti, fədakarlığı sayəsində Azərbaycan möhkəm, iqtisadi cəhətdən inkişaf etmiş və sabit dövlətə çevrilmişdir. O, ölkənizin gəncləri üçün yolgöstərən ulduz idi. Onun gənc nəslə qayğısı digər dövlətlərin liderləri üçün nümunə ola bilər. Azərbaycan skautlarının beynəlxalq tədbirlərdə fəal iştirakı, dünyanın müxtəlif ölkələrinin gənclərinin iştirakı ilə Sizin ölkənizdə skaut toplantılarının keçirilməsi, Avrasiya regionunun Avrasiya Skaut konfransının 2004-cü ildə Bakı şəhərində keçirilməsinə kömək göstərməsi bu qayğının parlaq nümunəsidir. Təsadüfi deyildir ki, Azərbaycan Skautlar Assosiasiyası sıralarında birləşən gənc vətəndaşlar "Heydər Əliyevin yolu ilə - həmişə irəli!" şüarını özlərinin devizi seçmişlər. Heydər Əliyevin nurlu xatirəsi insanların qəlbində əbədi yaşayacaqdır.

***Yuri YEMİLİAN,***
***Avrasiya Regional Skaut Komitəsinin sədri.***

Rusiyanın böyük dostu, Sovet İttifaqının görkəmli siyasi xadimi, Azərbaycan Respublikasının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı xəbərini dərin kədər hissi ilə eşitdim.

Onun vəfatı ilə Rusiya öz sabiq müttəfiqini, Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlığın dərinləşməsi və inkişafının möhkəm əqidəli və ardıcıl tərəfdarını itirdi.

Heydər Əlirza oğlu Əliyevin adı Azərbaycan Respublikasının yaradılması, onun dövlətçiliyinin və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi tarixinə qızıl hərflərlə yazılacaqdır.

***Boris QRIZLOV,***
***Rusiya Federasiyasının daxili işlər naziri.***





Biz Heydər Əliyevin ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafına töhfəsini, onun Azərbaycan Respublikasında sabitliyin möhkəmlənməsi və xalqın rifah halının yüksəldilməsi sahəsində fəaliyyətini yüksək qiymətləndiririk.

Heydər Əliyev Sovet İttifaqı hökumətində mədəniyyət və incəsənətin inkişafı məsələləri ilə məşğul olarkən onun göstərdiyi qayğını və diqqəti yaxşı xatırlayırıq.

***Mixail ŞVIDKOY,***
***Rusiya Federasiyasının mədəniyyət naziri.***

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, hamımıza əziz olan insanın, zəmanəmizin görkəmli siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verim. Münasibətlərimizin inkişafı üçün həddən çox iş görmüş atanızın vəfatı xəbəri mən və bütün həştərxanlıları dərindən kədərləndirmişdir. Heydər Əliyevin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

***Anatoli QUJVİN,***
***Həştərxan vilayətinin qubernatoru.***

Şübhə yoxdur ki, Heydər Əliyevin adı vətəninizin tarixinə qızıl hərflərlə yazılacaqdır.

Onun bilavasitə dəstəyi sayəsində Rusiya ilə Azərbaycan arasında, Moskva vilayəti ilə ölkəniz arasında yeni münasibətlərin təşəkkülü və inkişafı üçün çox işlər görülmüşdür.

Azərbaycan xalqının şanlı oğlu Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***Boris QROMOV,***
***Moskva vilayətinin qubernatoru,***
***Sovet İttifaqı Qəhrəmanı.***

Böyük hörmət və pərəstiş etdiyim Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni dərindən sarsıtdı. Görkəmli siyasətçi, böyük insan və vətənpərvər, Azərbaycan xalqının layiqli oğlu həyatdan getmişdir. O, hörmətə və pərəstişə layiq uzun ömür yolu keçmiş, özünün xeyirxah əməlləri ilə doğ-

ma respublikasının tarixinə çoxlu işıqlı səhifələr yazmışdır. Heydər Əlirza oğlu son günlərinədək Azərbaycanın, öz xalqının taleyinə biganə olmamışdır. Onun nurlu adı, vətəni naminə gördüyü böyük işlər insanların yaddaşında əbədi yaşayacaqdır.

***Aman TULEYEV,***
***Kemerovo vilayətinin qubernatoru.***

Azərbaycan xalqı əvəzsiz itki vermişdir. İstedadlı siyasətçi, böyük islahatçı rəhbər, dərin biliyə və zəngin həyat təcrübəsinə malik insan həyatdan getmişdir.

Heydər Əlirza oğlu Azərbaycan dövlətçiliyinin formalaşmasına, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına, doğma Azərbaycanın tərəqqisinə, həqiqətən, misilsiz töhfə vermişdir.

***Dmitri AYATSKOV,***
***Saratov vilayətinin qubernatoru.***

Azərbaycanın görkəmli lideri Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar ən səmimi başsağlığımı qəbul edin. Azərbaycanın müasir tarixi, ölkədə aparılan siyasi və iqtisadi dəyişikliklər Heydər Əliyevin adı ilə qırılmaz surətdə bağlıdır. Onun siyasi müdrikliyi, iradəsi, uzaqgörənliyi və vətəninə hədsiz sədaqəti insanların xoş xatirəsində əbədi qalacaqdır.

***Eduard ROSSEL,***
***Sverdlovsk vilayətinin qubernatoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Sizin atanız, prezident Heydər Əliyevin vəfat etməsi barədə xəbəri böyük kədərlə qəbul etdim. Polyak xalqı adından, Polşa Respublikasının hökuməti adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığı verirəm və böyük kədərinizi Sizinlə bölüşdürürəm. Cənab prezident, bu çox kədərli xəbərlə əlaqədar Sizin vasitənizlə ailə üzvlərinizə, qohumlarınıza, yaxınlarınıza və dostlarınıza da dərin hüznlə başsağlığı verirəm.

***Aleksandr KVASNEVSKİ,***
***Polşa Respublikasının prezidenti.***





Azərbaycan xalqına ağır itki üz vermişdir və biz onunla birlikdə kədərlənirik. Görkəmli siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan həyatdan getdi.

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının prezidenti.***

Heydər Əliyevin adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

***Emoməli RƏHMONOV,***
***Tacikistan Respublikasının prezidenti.***

Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünyamiqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

Heydər Əlirza oğlu bizim xatirəmizdə bütün ömrünü öz Vətəninə xidmətə həsr etmiş görkəmli siyasətçi kimi, Azərbaycan xalqının sədaqətli oğlu kimi qalacaqdır.

***Əsgər AKAYEV,***
***Qırğızıstan Respublikasının prezidenti.***

Hörmətli İlham Heydər oğlu!

Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar başsağlığımızı qəbul edin. Doğmalarınıza və yaxınlarınıza təsəlli sözlərimizi yetirməyinizi xahiş edirik.

Hörmətlə,

***Saparmurad NİYAZOV,***
***Türkmənistanın prezidenti.***

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır.

Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

***Georgi PIRVANOV,***
***Bolqarıstan Respublikasının prezidenti.***

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

Əvəzolunmaz və ağır itki ilə əlaqədar Sizin üçün və bütün Azərbaycan xalqı üçün bu çətin gündə Özbəkistan xalqı adından və şəxsən öz adımdan ən dərin hüznlə başsağlığı vermək və dərdinizə şərik çıxdığımızı bildirmək istəyirəm.

***İslam KƏRİMOV,***
***Özbəkistan Respublikasının prezidenti.***

Əziz cənab Prezident!

Atanız prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığımı qəbul etməyinizi xahiş edirəm. O, müstəqil Azərbaycan Respublikasının qurulmasına və Azərbaycanın beynəlxalq aləmdə oynadığı rolun möhkəmləndirilməsinə mühüm töhfə vermişdir. Şübhə etmirəm ki, Heydər Əliyevin demokratik Qərb dövlətləri ilə sıx əlaqələr qurmaq siyasəti uğurla həyata keçiriləcəkdir.





***Rolandas PAKSAS,***
***Litva Respublikasının prezidenti.***

Hörmətli İlham Əliyev!

Sevimli atanız prezident Heydər Əliyevin vəfatı xəbəri məni dərindən sarsıtdı. Banqladeş hökuməti və xalqı adından və şəxsən öz adımdan zati-alinizə və Sizin vasitənizlə ailənizin üzvlərinə səmimi başsağlığımızı bildirmək və rəğbətimizi ifadə etmək istərdim.

Qadir Allahdan mərhuma rəhmət diləyir və dua edirik ki, zati-aliniz itkiyə cəsarət və səbatla davam gətirə bilsin.

Zati-aliləri, Sizə ən yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

***Xalidə Ziya RƏHMAN,***
***Banqladeş Xalq Respublikasının baş naziri.***

Heydər Əliyevin həyatdan getməsi onu tanıyanların, sevənlərin, ona hörmət edənlərin hamısının qəlbini ağrıtmışdır. O, bütün həyatını doğma xalqına, öz ana Vətəninə fədakarcasına xidmətə həsr etmişdir.

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

***Vladimir VORONİN,***
***Moldova Respublikasının prezidenti.***

Qardaş və dost Azərbaycanın firavanlıq və sabitlik şəraitində yaşayan bir ölkə olması üçün böyük xidmətlər göstərən mərhum Heydər Əliyevin müdrik rəhbərliyi türk dünyası, bütün beynəlxalq birlik tərəfindən təqdirlə qarşılanır.

6. - 626

Azərbaycanın yetirdiyi böyük dövlət adamı Heydər Əliyev ölkələrimiz arasında müştərək tarix və mədəniyyətə əsaslanan əlaqələrin inkişafına və bununla da qardaşlıq və dostluğumuzun möhkəmlənməsinə böyük töhfə vermişdir.

***Bülənd ARINÇ,***
***Türkiyə Böyük Millət Məclisinin sədri.***

Heydər Əlirza oğlu Əliyevin bütün həyat yolu Vətənə və xalqa fədakarcasına xidmətə həsr edilmişdir. Onun dövlət müdrikliyi və uzaqgörənliyi Qafqazda sülh yaratmağa və bu bərəkətli torpaqlara müharibənin bir daha gəlməyəcəyinə inanmağa imkan verdi.

O, Azərbaycan xalqının böyük oğlu və görkəmli prezident kimi qəlbimizdə həmişəlik qalacaqdır. Respublikada sabitlik və müstəqil Azərbaycanın tərəqqiyə doğru yolunun başlanması məhz onun adı ilə bağlıdır.

Bu itki bütün Müstəqil Dövlətlər Birliyi üçün, keçmiş ümumi vətənimizdə - Sovet İttifaqında doğulub, boya-başa çatmış insanlar üçün də itkidir. Sovet İttifaqının rəhbərlərindən biri kimi, o, burada məskunlaşmış xalqların həyatının yaxşılaşması üçün çox qüvvə sərf etmişdir.

***Vladimir RUŞAYLO,***
***Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi.***

Suveren dövlətlər kimi Ukrayna ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsi naminə prezident Heydər Əliyevin yorulmadan çəkdiyi zəhməti və göstərdiyi müdrik dəstəyi Ukraynada xatırlayır və yüksək qiymətləndirirlər. Bu münasibətlər, həqiqətən, Ukrayna və Azərbaycan xalqlarının mənafelərinə xidmət edir.

***Vladimir LİTVİN,***
***Ukrayna Ali Radasının sədri.***

Hörmətli İlham Heydər oğlu!

Ailənizə və Azərbaycan xalqına üz vermiş kədərlə - Heydər Əlirza oğlunun vəfatı ilə əlaqədar mənim və bütün moskvalıların ən səmimi başsağlıqlarımızı qəbul edin.





Biz Azərbaycan Respublikası prezidentinin həm öz ölkəsinin xalqı üçün, həm də başqa xalqlar üçün gördüyü bütün işləri heç zaman unutmayacağıq. Heydər Əlirza oğlu görkəmli dövlət xadimi və siyasi xadim olmuşdur. Azərbaycan Respublikasının suveren dövlət kimi təşəkkül tapması həmişə onun adı ilə bağlı olacaqdır.

Heydər Əlirza oğlunun nurlu obrazı qəlbimizdə həmişəlik qalacaqdır.

***Yuri LUJKOV,***
***Moskvanın meri.***

Özünün bütün qüvvə və biliyini müstəqil Azərbaycan dövlətinin təşəkkülü işinə həsr etmiş görkəmli dövlət xadimi və siyasi xadim həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlunun dövləti fəaliyyəti dövlət təhlükəsizliyi orqanlarında xidmətlə bağlı olmuşdur. Burada o, Azərbaycan DTK-nın əməliyyat işçisindən rəhbərinədək layiqli bir yol keçmişdir.

Heydər Əlirza oğluna xas olan yüksək siyasi və işgüzar keyfiyyətlər, səmimilik və insanlara qarşı həssaslıq ona təkcə Vətənində deyil, çox-çox uzaqlarda da dərin hörmət qazandırmışdır.

***Nikolay PATRUŞEV,***
***MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik Orqanları Rəhbərləri Şurasının sədri, ordu generalı.***

Heydər Əlirza oğlunun bütün həyatı aramsız qələbələr və nailiyyətlərdən ibarət olmuşdur. O, qeyri-adi bacarığa və fitri müdrikliyə malik olaraq, özünün bütün şüurlu həyatını Vətənə xidmətə həsr etmişdir. Müstəqil Azərbaycan üçün ağır vaxtlarda Heydər Əlirza oğlu Əliyev Vətənin gələcəyinə görə məsuliyyəti öz üzərinə götürdü və qısa tarixi müddətdə xalqına sülh və əmin-amanlığı, dövlətə yeniləşməni, sabitliyi və inkişafı təmin etdi. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun yüksəlməsinə, Müstəqil Dövlətlər Birliyinin möhkəmlənməsinə və təşəkkülünə onun töhfəsi misilsizdir. Heydər Əlirza oğlu Əliyevin adı və işi milyonlarla insanın taleyində parlaq iz buraxmış, Azərbaycanın və Müstəqil Dövlətlər Birliyinin tarixinə həmişəlik yazılmışdır.

Tale mənə prezident Heydər Əliyev ilə dəfələrlə şəxsən ünsiyyətdə olmaq imkanı bəxş etmişdir. Bu görüşlər barədə, müdrik siyasətçi, istedadlı rəhbər və gözəl insan Heydər Əlirza oğlu Əliyev haqqında işıqlı xatirələr qəlbimdə həmişəlik qalacaqdır.

***Yuri YAROV,***
***Müstəqil Dövlətlər Birliyi***
***İcraiyyə Komitəsinin sədri - icraçı katibi.***

Azərbaycan Respublikasının iqtisadiyyatda, siyasətdə, sosial problemlərin həllində qazandığı nailiyyətlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlunun adı ilə bağlıdır. Onun siyasi iradəsi, qətiyyəti və məqsədyönlülüyü, öz ölkəsinə və xalqına çox böyük məhəbbəti sayəsində Azərbaycanda demokratiya, sabitlik və sülh bərqərar olmuşdur.

Heydər Əlirza oğlu Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi və iqtisadi inteqrasiyasına misilsiz töhfə vermiş, MDB-nin Parlamentlərarası Assambleyasını yaratmaq ideyasını birincilər sırasında dəstəkləmişdi, onun işinə fəal və əməli surətdə kömək göstərirdi.

MDB Parlamentlərarası Assambleyasının üzvləri, Müstəqil Dövlətlər Birliyi ölkələrinin deputatları onun prinsipial mövqeyini, müdrikliyini və siyasi duyumunu, islahatların aparılmasına, ümumi hüquqi məkan yaradılmasına köməyini yüksək qiymətləndirirdilər. O, bizim xatirimizdə dünyamiqyaslı dövlət xadimi və siyasi xadim, bütün həyatını öz Vətəninə, öz xalqına həsr etmiş müdrik və zəngin təcrübəli ölkə rəhbəri kimi qalacaqdır.

***Mixail KROTOV,***
***MDB Parlamentlərarası Assambleya***
***Şurasının baş katibi,***
***Akif CƏFƏROV,***
***baş katibin müavini.***

Zati-aliləri İlham Əliyev!

Atanızın - görkəmli siyasi xadim prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Gürcü Pravoslav kilsəsi adından və şəxsən öz adımdan səmimi başsağlığımızı qəbul edin. Onun təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də dünya birliyi qarşısında xidmətləri böyükdür.





Ümidvarıq ki, gürcü və Azərbaycan xalqları arasındakı münasibətlərdə təməli qoyulmuş dostluq telləri gələcəkdə də möhkəmləndiriləcək və dərinləşdiriləcəkdir.

***II İLİYA,***
***Katolikos, Bütün Gürcüstanın patriarxı.***

Zati-aliləri cənab İlham Əliyev!

Allahın salamı, rəhmi və bərəkətləri üzərinizdə olsun! Mərhum atanız, prezident Heydər Əliyevin vəfatı xəbərini dərin üzüntü ilə eşitdik. Şəxsən öz adımdan və Suriya Ərəb Respublikasının xalqı adından Sizə və dost Azərbaycan xalqına ürəkdən kədərləndiyimizi bildirir, mərhuma Allahdan rəhmət, hörmətli ailənizə səbir diləyirik.

***Bəşşar əl-ƏSƏD,***
***Suriya Ərəb Respublikasının Prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin vəfatı barədə hüznlü xəbər məni dərindən kədərləndirdi. Bu faciəli hadisə ilə əlaqədar Bəhreyn Krallığının xalqı adından və şəxsən öz adımdan ən səmimi başsağlıqlarımı verirəm.

O, mərhəmətli və insanpərvər, öz xalqının böyük hörmətinə malik bir adam idi. Allah ona rəhmət eləsin.

Zati-aliləri, Sizə ən yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

***Həmid bin İsa AL XƏLİFƏ,***
***Bəhreyn kralı.***

Zati aliləri İlham Əliyev!

Mərhum atanız prezident Heydər Əliyevin vəfatı ilə bağlı zati-aliləri Qətər xalqı, Qətər dövlətinin hökuməti və öz adımdan dərin hüznlə başsağlığımızı, kədərimizi və qüssəmizi ifadə edirəm.

Biz Qadir Allaha dua edirik ki, onun ruhunu şad etsin və Sizə bu ağır itkiyə dözməyə qüvvə versin.

***Həməd bin Xəlifə AL TANİ,***
***Qətər dövlətinin əmiri.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar zati-alinizə səmimi başsağlığımı yetirmək və Sizə rəğbətimi bildirmək istərdim. Qadir Allaha dua edirəm ki, ona rəhmət eləsin.

***Tamim bin Həməd AL TANİ,***
***Qətər dövlətinin vəliəhdi.***

Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir.

Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı dostluğa və əməkdaşlığa əsaslanan münasibətlərin bugünkü yüksək səviyyəyə çatmasında mərhum Heydər Əliyevin səyləri hər zaman xatırlanacaqdır.

***Abdulla GÜL,***
***Türkiyə Respublikasının xarici işlər***
***naziri və baş nazirin müavini.***

Sovet epoxasının və müstəqil Azərbaycanın görkəmli dövlət, siyasi və ictimai xadiminin, ölkənin danılmaz və olduqca nüfuzlu liderinin - bütün Azərbaycan xalqının mənafelərini uca tutaraq, ölkəyə otuz ildən artıq bir dövrdə inamla rəhbərlik etmiş liderin vəfatı ilə əlaqədar dərin hüzn keçirirəm.

Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan-Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur.

***Vyaçeslav TRUBNİKOV,***
***Rusiya Federasiyası xarici işlər nazirinin***
***birinci müavini, Rusiya Federasiyası prezidentinin***
***MDB-nin üzvü olan dövlətlərdə federal nazir***
***dərəcəsində xüsusi nümayəndəsi, ordu generalı.***





Çox hörmətli İlham Heydər oğlu!

Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni dərindən sarsıtdı. Görkəmli dövlət xadimi, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qardaşlıq, mehriban qonşuluq münasibətlərinin inkişafına misilsiz töhfə vermiş bir insan həyatdan getdi. Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə həmişəlik qalacaqdır.

Möhtərəm İlham Heydər oğlu, ən səmimi başsağlığımı qəbul etməyinizi xahiş edirəm.

***Vladimir YAKOVLEV,***
***Rusiya Federasiyası hökuməti sədrinin müavini.***

Hörmətli cənab Prezident!

Heydər Əliyevin vəfatından dərin hüznlə xəbər tutdum. Uzun illər bizi sıx qarşılıqlı anlaşma və qarşılıqlı hörmət telləri bağlamışdır. Şəxsən Sizin üçün, bütün Azərbaycan Respublikası üçün və onun xalqı üçün əvəzsiz itki ilə əlaqədar ən səmimi və dərin hüznlü başsağlığımı qəbul edin.

Əminəm ki, müdrik siyasətçi, enerjili rəhbər, qayğıkeş ata olmuş Heydər Əliyevin xatirəsi qəlbimizdə həmişəlik qalacaqdır.

***Yeqor STROYEV,***
***Rusiya Federasiyası Federal Məclisi, Federasiya***
***Şurasının fəxri sədri, MDB-nin üzvü olan ölkələrin***
***Parlamentlərarası Assambleyasının fəxri sədri,***
***Rusiyanın Oryol vilayətinin qubernatoru.***

Həyatdan elə bir insan getdi ki, onun çoxşaxəli fəaliyyəti öz ölkəsinin və xalqının rifahının yüksəldilməsinə yönəldilmişdi, onun sayəsində Azərbaycanda sülh və həmrəylik bərqərar olmuşdur, dövlətçilik möhkəmlənmiş və yeni inkişaf tapmış, iqtisadi sahədə mühüm islahatlar aparmışdır.

Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırlar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirimizdə həmişəlik qalacaqdır.

***Məhəmmədəli MƏHƏMMƏDOV,***
***Dağıstan Respublikası Dövlət Şurasının sədri.***

Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir.

Müdrik siyasətçi olaraq o, ən mürəkkəb vəziyyətdə konstruktiv qərarlar tapmağı bacarırdı. Təkcə Azərbaycan deyil, həm də postsovet məkanının bütün ölkələri nüfuzlu dövlət liderini itirdilər.

Heydər Əlirza oğlunun vəfatı Tatarıstan Respublikası sakinlərinin ürəyini göynətdi. Biz itkinin acısını qardaş Azərbaycan xalqı ilə bölüşürük və Azərbaycan Respublikasına sülh və tərəqqi arzulayırıq. Bu, bütün ömrünü öz xalqının xoşbəxtliyinə və firavanlığına həsr etmiş o gözəl insana ən yaxşı abidə olacaqdır.

*Mintimer ŞAYMİYEV,*
*Tatarıstan Respublikasının prezidenti.*

Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır.

Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsi qəlbimizdə həmişəlik qalacaqdır.

*Murtuza RƏHİMOV,*
*Başqırdıstan Respublikasının prezidenti.*

İnquşetiya xalqı Heydər Əlirza oğlunun vəfatı xəbərini dərin hüznlə qarşılamışdır. Heydər Əlirza oğlu qeyri-adi, genişmiqyaslı insan, ən görkəmli siyasətçilərdən biri idi. O, prinsipiallığı, yüksək vətəndaş mövqeyi, siyasi müdrikliyi, cəsarətliliyi və son dərəcə alicənablığı ilə həmişə fərqlənirdi. Bu keyfiyyətlər onu hətta yaxından tanımayan adamlarda da ona daim hörmət hissi doğururdu. Dərdinizi azalda biləcək sözlər tapmaq çətindir. Bu, ağır və əvəzsiz itkidir.

*Murad ZYAZİKOV,*
*İnquşetiya Respublikasının prezidenti.*

Heydər Əlirza oğlu Əliyev Azərbaycanın və keçmiş SSRİ-nin sosial-iqtisadi və mədəni həyatına, həqiqətən, tarixi töhfə vermişdir. Rusiyanın və Azərbaycanın mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı münasibətlərinin yeni tarixi şəraitdə bərpasında onun rolunu, bütün Rusiyada olduğu kimi, Osetiya-Alaniyada da yüksək qiymətləndirirlər.

Ən məsul qərarların qəbulu zamanı onun ölçüb-biçilmiş mövqeyi Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, Müstəqil Dövlətlər Birliyinin təkmilləşməsinə kömək edirdi.

*Aleksandr DZASOXOV,*
*Şimali Osetiyi-Alaniya Respublikasının prezidenti.*

Hörmətli İlham Heydər oğlu!

Atanızın - Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri Kabarda-Balkariyada hüzn və kədər hissi ilə qarşılanmışdır. Bu ağır itki ilə əlaqədar Kabarda-Balkar Respublikasının parlamenti və hökuməti, xalqı adından Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Heydər Əlirza oğlunun nurlu xatirəsi qəlbimizdə uzun illər qalacaqdır.

*Valeri KOKOV,*
*Kabarda-Balkar Respublikasının prezidenti.*

Heydər Əliyevin vəfatı Rusiya və Azərbaycanın qardaşlıq münasibətlərini əziz tutanların hamısı üçün ağır zərbədir. Heydər Əlirza oğlu bu münasibətlərin inkişafına çox böyük töhfə vermişdir.

Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimlə bağlı xatirələri qəlbimdə həmişəlik saxlayacağam.

Kalmıkiya Respublikasının xalqı və rəhbərliyi bu itki ilə əlaqədar Azərbaycan xalqının kədərinə şərik çıxır və əmin olduqlarını bildirirlər ki, doğma ölkəsinin tərəqqisinə çalışmış Heydər Əlirza oğlu Əliyevin işi davam etdiriləcəkdir.

*Kirsan İLYUMJİNOV,*
*Kalmıkiya Respublikasının prezidenti,*
*FİDE-nin prezidenti.*

Görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni sarsıtdı. Həqiqi milli lider olaraq, o, Azərbaycan xalqının, bütün dünya birliyinin layiqli hörmətini qazanmışdı. Rusiyanın və Azərbaycanın dostluq, tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə və inkişafına onun verdiyi töhfəni qiymətləndirmək çətindir.

Bu güclü və cəsur insanı tanıyanların hamısı onun nurlu xatirəsini qəlbində saxlayacaqdır.

***Boris YELTSİN,***
***Rusiya Federasiyasının sabiq prezidenti.***

Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın tam müstəqilliyə qovuşmasında çox böyük xidmətləri olan hörmətli Heydər Əliyevin vəfatı həm ölkəniz, həm ölkəmiz, həm bütün dünya üçün böyük itkidir.

Hörmətli Heydər Əliyevin dediyi kimi, bir millət, iki ayrı dövlətik.

Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir.

Təkcə Azərbaycanda yox, bütün Qafqazda sülh və demokratiyanın inkişafında xidmətləri olan hörmətli Heydər Əliyev heç vaxt unudulmayacaqdır. İnanıram ki, hörmətli Heydər Əliyevin dəyəri ölkəsində, bölgədə və hətta dünyada günü-gündən daha yaxşı anlaşılacaqdır.

***Bülənd ECEVİT,***
***Demokratik Sol Partiyasının sədri.***

Zati-aliləri İlham Əliyev!

Cənab Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi. Sizə, qohum-əqrəbanıza və Azərbaycan Respublikasının bütün xalqına dərin hüznlə başsağlığı verirəm. Bakıdakı görüşümüzü, katolik kilsəsinə Sizin münasibətinizi məmnuniyyətlə xatırlayıram.

Allah-Təala öz lütfünü ailənizdən, şəxsən zati-alinizdən və bütün Azərbaycan xalqından əsirgəməsin, beynəlxalq birliyin bütün üzvlərinə sülh və həmrəylik bəxş etsin.

***II İohan PAVEL,***
***Roma Papası.***





Əziz cənab Prezident!

Atanız, prezident Heydər Əliyevin həyatını dəyişməsi ilə bağlı Sizin üçün və dost Azərbaycan xalqı üçün bu çətin anlarda mən Sizi əmin edirəm ki, biz də eynilə tam təəssüf dolu günləri yaşayırıq. Mən Sizə ən səmimi kədər hisslərimi bildirirəm.

Əminəm ki, Azərbaycan Respublikası vətəndaşlarının ətrafınızda sıx birləşərək həyan olması Sizə bu çətin anları yaşamağa güc verəcək. Mən Sizi əmin edirəm ki, bu ağır günlərdə təəssüf dolu fikirlərim Sizinlədir.

***İon İLİYESKU,***
***Ruminiyanın prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

İsveçrə rəhbərliyi zati-aliləri prezident cənab Heydər Əliyevin qəfil vəfatını öyrəndikdə böyük sarsıntı keçirdi.

Bu, olduqca kədərli hadisə ilə bağlı mən istərdim ki, şəxsən Sizə ən dərin kədərimi ifadə edim və Azərbaycan Respublikası hökumətinə səmimi başsağlığı yetirim.

Zati-aliləri, xahiş edirəm, mənim ən yüksək diqqət hisslərimə əmin olasınız.

***Paskal KUŞPEN,***
***İsveçrə Konfederasiyasının prezidenti.***

Koreya xalqının yaxın dostu zati-aliləri prezident Heydər Əliyevin vəfatı barədə xəbəri kədərlə qarşıladım.

Heydər Əliyevin ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafında xidmətlərini yaddan çıxarmırıq və bu münasibətlərin gələcəkdə də inkişaf edəcəyinə ümid bəsləyirik.

***Kim Yen NAM,***
***Koreya Xalq Demokratik Respublikası***
***Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfatı xəbərini dərin hüzn hissi ilə qarşıladım.

Kədərinizə şərik olur, Sizə səbir və təskinlik diləyirəm.

Allah rəhmət eləsin!

***Polkovnik Müəmmər əl-QƏZZAFİ,***
***Liviya inqilabının rəhbəri, Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsinin başçısı.***

Müstəqilliyin ilk illərində Azərbaycanda sabitlik yaradılmasında cənab Heydər Əliyevin rolu yaxşı məlumdur. Onun güclü liderliyi sayəsində Azərbaycan dünya dövlətləri arasında öz mövqeyini təsdiq edə bildi. O, həm də iqtisadi inkişaf və sərmayələr üçün yeni imkanlar açılması işinə töhfə verdi.

Mən ümidvaram ki, cənab Heydər Əliyevin irsi firavan və demokratik Azərbaycan qurulması üçün möhkəm əsas olacaq, bu irsdən ölkənin xalqı bəhrələnəcəkdir.

***Jan LEMYER,***
***Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti.***

Heydər Əliyevin əfsanəvi yorulmaz iş qabiliyyəti var idi, amma təəssüf ki, həyatdan getdi. O, Azərbaycanın müstəqilliyini qüvvətləndirən və ölkənin Avropa ilə, xüsusən Avropa Şurası ilə əlaqələrini möhkəmləndirən şəxsiyyət kimi həmişə yadda qalacaqdır.

***Piter ŞİDER,***
***Avropa Şurası Parlament Assambleyasının sədri.***

Prezident Heydər Əliyev müstəqil Azərbaycanın dünyanın demokratik dövlətlər ailəsinə birləşmək mövqeyinin təşəbbüskarı oldu. Bizim institut bu mövqe ilə həmfikirdir. Biz onun Milli Demokratiya İnstitutuna və Bakıya gəlmiş hər bir üzvümüzə göstərdiyi diqqətli və mehriban münasibətinə hörmətlə yanaşırıq. Onun həyat yolu daim xatirələrdə yaşayacaqdır.

***Səfir Nelson LEDSKİ,***
***ABŞ Milli Demokratiya İnstitutunun Avrasiya üzrə regional direktoru.***





Hörmətli cənab İlham Əliyev!

Ötən həftənin sonunda atanızın və Azərbaycanın eks-prezidentinin vəfatı haqqında aldığım xəbər məni dərindən kədərləndirdi.

Bunun Azərbaycan xalqı üçün və şəxsən Sizin üçün nə qədər böyük itki olduğunu mən yaxşı başa düşürəm.

Eyni zamanda fürsətdən istifadə edərək, ötən həftə etdiyiniz səfərə və apardığımız maraqlı fikir mübadiləsinə görə Sizə minnətdarlığımı bildirirəm.

Bu kədərli anlarda səmimi başsağlığımı qəbul etməyinizi Sizdən xahiş edirəm.

***Ruud LÜBBERS,***
***Birləşmiş Millətlər Təşkilatının qaçqınların işi üzrə ali komissarı.***

Öz xalqının böyük oğlu, XX yüzilliyin ən parlaq siyasi xadimlərindən biri, müdrik və uzaqgörən bir insan həyatdan getmişdir.

Bu, təkcə onun sədaqətlə xidmət etdiyi Azərbaycan və Azərbaycan xalqı üçün deyil, həm də bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

***Sergey ORCONİKİDZE,***
***BMT baş katibinin müavini, BMT-nin Cenevrə bölməsinin baş direktoru.***

Son illər Heydər Əliyevlə bir neçə dəfə görüşmək şərəfinə nail olmuşam. Heydər Əliyev, onu tanıyanların hamısı kimi, mənim də xatirəmdə təkcə var qüvvəsini öz ölkəsinin və Azərbaycan xalqının rifahına həsr etmiş bir dövlət xadimi kimi deyil, həm də yeni ideyalara və dialoqa həmişə hazır olmaqla, öz əqidəsinə sadiq qalan prinsipial bir insan kimi yaşayacaqdır.

***Canni BUKİKKİO,***
***Hüquqi Demokratiya üzrə Avropa Komissiyasının katibi.***

Heydər Əliyev bizim yaddaşımızda Azərbaycan xalqının ləyaqətli, bütün həyatını ölkəsinin inkişafına və çiçəklənməsinə həsr etmiş oğlu kimi qalacaqdır. Son on ildə Azərbaycandakı demokratik dəyişikliklər məhz

onun adı ilə bağlıdır və o, haqlı olaraq müasir Azərbaycanın memarı hesab edilir.

Heydər Əliyev öz ölkəsinin hüdudlarından kənarda, beynəlxalq aləmdə də böyük nüfuz və hörmət sahibi olan parlaq siyasətçi kimi tanınmışdır.

Biz Bolqarıstan xalqının böyük dostunun həyatdan getməsinə səmimi qəlbdən kədərlənirik.

***Sergey STANİŞEV,***
***Bolqarıstan Sosialist Partiyası Ali Şurasının sədri.***

Heydər Əliyev haqlı olaraq öz xalqının milli qəhrəmanı kimi tanınmışdır. Onun adı dünya tarixinə də həmişəlik yazılacaqdır. O, müdrikliyi, prinsipiallığı, gözəl insani keyfiyyətləri ilə fərqlənirdi. O, Azərbaycana epoxaların ayırıcında başçılıq edərək, kəşməkəşli, çox çətin illərdə Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirdi.

***L. SLUTSKİ,***
***RF Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsi sədrinin müavini.***

Adını uşaqlıq illərindən bildiyin insan haqqında keçmiş zamanda danışmaq çətindir və ürək ağrıdır. Ömrünün uzun illərini ümumi Vətənimizə xidmət etmiş Sovet İttifaqının görkəmli dövlət xadimi Azərbaycana çətin vaxtlarda başçılıq etmişdir.

Bəzi siyasətçilərə ağıl-zəka ilə, digərlərinə qəlbən səs verirlər. Azərbaycan xalqı Heydər Əlirza oğlunu həm ağıl-zəka ilə, həm də qəlbən seçmişdi. Öz Vətəninə həddsiz sadiq olan Heydər Əlirza oğlu özünü tamamilə və bütünlüklə Azərbaycana həsr etmiş və Azərbaycanın ulduzunun dünya səmasında parlaması üçün hər şeyi etmişdir. Şübhə yoxdur ki, onun başladığı və nəzərdə tutduğu bütün işlər həyata keçəcəkdir.

Heydər Əlirza oğlu siyasi konyunkturanı bir kənara ataraq, Azərbaycan-Rusiya münasibətlərini uzunmüddətli strateji təməl üzərində qurmuş, xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə vermişdir.

***Sergey STEPAŞİN,***
***Rusiya Federasiyası Hesablama Palatasının sədri.***





Çox hörmətli cənab Prezident!

Atanızın - öz Vətəninin böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar böyük sarsıntı və kədər hissi keçirdiyiniz anda Sizə və Azərbaycan Respublikası xalqına dərin hüznlə başsağlığı veririk.

Onun vəsiyyətlərini və əbədi xatirəsini heç vaxt unutmayacağıq və bunlar hər iki xalqın rifahı naminə görüləcək bütün işlərə işıq saçacaqdır.

Dərin hörmətlə,

***Miroslava QRNÇİRJOVA,***
***Çexiya İxrac Bankı Direktorlar Şurasının üzvü.***

Heydər Əliyevin vəfatı barədə kədərli xəbər bütün dağıstanlıların qəlbini dərindən göynətdi. Görkəmli dövlət xadimi, müasir Azərbaycan dövlətinin banisi, beynəlxalq aləmdə tanınmış lider və siyasətçi Heydər Əliyevin vəfatı təkcə Azərbaycan və Qafqaz üçün deyil, bütün dünya birliyi üçün də əvəzsiz itkidir. Öz həyatı və misilsiz çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın bugünkü və gələcək tərəqqisinə yol açan Heydər Əliyevin nurlu siması və adı qədirbilən nəsillərin xatirəsində həmişəlik qalacaq və tarixdə ən fəxri yer tutacaqdır. Öz qonşuları azərbaycanlıların bütün dərd-qəmini həmişə ürəkağrısı ilə qarşılayan dağıstanlılar bu ağır itkinin kədərinə şərikdirlər.

***Xizri ŞIXSƏİDOV,***
***Dağıstan hökumətinin sədri.***

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan və Dağıstan xalqları arasında ənənəvi dostluq əlaqələrinin möhkəmlənməsi üçün çox işlər görmüş, özünü müdrik, uzaqgörən siyasi xadim və dövlət xadimi kimi tanıtmış Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri Dağıstanda dərin kədər hissi ilə qarşılandı.

Bu matəm günlərində Sizə, ailənizə, bütün Azərbaycan xalqına səmimi başsağlığı verirəm və ağır itki ilə əlaqədar hüzn və kədər hissinizi bölüşürəm.

***N. HAYDAROV,***
***Dağıstan Respublikası Xalq Məclisi sədrinin müavini.***

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!
Çox hörmətli Prezident, əziz dost!

Sevimli dostum, məni Vətənimə qaytarmış Böyük İnsanın - Heydər Əlirza oğlu Əliyevin vəfatından sarsılmışam.

Mən bu itkidən bütün Azərbaycan xalqı ilə birlikdə kədərlənirəm.

Bu çətin vaxtda mən Sizə atanızın müəyyənləşdirdiyi yolla xalqınızı firavanlığa və xoşbəxtliyə doğru aparmağı davam etdirmək üçün qüvvə və cansağlığı arzulayıram.

***Mstislav ROSTROPOVİÇ.***

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm atanızın - Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığımı qəbul edin. Bu kədərli gündə mən Heydər Əlirza oğlunu müdrik dövlət rəhbəri kimi və sadəcə olaraq, gözəl insan və öz ölkəsinin vətəndaşı kimi xatırlayıram.

Əminəm ki, Azərbaycan Respublikasının ali dövlət vəzifəsində atanızın layiqli varisi kimi Siz Heydər Əlirza oğlunun başladığı və gözəl ölkənizin tərəqqisinə, xalqlarımız və dövlətlərimiz arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə yönəldilmiş xəttini davam etdirəcəksiniz.

***Aleksandr KORJAKOV,***
***Rusiya, Dövlət Dumasının Müdafiə Komitəsi sədrinin müavini, general-leytenant.***

Biz, həqiqətən, Böyük İnsanı, Qoca Qafqazın məğrur oğlunu itirdik. Heydər Əlirza oğlu azərbaycanlıların, qafqazlıların və bütün xoşməramlı insanların xatirəsində şərəf, vətənpərvərlik, öz Vətəninə və xalqına məhəbbət rəmzi kimi qalacaqdır.

***Q. MAXAÇOV,***
***Rusiya Dövlət Dumasının deputatı.***

Heydər Əliyevin bütün həyat yolu xalqa fədakarcasına xidmətə parlaq nümunədir. Onun yüksək insani keyfiyyətləri, peşəkarlığı, ölkələrimizin əməkdaşlığının, dövlətlərimizin xalqlarının qarşılıqlı anlaşmasının dərinləşməsi sahəsində yorulmadan göstərdiyi fəaliyyət Rusiyada həmişə böyük rəğbət və minnətdarlıq hissləri doğururdu.

***Aleksandr TORŞİN,***
***RF Federal Məclisinin Federasiya Şurası sədrinin müavini.***

Hörmətli cənab Prezident!

Görkəmli dövlət xadimi, bütün həyatını Azərbaycan xalqına xidmətə həsr etmiş Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığımı qəbul edin. Ailənizə, Heydər Əlirza oğlunun dostlarına və yaxınlarına başsağlığı verirəm.

***Gennadi ZYUQANOV,***
***Rusiya Dövlət Dumasında fraksiya rəhbəri.***

Azərbaycan xalqına üz vermiş əvəzsiz itki - bütün dünyada tanınmış görkəmli siyasi xadim Heydər Əliyevin həyatdan getməsi ilə əlaqədar şəxsən öz adımdan və sıralarında Rusiya və xarici ölkələrin hüquqşünaslarını birləşdirən Beynəlxalq Hüquqşünaslar İttifaqı və Rusiya Hüquqşünaslar İttifaqı adından başsağlığı verirəm. Heydər Əliyev ilə Moskvada və Bakıda keçirdiyimiz görüşlərdən və söhbətlərdən aldığım unudulmaz təəssürat xatirimdə həmişəlik qalacaqdır.

***A. TREBKOV,***
***Beynəlxalq Hüquqşünaslar İttifaqının sədri, Rusiya Hüquqşünaslar İttifaqının prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Sizin atanız prezident Heydər Əliyevin vəfatı xəbərini böyük sarsıntı və kədər hissi ilə aldım.

Qvineya xalqı və hökuməti Sizin ağrı və kədərinizi ürəkdən bölüşürlər.

İcazə verin, Sizə, ailənizə və Azərbaycan xalqına səmimi başsağlığımı bildirim.

***General Lansana KONTE,***
***Qvineya Respublikasının Prezidenti.***

Mərhum Heydər Əliyevin bacarıqlı və geniş üfüqlü rəhbərliyi sayəsində indi Azərbaycan xarici siyasətdə sabitlik amili olaraq çıxış edən, iqtisadi inkişafını sürətlə davam etdirən, beynəlxalq birlikdəki nüfuzlu mövqeyini getdikcə möhkəmlətməkdə olan ölkəyə çevrilmişdir. Ölkənizdəki ictimai rifah və əmin-amanlığın memarı olan hörmətli Heydər Əliyevi itirməyimiz Türkiyə cəmiyyəti üçün də dərin kədər olmuşdur.

Ölkələrimiz arasında mövcud olan qarşılıqlı sevgi, hörmət və qardaşlığa söykənən münasibətlərimiz, əsasən, mərhum Heydər Əliyevin əsəri kimi xatırlanacaqdır.

***Əbdülqədir AKSU,***
***Türkiyə Respublikasının daxili işlər naziri.***

Hörmətli İlham Heydər oğlu!

Qardaş Azərbaycan xalqına üz vermiş kədəri - prezident Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı xəbərini ürək ağrısı və hüznlə qarşıladım. O, Sizin üçün ata, dost, yolgöstərən və həmkar idi. Yeni Azərbaycanın təşəkkülündə və inkişafında onun başladığı işləri davam etdirməyə Sizin tarixi imkanınız var.

***Viktor KALYUJNI,***
***Rusiya Federasiyası xarici işlər nazirinin müavini,***
***Rusiya prezidentinin Xəzər dənizinin statusunun tənzimlənməsi məsələləri üzrə xüsusi nümayəndəsi.***

Əlbəttə, Heydər Əliyev bütün dünyanın yaddaşında yeni müstəqillik qazanmış Azərbaycan Respublikasını vətəndaş müharibəsindən və parçalanmadan xilas etmiş, neft sektoruna xarici sərmayə qoyuluşu üçün Azərbaycanın qapılarını açmış və beləliklə, öz ölkəsinin davamlı sosial-iqtisadi inkişafı üçün əlverişli şərait yaratmış adam kimi qalacaqdır.

Heydər Əliyevin sabit, iqtisadi cəhətdən sağlam, sosial cəhətdən ədalətli və siyasi cəhətdən plüralist cəmiyyət qurmaq siyasətinin davamı onun üçün ən böyük abidədir.

***Antonius U. De VRİS,***
***Avropa Komissiyasının Azərbaycan Respublikasındakı xüsusi elçisi.***





Heydər Əliyevin vəfatı ilə əlaqədar öz adımdan və "Boinq" şirkəti adından Azərbaycan xalqına səmimi başsağlığı verirəm.

Prezident Heydər Əliyev dövlət xadimi kimi ilhamlandırıcı liderliyinə görə ehtiram, Azərbaycanın fenomenal inkişafına rəhbərliyinə görə hörmət sahibi idi. Məhz onun rəhbərliyi ilə "Boinq" şirkətinə Azərbaycanın aviasiya sektorunun inkişafında iştirak etmək üçün imkan yaradıldığını yüksək qiymətləndiririk.

***Alan MULALLİ,***
***"Boinq" kommersiya təyyarələri şirkətinin prezidenti və baş icraçı direktoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Sevimli atanızın vəfatı xəbəri bizi dərindən kədərləndirdi.

"Mitsubişi" korporasiyası adından zati-alinizə və Azərbaycan xalqına səmimi başsağlığı vermək istərdim.

O, dövləti idarə etmək məharəti ilə respublikaya tərəqqi və sabitlik bəxş etmişdir. Biz inanırıq ki, Sizin güclü liderliyinizlə böyük ölkəniz daha da inkişaf edəcəkdir.

***Mikio SASAKİ,***
***"Mitsubişi" korporasiyasının prezidenti və baş icraçı direktoru.***

Əziz cənab Prezident!

Zati-aliləri Heydər Əliyevin vəfatı xəbərini ürək ağrısı ilə öyrəndim. Prezidentliyi dövründə onun yorulmaz səyləri sayəsində Azərbaycan yeni, müstəqil ölkə kimi inkişaf etmiş, öz iqtisadi potensialını gücləndirmiş və beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Bu kədərli hadisə ilə əlaqədar Sizə, ailənizə və Azərbaycan xalqına ürəkdən başsağlığı verirəm.

***Fits ZURBRÜQQ,***
***Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə icraçı direktoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Böyük siyasətçi, millətin atası Heydər Əliyevin vəfatı ilə əlaqədar "Neksus qrup" şirkəti Sizə və bütün Azərbaycan xalqına səmimi başsağlığı verir.

***Tom QUDLAD,***
***İsveçin "Neksus qrup" şirkətinin baş direktoru.***

Dost və qardaş Azərbaycanın böyük öndəri, müstəqillik və demokratiya abidəsi prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar böyük kədər içindəyik. Bir türk iş adamı kimi səkkiz il əvvəl Azərbaycana gəldiyim ilk gündən etibarən işlərimə daim dəstək verən, yolumu açan və məni cəsarətləndirən, Azərbaycan aşiqi olan bu böyük öndərin xatirəsi önündə hörmətlə baş əyirəm.

Yeganə təsəllim Azərbaycanın gələcəyinə olan inamımdır.

***Hüseyn BAYRAQDAR,***
***"Bayraqdar Holdinq"in İdarə heyətinin fəxri sədri.***

Hörmətli İlham Əliyev!

Çox qiymətli dövlət xadimi, dəyərli şəxsiyyət, gözəl insan, atanız Heydər Əliyevin vəfatı ilə əlaqədar kədərimiz dərindir. Mən öz adımdan və təmsil etdiyim ENKA şirkəti adından Sizə, bütün ailənizə və Azərbaycan xalqına başsağlığı verir, böyük ağrınızı bölüşürəm.

***Şarık TARA,***
***ENKA şirkətinin prezidenti (İstanbul).***

Böyük dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri, möhtərəm Heydər Əliyevin əbədiyyətə qovuşması xəbərini eşidəndə dərin sarsıntı və üzüntü keçirdim.

Doğma Azərbaycanımızın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi böyük Heydər Əliyevə bütün dünyada əbədi şöhrət qazandırmışdır.

***Dağıstan TURANLI,***
***Türkiyənin "DNT Holdinq" şirkətinin prezidenti.***





Hörmətli Prezident!

Azərbaycan Respublikasının böyük öndəri, türk dünyasının çox dəyərli nümayəndəsi Heydər Əliyevin əbədiyyətə qovuşması hamımızı çox kədərləndirmişdir. Qəbri nurla dolsun, Allah rəhməti üzərində olsun. Zatialiniz başda olmaqla, bütün ailə üzvlərinizə və qardaş Azərbaycan xalqına səmimi hisslərlə başsağlığı verir, ən dərin hörmət və ehtiramlarımı çatdırıram.

***Professor A. Yüksəl BOZƏR,***
***Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin baş katibi .***

Dəyərli dövlət adamı Heydər Əliyevin vəfat etməsi xəbəri İraq türkmənləri arasında böyük üzüntüyə səbəb olmuşdur.

Türk millətləri dünyanın böyük bir övladını itirmişlər. Mərhuma Ulu Tanrıdan rəhmət diləyir, qardaş Azərbaycanın prezidenti möhtərəm İlham Əliyevə və bütün türk dünyasına başsağlığı verirəm.

***İbrahim BAYRAQDAR,***
***İraq Türkmənləri Məclisinin üzvü.***

Hörmətli İlham Heydər oğlu!

Hamımızın sevimlisi Heydər Əlirza oğlunun vəfatı ilə əlaqədar Sizə və ailənizə, habelə bütün Azərbaycan xalqına səmimi başsağlığı verirəm.

O, qəlbimizdə firavanlıq, əmin-amanlıq və nurluluq rəmzi kimi həmişəlik qalacaqdır.

***Futbol üzrə olimpiya çempionu***
***İqor PONOMARYOVUN ailəsi (Stokholm).***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin vəfatı haqqında kədərli xəbəri hüznlə öyrəndim.

Müstəqil Azərbaycan dövlətinin quruculuğuna onun verdiyi töhfə yaxşı məlumdur. Onun Hindistana bəslədiyi səmimi və dostluq hissləri ilə bağlı

xatirələr də bizim üçün əzizdir. Hindistan xalqı adından və öz adımdan Sizə səmimi qəlbdən başsağlığı verirəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

***A. P. C. Əbdül KƏLAM,***
***Hindistan Respublikasının prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Müstəqil Azərbaycanın müasir tarixində əvəzedilməz rol oynamış insanın vəfatı ilə bağlı Sizə, ailənizə və Azərbaycan xalqına səmimi qəlbdən başsağlığı vermək istərdim.

***Vatslav KLAUS,***
***Çexiya Respublikasının prezidenti.***

Mən mərhum prezident Heydər Əliyevin qonağı kimi Azərbaycana rəsmi səfər etmişdim. Onun əzab çəkən və acınacaqlı vəziyyətdə yaşayan qaçqınları sevərək, onlara qayğı ilə xidmət etdiyini lap yaxından gördüm. Mən həm də Azərbaycanın yenidən qurulması üçün atılan addımları gördüm.

Heydər Əliyev əvvəl Sovet İttifaqı rəhbərliyində olarkən, sonra isə müstəqillik zamanı xalqına uzun müddət xidmət etmişdir. O, daim minnətdarlıqla xatırlanacaqdır.

***Faruq Əhməd Xan LEQARİ,***
***Pakistan İslam Respublikasının keçmiş prezidenti.***





## AZƏRBAYCANIN MİLLƏT VƏKİLLƏRİNİN XALQA MÜRACİƏTİ

Bu günlər xalqımız dərin hüzn və sonsuz kədər içindədir. Dünya miqyasında tanınmış siyasi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin vəfatı bütün Azərbaycanı sarsıtmışdır. Xalqımız öz tarixi ərzində yetişdirdiyi ən böyük övladını itirməsinin ağrı-acısını yaşayır.

Bu ağır itki ilə əlaqədar indi dünyanın nəzərləri Azərbaycana dikilib. Öz həyatı və fəaliyyəti ilə dünya miqyaslı şəxsiyyət olduğunu dönə-dönə sübuta yetirmiş Heydər Əliyevin cismən bizdən ayrılması təkcə Azərbaycan xalqının deyil, həm də dünya azərbaycanlılarının, türk dünyasının, Yer üzündə bu nadir şəxsiyyəti tanıyan bütün insanların qəlbini kədərlə doldurmuşdur.

Bu matəm günlərində Azərbaycan xalqı Heydər Əliyevin Vətən və millət qarşısında tarixi xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayır. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin möhtəşəm fəaliyyəti ilə bağlıdır. Bütün ömrünü Azərbaycan dövlətinin qorunmasına, möhkəmlənməsinə və inkişafına həsr etmiş, tariximizin ən böyük simalarının ön cərgəsində dayanmaq haqqı qazanmış Heydər Əliyev XX əsrin sonlarında və XXI əsrin əvvəllərində ölkəmizin bütün sahələrdə əldə etdiyi nailiyyətlərin ilhamverici və təşkilatçısı olmuşdur. Onun dünya siyasət xəzinəsinə daxil olmuş altmış illik nəhəng fəaliyyəti Azərbaycan xalqının əsrlər boyu ürəyində yaşatdığı müstəqil dövlətçilik arzusunun gerçəkliyə çevrilməsində müstəsna rol oynamışdır.

1969-1982-ci illərdə Heydər Əliyevin dahiyanə idarəçilik qabiliyyəti, strateji təfəkkürü və irəlini görmək məharəti sayəsində Azərbaycan böyük bir inkişaf yolu qət edərək keçmiş ittifaqın qabaqcıl respublikaları sırasına çıxdı. Bu illər tariximizə siyasi, iqtisadi, mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqımızın milli mənlik şüurunun oyanışına güclü təkan verdi. Məhz həmin dövrdə imperiya tərkibində olmağımıza baxmayaraq, Azərbaycanın gələcək siyasi və dövlət müstəqilliyi üçün əsaslı zəmin və möhkəm bünövrə yaradıldı.

Azərbaycanın "olum, ya ölüm" ayrıcında dayandığı, azadlığımızın və müstəqilliyimizin müdhiş təhlükə ilə üzləşdiyi 1993-cü ilin vahiməli iyun günlərində xalqın təkidli xahişi və tələbi ilə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanı məhv olmaq fəlakətindən xilas etdi və xalqımızın Milli Qurtuluş günü kimi tarixə yazıldı. Ümummilli liderimiz "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib, Vətən və xalq naminə çox ağır və məsuliyyətli vəzifəni öhdəsinə götürdü və bu yolda canını belə əsirgəmədi.

Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti doğma xalqına sədaqətlə xidmət etmək, onun yolunda hər cür fədakarlığa hazır olmaq timsalına çevrilmişdir. 1993-cü ildən 2003-cü ilədək olan on il ərzində onun misilsiz siyasi iradə, əzm və qətiyyəti sayəsində Vətən və xalq naminə həyata keçirdiyi işləri sadalamaqla qurtarmaq olmaz. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev dühası, Heydər Əliyev qayğısı, Heydər Əliyev yanğısı silinməz izlər salmasın.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu olduğu kimi, bugünkü Azərbaycan parlamentinin də banisidir. Ölkəmizdə qurulmuş hüquqi dövlətin bütün elementləri ilə yanaşı, Konstitusiyamız da, Milli Məclisimiz də onun yaradıcı zəkasının bəhrələridir. Ötən illər ərzində biz, Milli Məclisin deputatları, ölkəmizə peşəkar qanunvericilik orqanının formalaşması üçün Heydər Əliyevin çəkdiyi böyük zəhmətin şahidləriyik. Müstəqil dövlətimizin hüquqi bazasının yaradılıb inkişaf etdirilməsində onun əvəzsiz rolu olmuşdur.

Heydər Əliyevin Azərbaycan qarşısında xidmətlərindən biri də öz siyasi varisi İlham Əliyevi ərsəyə çatdıraraq müstəqil dövlətimizin ardıcıl inkişafı üçün zəmin yaratmasıdır. Azərbaycan xalqı İlham Əliyevi Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi, onun başladığı taleyüklü işlər və perspektivli planları başa çatdırmağa və indiyədək həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasəti davam etdirməyə qadir olan, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən dərin zəkalı, təşəbbüskar bir şəxsiyyət kimi tanıyır. Möhtərəm İlham Əliyevin Azərbaycan Respublikasının prezidenti vəzifəsində atdığı ilk addımlar, gördüyü məqsədyönlü işlər Heydər Əliyev yolunu, Heydər Əliyev siyasi xəttini layiqincə davam etdirdiyini göstərir.

Əziz Azərbaycan xalqı!

Biz, Milli Məclisin deputatları, bu ağır günlərdə sizi səbirli və dəyanətli olmağa çağırırıq. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan





Respublikasının cənab Prezidenti İlham Əliyevə və onun ailəsinə, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir.

Heydər Əliyevin ömrünü fəda etdiyi Azərbaycanımızı əbədi yaşatmaq üçün indi biz hamımız bir olmalıyıq. Azərbaycanın dünəni də, bu günü də, sabahı da Heydər Əliyevin ölməz adı və əbədiyaşar əməlləri ilə bağlıdır. Heydər Əliyevin əziz və unudulmaz xatirəsi qarşısında borcumuz və vəzifəmiz prezident İlham Əliyevin ətrafında sıx birləşərək Heydər Əliyev dühasının bəhrəsi olan müstəqil və qüdrətli Azərbaycan Dövlətini qorumaq və daha da inkişaf etdirməkdir. Bu yolda Tanrı Azərbaycan xalqına yar olsun!

***Azərbaycan Respublikasının Milli Məclisi***

**(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2003-cü il 14 dekabr tarixli iclasında qəbul edilmişdir).**

## XALQIN BAŞ ZİYARƏTGAHI

Heydər Əliyev Fəxri Xiyabanda dəfn edildikdən sonra sözün həqiqi mənasında həmin ünvan azərbaycanlıların baş ziyarətgahına çevrildi. Dəfndən sonrakı gündən etibarən hər sübh tezdən Fəxri Xiyabana insan axını başlayırdı. Yuxusuna haram qatan adamlar sevimli rəhbərlərini ziyarət etmək üçün obaşdan buraya gəlirdilər. Qoca, cavan, qadın, uşaq, hərbçi və mülki insanlar...

Onların hamısının ürəyi dolu idi:

**Mingəçevir şəhər sakini Dərgah Mehdiyev:** - Hər dəfə zati-aliləri Heydər Əliyevi teleradio yayımlarında dinləyəndə, görəndə onun məğrur duruşundan, qətiyyətli ifadə tərzindən qürur hissi duyardım. Mən özümü böyük şəxsiyyətin yetirməsi hesab etmişəm. Məhz cənab Heydər Əliyevin qayğısı sayəsində təhsil almışam. Dahi insanın bu sözləri ömrüm boyu yadımdan çıxmaz: “Mən azadlığın, bərabərliyin, qardaşlıq və sədaqətin təntənəsi üçün, yoxsulluq və haqsızlığın aradan qaldırılması üçün həyatımı qurban verməyə hazıram”. Mingəçevirlilər Heydər Əliyevin atalıq qayğısını çox görüblər. Biz heç vaxt onu unutmarıq.

**Tanınmış səhnə ustası Əliabbas Qədirov:** - Prezidentimiz ensiklopedik biliyə, bənzərsiz yaddaşa malik insan idi. İnanın, Azərbaycan dramaturgiyasını, milli teatrımızın keçdiyi əzablı yolları, ilk peşə fədailərinin talelərini, hansı təsirlərə, təhqirlərə məruz qaldıqlarını çox sənətşünasdan yaxşı bilirdi. Prezidentimizdən tez-tez eşidərdik: “Müqtədir aktyorların, rejissorların yandırdıqları çırağı sönməyə qoymayın. Çalışın tarixi ənənələrə sadiq qalasınız...”. Mən özüm hörmətli rəhbərimizin qayğısını çox görmüşəm. Onun diqqəti, təşəbbüsü sayəsində respublika Dövlət mükafatına layiq bilinmişəm. Belə xoşbəxtlik təkcə mənə yox, onlarla həmkarıma nəsib olmuşdur.

**“N” hərbi hissəsinin zabiti Oqtay Məmmədov:**

- Düz 10 il gecə-gündüz ordu quruculuğu ilə məşğul oldu. Əsgərdən başlamış generallara qədər hamımızı yeni uğurlara çağırdı, amma qələbəmizi görmədi. Ali Baş Komandanımız tez-tez bəyan edirdi ki, işğal olunmuş torpaqlarımızı sülh, danışıq yolu ilə geri qaytarmaq istəyirik. Əgər bu, mümkün olmazsa, bizim qüdrətli Silahlı Qüvvələrimiz bu işi öz öhdəsinə götürəcəkdir... Bu, həqiqətən də belədir. Ordumuz dünya standartlarına uyğun qurulmuşdur. Hər an düşmənə layiqli cavab vermək gücünə malikdir. Ölkə hərbçiləri Heydər Əliyevin etimadını doğrultmağa hər an hazırdılar.

Maraqlıdır ki, gecədən xeyli keçənədək Fəxri Xiyaban boşalmırdı. Hamı nəyin bahasına olursa-olsun, sevimli rəhbəri ilə vidalaşmağa can atırdı.

## DOST ZİYARƏTİ

Dekabrın 20-də Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığı vermək üçün Türkiyə Cümhuriyyətinin 9-cu prezidenti Süleyman Dəmirəl Bakıya gəldi.

Prezident Heydər Əliyevin vəfatının bütün türk dünyası üçün ağır itki olduğunu bildirən Süleyman Dəmirəl dedi:

- Azərbaycan xalqının böyük oğlu, böyük dövlət adamı, əziz qardaşım və dostum prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar hörmətli prezident İlham Əliyevə və onun şəxsində Azərbaycan xalqına başsağlığı verməyə gəldim. Mərhum Heydər Əliyev Azərbaycanın, Türkiyənin, türk dünyasının lideri idi. Bu dünyanın bütün insanlarına da başsağlığı verməyə gəldim.

Azərbaycan Prezidenti İlham Əliyev cənab Süleyman Dəmirələ təşəkkürünü bildirdi:

- Hörmətli cənab Prezident, gəldiyinizə görə sağ olun.

Həqiqətən, Azərbaycan xalqı, bütün türk dünyası üçün böyük itkidir. Heydər Əliyev ümummilli lider, Azərbaycan xalqının atasıdır.

Azərbaycan xalqı bu günədək özünə gələ bilməyib. Onun uyuduğu məzarın önünə yüz minlərlə insan gəlir və bu axının ardı-arası kəsilmir. Bu, bir daha göstərir ki, xalqımız onu nə qədər sevirdi, nə qədər böyük hörmət edirdi. Heydər Əliyevin xatirəsi bizim qəlbimizdə yaşayacaqdır.

Hamımızın - onun davamçılarının əsas vəzifəsi ondan ibarətdir ki, Heydər Əliyevin yolunu davam etdirək. Mən əminəm ki, Azərbaycan xalqı bu yolun yolçusu olacaq və onun nəzərdə tutduğu bütün işləri yerinə yetirəcəkdir. Heydər Əliyevin təməlini qoyduğu layihələr, işlər davam etdiriləcəkdir və nəticədə Azərbaycan xalqı daha firavan və xoşbəxt yaşayacaqdır.

Cənab Süleyman Dəmirəl son olaraq dedi:

- Azərbaycan xalqının böyük dövlət adamı Heydər Əliyevə göstərmiş olduğu qədirbilənlik və vəfa Türkiyədə böyük təqdirlə qarşılanmış, dünyanın diqqətini çəkmişdir.





Dəyərli prezident, əziz qardaşım Heydər Əliyev "Türkiyə-Azərbaycan münasibətləri sonsuza qədər yaşayacaqdır. Biz bir millətin iki dövlətiyik. Bu münasibətləri pozmağa kimsə nail ola bilməz" - demişdir. Mən də bununla əlaqədar məmnunluğumu ifadə etmişdim. Təkrar edirəm ki, qonşu və qardaş olan iki ölkə sonsuza qədər birlik, bərabərlik və qardaşlıq içində olacaqdır. Sizə də bu böyük vəzifənizdə uğurlar diləyirəm.

* * *

Sonra Süleyman Dəmirəl türk dünyasının böyük oğlu Heydər Əliyevə son borcunu vermək və ehtiramını ifadə etmək üçün Fəxri xiyabana gələrək, onun məzarını ziyarət etdi. O, məzarın üzərinə gül dəstəsi qoydu, mərhumun ruhuna dua oxudu.

# XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZIN AĞRISI

Matəm günlərində planetin hər bir guşəsindən Bakıya gələn azərbaycanlıların ürək sözləri lap çox idi. "Azərbaycan" qəzetinin əməkdaşları bu sözlərin bir qismini qələmə almışlar:

**Akif AĞATALIBOV, Özbəkistan Respublikasındakı Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyasının sədri:**

- Ümummilli liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyevin haqqın dərgahına qovuşması xəbərini eşidən kimi dərhal özümü doğma vətənə - Azərbaycana çatdırmağı borc bildim. Özbəkistanda hazırda 60 mindən artıq azərbaycanlı yaşayır. Heydər Əliyevin vəfatı ilə əlaqədar olaraq Daşkənddəki səfirliyimizdə xatirə guşəsi yaradılıb. Hər gün minlərlə adam buraya gələrək, Azərbaycan xalqına başsağlığı verir. Heydər Əliyev tarixə öz dəstxətti ilə mühüm səhifələr yazdı. Hamımızın yaxşı yadındadır ki, Dünya azərbaycanlılarının I qurultayı məhz möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə keçirildi. Uzaqgörən müdrik siyasətçinin məqsədi bütün dünyada olan azərbaycanlıların birləşməsi, onların lobbi yaratması idi. Heydər Əliyev tarixi bir yol qoyub. Biz bu yolun davamçılarıyıq.

**Ulduzxan ƏHMƏDOV, Latviya Respublikasında yaşayan azərbaycanlıların "Azəri" Cəmiyyətinin sədri:**

- Ümummilli liderimizin dünyasını dəyişməsi bütün xalqımız üçün böyük bir kədərdir. Mən Latviyada fəaliyyət göstərən "Azəri" Cəmiyyətinin adından xalqımıza başsağlığı vermək üçün vətənə gəlmişəm. Heydər Əliyevin başa çatdıra bilmədiyi, başa çatdırmağa macal tapmadığı işləri davam etdirən yeni prezidentimiz var. İkinci dəfə müstəqillik qazanmasından sonra Azərbaycanın dünya miqyasında tanınması Heydər Əliyevin xidmətidir. Azərbaycan ancaq Heydər Əliyevin rəhbərliyi ilə bugünkü parlaq günə çatıb. Heydər Əliyev təkcə Azərbaycan tarixində deyil, bütün dünya tarixində tanınmış bir liderdir. Ulu Tanrı Azərbaycan xalqına məhz belə bir insan, məhz belə bir şəxsiyyət bəxş etmişdi.





**Qüdrət HACIYEV, Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk Vilayət Komitəsinin sədri:**

- Heydər Əliyevin vəfatı harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı ailəsinə böyük kədər gətirdi. Ukraynada 500 minə qədər azərbaycanlı yaşayır. Onların adından Azərbaycan xalqına, bütün dünyada yaşayan 50 milyonluq həmvətənlərimizə başsağlığı verirəm.

Elə xalqlar olub ki, onlar tarixin səhnəsindən siliniblər. Bu cür xalqların lideri olmadığı üçün onlar yaşamayıblar. Sonuncu yüzillikdə Allah-Təala bizə Heydər Əliyev kimi dahi bir şəxsiyyət yetirdi. Xalq lideri yaşadır, lider də xalqı yaşadır. Heydər Əliyevin son 34 ildə gördüyü nəhəng işlər göz qabağındadır. Xalq sübut etdi ki, Heydər Əliyevi nə qədər böyük məhəbbətlə sevir.

Dünyada soydaşlarımızın diaspor hərəkatı da ümummilli liderimizin adı ilə bağlıdır. Onun təşəbbüsü və səyi nəticəsində 10 ildir ki, Azərbaycan diasporu yaranıb və bir millət kimi bizimlə dünyanın hər yerində hesablaşırlar. Heydər Əliyevin qoyduğu yolu, həyata keçirdiyi siyasəti möhtərəm prezidentimiz İlham Əliyev yaşadacaq, davam etdirəcək. Üzümü xalqımıza tutub deyirəm: bu kədər bizim hamımızın kədəridir. Biz bunu yaşayacağıq. Bundan sonra gördüyümüz işlərlə, Heydər Əliyevin üzərimizə qoyduğu vəzifələri yüksək səviyyədə yerinə yetirməklə böyük öndərin ruhunu şad etməliyik.

**Cəfər YEKTA, İsveçin Stokholm şəhərindəki "Azərbaycan" diasporunun üzvü:**

- Bu xəbər xaricdə yaşayan azərbaycanlıları da çox kədərləndirib. Ona görə ki, biz ümummilli liderimizi itirmişik. Heydər Əliyev adı, Heydər Əliyev dühası bizim üçün çox əhəmiyyətlidir. Ölkədə istiqlalın saxlanılması, Azərbaycana sabitlik gətirmək onun fəaliyyəti ilə bağlıdır. Biz xarici ölkələrdə yaşayan azərbaycanlılar üçün əsas odur ki, dövlətçiliyimiz güclü və möhkəm olsun. Bizim dahi rəhbərimiz bunu bacardı. Ona görə də belə bir İNSANI itirdiyimizə görə hamılıqla kədərlənirik. Bununla belə, bizə təskinlik verən odur ki, milli liderimiz öz məktəbini qoyub getdi. Biz Azərbaycan milləti olaraq həmin məktəbdən faydalanıb irəli getməliyik. Əminik ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası günbəgün çiçəklənəcək. Xaricdə yaşayan azərbaycanlılar da bu çətin və şərəfli işdə möhtərəm prezidenti dəstəkləyəcəklər.

## XALQIN XATİRƏ KİTABI

Əvvəlki yazılarda qeyd etmişdik ki, o hüznlü günlərdə az qala hər bir idarə və müəssisədə, təşkilatda xarici ölkələrdəki səfirlik və nümayəndəliklərimizdə qara örtüklü masalar və bu masaların üstünə "Təziyə kitabları" qoyulmuşdu. Yaşından, cinsindən və siyasi əqidəsindən asılı olmayaraq, azərbaycanlılar, eyni zamanda xaricilər Heydər Əliyev haqqında öz ürək sözlərini yazırdılar. Bu kitablardakı sadə, səmimi sözlər insanların Heydər Əliyevə öz qəlblərində ucaltdıqları mənəvi abidə idi.

Adətən kitabı bir və ya bir neçə nəfər yazar. Heydər Əliyev barədəki kitabı isə milyonlar yazırdı.

Belə kitabların ən müxtəliflərini vərəqləmişik. Hamı onun ölümünə yandığını, onu unutmayacağını bildirir. O, hamının həyatından keçib, hamının həyatında silinməz bir iz buraxıb. Hamı özünü onun saldığı yolun yolçusu sayırsa, ümumxalq məhəbbəti, ümumbəşəri məhəbbət məhz elə bu deyilmi?

Həmin o hüznlü günlərdə Heydər Əliyev barədə tanınmış siyasət, elm və mədəniyyət xadimləri tərəfindən söylənən və yazılan ən müxtəlif müsahibələr, məqalələr də, əslində Xatirə kitablarını tamamlamağa, dolğunlaşdırmağa xidmət edirdi. Bir sözlə, hamının ürəyi dolu idi.

### AZƏRBAYCAN ÜÇÜN TALEYİN TANRI PAYI

Mənim həmyaşıdlarım Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə, inama parlaq nümunədir, insanın məğlubedilməzliyinə inam dərsidir.

XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər: Heydər Əliyev. Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.





Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən - Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır.

***Mehriban xanım ƏLİYEVA.***

### ONUN İRSİ DÜNYA SİYASİ ELMİNİN QİYMƏTLİ NAİLİYYƏTİNƏ ÇEVRİLƏCƏK

İnsanlar dünya təcrübəsində çox az təsadüf olunan kütləviliklə, mütəşəkkilliklə, sevgi və istəklə öz daimi prezidenti ilə vidalaşmağa gəlirlər. Fəxri xiyaban dahi rəhbərlə vidalaşmağa gələn insanların hamısını qəbul edə bilmir. Azərbaycanın hər yerində, xarici ölkələrdə mərhum prezidentimizin bütün təəssübkeşləri, onu sevən, hörmət edən insanlar onun xatirəsini yad edirlər. Dünya siyasətçiləri, tanınmış politoloqlar Heydər Əliyev fenomeninə qiymət verilməsi istiqamətində fikirlər söyləyir, araşdırmalar aparırlar. Heydər Əliyevin böyüklüyünü, dünya miqyaslı lider olduğunu onun siyasi rəqibləri də açıq etiraf edirlər. Düşünürəm ki, zaman keçdikcə, bizi bu böyük insandan ayıran vaxt intervalı artdıqca, onun Azərbaycan üçün, xalqımız üçün etdiyi xidmətlər, gördüyü tarixi işlər daha aydın dərk ediləcək, onun Qafqaz regionu, MDB məkanı üçün əhəmiyyəti layiqincə qiymətləndiriləcək. Ümummilli liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcrübəsi, konfliktləri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri və s. Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcək. Bu gün artıq cəsarətlə demək olar ki, Heydər Əliyev irsi dünya siyasi elminin, politoloji fikrin qiymətli nailiyyətinə çevriləcək. O da birmənalıdır ki, Heydər Əliyev xalqımızın bütün tarixi boyu yetirdiyi ən qüdrətli tarixi şəxsiyyətdir.

Təbii, biz xalqımızın rəhbəri, onun mənəvi atası Heydər Əliyev qarşısında insanlıq və vətəndaşlıq borcunu qaytarmalıyıq. Bunun üçün, ilk növbə-

8. - 626

də, onun bizə qoyub getdiyi mirası inkişaf etdirməliyik, Heydər Əliyevin müəyyənləşdirdiyi magistral yolla irəliləyərək, firavan təhlükəsiz və qüdrətli Azərbaycan qurulması işini uğurla başa çatdırmalıyıq. Hər bir Azərbaycan vətəndaşını Azərbaycan ailəsini varlı, qayğısız və xoşbəxt görmək Heydər Əliyevin böyük arzusu idi. O, Azərbaycanın müstəqilliyinin dönməzliyinin, torpaqlarımızın bütövlüyünün, suverenliyinin təmin edilməsi arzusu ilə yaşayırdı. Bu işlərin görülüb başa çatdırılması bizim hər birimizin mərhum prezident Heydər Əliyevin ruhu qarşısında ən əsas xidməti olacaq.

***Ramiz MEHDİYEV,***
***Prezidentin İcra Aparatının rəhbəri,***
***fəlsəfə elmləri doktoru, professor.***

## ONUN ÖZÜNƏ UCALTDIĞI ABİDƏLƏR

Ümummilli liderimiz, Heydər Əliyevin haqq dünyasına qovuşması təkcə Azərbaycan üçün deyil, bütövlükdə bəşəriyyət üçün ağır itki sayılmalıdır. Bu kədərli hadisə ilə əlaqədar bir sıra ölkələrin nüfuzlu dövlət başçılarının Azərbaycanı ziyarət etməsi, xalqımızın dərdinə şərik olması bunun əyani təsdiqidir. Həmin dövlət başçıları Heydər Əliyevin çağdaş dünya siyasətindəki yerinə və roluna yüksək qiymət verdilər, onu qlobal proseslərə təsir imkanına malik şəxsiyyət kimi dəyərləndirdilər. Bir fikir də xüsusi vurğulandı ki, Heydər Əliyev şəxsi nüfuzu, yüksək idarəçilik keyfiyyətləri, intellekti və peşəkar siyasətçiyə xas digər xüsusiyyətləri ilə nəinki Azərbaycana, daha böyük dövlətlərə rəhbərlik etmək imkanına malik lider idi. Bu nəhəng siyasətçinin Azərbaycandan kənarda cərəyan edən geopolitik proseslərin gedişinə nüfuz etmək imkanları da geniş idi. Heydər Əliyev vaxtilə dünyanın iki superdövlətindən biri olan keçmiş SSRİ-nin ali rəhbərliyində vəzifə tutaraq bu statusda dünya siyasətinə təsir göstərmək imkanına malik olmuşdu. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi son 10 ildə ölkəmizin unikal geosiyasi mövqeyindən istifadə edib həm regional, həm də beynəlxalq siyasətin ayrı-ayrı çalarlarının müəyyənləşdirilməsində mühüm rol oynayıb. Cənubi Qafqaz kimi mühüm geosiyasi məkanda sülhün, sabitliyin və tərəqqinin təmin olunmasında Heydər Əliyev faktorunun rolunu bütün dövlətlər və beynəlxalq təşkilatlar etiraf edirlər. Ancaq Heydər Əliyevin beynəlxalq siyasətdə yerini və rolunu yalnız bununla məhdudlaşdırmaq düzgün olmazdı. Bu müdrik şəxsiyyətin həyata keçirdiyi uğurlu xarici siyasəti, ələlxüsus da Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlara inteqrasiyası istiqamətində gərgin fəaliyyəti bütövlükdə onun dünya siyasətindəki rolunu təyin edir. Bütün bunlar bir daha təsdiqləyir ki, Heydər Əliyevin vəfatı ilə dünya siyasətinə ağır itki üz verib.





Heydər Əliyevin vəfatı Azərbaycan xalqı üçün elə böyük itkidir ki, bununla əlaqədar cəmiyyətin konsolidasiyası və görünməmiş izdihamı tamamilə təbiidir.

...Tarixi şəxsiyyətlərin böyüklüyünün göstəricisindən biri də odur ki, onlar özləri özlərini əbədiləşdirirlər. Heydər Əliyev Azərbaycan xalqının qəlbində özünə əbədi, böyük və əzəmətli abidə ucaldıb. Bu şəxsiyyətin özünün ucaltdığı ən möhtəşəm abidələrdən biri də müstəqil Azərbaycan dövlətidir. Həm daxildə, həm də ölkəmizin hüdudlarından kənarda birmənalı şəkildə etiraf olunur ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevdir. Bu dahi insanın qurub-yaratdıqları onun özünə ucaltdığı abidələrdir. Biz Bakını, respublikanın ərazisini gəzərkən addımbaşı bu abidələri görürük.

***ƏLİ ƏHMƏDOV,***
***Yeni Azərbaycan Partiyasının icra katibi,***
***Milli Məclisin deputatı.***

## O, SON GÜNLƏRİNƏDƏK ÖZ MƏRAMINA SADİQ QALDI

Azərbaycan xalqına olduqca ağır bir itki üz verib. Heydər Əliyev təkcə müəyyən bir dövrdə Azərbaycana rəhbərlik edən bir şəxs deyildi, o, xalqın ümummilli lideri idi. Özündə bir azərbaycanlı kimi xalqın ən müsbət cəhətlərini birləşdirmişdi...

Heydər Əliyev bütün yaxşı olanları özündə toplamışdı. Təvazökar, işgüzar, ağıllı, gecə-gündüz xalqını düşünən, onu irəli aparmaq istəyən, 40 ilə yaxın bir dövr ərzində Azərbaycan üçün öz bacarığını sərf edən bir liderin sıramızı tərk etməsi çox sarsıdıcıdır.

Bu, bütün xalqın itkisidir. Odur ki, bu itkidən hədsiz dərəcədə kədərlənir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və bütün xalqımıza dərin hüznlə başsağlığı veririk.

"Azərbaycan" nəşriyyatı bilavasitə Heydər Əliyevin himayəsi altında fəaliyyət göstərib. Şəxsən mən 34 ilə yaxın bir müddətdə onun rəhbərliyi altında müxtəlif məsul vəzifələrdə çalışmışam: 70-ci illərdə Oktyabr (indiki Yasamal) rayonu Partiya Komitəsinin birinci katibi, 80-cı illərdə Azərbaycan Dövlət Nəşriyyat və Poliqrafiya Komitəsinin sədri, 90-cı illərdən bu günədək isə "Azərbaycan" nəşriyyatının baş direktoru vəzifələrində çalışarkən mən bu insanı daim böyük məqsədlərə və qələbələrə doğru irəliləyən görmüşəm. O, 70-ci illərdə Azərbaycanda böyük qurucu idisə, 80-ci illərdə nəhəng SSRİ-nin rəhbər aparatının əsas fiqurlarından birinə çevrilmişdi. 90-cı illərdə isə artıq yeni, müstəqil Azərbaycanı formalaşdırır və möhkəmləndirirdi... Bu insan hansı vəzifədə olursa-olsun, daim Azərbaycanın gələcəyini düşünürdü. Həyatının Bakı, Moskva, Naxçıvan və yenidən Bakı dövrlərində onunla yaxından ünsiyyətdə olduqca, bütün bunların şahidi olurdum.

O, son günlərinədək də öz məramına - xoşbəxt və firavan Azərbaycan qurmaq işinə sadiq qaldı.

Bu gün ölkəmizdə "Azərbaycan" nəşriyyatı kimi az-az müəssisə tapmaq olar ki, onun taleyi uzun illər boyu Heydər Əliyevlə bu qədər yaxından bağlı olsun. Bütün bu illər ərzində nəşriyyatın kollektivi öz tərəfindən həmişə Heydər Əliyevin yaxın silahdaşı olmuşdur. Kollektivimiz bundan sonra isə onun varisi İlham Əliyevin sədaqətli silahdaşı olacaqdır.

Bir daha bütün Azərbaycan xalqına, Heydər Əliyevin ailəsinə və cənab Prezidentimiz İlham Əliyevə başsağlığı veririk. Allah rəhmət eləsin.

***Nazim İBRAHİMOV,***
***"Azərbaycan" nəşriyyatının baş direktoru.***

## BİZ ÖYRƏNMİŞDİK Kİ, BÜTÜN PROBLEMLƏRİ O HƏLL EDƏCƏK

Biz bütün dünya azərbaycanlılarının ümummilli lideri olan, xalqının dərdinə-sərinə canını, sağlamlığını, həyatını əsirgəməyən, bütün ömrünü xalqının rifahına həsr etmiş bir insanı itirmişik. Düzdür, Heydər Əliyev dahi bir şəxsiyyət kimi əbədidir. Ancaq onu cismən itirməyimizin özü də ağır dərddir.

Biz öyrənmişdik ki, bütün problemlərimizi prezidentimiz həll edəcək, çətinliklərdən çəkinməyəcək. Və bütün bunların şahidi olurduq.





Heydər Əliyev Azərbaycan mədəniyyət xadimlərinin yaxın dostu, sirdaşı idi və bilirdi ki, mədəniyyətsiz xalq ola bilməz. Ona görə də əsl mədəniyyət xadimlərinə çox böyük qiymət verir və onlara atalıq qayğısı göstərirdi. Bu gün Azərbaycan bəstəkarlarının böyük bir qismi prezident təqaüdü alır, çoxu fəxri adlara layiq görülüb. Bu çətin zamanda hətta mənzillə təmin olunanlar da var. Bunlar hamısı Heydər Əliyevin mədəniyyətə münasibətinin təzahürüdür.

Heydər Əliyev məktəbi böyük və ibrətamiz örnəkdir. İndiki prezidentimiz İlham Əliyev həmin məktəbin yetişdirməsidir. Biz sənətkarların isə əsas borcu İlham Əliyevi dəstəkləmək, onun ətrafında sıx birləşmək, Heydər Əliyev ideyalarına sadiq qalaraq prezidentlə bir yerdə bütün fəaliyyətimizi bir məqsədə yönəltmək, Azərbaycan Respublikasının müstəqilliyini göz bəbəyi kimi qoruyub saxlamaq və ərazi bütövlüyümüzü bərpa etmək istiqamətində çalışmaqdan ibarətdir. Bu borcun şərəflə yerinə yetiriləcəyinə heç bir şübhə etmir və inanıram ki, İlham Əliyevin başçılığı ilə Azərbaycanı Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə daha yüksəklərə qaldıracağıq.

Mən mərhuma Allahdan rəhmət diləyər və bütün dünya azərbaycanlılarına dərin hüznlə başsağlığı verirəm.

***Vasif ADIGÖZƏLOV,***
***Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin I katibi.***

## İSLAMİ DƏYƏRLƏRƏ DƏRİN EHTİRAM

Heydər Əliyev hakimiyyətə gələnədək Bibiheybət məscidinin bərpası ilə bağlı bir neçə ölkə rəhbərinə müraciət etmişdik. Lakin heç bir müsbət cavab olmamışdı. 1994-cü il may ayının 21-də Qurban bayramında Heydər Əliyev XII əsrin tarixi abidəsi sayılan, İmam Rzanın bacısı Həzrəti Həkimənin sərdabəsinin bərpası, ümumiyyətlə, ziyarətgah məscidin yeni layihədə tikintisinin inşasına xeyir-dua verdi. Dövlət başçısı öz əli ilə minarənin özülünü qoydu. Ziyarətgah əvvəlcə təkminarəli nəzərdə tutulmuşdu. Sonra Bibiheybət və Şıx kəndinin camaatı ikinci minarənin tikilməsini də təvəqqe etdi. Həmin minarə indi Heydər minarəsi adlanır. Bu dahi şəxsiyyət ziyarətgahın tikintisini öz himayəsinə götürdü.

Xanım Həzrəti Həkimənin sərdabəsi, namazgahı, qədəmgahı, xanəgahı yenidən qurularaq Şərqin ən möhtəşəm abidəsinə çevrildi.

Uzaq-yaxın ellərdən bura zəvvarlar gəlir və Heydər Əliyevə dualar edirlər.

Heydər Əliyev təkcə Azərbaycan dövlətçiliyini qoruyan, yaşadan, inkişaf etdirən rəhbər deyil, o həm də islami dəyərlərə dərin ehtiramla yanaşan müqəddəs bir şəxsiyyətdir.

Bu gün Xəzərin sahilində dik qayanın üstündə əzəmətlə ucalan qoşaminarəli, bənzərsiz abidə hələ minillər boyu yaşayacaq və özü ilə birgə Heydər Əliyevin xatirəsini də yaşadacaq. Allah ona rəhmət eləsin.

Amin!

***Hacı Hikmət ƏLİZADƏ,***
***Bibiheybət məscidinin axundu,***
***Qafqaz Müsəlmanları İdarəsinin qazısı.***

## DÜNYA AZƏRBAYCANLILARININ LİDERİ

Heydər Əliyevin vəfatı xəbəri, bütün dünyada olduğu kimi, Avstriyada yaşayan soydaşlarımız tərəfindən də kədərlə qarşılandı. Heydər Əliyev şəxsiyyətinə bütün ölkələrdə həmişə hörmətlə yanaşılıb. Çünki o, nadir şəxsiyyətlərdən biri idi. Tarix isə yüz ildə bir dəfə belə dahi şəxsiyyətlər yetirir. Onda heç kəsdə olmayan güclü idarəçilik və dövlətçilik təcrübəsi vardı. 1993-cü ildə Azərbaycanı parçalanmaq təhlükəsindən Heydər Əliyevin böyük idarəetmə təcrübəsinə malik olması və bir şəxsiyyət kimi dəyərləndirilib xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsi qurtardı. Məhz buna görə də Heydər Əliyevin adı müasir tariximizdə müstəqilliyin qorunması və dövlətçilik ənənələrinin formalaşması kimi qalacaq.

Heydər Əliyev adı həm də bütün dünya azərbaycanlılarının lideri kimi tarixə əbədi həkk olunmuşdur. Onun təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakıda keçirilmiş və bizim də iştirak etdiyimiz böyük toplantı dünyada yaşayan həmvətənlərimizin birləşməsi yolunda ilk addım idi.

Heydər Əliyev bütün dünyada yaşayan soydaşlarımıza arxa, dayaq idi. Hansı ölkəyə səfər edirdisə, orada yaşayan həmvətənlərimizlə görüşür, onları doğma Vətəni unutmamağa çağırırdı. Avstriyada yaşayan bütün soydaşlarımız adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, bütün Azərbaycan xalqına bütün dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyevin vəfatı ilə əlaqədar kədərləndiyimizi bildirir və dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!

***Avstriyada yaşayan soydaşlarımız adından***
***Elşən İSMAYILOV,***
***doktor Cahangir ağa TALEBİ,***
***Məsud ZAMANİ,***
***Bəhruz MƏBUDİ.***

## HEYDƏR ƏLİYEVİN VƏFATI MƏNİM ÜÇÜN ƏN DOĞMA ADAMIN İTKİSİDİR

Hələ bir ay əvvəl xəbər tutdum ki, kədərli sonluq qaçılmazdır. Buna baxmayaraq, çox ümid edirdim ki, bu, belə tez olmayacaqdır. Heydər Əliyev mənə ata əvəzi olmuş, həmişə və hər işdə çox böyük mənəvi dəstək göstərmişdir. Bilmirəm, mən niyə onun xoşuna gəlirdim. Axı, xasiyyətim ağırdır. Amma Heydər Əlirza oğlu məni daim fərqləndirir, dostu adlandırırdı və hər il öz iqamətgahında doğum günümü qeyd edirdi. Həyatda bəxtim gətirmişdi, çünki Azərbaycan prezidentini yaxından tanıyırdım. O, dünyamiqyaslı siyasətçi olsa da, şən, xoştəbiət, səmimi insan olaraq qalırdı.

Boyakarlıqla çoxdan məşğul idim. Bir dəfə hədiyyə verdiyim portretdə onu məhz belə təsvir etməyə çalışdım: şən, səmimi. Deyəsən, əsərim xoşuna gəldi, söz verdi ki, bu rəsmi öz muzeyindən asacaqdır.

***Müslüm MAQOMAYEV.***

## HEYDƏR ƏLİYEV DÜNYAMİQYASLI SİYASƏTÇİ İDİ

Heydər Əliyev, həqiqətən, dünyamiqyaslı siyasətçi idi. Onun həm Qərb ölkələrində, həm də bütün islam dünyasında böyük siyasi nüfuzu vardı. Müdrik, uzaqgörən, qətiyyətli və mətin iradə sahibi olan Heydər Əliyev, eyni zamanda demokratik, xoşrəftar, ünsiyyətcil bir insan idi. O,

Azərbaycan və Ukrayna xalqlarının dostluğunun inkişafına və möhkəmlənməsinə böyük töhfə vermişdir. Bu əvəzsiz itki Ukrayna xalqını da kədərləndirir.

***Valeri REBKALO,***
***tanınmış Ukrayna alimi, fəlsəfə elmləri doktoru, professor.***

**HEYDƏR ƏLİYEV MİLLƏTİN VİCDANI İDİ**

Azərbaycanın alovlu vətənpərvəri, görkəmli siyasətçi Heydər Əliyevin ölümünə inanmıram və inanmaq istəmirəm. Böyük siyasət maestrosu olan Heydər Əliyev yaradıcı ziyalılara, elm, mədəniyyət və incəsənət xadimlərinə həmişə atalıq qayğısı göstərmiş və onlara kömək etmişdir. Mən Heydər Əliyevlə sonuncu dəfə Bakıda Müslüm Maqomayevin yubiley gecəsində görüşdüm. Bu gecənin yüksək səviyyədə keçməsi üçün onun şəxsən necə çalışdığının şahidi oldum. Heydər Əliyev millətin vicdanı idi. Şəxsən mənim üçün də əvəzsiz olan bu itki ilə əlaqədar dərin kədər hissi keçirirəm.

***Dmitri QNATYUK,***
***SSRİ-nin və Ukraynanın xalq artisti, Sosialist Əməyi Qəhrəmanı.***

**HEYDƏR ƏLİYEV MƏNİM AİLƏ SƏADƏTİMİN BÜNÖVRƏSİNİ QOYMUŞDUR**

Mən və həyat yoldaşım görkəmli lider, müasir Azərbaycanın banisi Heydər Əliyevin vəfatı xəbərini eşidəndə çox sarsıldıq. Çünki prezidentin mənim ürəyimdə və ailə üzvlərimin yerində xüsusi yeri vardır.

Ötən əsrin 70-ci illərinin əvvəllərində Heydər Əliyev Sovet İttifaqı Kommmunist Partiyası nümayəndə heyətinin başçısı kimi Suriyaya səfər etmişdi. Suriya televiziyasının işçisi kimi mən cənab Heydər Əliyevlə görüşüb onun səfəri barədə müsahibə götürdüm. Müsahibənin gedişində Heydər Əliyev məndən soruşdu: “Moskvadan nə istərdin? Müsəlman dostlarından bir şey lazımdırsa, çəkinmədən deyə bilərsən”. Onun belə sadə, həm də səmimi münasibəti məni cəsarətləndirdi və özümün bir probleminin həlli üçün ona müraciət etdim. O vaxtlar mən Suriya vətəndaşı olan, ancaq Moskvada yaşayan bir qızla evlənmək istəyirdim. Lakin müvafiq sovet dairələri qıza Moskvadan Suriyaya gəlməyə icazə vermirdilər. Mən bu problemin həlli üçün Heydər Əliyevə müraciət etdim. O isə gülümsünüb dedi: “Mən elə bilirdim, sənin xahişin böyük bir problem üçün olacaqdır”.



BÖYÜK İNSAN HAQQINDA

İki həftədən sonra Moskvada viza bölməsindən nişanlıma bildirdilər ki, müvafiq dairələrin onun Suriyaya getməsinə heç bir etirazları yoxdur. Sonralar öyrəndim ki, Heydər Əliyev zəng edib məsələni yoluna qoymuşdur.

Mərhum prezident o vaxtlar mənim ailə səadətimin bünövrəsini qurdu. Mən, həyat yoldaşım, üç övladım bu köməyinə görə bütün ömrümüz boyu ona minnətdar olacağıq. Biz onu heç vaxt unutmayacağıq.

Mən bununla əlaqədar öz minnətdarlığımı mərhum prezident Heydər Əliyevin ailəsinə çatdırmaq istərdim. Lakin bütün cəhdlərim baş tutmadı. Sonra Azərbaycanın Çindəki səfiri, dostum Yaşar Əliyevə müraciət etdim. Səfirə bu işi yoluna qoyduğuna görə təşəkkürümü bildirirəm.

Allahdan Heydər Əliyevə rəhmət diləyirəm, dost Azərbaycanı qoruyub, firavanlıq və tərəqqiyə çatdırılmasını arzulayıram.

Azərbaycanın yeni prezidenti İlham Əliyevə böyük uğurlar diləyirəm.

***Məhəmməd XEYİR VADİ,***
***Suriyanın ÇXR-dəki səfiri.***

**BÜTÜN DÜNYA MATƏM SAXLAMALIDIR**

Zəngin tarixə malik olan mürəkkəb bir ölkəyə rəhbərlik etmiş, onu keyfiyyətcə yeni səviyyəyə qaldırmış dünyamiqyaslı siyasətçi - bütün bunlar Heydər Əliyevdir. O, demək olar ki, mümkün olmayan hər şeyi düzgün, bacarıqla edirdi, qeyri-mümkünü mümkün edən bir şəxs idi. Mən dəfələrlə demişəm ki, Heydər Əlirza oğlu kimi bir adam dünyaya min ildən bir gəlir. Hesab edirəm ki, bütün dünya matəm saxlamalıdır və əgər mən dünyanın birinci adamı olsaydım, bütün planetdə matəm elan edərdim ki, insanlar həmin günü dünya tarixinin qara günü kimi qeyd etsinlər. Mən istəyirəm hamı başa düşsün ki, dünyada əvəz edilə bilən adamlarla yanaşı, əvəzedilməz adamlar da vardır. Mərhum Heydər Əliyev də belə əvəzedilməz insanlar-

dandır. Buna görə də Heydər Əlirza oğlunun ailəsinin, millətinin, ölkəsinin dostu kimi mən hamı ilə bir yerdə kədərlənir və hesab edirəm ki, bu gün hamımız üçün çox ağır gündür. Bu gün mən sizinləyəm, mən sizinəm, mən böyük Heydər Əliyevi həmişə yad edəcəyəm, xatırlayacağam. Şadam ki, mənə bu qeyri-adi insanla görüşmək nəsib olmuşdur. Heydər Əliyevdən sonra mən neçə-neçə prezidentin portretini çəkmişəm. Lakin onun böyüklüyü məni heyran qoymuşdur. Bu dahi insan digər dahilərdən qat-qat böyükdür. Bu insan o qədər ləyaqətli bir insandır ki, onunla bütün dünya gül-çiçəyə qərq ola bilərdi. Bu itki mənim şəxsi faciəmdir, çünki biz dost idik.

***Nikas SAFRONOV,***
***Dünya şöhrətli rəssam, prezident Heydər Əliyevin ən yaxşı portretlərindən birini çəkmiş.***

## HEYDƏR ƏLİYEVİN HƏYATDAN GETMƏSİ UKRAYNA ÜÇÜN DƏ ƏVƏZSİZ İTKİDİR

Heydər Əliyev kimi böyük siyasətçi və diplomatın həyatdan getməsi təkcə sizin millətiniz üçün deyil, Ukrayna xalqı üçün də əvəzsiz itkidir. Heydər Əlirza oğlu Ukraynanın və mənim xalqımın səmimi dostu idi, həmişə - sovet dövründə ən yüksək vəzifə tutanda da, ölkələrimiz müstəqilliyini əldə etdikdən sonra da bizə kömək göstərmişdir. Mənə bu parlaq siyasətçini və gözəl insanı tanımaq səadəti nəsib etdiyinə görə taleyimə minnətdaram. Onun xatirəsi qəlbimdə daim yaşayacaqdır.

***Boris OLEYNİK,***
***Ukrayna parlamentində AŞPA-dakı nümayəndə heyətinin başçısı, tanınmış yazıçı.***

## HEYDƏR ƏLİYEVİN İŞİNİN DAVAM ETDİRİLMƏSİ TƏKCƏ AZƏRBAYCAN ÜÇÜN DEYİL, BÜTÜN BÖLGƏ ÜÇÜN ƏHƏMİYYƏTLİDİR

Prezident Heydər Əliyev barədə danışarkən ən əvvəl onun Azərbaycan üçün rolu haqqında düşünürəm. Müstəqil respublika ilk günlərində ciddi iqtisadi və siyasi böhran keçirirdi. Məhz Heydər Əliyevin liderliyi və rəhbərliyi altında Azərbaycan bu vəziyyətdən çıxdı. Prezident Əliyev Birləşmiş Ştatlar və Türkiyə ilə sıx işləməklə yanaşı, qonşu Rusiya və İranla da yola getməyi bacarırdı.





Sovet İttifaqı məktəbini keçən rəhbərlər - Heydər Əliyev, Eduard Şevardnadze və Nursultan Nazarbayevin birgə əməkdaşlığı çox səmərəli idi. Onlar bir-birini yaxşı tanımaqla yanaşı, ölkələrinin müstəqilliyi və iqtisadi inkişafı üçün nə etməyi gözəl bilirdilər. Bu amillər Azərbaycan, Gürcüstan və Qazaxıstanın yalnız ayrı-ayrı dövlətlər kimi deyil, bir qrup kimi də irəliyə addımlamasına səbəb olmuşdur.

Prezident Heydər Əliyevlə ilk görüşüm yaxşı yadımdadır. Məni ona Nyu-Yorka səfərlərinin birində təqdim etmişdilər. Biz hansısa konfransla bağlı Nyu-York otellərindən birində idik. Mən otelin girişində durarkən Züleyxa Vebberi (Əsədullayevanı) gördüm. Onun gözləri yaşarmışdı. Yaxınlaşıb səbəbini soruşanda dedi ki, bir azdan prezident Heydər Əliyevlə görüşməlidir, hədiyyə verməyə gülü də yoxdur. Mən tez gedib bir dəstə gül bağlatdırıb Züleyxa xanıma gətirdim. Züleyxa xanım dərhal gözdən itdi. Görüşqabağı həyəcanlandığı bəlli idi. Sonra biz otelin mərasim salonuna daxil olduq. Prezident Heydər Əliyev qonaqlarla salamlaşırdı. O, Züleyxa xanımla mehribancasına görüşdü. Züleyxa xanım Heydər Əliyevə mənim kiçik köməyim haqda danışmışdı. Bir qədər sonra prezident mənə yaxınlaşarkən Züleyxa xanıma köməyimdən məmnun qaldığını bildirdi. Bu mənə çox böyük təəssürat bağışlamışdı. Heydər Əliyev kimi böyük şəxsiyyətin mənə yaxınlaşaraq Züleyxa xanıma kömək etdiyimə görə təşəkkür etməsi və buna vaxt ayırması məni xeyli mütəəssir etmişdi. Prezident Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldiyi zaman bu hadisə Amerikada narahatlıqla qarşılanmışdı. Onun sabiq DTK işçisi olduğunu nəzərə alaraq, hakimiyyət dəyişikliyindən Rusiya ilə təbii müttəfiqlik gözləyirdik. Lakin Amerika şirkətlərinin nümayəndələri və Amerika diplomatları ilə birgə prezident Əliyevlə ilk dəfə Bakının "İnturist" mehmanxanasında görüşəndə bunun belə olmayacağını düşünməyə başladıq. Elə ilk günlərdən biz prezident Heydər Əliyevin Azərbaycanın Corc Vaşinqtonu olacağını və müstəqil siyasət aparacağını sezdik. Onun Qərb şirkətlərini ölkəyə, nəyin bahasına olursa olsun, dəvət etməsi təkcə sərmayə axını deyil, həm də Qərblə əlaqələr quracağı demək idi.

Azərbaycan Respublikasının ilk 10 ili ölkə üçün özünütəsdiqləmə illəri idi. İlk dövrdə sabitlik və inam yox idi. Amma unutmaq lazım deyil ki, de-

mokratiya bir günə qurulmur. Heydər Əliyev tərəfindən götürülən inkişaf xətti gələcək nəsillərə keçəcəkdir. Onun işinin davam etdirilməsi təkcə Azərbaycan üçün deyil, bütün bölgə üçün əhəmiyyətlidir.

***Frenk VERRASTRO,***
***Vaşinqton Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində Xəzər enerjisi proqramının direktoru.***

**HƏR BİR AZƏRBAYCANLININ TALEYİNDƏ HEYDƏR ƏLİYEV DÜHASININ BİR ZƏRRƏSİ VARDIR**

Xalqımızın ümummilli lideri, dövlətimizin yaradıcısı, dünyanın ən nüfuzlu siyasi xadimlərindən biri Heydər Əliyevin dünyasını dəyişməsi Azərbaycan xalqının hər bir nümayəndəsinin qəlbində ağır itkiyə çevrildi. Bu böyük itkidir. Biz onu itirdik. O isə ölümü ilə ölməzliyə qovuşdu. Azərbaycan xalqı bu ağır itki ilə heç zaman barışa bilməyəcəkdir, bu itkini hər zaman hiss edəcəkdir. Təkcə ona görə yox ki, Heydər Əliyev Azərbaycanda müstəqil dövlət quruculuğunun memarı idi, həm də ona görə ki, hər bir azərbaycanlı onu bu diyarın təhlükəsizliyinin və sosial-iqtisadi rifahının təminatçısı kimi görürdü.

XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyətlərdən biri, dünya şöhrətli siyasətçi, təcrübəli dövlət rəhbəri Heydər Əliyevin bənzərsiz ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti müasir tariximizdə mühüm və şərəfli bir mərhələ təşkil edir. Azərbaycanın bugünkü reallıqlarını anlamaq üçün Heydər Əliyevin dövlətimiz qarşısındakı xidmətlərini dərk etmək lazımdır. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsidir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

***Əbülfəs QARAYEV,***
***Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri.***





**AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN RƏMZİNƏ ÇEVRİLMİŞ XATİRƏ**

Azərbaycan xalqının böyük oğlu, müstəqil dövlətimizin banisi, ümummilli liderimiz cənab Heydər Əliyevin əbədiyyətə qovuşması bütün xalqımızı sarsıtmışdır. Çünki bizim hər birimiz möhtərəm Heydər Əliyevi Azərbaycanın xilaskarı və onun təhlükəsizliyinin təminatçısı kimi qəbul edir.

Onun XX əsrin sonlarında Azərbaycanda yaratdığı ictimai-siyasi sabitlik, həyatımızın bütün sferalarında reallaşdırdığı fövqəladə islahatlar müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik və dünyəvi dövlət kimi beynəlxalq münasibətlər sistemində özünü təsdiq etməsinə gətirib çıxarmışdır. Məhz buna görə də cənab Heydər Əliyevin vəfatı Azərbaycan xalqı tərəfindən yeri doldurulmayacaq itki kimi qiymətləndirilir.

Möhtərəm Heydər Əliyev həyatının bütün dönəmlərində, hətta Sovetlər İttifaqının totalitar sistemində belə, xalqımızın dərin tarixi köklərə malik mədəni irsini ləyaqətlə qorumuş, Azərbaycan mədəniyyətinin kənar ünsürlərin təsirindən mühafizə olunmasını qətiyyətlə həyata keçirmişdir.

Möhtərəm Heydər Əliyev bu gün əbədiyyətə qovuşsa da, onun Azərbaycan dövlətçiliyinin rəmzinə çevrilmiş işıqlı xatirəsi bütün azərbaycanlıların qəlbində daim yaşayacaqdır. Onun qurub yaratdığı və yaşatdığı Azərbaycan Heydər Əliyev ideyalarına sonsuz sədaqəti və ölçüsüz məhəbbəti sayəsində daim inkişaf edəcəkdir. Allah bütün xalqımıza səbir versin!

***Tahir SALAHOV,***
***xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti.***

**O VƏFAT ETMƏDİ, QƏHRƏMANCASINA HƏLAK OLDU**

“Şəxsən mən Heydər Əliyevi təkcə görkəmli siyasətçi deyil, həm də böyük hərbi strateq hesab edirəm. Hələ sovet dövründə Bakıda C.Naxçıvanski adına hərbi məktəb açmaq üçün, Azərbaycan gənclərini keçmiş SSRİ-nin ən yaxşı hərbi məktəblərinə və akademiyalarına, o cümlədən Ukraynaya təhsil almağa göndərmək üçün çox uzaqgörən siyasətçi olmaq gərək idi. Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsində qan tö-

külməsini dayandırmağa, yüz minlərlə azərbaycanlı gəncin həyatını xilas etməyə müvəffəq oldu. Azərbaycanın güclü, peşəkar Silahlı Qüvvələrinin yaradılmasında tarixi rol ancaq ona məxsusdur. Mən özüm Azərbaycanın layiqli nümayəndələrinə bizim akademiyada hərb sənətinin sirlərinə yiyələnməkdə kömək etmişəm və bundan qürur hissi duyuram. İndi onların bəziləri ali komandan, dərin zəkalı, zəngin təcrübəli və yüksək zabit, şərəfli insan olan Heydər Əliyev tərəfindən yaradılan ordunuzun ən yaxşı hissəsini təşkil edirlər.

Hesab edirəm ki, Heydər Əliyev özünün bütün ömrünü doğma xalqına, ölkəsinə həsr etmiş insan kimi yaşadı və böyük amal naminə qəhrəman kimi həlak oldu".

***Boris VOROVİÇ,***
***Ukrayna Milli Müdafiə Akademiyasının***
***kafedra rəisi, general-mayor.***

## HEYDƏR ƏLİYEV HƏR BİR MİLLƏTİN ŞƏRƏFİ OLA BİLƏRDİ

Bütün siyasi fəaliyyətim dövründə müxtəlif siyasətçilərlə görüşmüşəm. Onların arasında çoxlu tanınmış və görkəmli siyasətçilər də olmuşdur. Lakin mübaliğəsiz deyə bilərəm ki, Heydər Əlirza oğlu Əliyev, sözün həqiqi mənasında, ən parlaq və müdrik siyasətçi idi.

Mən əminəm ki, Heydər Əliyev sovet rəhbərliyində o qədər prinsipial sima idi ki, onun Sovet İttifaqı rəhbərliyindən kənarlaşdırılması SSRİ-nin dağılmasının əsas səbəblərindən biri oldu. O, sonralar yenidən böyük siyasətə qayıdanda onunla artıq Azərbaycanın prezidenti kimi görüşdük və mən əmin oldum ki, o , hər bir millətin şərəfi ola biləcək bir insandır. Əminəm ki, biz onun həm Azərbaycanın inkişafına verdiyi töhfəni, həm də Sovet İttifaqında gördüyü bütün diqqətəlayiq işlərin əhəmiyyətini tam dolğunluğu ilə yalnız gələcəkdə qiymətləndirə biləcəyik.

Mən Heydər Əliyevlə 1990-cı illərdə, Rusiya parlamentinin nümayəndəsi kimi Azərbaycanda olanda da, habelə Moskvada da görüşmüşəm. Çoxları hesab edir ki, Azərbaycan Rusiyadan uzaqlaşıb, Qərbə üz tutmuşdur. Sizi inandırıram ki, bu, elə deyildir. Biz Heydər Əliyevlə bu mövzuda çox söhbət etmişik və mübaliğəsiz deyə bilərəm ki, keçmiş Sovet ittifaqı məkanında bütün prezidentlər arasında o, ən müdrik rəhbərdir. Rusiyaya münasibətdə atdığı bəzi addımlar isə məcburi tədbir kimi Rusiyanın o vaxtkı rəhbərliyinin əmrləri ilə bağlı olmuşdur. Respublikanı qoruyub saxlaması, vətəndaş müharibəsi girdabında məhv olmağa qoymaması onun böyük xidmətidir. Bir sözlə, o, yüksək səviyyəli siyasətçi idi, axı, hər şey müqayisədə bilinir. Məsələn, M. Qorbaçovla müqayisədə o, böyük şəxsiyyətdir. Qorbaçov isə hakimiyyət piramidasının zirvəsində xeyli dərəcədə təsadüfi adam idi.





***Sergey BABURİN,***
***Rusiya Dövlət Ticarət-İqtisadiyyat Universitetinin rektoru.***

## DÜNYA AZƏRBAYCANLILARININ LİDERİ VƏ AĞSAQQALI

Nə qədər ağır olsa da, bu gün böyük siyasətçi və dövlət xadimi Heydər Əlirza oğlu Əliyev haqqında keçmiş zamanda danışmağa məcburuq. Bu dahi şəxsiyyətin zəngin həyat yolu, coşqun siyasi fəaliyyəti barədə minlərlə görkəmli adamın dediklərinə nəsə əlavə etmək çox çətindir. Çünki Heydər Əliyev fenomenal şəxsiyyət idi.

Heydər Əliyev, sözün həqiqi mənasında, uzaqgörən insan və rəhbər idi. Biz, sıravi insanlar onun on il əvvəl gördüyünü indi görə bilirik. Dünyamiqyaslı şəxsiyyətlər arasında Heydər Əliyevin öz yeri var. Həm də ümummilli liderimizi kiminləsə müqayisə etmək mümkün deyil. O hamının nümunə götürə biləcəyi insan və şəxsiyyət idi.

Biz, indiki nəsil Heydər Əliyevin müasiri olmuşuq və bununla fəxr edirik. Bir çoxlarına onunla həmsöhbət olmaq xoşbəxtliyi nəsib olub. Belə xoşbəxtlərdən biri də mənəm.

1991-1992-ci illərdə Heydər Əliyev Naxçıvanda işləyərkən dəfələrlə onunla təmasda olmuş, müdrik söhbətlərini dinləmişəm. Onun iti zəkası, dərin intellekti, geniş dünyagörüşü heyrət doğururdu. Hərdən adama elə gəlirdi ki, bütün bu keyfiyyətlər bir insanda cəmləşə bilməz. Amma xoşbəxtlikdən cəmləşmişdi.

Heydər Əliyevin bütün varlığı ilə bağlı olduğu doğma xalqı qarşısında xidmətlərinin əsl dəyərini müəyyənləşdirmək çox çətindir. O, millətin və dövlətin dar günündə - Azərbaycanın xaosa, vətəndaş müharibəsinə sürükləndiyi bir məqamda siyasət meydanına qayıtmalı, xilaskarlıq missiyasını öz

üzərinə götürməli oldu. Məhz Heydər Əliyevin siyasi rəşadəti, dönməz iradəsi sayəsində Azərbaycan dərin ümummilli böhrandan çıxıb sabit inkişaf və yüksəliş yoluna qədəm qoydu.

Heydər Əliyev təkcə Azərbaycan xalqının yox, bütün dünya azərbaycanlılarının lideri və ağsaqqalı idi. O, Vətənin üzləşdiyi problemləri həll etməklə kifayətlənmir, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın qayğılarını diqqət mərkəzində saxlayırdı. Məhz Heydər Əliyevin sayəsində dünya azərbaycanlılarının həmrəyliyinin təmin edilməsi dövlət siyasəti səviyyəsinə qaldırıldı. Heydər Əliyevin özü bu siyasəti ardıcıl olaraq həyata keçirirdi. Məhz onun xeyir-duası və dəstəyi ilə Rusiyada yaşayan soydaşlarımızı öz sırasında birləşdirən diaspor təşkilatı - Ümumrusiya Azərbaycan Konqresi yaradıldı və fəaliyyətə başladı. Azərbaycanın qürbətdəki övladlarının bir araya gəlməsi, ana yurdun tərəqqisi naminə qüvvələrinin birləşdirilməsi işində Heydər Əliyevin misilsiz xidmətləri oldu.

Müdrik insan və bacarıqlı dövlət adamı kimi Heydər Əliyev bütün dünyada, ilk növbədə keçmiş sovet məkanında böyük nüfuz sahibi idi. Onun xüsusilə Rusiyada necə sevildiyini həmişə qürur hissi ilə müşahidə etmişik. Heydər Əliyevin vəfatının ertəsi günü Rusiya paytaxtının çoxsaylı sakinləri, vaxtilə onun rəhbərliyi altında işləmiş müxtəlif peşə sahibləri - alimlər, həkimlər, hərbçilər... Ümumrusiya Azərbaycan Konqresinin qərargah-mənzilinə axışmağa başladılar. Müxtəlif millətlərə mənsub olan bu insanlar dərin kədərlərini ifadə edir, bütün azərbaycanlılara başsağlığı verirdilər.

Azərbaycan xalqının itkisi böyükdür. O, min ildə bir dəfə dünyaya gələn dahi övladını itirmişdir. Nə etmək olar, həyatın hökmü belədir. Xalqımızın başı sağ olsun. Səbirli olaq, sıralarımızı daha da möhkəmlədək. Heydər Əliyevin ölməz ideyaları ətrafında sıx birləşək, bu ideyaları həyat reallığına çevirmək üçün əlimizdən gələni əsirgəməyək. Xoşbəxtlikdən, Heydər Əliyev siyasi məktəbinin prezident İlham Əliyev kimi layiqli davamçısı var. Gəlin hamımız cənab İlham Əliyevin yardımçısı olaq, Vətənin çiçəklənməsi naminə ona dayaq duraq.

***Natiq AĞAMİROV,***
***Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti***
***və İcra Aparatının rəhbəri.***







Qara xəbəri eşidən kimi hamı Prezident sarayının qabağına axışdı








Cənazə Binə hava limanına gətirilir



Respublika sarayına, vida mərasiminə axın







Cənazə Fəxri Xiyabana aparılır











Sadə azərbaycanlıların göz yaşları





Dəfn mərasimi





Vidalaşmağa gələnlər növbə gözləyirlər







Gecədən xeyli keçsə də, insan axını kəsilmir.





Ziyarətgaha çevrilmiş məzar gül-çiçəyə qərq olub





Sonrakı günlərdə də ziyarətə gələnlərin sayı-hesabı yox idi



Ulu öndərin yandırdığı şamlar heç zaman sönməyəcək



# VİDA SÖZLƏRİ

Zati-aliləri cənab İlham Əliyev!

Zati-alilərinizin əziz atası, prezident, cənab Heydər Əliyevin vəfat etməsi xəbəri məni çox kədərləndirdi. Yaponiyaya 1998-ci ildə etdiyi rəsmi səfər zamanı onunla görüşməkdən məmnun olmuşdum.

Zati-aliləri, Sizə və ailənizə dərin hüznlə başsağlığı verirəm.

***AKİHİTO,***
***Yaponiya imperatoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanızın cari ilin 12 dekabrında vəfat etməsi xəbərini dərin kədər hissi ilə aldım. Bu kədərli itki ilə bağlı Sizə öz adımdan, həmçinin Avstriya Respublikası adından səmimi başsağlığımızı yetirirəm.

Azərbaycan Heydər Əliyevin timsalında ölkəniz qarşısında böyük xidmətlər göstərmiş müdrik və təcrübəli dövlət xadimini itirmişdir.

***Tomas KLESTİL,***
***Avstriya Respublikasının federal prezidenti.***

Prezident Heydər Əliyev müstəqilliyinin erkən həlledici illərində ölkəsinə rəhbərlik edən və müasir Azərbaycanın inkişafının təməlini qoyan dövlət xadimi kimi xatırlanacaqdır.

O, Azərbaycana sabitlik gətirmiş və regional münaqişələrin sülh yolu ilə həll olunması üçün əzm nümayiş etdirmişdir. Həm Azərbaycanın qonşuları, həm də regiondan kənarda yerləşən dövlətlərlə mehriban əlaqələrin qurulması üçün böyük əmək sərf etmişdir. Azərbaycanın gələcəyinin zəmanəti üçün iqtisadi inkişafın vacibliyini dərk etmiş və gələcək tərəqqinin təmin olunması məqsədilə yorulmadan səylər göstərmişdir. Onun qoyduğu irs unudulmayacaqdır.

Mən onunla görüşərək, Azərbaycanın inkişafı, regionun gələcəyi və ölkənizin NATO ilə əməkdaşlığını müzakirə etmək imkanına nail olmaqdan məmnunam. O, geniş biliyi və xalqı qarşısında yüksək məsuliyyəti ilə məndə böyük təəssüratlar oyatmışdır.

***Lord Corc ROBERTSON,***
***NATO-nun baş katibi.***

Zati-aliləri cənab İlham Əliyev!

Əs-sələmu aleykum və rəhmətullahi və bərəkatuhu.

Atanız, zati-aliləri Heydər Əliyevin vəfatı xəbərini aldıq, kədərləndik və üzüldük.

Zati-alilərinizə, ailənizə və qardaş Azərbaycan xalqına səmimi qəlbdən və dərin hüznlə başsağlığı verir, Ulu və Qadir Allaha dua edirik ki, Ona geniş rəhmətini əta etsin, məğfirət qapılarını Onun üzünə açsın və Onu Cənnətin ən gözəl guşələrində məskun etsin!

"Biz hamımız Allaha məxsusuq və Onun dərgahına qayıdacağıq!"

***Abdulla bin Əbdüləziz al SƏUD,***
***Səudiyyə Ərəbistanı Məmləkətinin vəliəhdi,***
***baş nazirin müavini, milli qvardiyanın rəisi.***

Hörmətli cənab Prezident!

Bu ağır günlərdə İtaliya hökuməti adından və şəxsən öz adımdan Sizə dərin hüznlə başsağlığı verirəm.

Atanız, mərhum prezidentlə keçirdiyimiz və böyük maraq kəsb edən görüşləri mən yaxşı xatırlayıram. Əminəm ki, onun adı Azərbaycan tarixində əbədi olaraq qalacaqdır.

***Marqerita BONİVER,***
***İtaliya xarici işlər nazirinin müavini.***

Azərbaycan xalqının istiqlalı, sabitliyi, rifahı və asayişi sahəsində misilsiz rolu olan prezident cənab Heydər Əliyevin vəfatı ilə cənabınıza, Azərbaycan dövlətinə və onun müsəlman xalqına dərin hüznlə başsağlığı verirəm.





Tehran ilə Bakı arasında dostluğun və əlaqələrin yaradılması yolunda böyük səylər göstərən bu görkəmli siyasətçinin yoxluğu iki ölkə, region və dünya üçün ağır bir itkidir.

***Əkbər Haşimi RƏFSƏNCANİ,***
***İran İslam Respublikası Məsləhət Şurasının sədri.***

Hörmətli cənab Prezident!

Heydər Əliyevin vəfatı ilə əlaqədar cənabınıza və şərafətli Azərbaycan xalqına başsağlığı verirəm.

Şübhəsiz ki, Onun səyləri iki ölkə arasında əlaqə və münasibətlərin genişlənməsinin rəhni olmuşdur. Böyük Allahdan mərhuma ilahi rəhmət, cənabınıza və şərafətli Azərbaycan xalqına isə uğurlar və başsağlığı diləyirəm.

***Möhsün ƏMİNZADƏ,***
***İran İslam Respublikası xarici işlər nazirinin müavini.***

YUNİSEF-in əməkdaşları və həmkarları ilə görüşə həmişə vaxt tapmış və YUNİSEF-in mühüm tədbirlərində daim iştirak etmiş prezident Heydər Əliyev YUNİSEF-in yaddaşında uşaq hüquqlarının güclü müdafiəçisi kimi qalacaqdır.

Qoy, onun haqqında xatirələr ürəklərdə əbədi yaşasın, onun ruhunu daim şad etsin.

***Karol BELLAMİ,***
***YUNİSEF-in icraçı direktoru.***

Əziz Prezident Əliyev!

Cənab Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Heydər Əliyev Azərbaycan xalqının və Azərbaycan Respublikasının tarixində mühüm rol oynamışdır. Onun liderliyi və istedadı onunla görüşən hər kəsə bəlli olurdu.

Xahiş edirəm, atanızın vəfatı ilə əlaqədar ən səmimi başsağlığımı qəbul edəsiniz.

***Brenda ŞAFFER,***
***Harvard Universitetinin Con F.Kennedi adına***
***İdarəçilik Məktəbinin Xəzər Araşdırmaları***
***Proqramının tədqiqatlar üzrə direktoru.***

Ağır itki ilə əlaqədar mən və ailəm dərin hüznlə başsağlığı veririk. Hayfa şəhərində yaşayan dostlarım, bakılılar, bütün azərbaycanlılar, onu sevən və ona hörmət edənlərin hamısı mənə qoşulur. Heydər Əlirza oğlunun vəfatı bizi dərindən sarsıtmışdır. Biz onu Azərbaycanı ən yüksək səviyyəyə qaldırmış bir insan, öz xalqının qayğıkeş atası, yüksək mənəvi prinsiplərə malik intellektual, bütün xalqların, o cümlədən yəhudi xalqının mənafelərinə hörmət edən demokrat kimi həmişə xatırlayacağıq.

Heydər Əlirza oğlu ilə eyni gündə bacımın vaxtsız vəfat etməsi və dinimizin bəzi xüsusiyyətləri, - 7 gün televiziyaya baxmağı və qəzet oxumağı qadağan etməsi ilə əlaqədar bu məktubu bir qədər gecikdirdiyim üçün Sizdən üzr istəyirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, bu kədər harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıları, eləcə də əslən Azərbaycandan olanları daha sıx birləşdirəcəkdir. Əminəm ki, Heydər Əlirza oğlunun adı İsraildə sülhün möhkəmlənməsi işinə kömək edəcəkdir.

***Svetlana NİSANOVA,***
***Knessetin deputatı, Roman Bronfmanın müşaviri,***
***İsrail-Azərbaycan Dostluq Cəmiyyəti***
***Komitəsinin üzvü, (Hayfa).***

Ümummilli liderimiz və əziz dostum Heydər Əliyevin vəfatı ilə əlaqədar xalqımıza Londonda yaşayan azərbaycanlıların və öz ailəmin tərəfindən başsağlığı verirəm.

Kədərləndiyimizi bildirir, Allahdan onun ruhuna rəhmət diləyirik.

***Qulamrza SƏBRİ-TƏBRİZİ,***
***Edinburq Universitetinin professoru,***
***Dünya Azərbaycanlılarının Əlaqələndirmə***
***Şurası sədrinin müavini.***

Azərbaycanın və bütün türk dünyasının misilsiz lideri, dövlət adamı, müdrik insan Heydər Əliyevin həyatdan getməsini böyük kədər içərisində öyrəndik... Ruhu şad, yeri cənnət olsun. Allah rəhmət eləsin.

Başda oğlu hörmətli prezident İlham Əliyevə və əziz millətinə, bütün türk dünyasına başsağlığı verirəm. Allah rəhmət eləsin, ruhu şad,





yeri cənnət olsun. O misilsiz liderin ruhunun şad olması üçün məscidimizdə cümə axşamı günü Qurani-Kərim oxunacaq və ehsan veriləcəkdir...

***Cəfər ORUC,***
***Almaniyanın Zalsburq şəhərindəki***
***"Əhli-beyt" məscidinin sədri.***

Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasına sovet dövründə başçılıq etmiş, SSRİ hökumətinin tərkibində çalışmışdır. Respublikanın müstəqilliyi elan edildikdən sonra, o, 1993-cü ildə yenidən Azərbaycanın ən yüksək vəzifələrinə - Ali Sovetin sədri, sonra ölkənin prezidenti vəzifələrinə seçildi və bütün qüvvəsini suveren, demokratik dövlət qurulması işinə sərf etdi. Onun titanik iradəsi və sülhməramlı səyləri sayəsində respublikada dönüş yaranmış, quruculuq işləri başlanmış, ölkə tərəqqi, yaradıcılıq və müstəqil inkişaf yolu ilə irəliləmişdir. Heydər Əlirza oğlu təkcə Azərbaycanda deyil, həm də onun hüdudlarından kənarda çox böyük hörmət sahibi idi. Rusiya vətəndaşları, Rusiya jurnalistləri də onu sevir və qiymətləndirirdilər.

***Vsevolod BOQDANOV,***
***Rusiya Jurnalistlər İttifaqının sədri.***

Rusiya Təhsil Akademiyasının Rəyasət heyəti Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar dərindən kədərlənir.

***Nikolay NİKANDROV,***
***Rusiya Təhsil Akademiyasının prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı xəbəri məni çox sarsıtdı.

Bu böyük itki ilə əlaqədar mərhumun yaxınlarına Vyetnam dövləti və xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***Çan Dik LİONQ,***
***Vyetnam Sosialist Respublikasının prezidenti.***

Cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı xəbərini dərin təəssüf hissi ilə qarşıladım. Bu itki ilə əlaqədar zati-alinizə və Sizin vasitənizlə mərhum liderin ailəsinə səmimi başsağlığı verirəm.

Qadir Allaha dua edirəm ki, Sizi və dost Azərbaycan xalqını qoruyub saxlasın.

***Məhəmməd Hüsni MÜBARƏK,***
***Misir Ərəb Respublikasının prezidenti.***

Cənab İlham Əliyev!

Dost ölkənin - Azərbaycanın prezidenti zati-aliləri HEYDƏR ƏLİYEVİN vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım. "Bizim hamımız Allaha məxsusuq və Onun dərgahına qayıdacağıq".

Cənab prezident, Əfqanıstan Keçid İslam Dövləti bu əvəzsiz itki ilə əlaqədar Sizə, hökumətinizə və qardaş Azərbaycan xalqına dərin səmimiyyətlə başsağlığı verir.

Sizə, hökumətinizə və Azərbaycan xalqına ən xoş arzularımı yetirir, cansağlığı, uğurlar, xoşbəxtlik və tərəqqi diləyirəm.

***Həmid KƏRZAİ,***
***Əfqanıstan Keçid İslam Dövlətinin prezidenti.***

Hörmətli cənab İlham Əliyevə!

İcazə verin, atanız prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə səmimi başsağlığımı bildirim.

Onun təkcə yaxınları üçün deyil, onunla görüşmək şərəfinə nail olmuş bizim üçün də eyni dərəcədə ağır itki olan vəfatı xəbərini böyük kədər hissi ilə eşitdik.

Zati-aliləri, bu ağır anlarda dərin hüznlə başsağlığı verir, Sizin kədərinizə və bütün Azərbaycan xalqının kədərinə şərik olduğumu bildirirəm.

***Rudolf ŞUSTER,***
***Slovakiya Respublikasının prezidenti.***





Prezident Heydər Əliyevin Birləşmiş Ştatlarda müalicə alarkən vəfatı xəbərini eşidərək kədərləndim.

Şri-Lanka hökuməti və xalqı adından Azərbaycan Respublikasının hökumətinə, xalqına və Sizin ailə üzvlərinizə bu hüzn münasibətilə ən dərin hisslərlə başsağlığı verirəm.

***Çandrika KUMARATUNQA,***
***Şri-Lanka Demokratik Sosialist***
***Respublikasının prezidenti.***

Hörmətli cənab İlham Əliyev!

Böyük Allahın əməllərinə və qüdrətinə inanaraq möhtərəm atanız və əziz dostum, zati-aliləri prezident Heydər Əliyevin (Allah ona rəhmət eləsin) vəfatı xəbərini təəssüf hissi ilə aldım. Dost və qardaş Azərbaycan mənəviyyatına, xeyirxahlığına və vətənpərvərliyinə görə ən yaxşı kişisini itirdi.

Allah-Təaladan onun cənnətməkan olmasını, Sizə isə səbir verməsini diləyirəm.

***Rəfiq HƏRİRİ,***
***Livan Respublikasının baş naziri.***

Onun vəfatı Azərbaycan xalqı üçün, doğrudan da, faciəli və kədərli hadisədir. Azərbaycan xalqı onun vəfatından çox kədərlənəcəkdir. Lakin o, yaddaşlarda yaşamaqda davam edəcək və onun ölkənizə verdiyi töhfə heç vaxt unudulmayacaqdır.

Prezident Heydər Əliyevlə qismət olmuş görüşümü və ürəyinə çox yaxın mövzuları onunla müzakirə etməyimizi heç vaxt unutmayacağam.

***Mişel DANE,***
***Dünya Gömrük Təşkilatının baş katibi.***

Əziz prezident İlham Əliyev!

Sizin atanız prezident Heydər Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Sizə və ailənizə bu ağır günlərdə dərin hüznlə başsağlığı verirəm.

***Jak ROQQ,***
***Beynəlxalq Olimpiya Komitəsinin prezidenti.***

Əziz İlham Əliyev!

Sevimli atanız zati-aliləri Heydər Əliyevin vəfatı xəbərini dərin hüznlə öyrəndim. Onun ibrətamiz liderliyi və müdrik rəhbərliyi Azərbaycan xalqının ilham mənbəyi olaraq qalacaqdır.

Xahiş edirəm, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının və mənim səmimi başsağlığımı qəbul edəsiniz, hökumətinizə, eləcə də ailənizə yetirəsiniz.

***Jak DUİF,***
***BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru.***

Müasir Azərbaycan dövlətçiliyinin banisi və ölkənizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafının təşəbbüskarlarından olan cənab Heydər Əliyev Azərbaycan Respublikası ilə Beynəlxalq Ticarət Mərkəzi arasında əməkdaşlığın başlanmasında həlledici və çox böyük rol oynamışdır və mən bu nailiyyəti yüksək qiymətləndirirəm.

***C. Denis BELİSLE,***
***Beynəlxalq Ticarət Mərkəzinin icraçı direktoru.***

Cənab prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycandakı nümayəndə heyəti, Cenevrədəki Katibliyi adından və öz adımdan ən səmimi başsağlığı vermək istəyirəm.

O, yaddaşımızda kasıblıqdan çıxmaq və inkişafa, daha yaxşı gələcəyə doğru irəliləmək üçün xalqına ümid və cəsarət vermiş böyük lider kimi qalacaqdır.

***Hlin BALDVİNSTDOTTİR,***
***Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Azərbaycandakı nümayəndə heyətinin rəhbəri.***

Hörmətli İlham Heydər oğlu!

Heydər Əlirza oğlu ƏLİYEVİN vəfatı qəlbimizdə dərin kədər və qüssə hissləri doğurdu.

Biz şəxsiyyəti son onilliklərin tarixində və siyasətində dərin iz buraxan görkəmli rəhbəri və dövlət xadimini itirdik. Heydər Əlirza oğlu bizim üçün





həmişə yüksək siyasi müdriklik, insanlıq, bəsirət və uzaqgörənlik nümunəsi olacaqdır.

Sizinlə, bütün ailənizlə, Azərbaycan xalqı və onun dostları ilə, Heydər Əlirza oğlunun xatirəsini əziz tutanların hamısı ilə birlikdə kədərlənirik.

***Mixail LEBEDEV,***
***Sorbonna Beynəlxalq Siyasət Mərkəzinin katibi.***

Mütəşəkkil Amerika yəhudi icmasının nümayəndələri kimi biz bir neçə dəfə Vaşinqtonda, Nyu-Yorkda və Bakıda Heydər Əliyevlə görüşmək şərəfinə nail olmuşuq. Amerika ilə Azərbaycan arasındakı dostluq və Heydər Əliyevin Azərbaycandakı yəhudi icmasına dəstəyi millətinizin ənənəvi tolerantlığını və plüralizmi möhkəmləndirmişdir.

Biz Azərbaycanın Amerika Birləşmiş Ştatları və İsrail Dövləti ilə əlaqələrinin inkişaf etdirilməsində rol oynamaq şərəfinə nail olmuşuq və bu, birgə səylərin davam etdirilməsi öhdəliyini yenidən üzərimizə götürürük.

***Rusiyada, Ukraynada, Baltikyanı dövlətlərdə və Avrasiyada olan yəhudilərin müdafiəçiləri adından,***
***Robert C. MET,***
***Amerikanın "En-Si-Es-Cey" təşkilatının sədri.***

Zati-aliləri!

Görkəmli siyasi xadim prezident HEYDƏR ƏLİRZA oğlu ƏLİYEVİN vəfatı haqqında faciəli xəbər bütün dünya ictimaiyyəti tərəfindən əvəzsiz itki kimi qəbul edilmişdir.

Azərbaycanın müstəqil dövlət kimi təşəkkül tapmasında HEYDƏR ƏLİRZA oğlu ƏLİYEVİN misilsiz xidmətlərinin həqiqi qiymətini vermək çox çətindir.

***İosif REZNİK,***
***ABŞ-ın "TRANSKom" şirkətinin prezidenti.***

Möhtərəm cənab Prezident!

İcazə verin, uzun müddət Azərbaycan Respublikasının prezidenti olmuş dəyərli atanızın vəfatı ilə əlaqədar Bosniya və Herseqovinanın Rəyasət Heyəti və idarələri adından və öz adımdan səmimi başsağlığımızı yetirim.

Zati-aliləri cənab Heydər Əliyev müasir və müstəqil Azərbaycan Respublikasının yeni tarixində ölçüyəgəlməz iz buraxmışdır.

***Draqan COVİÇ,***
***Bosniya və Herseqovina Rəyasət Heyətinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız Heydər Əliyevin vəfatı xəbərini böyük hüzn və kədər hissi ilə aldım. Allah rəhmət eləsin!

Zati-alilərinizə dərin hüznlə başsağlığı verirəm. Allah-Təaladan mərhuma qəni-qəni rəhmət, Sizə və bütün ailənizə səbir, habelə Sizləri və qardaş xalqınızı şərdən qorumağı diləyirəm.

***Zaid bin Sultan Əl NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə aldım. Allah rəhmət eləsin.

Zati-alilərinizə dərin hüznlə başsağlığı verirəm. Allah-Təaladan mərhuma rəhmət, Sizə və bütün ailənizə səbir, habelə Sizləri və qardaş Azərbaycan xalqını şərdən qorumağı diləyirəm.

***Məktum bin Rəşid Əl MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti,***
***baş naziri, Dubay Əmirliyinin hökmdarı.***

Zati-aliləri cənab İlham Əliyev!

Bu ağır itki ilə əlaqədar Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Avropa İşləri üzrə Bürosu adından Azərbaycan xalqına səmimi başsağlığı verirəm.

***Linn PASKO,***
***Amerika Birləşmiş Ştatları***
***dövlət katibi köməkçisinin müavini***





Hörmətli cənab Prezident!

Həmkarlarım və mən atanızın vəfatı barədə faciəli xəbərdən olduqca kədərlənmiş və qüssələnmişik. Hər halda, o, əmin olmuşdur ki, Siz onun işlərini davam etdirəcəksiniz və mən Sizə uğurlu gələcək barədə ən səmimi arzularımı yetirirəm. Ümidvaram ki, qarşıdan gələn Yeni il Sizin üçün daha uğurlu olacaqdır və mənim hər hansı köməyimə ehtiyac olarsa, məni məlumatlandırmağa tərəddüd etməyin.

Nə vaxt Böyük Britaniyaya səfər etsəniz, Sizi burada salamlamaqdan şərəf duyardım. Bir daha Sizə başsağlığı verir və ən xoş mövsümi təbriklərimi yetirirəm.

***Braunstoun lordu CANNER.***

O, böyük lider idi və öz uzaqgörənliyi ilə Azərbaycan xalqına sülh və firavanlıq bəxş etmişdi. Prezident Heydər Əliyevlə şəxsi dostluğumu yüksək qiymətləndirirəm və onunla Bakıda, İstanbulda, Nyu-Yorkda, Hyustonda və Vaşinqtondakı görüşlərimiz haqqında xoş xatirələri heç vaxt unutmayacağam. O, böyük lider və dost idi və biz hamımız onu xatırlayacağıq.

***Qreq LAFLİN,***
***Amerika Birləşmiş Ştatları Konqresinin keçmiş üzvü.***

Amerika da böyük dostunu itirdi.

Bizi də kədərləndirən bu ağır itki ilə bağlı dərdinizə şərik oluruq. Dünya böyük liderini, demokratiya isə böyük dostunu itirdi. Qoy Heydər Əliyevin görkəmli oğlunun davam etdirdiyi siyasətlə ölkəniz inkişaf və tərəqqi yolu ilə getsin.

***Virciniya Heys-UİLYAMS,***
***Vaşinqtonun meri Antoni Uilyamsın anası.***

Azərbaycanın böyük övladı, Heydər Əliyevi itirməkdən böyük kədər içindəyik. Keçirdiyimiz hisslər sözlə ifadə edilə bilməz. XX əsrdə dünya türklüyünün görkəmli şəxsiyyətlərindən biri olan zati-aliləri Heydər Əli-

yev “Bir millət, iki dövlət” fikrinin sahibi, fövqəladə bir lider kimi tarix səhnəsində öz yerini tutmuşdur.

***Şamil AYRIM,***
***millət vəkili, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Ağır itki - görkəmli dövlət xadimi prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqı üçün bu kədərli günlərdə Sizə, ailənizə və Azərbaycan hökumətinə “OADO” İnsan Hüquqlarını Müdafiə Təşkilatının Direktorlar Kollegiyası və üzvləri adından dərin hüznlə başsağlığı veririk.

Mərhum prezidentin xatirəsi naminə Azərbaycan xalqına və hökumətinə bu çətin anlardan keçməyi və demokratiya, tərəqqi uğrunda mübarizədə Azərbaycana yeni uğurlar arzulayırıq.

***Professor Florentin SKALETSKİ,***
***“OADO”-nun sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan siyasətinin patriarxının vəfatı ilə əlaqədar dərin başsağlığımızı qəbul edin.

Sizinlə birlikdə kədərlənirik.

***Y.UŞAKOV,***
***Rusiyanın ABŞ-dakı səfiri.***

Həmişə parlaq, ilhamlı, əqidəli şəxsiyyət olmuşdur. O, Belarus xalqının səmimi dostu idi. Xalqımız onun xatirəsini qəlbində yaşadacaqdır.

Heydər Əlirza oğlu müstəqil Azərbaycanın bünövrəsini qoymuş, demokratik cəmiyyətin möhkəm əsaslarını yaratmışdır. Onunla ünsiyyətdə olmaq xoşbəxtliyi nəsib olanların hamısı ona bəslədikləri ən səmimi hissləri həmişə qəlblərində saxlayacaqlar.

***Mixail XVOSTOV,***
***Belarusun ABŞ-dakı səfiri.***





Gözəl insan, Azərbaycan xalqının böyük oğlu dünyasını dəyişdi. O, dünya siyasəti tarixində görkəmli dövlət xadimi və siyasətçi kimi qalacaqdır.

Heydər Əlirza oğlu xoşbəxt adamdır. O, ölkəni qurdu, layiqli oğul böyütdü və bütün həyatını həsr etdiyi işi ona tapşırdı.

***Kanat SAUDABAYEV,***
***Qazaxıstanın ABŞ-dakı səfiri.***

Çox böyük facia - prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar xalqımın səmimi başsağlığını qəbul etməyinizi xahiş edirəm. Bu böyük dövlət xadimi Azərbaycanın tərəqqisi və güclənməsi üçün yol açmışdır. O, Qafqazın tərəqqisinə də çox böyük töhfə vermişdir. Biz gürcülər bu çox ağır anda azərbaycanlı qardaşlarımızlayıq və əminik ki, ölkələrimizin gələcəyi daha yaxşı olacaqdır.

***Levan MİKELADZE,***
***Gürcüstanın ABŞ-dakı səfiri.***

Azərbaycan xalqının həyatında bütöv bir epoxa, xüsusilə müstəqil Azərbaycanın təşəkkül tapdığı illər prezident Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev Şərq müdrikliyinin təcəssümü və zəmanəmizin böyük siyasətçisi idi.

Onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

***Meret ORAZOV,***
***Türkmənistanın ABŞ-dakı səfiri.***

Zati-aliləri cənab İlham Əliyev!

Bu ağır itki ilə əlaqədar Finlandiya hökuməti adından Azərbaycan Respublikası prezidentinin ailəsinə səmimi başsağlığı verirəm.

***Yukka VALTASAARİ,***
***Finlandiya Respublikasının ABŞ-dakı səfiri.***

Heydər Əlirza oğlu təkcə Azərbaycan xalqının deyil, həm də bütün keçmiş Sovet İttifaqının lideri və siyasi xadimi idi. Ölkəmizdə Heydər Əliyevi yaxşı tanıyırdılar və o, cəmiyyətin bütün təbəqələrində çox böyük hörmət qazanmışdı.

***X. ZARİPOV,***
***Tacikistan Respublikasının ABŞ-dakı səfiri.***

Zati-aliləri cənab İlham Əliyevə!

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Norveç hökuməti adından və öz adımdan səmimi başsağlığı verirəm. 1999-cu ildə ATƏT-in sədri olduğum zaman prezidentlə sıx əməkdaşlığımız xatirimdədir.

***Knut VOLLEBEK,***
***Norveçin ABŞ-dakı səfiri.***

ATƏT-in Minsk qrupunun keçmiş sədri kimi mən Dağlıq Qarabağ məsələsinin ədalətli, dinc həllini tapmaq üçün yüz saatlarla birlikdə çalışdığım şəxsiyyətin vəfatını öz itkim kimi hiss etdiyimi bildirirəm. Onunla işlədiyim müddət ərzində aramızda mənim siyasi, eləcə də şəxsi həyatımda çox yüksək qiymətləndirdiyim səmimi dostluq münasibətləri yaranmışdı.

Azərbaycan hökumətinə və xalqına rəğbət hisslərimi bildirir və başsağlığı verirəm.

***Yan ELİASSON,***
***İsveç Krallığının ABŞ-dakı səfiri.***

Azərbaycanda olduğumuz müddətin bizim üçün xüsusi əhəmiyyəti var idi. Azərbaycan tarixinin çox böyük əhəmiyyətli vaxtında Birləşmiş Ştatları təmsil etmək böyük şərəf idi. Orada olduğum üç il müddətində - ABŞ səfiri kimi etimadnaməmi təqdim etdiyim gündən ölkəni tərk etdiyim günədək Heydər Əliyev bizim üçün yalnız Azərbaycanın prezidenti deyil, həm də ailəmizin sevinc və kədər hisslərini bölüşən İNSAN kimi xatirimizdə qaldı.

Oğlumuz Rik vəfat edərkən prezident Əliyev birinci olaraq öz başsağlığını verdi. Ənn və mən onun ifadə etdiyi dostluq və hörmət hisslərini həmişə qəlbimizdə ən zəngin xəzinə kimi yaşadacağıq.





Azərbaycan dövlət müstəqilliyinin çətin dövründə tab gətirə bildi. Heydər Əliyev o dövrün çox hissəsini ölkənin prezidenti olmuş, nümayiş etdirdiyi liderliyi ilə Azərbaycanın suverenliyini təsdiq etmişdir. Həmin dövrdə Birləşmiş Ştatlar Azərbaycanla birgə möhkəm dayanmış və prezident Heydər Əliyevlə işləyərək, Azərbaycanın müstəqilliyini gücləndirməyə çalışmışdır.

Onun vəfatı ilə bağlı matəm içində olan Azərbaycan xalqı müstəqillik qazandığı gündən bəri əldə etdiyi nailiyyətlərlə fəxr edə bilər. Xalqınız həm də prezident Heydər Əliyevin sayəsində müstəqilliyini təmin etmiş, demokratik və müasir dövlət quruculuğu yoluna sadiqlik göstərmişdir. Azərbaycanın gələcəyinə nikbinliklə baxmaq olar.

***Riç və Ənn KOZLARİÇLƏR,***
***ABŞ-ın Azərbaycandakı sabiq səfiri və onun xanımı.***

Heydər Əliyev Sovet İttifaqının, Qafqazın və öz ölkəsinin tarixində iz qoyacaqdır.

Onunla ilk dəfə görüşmək xoşbəxtliyi mənə 1994-cü ildə nəsib olmuşdu və o, mənim xatirimdə dahi insani keyfiyyətləri ilə yanaşı, hədsiz mədəniyyət və nadir zəka sahibi kimi qalmışdır.

***Jil REMİ,***
***Fransanın "SİFAL" şirkətlər qrupunun prezidenti.***

Cənab Heydər Əliyevin Azərbaycanın inkişafına töhfəsi ölçüyəgəlməzdir. Biz ürəkdən təəssüflənirik ki, ömrünü öz xalqının tərəqqisinə, millətin sıx birliyinə və beynəlxalq aləmdə ölkənin nüfuzunun möhkəmlənməsinə həsr edən belə insanlar həyatdan vaxtsız gedirlər.

Biz Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətlərinin yaradılması üçün çox işlər görmüş, Qafqaz regionunda sülhün və sabitliyin qorunub saxlanmasını öz siyasətinin əsası kimi seçmiş insanın əvəzsiz itkisini həmişə hiss edəcəyik.

Gözəl insanın və xalq liderinin vəfatından Sizinlə birlikdə kədərlənirik.

***Olqa DERQUNOVA,***
***"Maykrosoft"un Rusiya və MDB ölkələrindəki nümayəndəliyinin başçısı.***

Zati-aliləri cənab İlham Əliyev!

Möhtərəm atanız, böyük dövlət adamı, dost və qardaş Azərbaycanın lideri, dəyərli böyüyüm Heydər Əliyevin vəfatı bizi dərindən kədərləndirmişdir. Mərhum atanıza Allahdan rəhmət diləyir, Siz başda olmaqla Əliyevlər ailəsinə və Sizin şəxsinizdə Azərbaycan xalqına başsağlığı verir, bu böyük ağrınızı bölüşürəm.

***Cavid ÇAĞLAR,***
***Türkiyənin "Nərgiz Holdinq" şirkətinin sədri.***

Hörmətli Prezident!

Dəyərli dövlət adamı və atanız hörmətli Heydər Əliyevi itirməyimizdən böyük kədər hissi keçirdiyimizi bildirmək istəyirik. Azərbaycana xidmət etdiyim uzun illər boyu ölkələrimiz arasındakı dostluq, qardaşlıq və həmrəylik ruhunun inkişafına böyük töhfələr vermiş hörmətli Heydər Əliyevə Türkcell adından Tanrıdan rəhmət diləyir, Sizin şəxsinizdə ailənizə və Azərbaycan xalqına başsağlığı veririk.

***Müzəffər AKPINAR,***
***Türkcell Rabitə Xidmətləri***
***Anonim Şirkəti İdarə Heyətinin sədri.***

Dünyanın ən problemli bölgələrindən birində ömrünü türk dünyasına xidmətdə keçirən dəyərli dövlət adamı Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndik. Mərhum Heydər Əliyev Qafqazda və Orta Asiyada sabitliyin təmin edilməsi və demokratiyanın bərqərar olmasına çox böyük töhfə vermişdir. Onun bayrağını daşımaq vəzifəsini öhdəsinə götürən və dəyərli oğlu olan Azərbaycan prezidenti İlham Əliyevə, yaxınlarına, Azərbaycan xalqına və türk dünyasına ən dərin hüznlə başsağlığı verir, mərhuma Allahdan rəhmət diləyirəm.

***Fətullah GÜLƏN,***
***Türkiyə Qəzetçilər və Yazıçılar Vəqfinin fəxri sədri.***

Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini Dərbənddə dərin kədər hissi ilə qarşıladılar.

Dünya ictimaiyyəti onun simasında ən təcrübəli siyasətçilərdən və nüfuzlu rəhbərlərdən birini itirdi. Onun bütünlüklə öz xalqına həsr etdiyi həyatı siyasətçilərin bir çox nəsli üçün nümunədir. Heydər Əlirza oğlu Azərbaycanın müstəqilliyi və suverenliyinin beşiyi başında dayanmışdı.

Ardıcıl beynəlmiləlçi kimi o, təkcə Azərbaycanda deyil, həm də bütün Qafqazda sülhə, dostluğa və sabitliyə nail olmaq üçün çox qüvvə sərf etmişdi.

Heydər Əlirza oğlu Əliyevin nurlu obrazı qədirbilən bəşəriyyətin qəlbində əbədi yaşayacaqdır.

***Dərbənd şəhəri sakinlərinin mitinqinin iştirakçıları.***

Azərbaycanın qurucu atası olan prezident xalqına sülh, rifah və sabitlik yaradılması məqsədilə bütün enerjisini sərf etmiş lider kimi yaddaşlarda qalacaqdır. Onun yorulmaz səyləri məhz bu məqsədə nail olmaq və ölkəni regionun çiçəklənən, sabit və əmin-amanlıq şəraitində yaşayan demokratik məkan kimi görmək üçün Azərbaycanın gələcək liderlərinə yol açdı.

***Piter BURHARD,***
***səfir, ATƏT-in Bakı ofisinin rəhbəri.***

Zati-aliləri cənab İlham Əliyev!

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) atanız, zati-aliləri prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə, ailənizə və Azərbaycan vətəndaşlarına dərin hüznlə başsağlığı verir.

Həmkarlarım və mən beynəlxalq ictimaiyyət arasında böyük hörmət və ehtirama malik olan zati-aliləri prezident Heydər Əliyevin vəfatı haqqında xəbəri böyük kədərlə qarşıladıq.

Dərin hörmətlə,

***Yoost van der AALST,***
***BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri.***

Cənab Heydər Əliyev prezident vəzifəsində olarkən Roma Papası Azərbaycanı ziyarət etdi və cənab prezident bütün konfessiyalara, o cümlədən bizim Roma katolik konfessiyasına səmimi, xeyirxah tolerant mü-

nasibət göstərdi. Həmin vaxt o, özünü müdrik, geniş dünyagörüşlü ölkə başçısı olduğunu bir daha göstərdi.

Əbədi həyata inanan insanlar olaraq dua edirik ki, Tanrı onu əbədi behiştlik etsin.

***P.Jan ÇAPLA,***
***Azərbaycandakı "Missio Sui İuris"***
***katolik kilsəsinin ordinarı.***

Zati-aliləri cənab İlham Əliyev!

Çox hörmətli atanız, prezident Heydər Əliyevin vəfatı xəbərini dərin sarsıntı və kədər ilə öyrəndim.

Şəxsən Sizə və bütün Azərbaycan xalqına səmimi hüsn-rəğbətimi və başsağlığımı çatdırıram.

Heydər Əliyev yaddaşımızda yaşayacaq və biz onu heç vaxt unutmayacağıq.

***Arnold RÜÜTEL,***
***Estoniya Respublikasının Prezidenti.***

Əziz Prezident Əliyev!

Atanızın vəfatı xəbərini dərin hüznlə öyrəndim. Bu itki ilə əlaqədar Sizə və ailənizə səmimi qəlbdən başsağlığı verirəm.

Səmimiyyətlə,

***Donald RAMSFELD,***
***Amerika Birləşmiş Ştatlarının müdafiə naziri.***

Heydər Əlirza oğlunun şəxsiyyətinin geniş miqyası, yüksək nüfuzu və MDB çərçivəsində dövlətlərarası əməkdaşlığın inkişafında və tərəfdaşlığın dərinləşməsində xidmətləri onu haqlı olaraq XX əsrin parlaq siyasətçiləri sırasına çıxarmışdır.

Heydər Əlirza oğlu asayişin və qanunçuluğun möhkəmlənməsinə özünə xas müdrikliklə səmərəli təsir göstərirdi. Mütəşəkkil Cinayətkarlığa və Digər Təhlükəli Cinayətlərə Qarşı Mübarizəni Əlaqələndirmə Bürosu da yarandığı vaxtdan onun dəstəyini və müsbət təsirini hiss edirdi.

***S. SOKOLOV,***
***Büronun direktoru, milis general-leytenantı.***





Hörmətli cənab Prezident!

Biz, Almaniyada yaşayan azərbaycanlılar Azərbaycan xalqına və dövlətinə baş vermiş böyük itki, tanınmış dövlət xadimi və dünya miqyaslı siyasətçi prezident Heydər Əliyevin vəfatı barədə xəbəri böyük üzüntü ilə qarşıladıq.

Almaniyadakı Azərbaycan Federasiyası, digər Azərbaycan cəmiyyətləri və burada yaşayan soydaşlarımız adından Sizə və xalqımıza dərin hüznlə başsağlığı verir və son qəminiz olsun deyirik.

***Doktor Nüsrət DELBESTEH,***
***Azərbaycan Federasiyasının prezidenti (Berlin).***

Hollandiyada yaşayan azərbaycanlılar olaraq biz bu acı xəbəri duyduğumuz andan etibarən dərin hüzn içindəyik. Alicənab, möhtərəm prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri ana Vətəndə olduğu kimi, xarici ölkələrdə, həmçinin Hollandiyada yaşayan bizləri də sarsıtmışdır.

Möhtərəm prezidentimizin vəfatı, sadəcə, Azərbaycan xalqını deyil, bütün siyasət dünyasını üzmüşdür. Çünki O, ötən qərinədə müdrikliyi ilə bölgə, Avropa və dünya siyasətində geniş iz buraxmışdır.

Azərbaycanımızın Avropa və dünyanın iqtisadiyyat və siyasət meydanına çıxmasında onun rolu heç bir zaman unudulmayacaqdır. O böyük şəxsiyyətin xalqımızın sabahı, milli şüurun inkişafı üçün gördüyü işlər gələcək nəsillərin yoluna işıq tutacaqdır. Onun tutduğu yol Azərbaycanımızı açıq səmalı gələcəyə, sülhə, əmin-amanlığa aparacaq, hər kəsin qibtə ilə baxacağı güclü və zəngin bir dövlətə çevirəcəkdir.

***Cəlal QARAGÖZ,***
***Hollandiya Azərbaycan-Türk Kültür Dərnəyinin sədri,***

***Eyvaz HƏŞİMOV, Özcan AKBAL, Mühərrəm ATIŞ, H.Əli AKTAŞ,***
***Vedat BAĞCI, Sərvət AZER, İdarə heyətinin üzvləri.***

Hörmətli cənab İlham Əliyev!

Bütün dünyanın tanıdığı böyük dövlət adamı, Atanız, şərəf və şan timsalı prezidentimiz Heydər Əliyevi itirdiyimiz üçün çox kədərliyik. Sel olan göz yaşlarımız ürəyimizin dərinliklərinə axır. Biz, xaricdə yaşayan azərbaycanlılar burada tənha və qərib qaldıq. Böyük Allah yerini cənnət nurları ilə doldursun.

***Əkbər GƏNCƏ,***
***İsveçrə Azərbaycan Federasiyasının sədri.***

Tarixi Vətənin hüdudlarından kənarda yaşayan biz azərbaycanlılar prezidentimizin səmimiliyini və qayğısını, beynəlxalq aləmdə nüfuz və hörmətini həmişə hiss edirdik.

Biz həmişə yadda saxlayacağıq ki, Heydər Əliyevin şəxsi səyləri sayəsində bütün dünya azərbaycanlılarının milli birliyi və həmrəyliyi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

İnanırıq ki, onun milli ideya kimi formalaşdırdığı azərbaycanlıların mənəvi birliyi, milli ümumiliyi, Vətənə məhəbbəti hər bir soydaşımız üçün parlaq həyat yoludur.

O, Vətənə, xalqa məhəbbət naminə vətəndaş hünəri və cəsarətinin təcəssümü kimi qədirbilən nəsillərin xatirəsində daim yaşayacaqdır.

O, bir dəfə "əmin ola bilərsiniz ki, sizin prezident Azərbaycanın müstəqilliyini, daxili sabitliyini son nəfəsinədək qoruyacaq, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəkdir" demiş və axıradək öz sözünün üstündə durmuşdur.

Heydər Əliyev bizim yaddaşımızda məhz belə qalacaqdır.

*Məmməd ƏLİYEV,*
***Ümumrusiya Azərbaycan Konqresinin prezidenti (Moskva).***

Ukrayna azərbaycanlıları Azərbaycan tarixinin sınaq anında ölkəmizə rəhbərlik edən, millətimizi xilas edərək ictimai-siyasi və sosial-iqtisadi münasibətlər sistemini əsaslı surətdə yeniləşdirən dahi şəxsiyyəti, dünya siyasətinin patriarxını hər zaman axtaracaqdır.

Bizim Atamız vəfat etmişdir. Qəlbimiz hüzn və kədərlə doludur.

***Ukrayna Azərbaycanlıları Konqresi.***

Xalqımızın lideri, dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət, fəxrimiz və sevimli insanımız olan zati-aliləri prezident cənab Heydər Əliyevin vəfatı barədə xəbər Belarusda yaşayan bütün azərbaycanlıları ürəkdən sarsıtmış, dərin kədərimizə səbəb olmuşdur.

*Natiq BAĞIROV,*
***Belarusun "Azərbaycan İcmaları Konqresi"nin sədri,***
***"Qobustan" İctimai Birliyinin prezidenti.***





Estoniya Azərbaycan Mədəniyyət Mərkəzi prezident Heydər Əliyevin vəfatı ilə bağlı bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir.

Heydər Əliyevin Azərbaycan diasporunun inkişafındakı xidmətləri diasporumuzun tarixinə qızıl hərflərlə yazılacaq və xatirəmizdə əbədi yaşayacaqdır.

*Niyazi HACIYEV,*
***Estoniya Azərbaycan Mədəniyyət Mərkəzinin sədri.***

Heydər Əliyev dünya tarixində zəmanəmizin dahi şəxsiyyəti kimi qalacaqdır. O, siyasi fəaliyyəti ərzində böyük dünya siyasətinin aparılmasında strateji müdrikliyini, daxili gücünü və təmkinliliyini, gündəlik həyatın doğurduğu mütərəqqi hər bir şeyə hörmət hissini həmişə qoruyub saxlamışdır. Heydər Əliyev dövlət quruculuğunun müasir problemlərinin həlli, cəmiyyətin demokratikləşdirilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ölkədə islahatlar aparılması yolunda xalqımızı birləşdirirdi. O, bizim yaddaşımızda xalqımızın layiqli oğlu kimi yaşayacaqdır.

*Mehman İSMAYILOV,*
***Moldova Respublikası Azərbaycanlıları Konqresinin sədri.***

"ŞevronTeksako" şirkəti prezidentliyi dövründə Heydər Əliyevin ölkəsi üçün əldə etdiyi bütün nailiyyətləri yüksək qiymətləndirir. Onun atalıq qayğısı və rəhbərliyi ilə yaradılmış və əlverişli şərait Azərbaycanda xarici şirkətlərin uğurlu fəaliyyəti üçün imkan açmışdır.

Heydər Əliyevin uzaqgörənliyi və güclü dəstəyi nəticəsində "ŞevronTeksako" Azərbaycanın inkişaf etməkdə olan neft və qaz sektorunun bir çox məsələlərinin həllinə cəlb olunmuşdur.

*Qay HOLLİNQSUORT,*
***"ŞevronTeksako Oversiz Petroleum" şirkətinin Avrasiya bölməsinin icraçı direktoru.***

Hörmətli cənab İlham Əliyev!

Atanızın - görkəmli dövlət xadimi və siyasi xadimin vəfatı ilə əlaqədar "Enerqoinvest ASN" Məhdud Məsuliyyətli Cəmiyyəti Sizə səmimiyyətlə və dərin hüznlə başsağlığı verir.

Bu, bütün Azərbaycan xalqı üçün əvəzsiz itkidir.

***S. ƏLƏKBƏROV,***
***"Enerqoinvest ASN" MMC-nin rəhbəri (Kiyev).***

Hörmətli İlham Heydər oğlu Əliyev!

Atanızın - Böyük insan və Böyük siyasətçi Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə Latviya azərbaycanlılarının "Azəri" cəmiyyəti və Latviyada yaşayan bütün azərbaycanlılar adından başsağlığı verirəm.

Latviya azərbaycanlılarının Azəri cəmiyyəti bu hüznlü gündə Sizinlə birlikdə kədərlənir və Sizi dəstəkləyir.

***Ulduzxan ƏHMƏDOV,***
***Latviya azərbaycanlılarının***
***"Azəri" cəmiyyətinin sədri.***

Hörmətli Prezident!

Görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar Ukrayna Azərbaycanlıları Konqresinin Xarkov vilayət regional təşkilatı bütün Azərbaycan xalqına, Sizə və ailənizə dərin hüznlə başsağlığı verir. Heydər Əlirza oğlu Əliyevin həyat məramı belə idi: "Hər bir həqiqi azərbaycanlı öz Vətənini, torpağını, dövlətini bütün varlığı ilə sevməli və Azərbaycanın müstəqilliyini qorumalıdır".

***Q.ABBASOV,***
***Ukrayna Azərbaycanlıları Konqresinin***
***Xarkov vilayət regional təşkilatının sədri.***

Azərbaycan xalqının Böyük oğlu və atası Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar RF Buryatiya Respublikasının Azərbaycan Mədəniyyət Mərkəzi adından dərin hüznlə başsağlığı veririk. Biz onun Azərbaycan xalqı və dünya xalqları qarşısındakı xidmətlərini yüksək qiymətləndiririk.

Onun əziz və nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***Yusif CƏFƏROV,***
***Buryatiya Respublikası Azərbaycan***
***Mədəniyyət Mərkəzinin sədri.***

Hörmətli İlham Heydər oğlu!

Sadəcə, ata deyil, Azərbaycan xalqının müdrik oğlu həyatdan getmişdir. Azərbaycan Respublikası üçün bu itki əvəzolunmazdır. Əminik ki, Siz, ailəniz, eləcə də, bütün Azərbaycan xalqı bu dərdə mətanətlə tab gətirmək üçün özünüzdə möhkəm iradə tapacaqsınız.

Azərbaycanın tarixində ən qüdrətli və müdrik siyasi xadim kimi Heydər Əliyevin əziz xatirəsi azərbaycanlıların qəlbində daim yaşayacaqdır.

***Səyavuş İBRAHİMOV,***
***Yaroslavl Regional Azərbaycan Milli***
***Mədəni Muxtariyyətinin sədri.***

Heydər Əliyevin vəfatı xəbəri Qərbi Sibirdə yaşayan biz azərbaycanlıları dərindən kədərləndirdi. Prezident Heydər Əliyevin simasında Azərbaycan xalqı Böyük oğlunu itirmişdir. Onun nurlu xatirəsi bütün Azərbaycan xalqının, planetimizin müxtəlif guşələrində yaşayan bütün azərbaycanlıların qəlbində əbədi yaşayacaqdır.

***Nurəddin ƏSƏDOV,***
***"Xəzri" Regionlararası Azərbaycan İctimai***
***Təşkilatının prezidenti.***

Çox hörmətli Prezident!

Azərbaycan Respublikasının və Sovet İttifaqının görkəmli dövlət xadimi, prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Ümumrusiya Azərbaycan Konqresinin Arxangelsk regional şöbəsi dərindən kədərləndiyini bildirir. Şöbənin adından Azərbaycan xalqına, onun yeni prezidentinə,

doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Heydər Əlirza oğlunun nurlu adı xatirəmizdə və qəlbimizdə əbədi yaşayacaqdır.

***Cəmil ƏLİYEV,***
***ÜAK-ın Arxangelsk regional şöbəsinin sədri.***

Əziz İlham!

Atanız Heydər Əliyevin vəfatı xəbərini böyük sarsıntı ilə öyrəndim. O, böyük şəxsiyyət və ölkənizin istedadlı lideri idi. Son səkkiz il ərzində onunla olan görüşlərimi xatirimdə çox aydın şəkildə saxlamışam. Məni Azərbaycanın "Şöhrət" ordeni ilə təltif etmək üçün görüşümüz, xüsusilə yadda qalmışdır.

Qoy Allah ona rəhmət eləsin və bu faciəli itkiyə tab gətirmək üçün Sizə və ailənizə dözüm versin. Əminəm ki, Siz onun siyasətini Azərbaycan xalqının mənafeyi naminə uğurla davam etdirəcəksiniz.

***Professor, doktor Ənvər ÇOUDRİ,***
***Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti.***

Avropa Həvəskar Boks Assosiasiyası prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar səmimi qəlbdən başsağlığı verir. Biz onun dünya idmanına, xüsusilə çox böyük müvəffəqiyyətlər qazanılmış boks sahəsinə müsbət münasibətinin şahidi olmuşuq.

Moskvada Olimpiya oyunlarının təşkilinə şəxsən mən çox valeh olmuşdum.

Heydər Əliyevin vəfatı Avropanın idman cəmiyyətini kədərləndirir. Biz onun nailiyyətləri qarşısında baş əyirik.

***Akademik Emil JEÇEV,***
***Avropa Həvəskar Boks Assosiasiyasının Prezidenti.***

Cənab Prezident!

Azərbaycan millətinin atası, Azərbaycan millətinin hörmətli prezidenti Heydər Əliyevin vəfatı ilə əlaqədar ən dərin kədər hisslərimizi bildiririk.

Dərd çəkən ailənizə və Azərbaycan xalqına səmimi qəlbdən başsağlığı veririk.

***Doktor Neda BERGER,***
***Doktor Haynts YELİNEK,***
***Avstriya-Azərbaycan təşkilatının rəhbərləri.***





Hörmətli cənab İlham Əliyev!

Görkəmli siyasi xadim prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar faciəli xəbəri dərin kədər və ağrı hissi ilə eşitdim. Mən bu ağır və əvəzolunmaz itkinin kədərini Sizinlə bölüşməklə yanaşı, Rusiya-Azərbaycan münasibətlərinin, - xüsusilə humanitar əməkdaşlığın və insan hüquqlarının inkişafı məsələlərində, - perspektivlərinə nikbinliklə baxıram.

***O. MİRONOV,***
***Rusiya Federasiyasında***
***İnsan hüquqları üzrə müvəkkil (ombudsman).***

Əziz Prezident İlham Əliyev!

Zati-aliləri prezident Heydər Əliyevin vəfatı xəbərini dərin hüznlə öyrəndim.

Atanızın vəfatı ilə bağlı bir daha kədər hissimi bildirirəm.

***Kleyr LUİS,***
***Kanadanın Ontario əyalətinin ombudsmanı,***
***Beynəlxalq Ombudsman İnstitutunun prezidenti.***

Hörmətli cənab Prezident!

Atanızın uzun sürən xəstəlikdən sonra vəfatı xəbərini dərin təəssüf hissi ilə qarşıladım. Bildiyiniz kimi, mən onun dostu və dəfələrlə qonağı olmuşam. Odur ki, Heydər Əliyevin dünyasını dəyişməsini öz şəxsi itkim hesab edir və onun yoxluğunu necə dərindən hiss edəcəyinizi yaxşı anlayıram. Dərin hüznlə başsağlığımı qəbul edin.

***Axrolcan RUZİYEV,***
***Özbəkistan İdman Güləşi Assosiasiyasının***
***prezidenti, FİLA-nın büro üzvü.***

Hörmətli Prezident!

Hörmətli atanız, Türkiyənin dostu, qardaş Azərbaycanın çox dəyərli dövlət xadimi Heydər Əliyevi itirməyinizlə əlaqədar başsağlığı verir, kədərinizi bölüşür, dərin hörmət və ehtiramlarımızı çatdırırıq.

***Aydanur MÜRSƏL,***
***Türkiyə Qadınlar Birliyi və Həmrəylik Dərnəyinin sədri.***

O, ölkəni otuz beş il müdrikliklə və məharətlə idarə etmişdir.

Onun təcrübəsi və səyləri sayəsində Azərbaycan ölkələrimizin Birliyində öz nüfuzunu qoruyub saxlamış və artırmışdır.

Əminik ki, onun ömrünü həsr etdiyi iş uğurla davam etdiriləcəkdir.

Sizinlə birlikdə kədərlənirik.

***Vladimir BELİKOV,***
***Şimali Osetiya - Alaniya Respublikasının***
***RF prezidenti yanında səlahiyyətli nümayəndəsi.***

Hörmətli İlham Əliyev!

Möhtərəm prezident Heydər Əliyevin vəfatı bizləri dərindən kədərləndirmişdir. Sizə və ölkənizə başsağlığı verir, hər zaman yanınızda olduğumuzu bildiririk. Böyük kədərinizi səmimi qəlbdən bölüşür, hörmət və ehtiramlarımızı çatdırıram.

***Professor Tunc EREM,***
***Mərmərə Universitetinin rektoru.***

Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına öz adımdan və qurumum adından başsağlığı verirəm.

Hörmətli Prezident İlham Əliyevin yüksək vəzifəsini böyük uğurla həyata keçirəcəyinə, xalqlarımız arasında hər zaman mehriban olan mədəni əlaqələrin bundan sonra da davam edəcəyinə olan inamımı təkrar edir, Heydər Əliyevə Allahdan rəhmət, Azərbaycan xalqına səbir diləyir, hörmət və ehtiramlarımı çatdırıram.

***Suat ARIKAN,***
***Teatrın direktoru və rejissoru.***

Azərbaycanın inkişafında və möhkəmlənməsində, yeni Azərbaycan Respubilkasının qurulmasında bu böyük insanın rolunu və töhfəsini qiymətləndirmək qeyri-mümkündür. Dərin biliyi, rəhbərlik istedadı, qətiyyətli siyasi iradəsi, yüksək insani keyfiyyətləri təkcə Azərbaycanda deyil, onun hüdudlarından çox-çox kənarda da Heydər Əlirza oğluna böyük nüfuz və hörmət qazandırmışdır. Heydər Əlirza oğlunun əziz xatirəsi milyonlarla insanın qəlbində əbədi yaşayacaqdır.

***Yuri ŞAFRANİK,***
***Rusiya Neft-Qaz Sənayeçiləri İttifaqı Şurasının sədri.***





Öz ölkəsinin misilsiz lideri, onun tərəqqisi, əmin-amanlığı və uğurlu inkişafı üçün hər şey etmiş Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri təkcə Azərbaycanı deyil, bütün dünyanı sarsıtdı. Bizim şüurumuzda bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Onun adı tariximizə minnətdarlıqla yazılmışdır. Bizim Teatr İttifaqı, bütün mədəniyyət xadimləri bu böyük xadimi, gözəl insanı heç zaman unutmayacaq.

Onun xatirəsi qarşısında baş əyirəm.

***Aleksandr KALYAGİN,***
***aktyor.***

Görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Arxangelsk vilayətinin sakinləri adından və şəxsən öz adımdan ən səmimi başsağlığımı bildirirəm. O, nüfuzlu, müdrik siyasətçi, fəal rəhbər kimi öz ölkəsini müstəqillik və demokratiya yoluna çıxarmış, dövlətlərimiz arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə böyük töhfə vermişdir. Məhz Heydər Əlirza oğlunun həyata keçirdiyi siyasət sayəsində Azərbaycanı və vilayətimizi çoxillik dostluq əlaqələri bağlayır. Azərbaycan diasporu Arxangelsk vilayətinin ən çoxsaylı diasporlarından biridir və regionumuzun sosial-iqtisadi və mədəni həyatına böyük töhfə verir.

***Anatoli YEFREMOV,***
***Arxangelsk vilayəti icra hakimiyyətinin başçısı.***

Sovet İttifaqının Nazirlər Sovetində, SSRİ Ali Sovetində, SSRİ Yollar Nazirliyində birgə işlədiyimiz vaxtlarda, partiya və hökumət nümayəndə heyətlərinin tərkibində bir çox ölkələrə və xüsusən, ölkənin müxtəlif regionlarına səfərlərdə onun müstəsna işgüzarlığına, səriştəliliyinə, vətənpərvərliyinə, milliyyətindən və vəzifəsindən asılı olmayaraq, insanlara olan xeyirxahlığına və məhəbbətinə həmişə heyran qalırdım. Mən azərbaycanlıların əksəriyyətinin belə bir fikri ilə tam razıyam ki, HEYDƏR ƏLİRZA oğlu Azərbaycan xalqının atasıdır.

Fəxr edirəm ki, HEYDƏR ƏLİRZA oğlu dəmiryolçu ailəsindəndir və onun adı mənim belə bir əqidəmi təsdiqləyir ki, ölkənin ən yaxşı adamları dəmiryolçu ailəsindəndir!

***Nikolay KONAREV,***
***"İntertrans" Qapalı Səhmdar Cəmiyyətinin***
***baş direktoru, keçmiş SSRİ-nin yollar naziri (Moskva).***

Heydər Əlirza oğlu ilə tez-tez görüşmək xoşbəxtliyi mənə nəsib olduğu üçün taleyimə minnətdaram. O, mənim yaddaşımda həmişə diqqətcil, qayğıkeş, həssas, səmimi və çox təvazökar bir insan kimi qalacaqdır. Onun açıqürəkliliyi və səmimiliyi həmişə insanları özünə cəlb edirdi. Təsadüfi deyildir ki, o, həmişə, - xüsusilə Azərbaycan müstəqil dövlət olduqdan sonra, - insanların əhatəsində, daim diqqət mərkəzində idi. Bu, hər cəhətdən istedadlı və parlaq insanın keçdiyi yol ağır, keşməkeşli yol olmuşdur. O, əsl lider və görkəmli şəxsiyyət idi və nəinki tarix salnamələrində, həm də insanların yaddaşında həmişəlik qalacaqdır.

***Leonid VİNOQRADOV,***
***general-mayor ( Sankt-Peterburq).***

Heydər Əlirza oğlunu tanımaq və onunla ünsiyyətdə olmaq şərəfi nəsib olmuş insanların hamısı dərindən kədərlənir: istedadlı təşkilatçı, mahir siyasətçi, təkcə Azərbaycanın deyil, həm də bütün postsovet məkanının ən nüfuzlu rəhbəri dünyasını dəyişdi: peşəkarlığına və yüksək siyasi keyfiyyətlərinə görə siyasi büroda, Sovet İttifaqında və dünya liderləri arasında Heydər Əlirza oğlunun tayı-bərabəri yox idi.

Mən Heydər Əlirza oğlunu yaxşı tanıyırdım və harada hansı şəraitdə (Moskvada, yaxud Pyatiqorskda) görüşməyimizdən asılı olmayaraq, onun yüksək biliyini, xeyirxahlığını və eyni zamanda Azərbaycanın mənafelərini müdafiə edərkən yüksək prinsipiallığı və ardıcıllığını hər dəfə böyük hörmətlə qeyd etmişəm. Heydər Əlirza oğlu Azərbaycan xalqı üçün respublikanın iqtisadi, mədəni, sosial sahələrinin inkişafı üçün çox iş görmüşdür.

Heydər Əliyev mövcud şəraitin onun çox yüksək nüfuzuna xələl gətirməyə can atan Qorbaçovun, Yakovlevin və başqalarının qısqanclığına baxmayaraq, çox işlər gördü. Onların acığına olaraq, tarix əksini sübut etdi. Heydər Əlirza oğlu Azərbaycan tarixinə öz adını həmişəlik yazdı və dövlətin bu ən yeni tarixi yalnız onun sayəsində mümkündür.

***V. KAZNAÇEYEV,***
***Stavropol diyarı Rektorlar Şurasının sədri,***
***Pyatiqorsk Dövlət Texnologiya***
***Universitetinin rektoru, akademik.***





Hörmətli cənab Prezident!

Alicənab Azərbaycan xalqı ilə birlikdə Siz atanızın - prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar kədər içində olduğunuz bu ağır anlarda, icazə verin, Sizə dərin hüznlə başsağlığımı ifadə edim və dərdinizə şərik olduğumu bildirim.

***Korneliu ÇONTU,***
***Böyük Rumıniya Partiyası sədrinin birinci müavini,***
***parlamentin Deputatlar palatası sədrinin müavini.***

Hörmətli cənab Prezident!

Rumıniya Mədəniyyət Assosiasiyası Azərbaycan xalqına üz vermiş tarixi itki - cənab prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar ən səmimi başsağlığı verir.

İkiqat itkinizdən - həm atanızın, həm də Azərbaycan Respublikasını uzaqgörənliklə və müdrikcəsinə idarə etmiş görkəmli dövlət xadiminin vəfatından Sizinlə və ailənizlə birlikdə kədərlənirik.

***Professor, doktor Georgi PRİSEKARU,***
***Assosiasiyanın sədri (Buxarest).***

Cənab prezident Heydər Əliyev öz təcrübəsi və müdrikliyi ilə Azərbaycan xalqına tarixin ən çətin məqamlarında yol göstərmiş, öz xalqının suverenliyini və müstəqilliyini qorumuş və bununla da, Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə müasir inkişafına və təsdiqinə şərait yaratmışdır.

Prezidentlərimizi bir-birinə yaxınlaşdıran dostluq ölkələrimiz arasında dostluğun və əməkdaşlığın inkişafının təməlini qoymuşdur.

Bizim üçün böyük şərəfdir ki, Qara dəniz regionunda əməkdaşlığa dair bir sıra tədbirlər, o cümlədən BSUN-2002 Konqresi Bakıda Heydər Əliyevin başçılığı ilə keçirilmişdir.

***Professor Adrian BAVARU,***
***"Ovidius" Universitetinin rektoru (Konstansa).***

Regionumuzda və dünyada sülh naminə göstərdiyi önəmli xidmətlərlə türk və dünya tarixində unudulmaz ad qazanmış möhtərəm prezident Heydər Əliyevin vəfatı bütün türk dünyasında olduğu kimi, universitetimizin kollektivi arasında da dərin kədər yaratmışdır.

***Professor, doktor Baki KOMŞUOĞLU,***
***Türkiyənin Kocaeli Universitetinin rektoru.***

Azərbaycan dövlətinin memarı, türk dünyasının yaxın dostu, böyük dövlət adamı prezident cənab Heydər Əliyevin vəfatını böyük kədər içində qarşıladım.

Şəxsim və universitetimiz adından mərhuma Tanrıdan rəhmət, başda ailəsi olmaqla, Azərbaycan xalqına və bütün türk dünyasına başsağlığı verir, sayğılarımın qəbulunu xahiş edirəm.

***Professor, doktor Necati QAYA,***
***Qafqaz Universitetinin rektoru (Qars).***

Hörmətli İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar sizlərə və ailənizə başsağlığı verirəm. Duyduğunuz acı və kədəri ürəkdən bölüşürəm. Atanıza Allahdan rəhmət, sizlərə səbir diləyirəm.

***Səbahəddin ÇƏTİN,***
***Qaradəniz və Xəzər ölkələri***
***Karate Federasiyasının prezidenti.***

Hörmətli İlham Əliyev!

Dost və qardaş ölkə olan Azərbaycanın böyük dövlət adamı, hörmətli prezident Heydər Əliyevin vəfatını eşidib dərindən kədərləndim.

Başda zati-aliniz olmaqla, Azərbaycan xalqına başsağlığı verirəm.

***Erol QAYA,***
***İstanbul elinin Pendik bələdiyyəsinin başçısı.***





Gürcüstanın Milli Olimpiya Komitəsi, bütün atletlərimiz və olimpiyaçılarımız Azərbaycan xalqının böyük oğlu, uzun illər boyu dövlətin əvəzolunmaz lideri, Gürcüstan xalqının böyük dostu cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığı verir.

Gürcüstan xalqı, xüsusilə ölkələrimizin müstəqilliyi dövründəki dostluğu, dəstəyi və əməli yardımı həmişə yadda saxlayacaqdır.

***Cansuq BAQRATİONİ,***
***Gürcüstan Milli Olimpiya Komitəsinin prezidenti,***
***Emzar ZENAİŞVİLİ,***
***Gürcüstan Milli Olimpiya Komitəsinin baş katibi.***

Heydər Əlirza oğlu Əliyev bizim üçün həmişə Gürcüstanın böyük dostu, yüksək mədəniyyətə malik insan, dünya miqyaslı siyasi xadim olaraq qalacaqdır. Heydər Əliyevlə şəxsi görüşlərim, onun Azərbaycan mədəniyyətinin, Azərbaycan-Gürcüstan mədəni əlaqələrinin inkişafına qayğısı unudulmazdır. Onun böyük müdrikliyi xalqın tərəqqisinin amili kimi mədəniyyətinin inkişafının zəruriliyini başa düşməkdə də özünü büruzə vermişdir. Heydər Əlirza oğlu Əliyevin nurlu siması qəlbimizdə həmişə yaşayacaqdır.

***Svetlana KETSBA,***
***Abxaziya Muxtar Respublikasının mədəniyyət naziri.***

Sevimli ölkəsinin tarixi qarşısında Heydər Əliyevin xidmətləri böyükdür. Azərbaycan əsl demokratik və yüksəlişdə olan dövlət kimi təşəkkül tapmışdır və haqlı olaraq, dünya birliyinin tam hüquqlu üzvü olmuşdur. Mübaliğəsiz demək olar ki, Heydər Əlirza oğlu müstəqil Gürcüstan dövlətinin təşəkkülü və inkişafı işinə də xüsusi töhfə vermişdir. Onun böyük xidməti bir də ondan ibarətdir ki, son on ildə xalqlarımız arasında tamamilə nadir qarşılıqlı münasibətlər yaranmışdır. Məhz buna görə də Heydər Əliyevin vəfatı həm Azərbaycan xalqı, həm də onu ürəkdən sevən bütün gürcülər üçün əvəzsiz itkidir.

***Vaja LORDKİPANİDZE,***
***Gürcüstan Xristian-Demokratik İttifaqının sədri.***

Misilsiz xidmətləri olan görkəmli siyasi xadim Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Bu ağır anlarda Rustavi şəhərinin çoxmillətli əhalisi Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir və onun kədərinə şərik olduğunu bildirir.

***Rustavi şəhərinin əhalisi adından***
***Merab TKEŞELAŞVİLİ,***
***Rustavi şəhərinin meri.***

Prezident Heydər Əliyevin adı bir çox mühüm nailiyyətlərlə, o cümlədən Azərbaycanın zəngin enerji ehtiyatlarının bu ölkənin xalqının mənafeyi naminə dünyanın böyük neft şirkətləri ilə birgə işlənilməsi və həmin ehtiyatların Şərq-Qərb enerji dəhlizi ilə dünyanın bazarlarına ixrac olunması məqsədi daşıyan Azərbaycanın yeni neft strategiyasının memarı kimi anılacaqdır. Bu neft strategiyası Azərbaycanın milli maraqları baxımından uğurla sınaqdan çıxmışdır və biz əminik ki, bu, gələcəkdə də davam edəcəkdir.

Azərbaycanın iri neft və qaz layihələrinin həyata keçirilməsində "BP" Azərbaycan hökuməti və Azərbaycan xalqı ilə hər zaman sıx əməkdaşlıqda işləmişdir. Bu fəaliyyətin dəstəklənməsi istiqamətində prezident Heydər Əliyevin güclü rəhbərliyi və iri layihələrə xas olan hansısa çətinliyin uğurla aradan qaldırılmasında göstərdiyi şəxsi qayğısı və dəyərli məsləhətləri bizim bu günədək əldə etdiyimiz nailiyyətlər üçün həlledici əhəmiyyət daşımışdır. Bu, xüsusilə Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinə aiddir. Onun verdiyi qərar bu layihənin Azərbaycan neftinin beynəlxalq bazara ixracı üçün hələ ilk günlərdən ən səmərəli, iqtisadi baxımdan rentabelli və ətraf mühit baxımından məsuliyyətlə idarə olunacaq bir layihə kimi həyata keçirilməsi üçün əsas olmuşdur.

***Devid VUDVORD,***
***"BP-Azərbaycan" şirkətinin prezidenti.***

Heydər Əliyev görkəmli dövlət xadimi və parlaq siyasətçi olmuşdur və bütün həyatını öz ölkəsinə və xalqına həsr etmişdir. Onun iqtisadi islahatları, sosial tərəqqi və Azərbaycanın beynəlxalq nüfuzunun gücləndirilməsi xətti ölkənin gələcək müvəffəqiyyətli inkişafı üçün təməl qoymuşdur.





Onun fəaliyyəti və liderliyi həm yerli, həm də xarici biznes üçün yeni imkanlar yaratmışdır. Ölkənizdə fəaliyyət göstərən çoxsaylı xarici şirkətlərdən biri olaraq, biz onun Azərbaycana sərmayələrin cəlb edilməsi və əcnəbi şirkətlər üçün yaxşı işgüzar mühitin yaradılması siyasətini xüsusilə yüksək qiymətləndiririk.

***Syuzan KRAUÇ,***
***"Kaspian İvents Ltd." şirkətinin sədri.***

Hörmətli cənab Prezident!

Azərbaycan xalqının müdrik oğlu, böyük siyasətçi cənab Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar kədərləndiyimizi bildirir və Sizə, ailənizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin!

***U.FÖLKER,***
***"Aktiengezelşaft" şirkətinin vitse-prezidenti.***

Xalqın dahi oğlu Heydər Əliyevin dünyasını dəyişməsi təkcə Azərbaycan üçün ağır itki deyildir. Heydər Əliyev dünya miqyasında tanınmış bir şəxsiyyətdir. Təbii müdrikliyi, geniş həyat təcrübəsi, misilsiz intellektual potensialı, xarizmatik liderə xas olan prinsipial və güzəştsiz mövqeyi ona Azərbaycanın hüdudlarından kənarda böyük hörmət qazandırmışdır.

Məhz Heydər Əliyevin şəxsiyyəti ölkədə həyata keçirilən islahatların alternativsizliyinə zəmanət olmuşdur və çoxsaylı tanınmış xarici sərmayədarların Azərbaycana gəlməsi də buna dəlalət edir. Memarı məhz Heydər Əliyev olan neft strategiyası hələ uzun illər boyu indiki və gələcək nəslin rifahına xidmət edəcəkdir.

***Haşim COCOHADİKUSUMO,***
***Kanadanın "Nəşnz Enerji" şirkətinin prezidenti.***

Azərbaycan xalqı böyük sarsıntı və kədər içərisindədir. Biz, Almaniyada yaşayan azərbaycanlılar millətimizin bu böyük itkisinə ürəkdən yanır, dərdinə şərik olur və bütün Azərbaycan xalqına səbir diləyir, Allah rəhmət eləsin deyirik.

Belə böyük şəxsiyyətləri tarix neçə yüz ildən bir dünyaya bəxş edir və Heydər Əliyev şəxsiyyəti Azərbaycan xalqına tarixin bəxşişi idi.

Nur içində yat, əziz Heydər Əliyev!

***Dr. Nuridə ATƏŞİ,***
***N.Gəncəvi adına Azərbaycan Mədəniyyət İnstitutunun direktoru (Berlin).***

Prezident Heydər Əliyev zəmanəmizin görkəmli siyasi xadimi idi. Onun böyük iradəsi və qayğıkeş rəhbərliyi 1994-cü ildə Azərbaycana öz tarixinin ən çətin dövrünü yaşamaqda kömək etdi və o, Azərbaycan Respublikasını sürətlə tərəqqi və iqtisadi inkişaf yolu ilə apardı.

Zati-alilərinin 1998-ci ilin fevralında Yaponiyaya ilk səfəri bizdə böyük təəssürat doğurdu və bu səfər, həqiqətən, Azərbaycanla Yaponiya arasında yaxın münasibətlərin və iqtisadi əməkdaşlığın yaranmasına təkan verdi.

"Mitsui ənd Ko, Ltd" olaraq biz onun həyatdan getməsini çox güclü şəkildə hiss edəcəyik və zati-aliləri Heydər Əliyevi həmişə xatırlayacağıq.

Sizi əmin edirik ki, onun qarşımıza qoyduğu vəzifələrə sadiq qalacağıq və Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əlaqələrin və səmimi dostluğun inkişafına töhfə vermək üçün bundan sonra da bütün səylərimizi göstərəcəyik.

***Şoey UTSUDYA,***
***"Mitsui ənd Ko. Ltd"nin prezidenti və baş icraçı müdiri (Tokio).***

Zəmanəmizin ən dahi şəxsiyyətlərindən biri, öz həyatını bütövlüklə ölkəsinə və xalqına həsr etmiş şəxs, zati-aliləri cənab Heydər Əliyevin vəfat etməsi haqqında məlumat məni şok vəziyyətinə salıb dərindən heyfsiləndirdi.

Zati-aliləri Heydər Əliyev tarixdə dahi siyasətçi, güclü şəxsiyyət və sevilən rəhbər kimi qalacaqdır. Onun şəxsiyyəti və müdrikliyi dünyada çox insanları heyran etmişdir və onun bizi tərk etməsi dərindən hiss olunacaqdır.

***Minoru MUROFUŞİ,***
***İTOÇU Korporeyşn şirkətinin sədri (Tokio).***





Zati-aliləri İlham Əliyev!

Böyük dövlət xadimi hörmətli Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə qarşıladım.

Bu faciəli anda şəxsən Sizə, prezident Heydər Əliyevin qohumlarına və bütün Azərbaycan xalqına ən dərin hüznlə başsağlığı verirəm.

Əvəzolunmaz və ağır itki ilə əlaqədar Nichimen Group şirkətlərinin bütün işçiləri adından və şəxsən öz adımdan Sizə səbir diləyir və dərdinizə şərik olduğumu bildirirəm.

***Akio DOBAŞİ,***
***"Niçimen Korporeyşn" şirkətinin prezidenti və baş icraçı direktoru.***

Zati-aliləri Heydər Əliyev tarixə öz dövrünün görkəmli şəxsiyyəti, dahi milli lider kimi daxil olmuşdur. Onun rəhbərliyi altında Azərbaycan xalqı çoxlu müsbət dəyişikliklər yaşadı, ölkədə yaratdığı siyasi və iqtisadi mühit bir çox xarici şirkətlərin, o cümlədən "ConocoPhillips" şirkətinin Azərbaycana sərmayə qoymasına imkan verdi.

***Arne HOLHYEM,***
***"ConocoPhillips" şirkətinin Xəzər hövzəsi üzrə prezidenti.***

Hörmətli İlham Heydər oğlu!

Zəmanəmizin dahi siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verirəm.

Əminəm ki, atanızın işi layiqincə davam etdiriləcəkdir.

Sizinlə birlikdə kədərlənirəm.

***Vahid ƏLƏKBƏROV,***
***"LUKoyl" Neft Şirkətinin prezidenti.***

Bizim hamımıza əziz olan Heydər Əlirza oğlu Əliyev Azərbaycan tarixində əbədi qalacaqdır. Böyük şəxsiyyət, öz xalqının ən ləyaqətli oğlu, müdrik siyasətçi və nüfuzlu dövlət xadimi Heydər Əliyev əsrlərin və epoxaların ayrıcında Azərbaycan Respublikasının müstəqillik, əmin-amanlıq və

demokratiya yolu ilə inkişafının ən mürəkkəb problemlərinin həllinə çox böyük töhfə vermişdir.

Heydər Əlirza oğlu ilə ünsiyyətdə olmaq xoşbəxtliyi nəsib olmuş insanlar üçün o, öz işinə fədakarcasına xidmətin, insanların ehtiyaclarına və qayğılarına diqqətin nümunəsi olmuş və bundan sonra da olacaqdır.

***İqor MAKAROV,***
***İTERA şirkətlər qrupunun prezidenti (Moskva).***

Azərbaycan xalqının böyük oğlu, dünya miqyaslı siyasətçi həyatdan getmişdir. Heydər Əliyev bütün ömrünü xalqına xidmətə həsr etmişdir. Heydər Əliyev bir çox illər Azərbaycana rəhbərlik edərək, bütün qüvvəsini, istedadını ölkəsinin səadəti naminə sərf etmişdi. Azərbaycan Prezidenti kimi o, qısa müddətdə ölkəsini tərəqqi və inkişaf yolu ilə inamla və uğurla irəliləyən, dünya birliyinin layiqli və hörmətli üzvünə çevirmişdir.

***S. MASLOV,***
***Rusiyanın "Transnefteprodukt"***
***Səhmdar Cəmiyyətinin prezidenti.***

Azərbaycana necə böyük itki üz verdiyini bu qəmli ayrılıq günündə, xüsusilə aydın dərk edirsən. Cəsarətli və uzaqgörən dövlət xadimi həyatdan getmişdir.

Korporasiyamızda həmişə fəxr edəcəklər ki, Rusiyanın maliyyə qurumunun Azərbaycanın bank sistemi ilə qarşılıqlı surətdə faydalı iqtisadi, dostluq əlaqələri müdrik rəhbər Heydər Əliyev tərəfindən bəyənilmişdi.

***N. SVETKOV,***
***"NİKoyl" Maliyyə Korporasiyasının prezidenti (Moskva).***

Görkəmli siyasi xadim, xidmətləri bir çox ölkələrin siyasi və işgüzar dairələri tərəfindən qiymətləndirilən Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar "Rostselmaş" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi dərin hüznlə başsağlığı verir.





Heydər Əlirza oğlu Əliyev Rusiya və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsinə də misilsiz töhfə vermişdir ki, bu da dərin və hərtərəfli hörmətə layiqdir.

***Valeri MALTSEV,***
***"Rostselmaş" ASC-nin baş direktoru (Rostov).***

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, atanızın - prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verim. Bilirəm ki, indiki halda sözlər acizdir. Kədərinizə şərikəm.

***Anatoli ÇUBAYS,***
***Rusiyanın "PAO EC" Səhmdar Cəmiyyəti***
***İdarə Heyətinin sədri (Moskva).***

Heydər Əliyev postsovet dövlətlərinin qədirbilən iş adamlarının xatirində təkcə Azərbaycanın nüfuzlu rəhbəri kimi deyil, həm də beynəlxalq siyasi və iqtisadi əməkdaşlığın möhkəmlənməsi, zəmanəmizin ən mühüm problemlərinin təkidlə həll olunması uğrunda ardıcıl mübariz kimi qalacaqdır.

***V. QLUXİX,***
***Beynəlxalq Sənayeçilər və Sahibkarlar***
***Konqresinin prezidenti.***

Əziz cənab Prezident!

Atanız, Azərbaycan Respublikasının keçmiş rəhbəri Heydər Əliyevin vəfatı ilə əlaqədar öz adımdan və Polşa-Azərbaycan Ticarət Palatasının adından ən səmimi başsağlığımı verirəm.

Bu hadisə ilə bağlı Sizə, ailənizə, Azərbaycan hökumətinə və bütün Azərbaycan xalqına dözüm və səbir diləmək istərdim.

Səmimiyyətlə, Sizin

***Vitold PİKUÇ,***
***Polşa-Azərbaycan Ticarət Palatasının sədri.***

## HEYDƏR ƏLİYEVİ DÜNYANIN BÜTÜN GUŞƏLƏRİNDƏ SEVİRLƏR

Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına, prezident İlham Əliyevin, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin, müxtəlif kütləvi informasiya vasitələrinin ünvanlarına tarixi vətənlərindən kənarda yaşayan soydaşlarımızdan, onları birləşdirən cəmiyyət və birliklərdən, Heydər Əliyevi sevən xarici vətəndaşlardan başsağlığı teleqramları gəlməkdə idi.

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov bildirir ki, teleqramlar dünyanın bütün guşələrindən göndərilirdi. Teleqram vuranlar böyük dövlət xadimi Heydər Əliyevin dünyasını dəyişməsini xalqımız üçün əvəzsiz itki sayır, ölkəmizin prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verir, ailəsinə Tanrıdan səbir diləyirdilər.

Rusiya Federasiyasının Rostov vilayətində fəaliyyət göstərən "Azərbaycan" Cəmiyyəti regional ictimai təşkilatı üzvlərinin teleqramında deyilir ki, iki əsrin qovuşuğunda Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi naminə gördüyü nəhəng işlər ölçüyəgəlməzdir. Bu işlərin tarixi qiymətini gələcək nəsillər verəcəkdir. Teleqram müəllifləri İlham Əliyevin atdığı addımlarda Heydər Əliyev siyasətinin davamını gördüklərini və onu dəstəklədiklərini qeyd edirlər.

Kuzbass vilayətində fəaliyyət göstərən "Bulaq" Azərbaycan Milli Mədəniyyət Mərkəzi və Ümumrusiya Azərbaycan Konqresi Kemerov regional şöbəsinin birgə teleqramında onların təmsil etdikləri 55 min azərbaycanlının kədəri ifadə olunur və bildirilir ki, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin seçdiyi yolu müdafiə edirlər.

Berlindən "Odlar yurdu" Cəmiyyətinin prezidenti Mircəfər Cəfərzadə, Hollandiyadan Azərbaycan-Avropa Ölkələri Cəmiyyətinin əlaqələndiricisi Günər Ağrı, soydaşımız Fərhad Ataş, Almaniyadakı Azərbaycanlılar və Azərbaycanın Dostları Cəmiyyətinin sədri İbrahimxəlil Balayev, Norveç-Azərbaycan Dostluq Cəmiyyəti və SNAR Siyasi Analiz Mərkəzinin rəhbəri Yadigar Zəkəriyyə, bu ölkədə yaşayan doktor Yaqub Cavidi xəbərdən üzüldüklərini yazır və xalqımıza başsağlığı verirlər.





* * *

Türkiyədəki Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi, "Turan" Qazaxıstan, Qırğızıstan, Özbəkistan Konqresi, Polşa-Azərbaycan Mədəniyyət Mərkəzi, "Aydan" Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzi, "Paris-Azərbaycan Evi", Asiya Olimpiya Şurası, eləcə də Böyük Britaniya, İsveç, Macarıstan, Fransa, Norveç, İsveçrə və digər ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları tərəfindən göndərilmiş başsağlığı teleqramlarında bir fikir xüsusi vurğulanır: Bu yaxınlara qədər bir-birimizlə əlaqə qura bilmirdik, pərakəndə fəaliyyət göstərirdik. Bizə birləşməyi Heydər Əliyev öyrətdi, onun siyasəti sayəsində birləşdik. Amma Heydər Əliyevin görəcəyi işlər hələ çox idi. Canından artıq sevdiyi Azərbaycanı işıqlı gələcəyə aparmaq, qürbətdə yaşayan azərbaycanlıların birləşdirilməsi və diasporumuzun inkişafı üçün geniş planları, arzuları vardı. Bu arzuların yarımçıq qalması bizi göynədir. Heydərsevərlər bir tərəfdən də Allaha şükür edirlər ki, dahi şəxsiyyətin, Azərbaycanın böyük oğlunun ideyalarını həyata keçirə bilən layiqli davamçısı vardır. Biz Azərbaycan prezidenti İlham Əliyev ətrafında sıx birləşərək Heydər Əliyevin planlarının, arzularının həyata keçirilməsində öz köməyimizi əsirgəməyəcəyik.

Bu ağır gündə biz yenə də Azərbaycanla, onun prezidenti İlham Əliyevləyik. Öz tarixi Vətənimizdən çox-çox uzaqlarda yaşasaq da, ürəyimiz sizinlədir. Allah prezident Heydər Əliyevə rəhmət eləsin, xalqımıza səbir versin!

# BU DƏRDİ MƏN YAZMADIM...

Heydər Əliyevin 40-ı ərəfəsində, yanvarın 16-da "Respublika" sarayında Azərbaycan xalqının ümummilli liderinin xatirəsini anma mərasimi keçirildi. Mərasimdə şair Zəlimxan Yaqubun prezident Heydər Əliyevin xatirəsinə ithaf etdiyi "Böyük ömrün dastanı" poeması əsasında hazırlanmış ədəbi-bədii kompozisiya göstərildi.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.

Poemanın müəllifi Milli Məclisin deputatı, şair Zəlimxan Yaqub mərasimi açaraq dedi:

- Möhtərəm cənab prezident!

Hörmətli mərasim iştirakçıları!

Qırx günə yaxındır ki, Azərbaycan xalqı tariximizin, dünyamızın, millətimizin, minillik tariximizin tək şəxsiyyəti Heydər Əlirza oğlunun itkisi ilə bağlı ağrılar-acılar, matəm içindədir. Bu itki təkcə 8 milyon əhalisi olan müstəqil Azərbaycanın yox, dünyada yaşayan 50 milyon soydaşımızın, sözün böyük mənasında, türk dünyasının, islam aləminin, qoca Şərqin, insanlığın, beynəlxalq aləmin, siyasət dünyasının son illərdəki ən ağır, heç bir ölçü ilə müqayisəyə gəlməz itkilərindən biridir.

Bəli, itkimiz çox ağırdır. Ancaq böyük bir təsellimiz var. Heykəlləşən ömrə, yüksələn şöhrətə, sarsılmaz inama, əqidəyə, dönməz iradəyə, beynəlxalq nüfuza ölüm yoxdur.

Əzizimiz Heydər Əlirza oğlu, Sizi dünyaya gətirən ilə, aya, günə, saata, dəqiqəyə, saniyəyə ölüm yoxdur. O anlar Azərbaycan xalqının şərəf kitabında zaman-zaman qızıl hərflərlə yazılıb və min illər bundan sonra da Azərbaycan tarixinə işıq salacaqdır.

Bəli, qış gecəsi qəfil xəbər qapılarımızı döydü. Başımızın üstündən qara yellər kimi əsdi. Hər bir Azərbaycan vətəndaşı kimi, hər bir ziyalı kimi, mən də möhkəm sarsıldım.

İki-üç gün özümə gələ bilmədim və Allah özü şahiddir ki, qələmi əlimə nə vaxt götürdüyümdən, sizə bu gün təqdim olunan əsəri nə vaxt yazmağımdan bəlkə özümün də xəbərim olmadı. Nə vaxt başladım, nə vaxt tamamladım, nöqtəni harada qoydum, hansı fəsillə tamamladım, bunların heç birini mən eləmədim.

*Bu dərdi mən yazmadım,*
*Gözümün yaşı yazdı.*
*Qəlbimin qaynar qanı,*
*Bağrımın başı yazdı.*
*Tarixin qədim kökü,*
*Elin yaddaşı yazdı.*
*Onu qoşma, bayatı,*
*Layla, dastan elədi.*
*Bu dərdi mən yazmadım,*
*Ellərin ahı yazdı.*
*Bəd xəbərlə açılan,*
*Yurdun sabahı yazdı.*

Yazdı, Tanrının hökmü yazdı, Allahın diktəsi yazdı. Çünki yazılmalı idi. Bu əsər yazıla-yazıla fikrim müxtəlif tərəflərə gərdiş eləyirdi. Xarici səfərləri, Azərbaycanın daxilində olan müxtəlif tədbirləri, ziyalılarla olan görüşlərini, söhbətləri bir-bir gözümün qabağına gətirib, təhlildən keçirib öz-özümə deyirdim:

- Zəlimxan, bil və agah ol. Yaxşı eşit, yaxşı anla, yaxşı duy. Minilliyin ən böyük tarixi şəxsiyyəti haqqında əlinə qələm alırsan. Məsuliyyətini dərk elə. Bəli, mən çox ağır bir yükün altına girdim. Lakin Allah məni utandırmadı. Üzümü o böyük Kişinin müqəddəs ruhuna tutub dedim ki,

*Əllərimi neçə dəfə sıxmısansa,*
*Göz yaşımı bir o qədər sıxacağam.*
*Səndən ötrü yaratdığım bu dastana,*
*İmtahandan kişi kimi çıxacağam.*

Bir nəfəsə yazdığım bu əsər belə bir deyimlə tamamlanır ki,

*Eşqin ilə gəzəcəyəm illər boyu,*
*Kövrək qəlbim oyum-oyum oyulacaq.*
*Səndən ötrü yaratdığım bu dastanın,*
*Son nöqtəsi mən öləndə qoyulacaq.*

Çünki bu, elə bir mövzudur, Heydər Əliyev elə bir şəxsiyyətdir, Azərbaycan xalqına Allah tərəfindən göndərilmiş elə bir töhfədir ki... Azərbaycan xalqı istedadlı xalqdır, ülәmalar, gözəl şairlər yetirəcək, dünyaya gözəl qələm adamları, dəstə-dəstə ziyalılar ordusu gələcək və hər biri Heydər Əlirza oğlu ilə bağlı ən gözəl əsərlərini yaradacaqlar. Ancaq mənim yazdığım əsər Heydər Əlirza oğlunun mənə olan qayğısının, diqqətinin, sevgisinin, məhəbbətinin məntiqi, poetik nəticəsi kimi dünyaya gəldi.

Heydər Əlirza oğlu deyəndə, biz bütöv Azərbaycanı düşünürük, türk dünyasını düşünürük. İnanırıq, neçə ki, yer üzündə insanlıq var, böyüyə hörmət var, əbədiyyət, ölməzlik var, Heydər Əlirza oğlu bu xalqın qəlbində, ruhunda, varlığında, mənliyində, canında, torpağında yaşayacaqdır. Niyə yaşayacaq? Çünki xalqla xalqın dilində danışdı. Şairlə şerin dilində danışdı. Alimlə təfəkkürün dilində danışdı. Rəssamla fırçanın dilində danışdı. Heykəltəraşla heykəlin dilində danışdı. Memarla sarayın, binanın dilində danışdı. Torpaq adamı ilə sünbülün, dənin dilində danışdı. Allahla peyğəmbər dilində danışdı.

Təzəpir məscidində "Məni Allah qoruyur" deyəndə, o, həm də Azərbaycan xalqını nəzərdə tuturdu ki, məni Azərbaycan xalqı qoruyur. Bəli, Heydər Əlirza oğlu, Sənə heç zaman ölüm yoxdur. Zaman-zaman kimlər xalqın tərcümeyi-halına çevrilibsə, onlara heç zaman ölüm yaxın gələ bilməz.

Bəli, biz böyük bir itki ilə qarşılaşdıq:

*Torpaq elə bilməsin*
*tək rəftarı itirdik,*
*Ali Baş Komandanı,*
*Baş Sərkəri itirdik,*
*Qayalar qədər uca,*
*daş səngəri itirdik,*
*Dağlar qədər möhtəşəm,*
*dağ ləngəri itirdik,*
*İtirdik, Heydər adlı bir dünya,*
*bir kainat itirdik...*

Ancaq o kainat Azərbaycandır. O kainat Azərbaycan xalqıdır. O kainat Heydər Əliyevin qurduğu, yaratdığı, əbədiyyətə qədər davam edəcək müstəqil Azərbaycan Respublikasıdır.





Unudulmaz, müqəddəs, böyük, əvəzedilməz, boyu dünyanın hər yerindən görünən millətinin mötəbər oğlu, möhkəm oğlu, dünya meydanında xalqıma başucalığı, üzağlığı, diluzunluğu gətirən oğlu, ruhun şad olsun!

Sənin müqəddəs ruhun qarşısında baş əyirəm!

* * *

Sonra aktyorların ifasında "Böyük ömrün dastanı" poeması səsləndi.

...Poema Azərbaycan xalqının qara xəbər alması ilə başlayır. Millətin böyük oğlu vəfat etmişdir. Bu xəbər hər kəsi öz içində qovrulmağa məcbur edir. Heydərsevərlər - bütün türk dünyası sarsılmışdır. Xalqın ümidgahının dünyasını dəyişməsi, şairin fikrincə, ərzi titrədən bir xəbərə çevrildi. Həmişə şux gördüyümüz güllər bu xəbərdən xəşəm oldu. Böyük Azərbaycanlının sağalıb Vətənə dönəcəyinə ümid bəsləyən millət onun cənazəsini gətirən təyyarəni qarşılamaq məcburiyyətində qalmışdı. Bu Vətən oğlunun həyatı nə qədər mötəbər olmuşdusa, matəmi də bir o qədər möhtəşəmdir:

*Yazsın yaddaşına tarix bu sözü,*
*Zaman bu çəkidə qəm görməmişdi.*
*Həyat yaranandan dünyanın gözü,*
*Bir xalqı bu qədər cəm görməmişdi.*

Heydər Əliyev bütün şüurlu həyatını xalqının, millətinin birliyinə həsr etmişdi. Sağlığında imkan tapıb, bütün dünyaya səpələnmiş soydaşlarımızın seçmə nümayəndələrini Bakıya yığıb qurultay keçirdi, azərbaycanlıların mütəşəkkilliyini artırmaq üçün diasporumuzu formalaşdırdı. Ölümü ilə də millətin birliyinə xidmət göstərdi, xalqının böyüklüyünü nəzərəçarpdırdı. Axı, o, xalqını həmişə böyük görmək istəyirdi. Xalqımız sübut etdi ki, böhranlı anlarda böyüyür:

*Dağları daşıyıb çiyinlərində,*
*Bağrımın başında bir yük görmüşəm,*
*Nə qədər olsa da Dərdi dərində,*
*Bu xalqı həmişə böyük görmüşəm.*

Şair inanır ki:

*Dincəlib özünə gələcək yenə,*
*Qəmin ləngərindən*
*yorğundu xalqım.*
*Sığışmır zamanın cazibəsinə,*
*Caviddi, Müşfiqdi,*
*Vurğundu xalqım.*

Bütün Azərbaycan xalqı bilir ki, Azərbaycanın iki böyük övladı Heydər Əliyev və Zərifə xanım Əliyevanı bir-birinə sarsılmaz məhəbbət telləri bağlayıb. Artıq onların hər ikisi haqq dünyasındadır:

*Bağ barına qovuşdu,*
*Dağ qarına qovuşdu,*
*Axır ki, xiyabanda*
*Yar yarına qovuşdu.*

*Çiçəksən, zərin gəldi,*
*Anasan, ərin gəldi,*
*Oyan, Zərifə xanım,*
*Gəldi, Heydərin gəldi.*

Adətdir, əziz adamını itirən ağlayar. Xalqımız əziz oğlunu son mənzilə göz yaşları ilə yola saldı. Ancaq Zəlimxan Yaqubun gözü bu adamların arasında bir nəfəri axtarır - Zərifə xanımı:

*Saçda dən ağlamadın,*
*Gözdə çən ağlamadın,*
*Ona hamı ağladı,*
*Təkcə sən ağlamadın.*

Bəli, Zərifə xanım ər oğlu ərin yanında olmalı idi:

*Sən də bu axına gəl,*
*Qılınca dön, qına gəl,*
*Uzaqda dayanmısan,*
*Gəl, bir az yaxına gəl.*





Şair bu iki görkəmli şəxsiyyətin məhəbbətinin gənclərimiz üçün örnək olacağına inanır:

*Min il bu millətə lazım olacaq,*
*Zərifə sevgisi, Heydər sevinci.*

Poemada Heydər Əliyevin ömür yolu vərəqlənir, onun çərçivələrə sığmayan, qadağalara əyilməyən həyat səhifələri xatırlanır. Respublikaya rəhbərlik etdiyi, 14 il Kremldə çalışdığı dövr yada salınır.

İşlədiyi vəzifədən asılı olmayaraq, Heydər Əliyevin Allahı qurmaq eşqi, Tanrısı zəhmət idi. Bir də millətin qızıl fondunu - xalqın qeyrətli oğullarını qoruyub saxlamağa çalışırdı.

Yəqin ki, Heydər Əliyev olmasaydı,

*Bir-bir güllələnərdi*
*Müşfiqlə Cavid kimi,*
*Bəxtiyarlar, Ziyalar...*

Heydər Əliyev Azərbaycanın çox ağır günündə - 1993-cü ilin yayında hakimiyyətə qayıtdı. Özü də xilaskar kimi qayıtdı. Ölkəni parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən qurtardı. Üstəlik, məmləkəti və xalqını beynəlxalq aləmdə tanıtdı. Bu yolda sağlamlığından belə keçdi:

*Sahildən-sahilə körpülər atdı,*
*O əsri bu əsrə bağlamaq üçün.*
*Keçdi birdəfəlik sağlamlığından,*
*Vətəni salamat saxlamaq üçün...*

*Xalqını dünyaya tanıtmaq üçün,*
*Səsi qanadlandı altı qitədə.*
*Bu gün diqqəti var bütün dünyanın,*
*Azərbaycan adlı bir xəritədə.*

Heydər Əliyev bütöv bir elin, türk dünyasının itkisidir. O, Azərbaycanın Atatürkü idi. Doğrudur, bu itki qəlbimizi göynədir. Lakin təsəllimiz vardır. Heydər Əliyevin yolunu onun varisi İlham Əliyev davam etdirir. Müəllif inanır ki, Heydər Əliyev müdriklik məktəbinin yetirməsi Azər-

baycanı işıqlı gələcəyə aparacaqdır. Xalqımız İlham Əliyevə inanır və onun ətrafında sıx birləşəcəkdir:

*Ulu ustad, ulu öndər,*
*İlhamından lap rahat ol!..*
*Ona necə inanırdın,*
*biz də elə inanırıq...*
*Tək oğultək baxma ona,*
*Bu gün onun yer üzündə*
*əlli milyon dayağı var.*

Azərbaycan Milli Dram Teatrının aparıcı aktyorlarının ifasında göstərilən ədəbi-bədii kompozisiya dahi Üzeyirin ölməz "Koroğlu" operasından əzəmətli uvertüranın sədaları altında sona çatdı.

Kompozisiyanın quruluşunu Gənc Tamaşaçılar Teatrının rejissoru, əməkdar artist Vaqif Əsədov vermişdi.





## QIRX GÜN KEÇDİ

Yanvarın 18-də dünya şöhrətli siyasətçi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri prezident Heydər Əlirza oğlu Əliyevin vəfatından 40 gün keçdi.

Qırx gün idi ki, millət ovunmur, için-için göynəyirdi. Hamı bu böyük şəxsiyyətin yarımçıq qalmış işləri üçün təəssüf hissi keçirirdi. Deyirlər ki, həyatda əvəzolunmaz heç nə, heç kəs yoxdur, bütün yaralar əvvəl-axır sağalır. Lakin müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə son yüzilliyin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuş, xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev itkisi əvəzsizdir, bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş Heydər Əliyev itkisi qaysaqlanmayan yaradır.

...18 yanvar 2004-cü il. Xəzrinin bir az da artırdığı soyuğa baxmayaraq, sübh tezdən Fəxri xiyabana insan axını başlamışdı.

Fəxri xiyabanın girişində sıxlıq idi. Paytaxt sakinləri, respublikanın müxtəlif bölgələrindən gəlmiş insanlar böyük azərbaycanlının müqəddəs ruhu qarşısında baş əyib məzarı üstünə gül qoymaq üçün səbirlə növbə gözləyirdilər.

AzərTAc-ın müxbiri Beyləqan rayonunun İmamverdilər kəndindən gəlmiş 82 yaşlı Qulam Abbasovun ürək sözlərini qələmə aldı: "Gecə qatarla gəlmişəm. Yol boyu ancaq böyük şəxsiyyət barədə düşünmüşəm. Ürəyim köksümə sığmırdı. Belə nəhəng kişini itirdiyimizə heç inana bilmirəm. İndicə gülümsər simasını görəndə sanki bir az ovundum. Məzarı önündə ruhuna həmyerlilərim adından dua oxuyub təsəlli tapdım. Rəhmətlik rayonumuzda dəfələrlə olub. Qabaqcıl əmək adamlarını - pambıqçıları, mexanizatorları adbaad tanıyırdı. Söhbət zamanı elə şərait yaradırdı ki, respublikanın rəhbəri olduğunu unudub yaxın yoldaş kimi qəlbindəkiləri açıb tökürdün. Çox humanist adam idi. Prezident olduğu müddətdə dəfələrlə amnistiya haqqında fərman imzalayıb, minlərlə ailəni sevindirib. Hələ mən ona ünvanlanmış ərizələrə əsasən işlərinə yenidən baxılıb azadlığa buraxılanları, birdəfəlik bəraət alanları demirəm. İki dəfə qəbu-

lunda olmuşam. Hər ikisində məsələm müsbət həll olunub. Millətin atası, güvənc yeri idi. Yaxşı ki, ocağında layiqli övladı qalıb. İnanırıq ki, cavan prezidentimiz İlham Əliyev atasının - türk dünyasının fəxri Heydər Əliyevin yolunu davam etdirəcək, onun yarımçıq işlərini başa çatdıracaqdır. Allah rəhmət eləsin".

Ümummilli liderin respublikaya rəhbərlik etdiyi 70-ci illərdə müxtəlif məsul vəzifələrdə çalışmış Kamal Əzizov İsmayıllı rayonundan gəlmişdi: "Məni sübh tezdən buraya əbədi prezidentimizə məhəbbətim gətirib. Daşı daş üstə qoyana, tikib-yaradana böyük hörmətim var. Belə adamları görəndə rəğbətimi gizlədə bilmirəm. Rəhmətlik qurucu idi. Həm özündən əvvəl tikilənlərin qayğısına qalır, həm də özü tikib ucaldırdı. Respublikamızın şəhərlərinin, demək olar, hamısını gəzmişəm. Onların hər birində neçə-neçə tarixi-memarlıq abidələri vardır. XX əsrin 70-ci illərinə qədər bu abidələr bərbad vəziyyətdə idi. Heydər Əliyev respublikanın rəhbəri olandan sonra həmin yadigarlara yeni həyat verildi. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətləri də əbədiləşdirmək qayğısına qalırdı. Heydər Əliyevin bu təəssübkeşliyi sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, ev-muzeyləri yaradılmışdır. İsmayıllı rayonu vaxtilə zəlzələdən xeyli ziyan çəkmişdi. Heydər Əliyevin qayğısı sayəsində rayon mərkəzi yenidən tikildi. Allah rəhmət eləsin, qəbri nurla dolsun".

Mənəvi borclarını yerinə yetirib Fəxri xiyabandan çıxanlar öz ürək sözlərini müxbirlərə söyləyirdilər:

**Samirə İsmayılova (tələbə):** "Qırx gündür xalqımız üzüntü, kədər içindədir. Çünki öz müdrik və dünya şöhrətli bir oğlunu - Heydər Əliyev kimi dahi şəxsiyyətini itirmişdir. Prezident Heydər Əliyevin elmə, təhsilə diqqətini, gənclərə sonsuz məhəbbətini, atalıq qayğısını, gələcək nəslin sağlam böyüməsi və inkişafı üçün göstərdiyi xidmətləri heç vaxt unutmaq mümkün deyil. Onun əziz xatirəsi qəlblərdə daim yaşayacaqdır. Allah rəhmət eləsin, qəbri nurla dolsun!".

**Famil Mehdiyev (paytaxt sakini):** "Bilirsiniz, dünyada Heydər Əliyev kimi çox nadir şəxsiyyətlər olub ki, ölkəni məhv olmaq təhlükəsindən, hərc-mərclikdən, anarxiyadan qurtarsın, xalqın birliyinə nail olsun, əmin-amanlıq yaratsın və yeni dövlət qursun. Hamımız 1990-cı illərin əvvəllərini, ondan sonrakı dövrlərdə baş vermiş təxribatları, dövlət çevrilişlərinə





cəhdləri yaxşı xatırlayırıq. Bütün bunlara sinə gərmək hər oğulun işi deyildi. Ancaq ümummilli liderimiz, sözün əsl mənasında, xalqının çox sevimli oğlu Heydər Əliyev kimi müdrik insan öz qətiyyəti, düşünülmüş siyasəti ilə bunu etdi, xarici və daxili düşmənlərin arzularını gözündə qoydu, ölkəmizi ağ günə çıxartdı. Respublikamızın iqtisadi tərəqqisinə nail olan və digər mühüm işlər görən, son dərəcə müsbət keyfiyyətlərə sahib olan belə bir dahi şəxsiyyətin dünyadan getməsi, təbii ki, nəinki Azərbaycan xalqını, həm də bütün türk dünyasını sarsıtdı.

Millətimizin başı sağ olsun. Qoy Allah-Təala ona rəhmət eləsin, yerinə yetirə bilmədiyi arzuları özünün layiqli davamçısı hörmətli prezidentimiz İlham Əliyev həyata keçirsin".

**Əli Çobanov (Ağcabədi rayonu Kəbirli kəndinin sakini, iki şəhid atası):** "Mən bu dünyanın ağrı-acısını çox görmüşəm. İki övladım şəhid olub. Amma tək mənim deyil, minlərlə ata-ananın övladı şəhid olub. Əgər elimizin ağsaqqal, müdrik oğlu, möhtərəm Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtmasaydı, şəhidlərimizin sayı yüz minlərlə olardı. Azərbaycana qayıdan kimi hər şeyi öz nəzarətinə götürdü, müharibəni dayandırdı. Bununla da biz çox şey qazandıq. Heydər Əliyev gəlməsəydi, bəlkə də Ağcabədi, Beyləqan və Bərdəni, digər rayonlarımızı da itirə bilərdik. Varından-yoxundan asılı olmayaraq, kişinin sərvəti onun yaxşı övladının olmasındadır. Heydər Əliyev bizim üçün müstəqil Azərbaycan dövləti yaradıb və məmləkəti ləyaqətlə idarə edə biləcək yaxşı övlad -İlham kimi oğul böyüdüb. Biz indən belə İlham Əliyevin ətrafında birləşməliyik. Ona görə ki, məhz o, bizi xoşbəxt gələcəyə aparacaq".

**Həsən Bağırov:** "Mən Cəbrayıl rayonunun Soltanlı kəndindən məcburi köçkünəm. Heydər Əliyevin məzarını ziyarət etmək, heç olmazsa, bununla dahi insanın qarşısında borcumuzu ödəmək istəyirik. O, biz qaçqın və məcburi köçkünlərin ümid yeri idi. Onun yoxluğu birinci bizə, doğma yurd-yuvalarından didərgin düşmüşlərə dərddir. Düzdür, dünyada heç kim və heç nə əbədi deyil. Amma Heydər Əliyev tarix boyu bizim qəlbimizdə əbədi yaşayacaq. Allah ona rəhmət eləsin, məzarı nurla dolsun, ruhu şad olsun!".

**Qardaşxan Mehdiyev:** "Mən torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə sağlamlığımı itirmişəm. Həyatdan gedə də bilərdim. Amma Heydər Əliyevin qayğısı məni həyata qaytardı. Bu gün o yoxdur, mən isə yaşayıram. Yaşamağım üçün də ona borcluyam. Çoxları elə bilir ki,

o dövrdə müharibə ilə torpaqlarımızı ala bilərdik. Amma bu, mümkün deyildi. Heydər Əliyev hakimiyyətə gələndən bir az sonra atəşkəsə nail oldu. Birinci növbədə ölkəmizin iqtisadi inkişafına diqqət yetirdi. Sonra ordu quruculuğuna başlandı. Ona görə ki, yalnız iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Heydər Əliyevin yaratdığı bugünkü ordu da hər şeyə qadirdir. Ümid edirik ki, onun layiqli davamçısı, Ali Baş Komandan, prezident İlham Əliyev bu ordunun gücündən istifadə edib torpaqlarımızı geri qaytara biləcək. Biz yenə də onun əmrini yerinə yetirməyə hazırıq".

**Rükəxan Rüstəmov:** "Mən Lerik rayonundan gəlmişəm. Bütün gecəni yol gəlmişəm ki, sübh tezdən dahi şəxsiyyətin məzarını ziyarət edə bilim. Amma, deyəsən, bir az gecikmişəm. Çünki adam çoxdur. Elə bil bütün respublika buradadır. Hamı onu sevirdi. Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada Heydər Əliyevi sevməsinlər. Bizi də Bakıya gətirən məhz Heydər Əliyevə olan bu sevgi, hörmətdir. İstəyirəm, heç olmasa, məzarını ziyarət etməklə ehtiramımı bildirəm. Bir vaxtlar respublikanın cənub bölgəsi qan içində idi. Bizi bu qandan Heydər Əliyev qurtardı. Allah ona rəhmət eləsin, ruhu şad olsun".

**Gülfirə Muradova (Abşeron Rayonu Fatmayı kənd sakini):** Hər gün buraya gəlməyi özümə borc bilirəm. Azərbaycanın görkəmli oğlunun respublikaya rəhbərliyə gəldiyi 1969-cu ildən əmək fəaliyyətinə başlamışam. Ailəliklə möhtərəm Heydər Əliyevin qoruyub saxladığı və möhkəmləndirdiyi dövlətçiliyə sadiqik. Xalqımızın rifahı, hər birimizin güzəranı üçün gördüyü işlərə görə ona minnətdarıq. Mən general Heydər Əliyevin respublikanın rəhbəri seçildiyi vaxtı yaxşı xatırlayıram. Onun ilk işi iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün qarşısını almaqdan ibarət oldu. Yadımdadır, onun gəlişindən sonra milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində ciddi addımlar atıldı. Bu isə milli şüura malik, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi təkan oldu. Onun təşkilatçılıq qabiliyyətinə, zəhmətsevərliyinə hamı həsəd aparırdı. Xalqın təkidli tələbi ilə ahıl yaşlarında yenidən hakimiyyətə qayıdanda da eyni şövq, həvəs və səylə işləyirdi. Qısa müddətdə özbaşınalığa son qoydu, Azərbaycanı dağılmaqdan, parçalanmaqdan xilas etdi, onu dünya dövlətləri sırasına çıxardı. Heyf ondan, ağır itkidir. Vəfatı xəbərini alanda çox sarsıldım, qələmi əlimə necə götürdüyümü özüm də bilmədim. Bu misralar beləcə yarandı:





*Göz yaşı axıdan xalqıma bir bax,*
*Böyüklü-kiçikli hamı ayaqda.*
*Sayı-hesabı yox, axına bir bax,*
*Qarışmış bizlərə gələn qonaq da.*

*Yığılsa bir yerə tökülən yaşlar,*
*Çaylar aşıb-daşar, ümman yaranar.*
*Xalqın kədərini, xalqın dərdini*
*Səninتək duyacaq bir insanmı var?!*

Bəli, o, hamını duyur, anlayır, hamıya yanırdı. Hər kəsi öz dilində dindirməyi, dilləndirməyi bacarırdı. Allah rəhmət eləsin, qəbri nurla dolsun.

* * *

Prezident Heydər Əliyevin vəfatının 40-cı günü sübh tezdən Fəxri xiyabana gələnlərin ardı-arası kəsilmirdi. Respublikamızın rayonlarından, şəhər və qəsəbələrindən, xarici ölkələrdən gəlmiş on minlərlə insan xalqımızın əbədi liderinin məzarını ziyarət etdi, gül dəstələri qoydu. Müstəqil Azərbaycan dövlətinin banisi və xalqın ümummilli liderinin Fəxri xiyabandakı məzarı artıq müqəddəs ziyarətgaha çevrilmişdir. Bu ziyarətgahda cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar dahi şəxsiyyətin xalqımız qarşısındakı xidmətlərini heç zaman unutmayacaqlarına və onun əbədiyaşar ideyalarını davam etdirəcəklərinə and içirlər.

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun ailə üzvləri Fəxri xiyabana gələrək, Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin üzvləri, nazirlər, komitə, şirkət, konsern və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, xarici dövlətlərin Bakıdakı diplomatik nümayəndəliklərinin rəhbərləri, müxtəlif ölkələrin təmsilçiləri Fəxri xiyabana gəlmişdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqın böyük oğlu Heydər Əliyevin məzarı önünə gül dəstəsi qoydu.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Hacı Allahşükür Paşazadə prezident Heydər Əliyevin ruhuna dua oxudu.

Azərbaycan Prezidenti İlham Əliyev və onun ailə üzvləri Zərifə xanım Əliyevanın məzarını da ziyarət edərək gül dəstələri qoydular.

## TORPAQLARIMIZIN ERMƏNİ İŞĞALINDAN AZAD EDİLMƏSİ ƏBƏDİ ALİ BAŞ KOMANDAN HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ ƏN BÖYÜK TÖHFƏ OLACAQDIR

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin iştirakı ilə 20 Yanvar faciəsinin 14-cü ildönümünə həsr olunmuş mərasim keçirərkən Milli Ordunun şəxsi heyəti 20 Yanvar hadisələrinin növbəti ildönümünü ikiqat ağrı hissi ilə qeyd etdiklərini bildirdilər. İş elə gətirmişdi ki, 20 Yanvar şəhidlərinin ildönümü ilə Silahlı Qüvvələrin memarı, qüdrətli sərkərdə və böyük vətəndaş Heydər Əliyevin vəfatının 40-cı günü üst-üstə düşmüşdü.

20 Yanvar şəhidlərinin, respublikanın ərazi bütövlüyü və dövlətçiliyi uğrunda şəhid olanların, habelə həyatını xalqının əmin-amanlığına, istiqlalına, tərəqqisinə həsr etmiş prezident, Silahlı Qüvvələrin əbədi Ali Baş Komandanı Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycanın müdafiə naziri general-polkovnik Səfər Əbiyev məruzə etdi. O, dedi ki, 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi möhtərəm Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra mümkün olmuşdur. Onun 1994-cü il yanvarın 5-də imzaladığı Fərman 20 Yanvar şəhidlərinin ildönümünü qeyd etməyin ənənəsini qoymuşdur.

Nazir ötən müddətdə müdrik siyasətçi prezident Heydər Əliyevin rəhbərliyi ilə Milli Ordu quruculuğunda əldə edilmiş uğurlardan, NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilmiş tədbirlərdən, müxtəlif dövlətlərin silahlı qüvvələri ilə yaradılmış əlaqələrdən, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq nüfuzunun artmasından da danışdı, qeyd etdi ki, bu gün sülhməramlılarımızın xoş sorağı Kosovodan, Əfqanıstandan, İraqdan gəlir.

Natiq xüsusi vurğuladı ki, torpaqlarımızın erməni işğalından azad edilməsi Silahlı Qüvvələrimizin əbədi Ali Baş Komandanının, 20 Yanvar şəhidlərinin xatirəsinə ən böyük töhfəmiz olacaqdır.





## GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTİ HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD ETDİ

Heydər Əliyevin xatirəsini yad etmək üçün yanvarın 18-də Gürcüstan nümayəndə heyəti də Bakıya gəldi.

Xarici işlər naziri Tedo Caparidze, Gürcüstan Beynəlxalq Neft Korporasiyasının prezidenti Georgi Çanturiya və Gürcüstanın Azərbaycandakı səfiri Zurab Qumberidze Fəxri xiyabana gələrək, prezident Heydər Əliyevin məzarını ziyarət etdilər.

Dost ölkənin nümayəndə heyətinin üzvləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarı önünə Gürcüstan rəhbərliyi adından əklil və gül-çiçək qoydular, onun nurlu xatirəsinə dərin ehtiramlarını bildirdilər.

## DAĞISTAN RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD ETDİ

Yanvarın 18-də xalqımızın böyük oğlu, prezident Heydər Əliyevin vəfatının 40-cı günü bir sıra ölkələrin nümayəndələri Bakıya gəldilər.

Həmin gün Dağıstan Dövlət Şurası sədrinin müşaviri Səid Qurbanov, Dövlət Şurasının üzvü Qurban Qurbanov, Rusiya Federasiyası Federasiya Şurasının beynəlxalq işlər komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Dağıstan Respublikasının Azərbaycandakı nümayəndəliyinin başçısı, Xalq Məclisinin deputatı Məhəmməd Qurbanov və Xalq Məclisinin deputatı Aydın Mürsəlovdan ibarət nümayəndə heyəti də Fəxri xiyabanı ziyarət etdi.

Məlum olduğu kimi, prezident Heydər Əliyev Rusiyanın bütün regionları ilə, xüsusən, Azərbaycana qonşu olan regionlarla ikitərəfli münasibətlərin inkişafına böyük diqqət yetirirdi. Müdrik siyasətçinin məsləhətlərinə qonşu respublikada həmişə hörmət və ehtiramla yanaşırdılar. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Dağıstandan ölkəmizə tez-tez nümayəndə heyətləri gəlirdi. Prezident Heydər Əliyev onları həmişə böyük mehribanlıqla qəbul edir, Dağıstanda baş verən hadisələrlə maraqlanırdı. Dağıstan xalqları görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin xatirəsini də həmişə ehtiramla anırlar.

Qonşu respublikanın nümayəndə heyətinin üzvləri prezident Heydər Əliyevin məzarı önünə Dağıstan rəhbərliyi adından əklil və gül-çiçək qoydular, Azərbaycan xalqının ümummilli liderinin nurlu xatirəsini dərin ehtiramla yad etdilər.

## UEFA-nın VİTSE-PREZİDENTİ HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD ETDİ

UEFA-nın vitse-prezidenti, FİFA İcraiyyə Komitəsinin üzvü, Türkiyə Futbol Federasiyasının fəxri prezidenti Seneş Erzik yanvarın 19-da Fəxri xiyabana gedərək, Heydər Əliyevin xatirəsini ehtiramla andı.

Seneş Erzik və AFFA İcraiyyə Komitəsinin üzvləri prezident Heydər Əliyevin məzarı önünə əklil və gül-çiçək qoydular, onun nurlu xatirəsini ehtiramla yad etdilər.

## MATƏM MİTİNQİ

Dekabrın 15-də Azərbaycanın Rusiyadakı səfirliyində Heydər Əliyevin xatirəsinə həsr edilmiş matəm mitinqi keçirildi. Səfirliyin və Ümumrusiya Azərbaycan Konqresinin (ÜAK) təşkil etdiyi mitinqə Moskvadakı azərbaycanlı ziyalılar, Heydər Əliyevin dostları və silahdaşları toplaşmışdılar.

ÜAK prezidentinin köməkçisi Eldar Quliyev matəm mitinqini açaraq, bütün Azərbaycan diasporu adından başsağlığı verdi. O dedi ki, diasporumuz zəmanəmizin görkəmli dövlət və siyasi xadiminin, geniş qəlbli və ülvi amallı insanın, beynəlxalq miqyaslı ən nüfuzlu liderlərdən birinin, güclü və müstəqil Azərbaycanın təşəkkülündə tarixi rol oynamış şəxsiyyətin - Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə qarşılamışdır.

Rusiya Elmlər Akademiyasının müxbir üzvü, "Voprosı istorii" jurnalının baş redaktoru Əhməd İsgəndərov Azərbaycan dövlətçiliyinin təşəkkülündə Heydər Əliyev şəxsiyyətinin müstəsna rolundan danışaraq vurğuladı ki, ölkəmizin tarixinin ən əhəmiyyətli hadisələri bu görkəmli şəxsiyyətin, ümummilli liderin adı ilə bağlıdır.

Azərbaycanda Heydər Əliyevin yaxın silahdaşı kimi yaxşı tanınan Konstantin Baybakov dərin hüznlə başsağlığı verərək bildirdi ki, belə itkinin acısına dözmək Heydər Əliyevi şəxsən tanıyan adamlar üçün, xüsusilə çətindir. K. Baybakov dedi: "O, bir çox çətin məsələləri həll etməyə və qarşıya qoyulan məqsədlərə nail olmağa qadir insan idi. Bu insanın xalqlarımız üçün nə qədər yaxşı işlər gördüyünü sadalamaq və qiymətləndirmək çətindir. O, sıravi vətəndaşların hər hansı xahişlərinə həmişə diqqətlə yanaşardı. Onun haqqında kitablar yazmaq lazımdır, çünki Heydər Əliyevin gördüyü işlərin vüsətini təkcə çıxışlarda açıqlamaq mümkün deyildir. Bizim belə insanlara ehtiyacımız var. Onun aramızda olmaması çox ağır dərddir".

Azərbaycanlıların oxuduqları 157 nömrəli məktəbin direktoru Aida Quliyeva söylədi ki, Heydər Əliyevi dünya miqyaslı bu və ya digər siyasətçi ilə tez-tez müqayisə edirlər, lakin o, heç kimə oxşamır: Heydər Əliyev Heydər Əliyevdir.

Bütün natiqlər yekdilliklə vurğuladılar ki, Heydər Əliyevin həyatı xalqa, onun müstəqilliyinə və azadlığına həsr olunmuşdu. Tarixi Vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlılar prezidentin həyanlığını və qayğısını həmişə hiss edir, onun bütün dünyada yüksək nüfuza malik olmasından qürur duyurdular. Azərbaycanlılar həmişə yadda saxlayacaqlar ki, Heydər Əliyevin şəxsi səyləri sayəsində bütün dünya azərbaycanlılarının milli birliyi və həmrəyliyi dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

Mitinq iştirakçıları onun bu sözlərini dönə-dönə xatırladılar: "Siz əmin ola bilərsiniz ki, sizin prezidentiniz Azərbaycanın müstəqilliyini, daxili sabitliyini son nəfəsinədək qoruyacaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirəcəkdir". O, hər bir azərbaycanlının qəlbində məhz belə də qalacaqdır.

Sonda yasin oxundu.

Mərasimə qatılan Rusiya Federasiyası Dövlət Dumasının sədri Gennadi Seleznyov AzərTAc-ın müxbirinə dedi: "Mən xatirə kitabına səmimi ürək sözlərimi yazdım. Yazdım ki, Allah Azərbaycan xalqının və sovet xalqının böyük oğlu Heydər Əliyevə rəhmət eləsin. Çünki o, həm Azərbaycanda, həm də Sovet İttifaqında çox parlaq siyasi sima idi. Qeyri-adi istedad və qeyri-adı zəka sahibi olan bu insan ən mürəkkəb vəziyyətlərdə həqiqətin onun tərəfində olacağına və Azərbaycanın həyatının yaxşılığa doğru dəyişəcəyinə inamını itirmirdi. Ailəsinə, ömür-gün yoldaşına son dərəcə sadiq insan idi. O zaman onun Zərifə xanımın cənazəsini Azərbaycana aparıb ye-

nidən torpağa tapşırmaq qərarını bir çoxları başa düşmürdü. Bu gün anladım ki, o nəyə görə belə etmişdi. Onu Zərifə xanımın yanında dəfn etdilər, yəni onlar yenə bir yerdə olacaqlar. Həyatda da birlikdə idilər, Allahın dərgahında da bir yerdə olacaqlar. Mən Heydər Əliyevi şəxsən çox yaxşı tanıyırdım. Biz saatlarla söhbət etmişik. Ona görə də bu böyük şəxsiyyətin vəfatı mənim üçün çox ağır itkidir. Mən onun doğmalarına və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".

## MOSKVADA 40-cı GÜN

Heydər Əlirza oğlu Əliyevin vəfatının 40-cı günü ilə əlaqədar Moskvanın "Praqa" restoranında yas mərasimi oldu. Mərasimi həmvətənimiz, "ACT-89" şirkətlər qrupunun prezidenti, Ümumrusiya Azərbaycan Konqresinin vitse-prezidenti Telman İsmayılov təşkil etmişdi.

Yas mərasimini Azərbaycanın Rusiyadakı səfiri Ramiz Rizayev açdı. O, Heydər Əliyevin hadisələrlə zəngin və mənalı, şərəfli həyatından danışaraq dedi ki, onun nurlu xatirəsi insanların qəlbində əbədi yaşayacaqdır. Bu itki təkcə Azərbaycan xalqına deyil, həm də bütün dünya azərbaycanlılarına üz vermişdir. Bu əvəzsiz itki ilə əlaqədar bütün Rusiya ictimaiyyəti Azərbaycan diasporu ilə birlikdə Heydər Əliyevin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Mərasimdə çıxış edənlər vurğuladılar ki, dünya təkcə beynəlxalq siyasətə öz sanballı töhfəsini vermiş görkəmli siyasi xadimi deyil, həm də elə bir nadir insanı itirmişdir ki, bu fenomenin öyrənilməsinə illər, bəlkə də, əsrlər gərəkdir. Axı, respublikada bütün quruculuq prosesləri, Azərbaycanın müstəqil və suveren dövlət kimi beynəlxalq aləmə çıxması, dünyada yüksək nüfuzlu məhz bu dahi və bənzərsiz şəxsiyyətin adı ilə bağlıdır.

Sonra Rusiya Müftilər Şurasının sədri şeyx Ravil Qaynuddin dua oxudu.

Mərasimdə Rusiya və Azərbaycan ictimaiyyətinin görkəmli nümayəndələri, habelə Rusiyanın ayrı-ayrı regionlarının təmsilçiləri iştirak edirdilər.

Ümumrusiya Azərbaycan Konqresinin regional şöbələrinin təşəbbüsü ilə Rusiyanın, demək olar, bütün regionlarında xatirə mərasimləri keçirildi. Heydər Əliyevin vəfatının 40-cı günü ölkəmizin Moskvadakı səfirliyində də qeyd olundu.





## TÜRKİYƏDƏ 40-cı GÜN

Yanvarın 18-də Ankarada, İstanbulda, İzmirdə, Bursada və Türkiyənin bir çox başqa şəhərlərinin məscidlərində Heydər Əliyevin əziz xatirəsi anıldı, mərhumun ruhuna dualar oxundu.

Ankaradakı səfirliyimizin binasında unudulmaz rəhbər Heydər Əliyevin vəfatının 40-cı günü münasibətilə anma mərasimi keçirildi. Tədbirə Ankarada yaşayan, işləyən elm və incəsənət xadimlərimiz, burada təhsil alan tələbələrimiz dəvət olunmuşdular.

Əvvəlcə, prezident Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mərasimi giriş sözü ilə açan səfir Məmməd Əliyev Heydər Əliyevin misilsiz fəaliyyətindən danışdı, müasir dövrdə Azərbaycanın beynəlxalq aləmdə tanınmasında və nüfuz qazanmasında bu böyük şəxsiyyətin səmərəli əməyini və rolunu xüsusi vurğuladı.

Sonra mərhumun ruhuna dualar oxundu, ehsan süfrəsi açıldı.

Həmin gün İstanbuldakı baş konsulluğumuzda da Heydər Əliyevi anma mərasimi keçirildi. Təabirdə İstanbuldakı həmvətənlərimiz, tələbələrimiz, burada müvəqqəti ezamiyyətdə olan vətəndaşlarımız, Azərbaycanın və Türkiyənin kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər. Mərasimdə Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Baş konsul İbrahim Yaqubov "Biz bir millət, iki dövlətik" sözləri Azərbaycanda və Türkiyədə zərb-məsələ çevrilən, əməlləri əfsanələşən Heydər Əliyevin zəngin həyat yolundan, qarşılaşdığı çətinliklərdən, müdrik və səmərəli fəaliyyətindən, yenilməz iradəsindən söhbət açdı. Sonra xalqımızın adət və ənənəsinə uyğun olaraq Qurandan ayələr oxundu, ehsan süfrəsi açıldı.

## ABŞ-da 40-cı GÜN

Yanvarın 18-də Azərbaycanın BMT-dəki daimi nümayəndəliyi Heydər Əliyevin vəfatının qırxıncı günü münasibətilə anma mərasimi keçirildi. Nyu-York şəhərinin "Bakı Palas" mərkəzində təşkil edilən mərasimdə Heydər Əliyevin xatirəsi yad edildi, mərhumun ruhuna dualar oxundu, ehsan verildi.

Mərasimdə çıxış edən Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev dedi ki, Azərbaycanın müasir tarixinin böyük bir dövrü millətinə 30 ildən çox rəhbərlik edən prezident Heydər Əliyevin adı ilə bağlıdır. O, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda mübarizə aparan uzaqgö-

rən siyasətçi, Cənubi Qafqazda nəhəng layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan kəmərinin memarı kimi daim xatırlanacaqdır.

Anma mərasimində Türkiyə, İran, Yaponiya, Polşa, Çin və digər dövlətlərin BMT-dəki daimi nümayəndələri, BMT-nin rəsmiləri, Azərbaycan və yəhudi icmalarının nümayəndələri iştirak edirdilər. Onlar ümummilli lider Heydər Əliyevin portreti qarşısında çiçəklər qoyaraq, mərhumun ruhuna dua oxudular və bütün Azərbaycan xalqına səbir dilədilər.

* * *

Heydər Əliyevin vəfatının qırxıncı günü ilə bağlı Azərbaycanın Vaşinqtondakı səfirliyində də anma mərasimi keçirildi.

Mərasimdə səfirliyin əməkdaşları, Dünya Bankının nümayəndəsi, Vaşinqtonda yaşayan azərbaycanlılar iştirak etdilər.

Mərasimdə prezident Heydər Əliyevin xatirəsi ehtiramla yad edildi, ehsan verildi, mərhumun ruhuna dualar oxundu.

## PEKİNDƏ 40-cı GÜN

Yanvarın 18-də Pekində - Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfirliyində prezident Heydər Əliyevin vəfatının qırxıncı günü ilə əlaqədar anma mərasimi keçirildi.

Mərasimdə Pekindəki Azərbaycan diplomatları və onların ailə üzvləri, Çində təhsil alan azərbaycanlı tələbələr və burada müvəqqəti olan vətəndaşlarımız iştirak etdilər.

Mərasimə dəvət olunmuş Pekin məscidinin axundu Heydər Əliyevin ruhuna dua oxudu.

Sonra Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfiri çıxış edərək, Heydər Əliyevin şərəfli ömür yolundan danışdı, onun Azərbaycan xalqının taleyindəki əvəzedilməz xidmətlərini vurğuladı.

Mərasimin sonunda ehsan süfrəsi açıldı.

## TBİLİSİDƏ 40-cı GÜN

Yanvarın 18-də Tbilisinin Cümə məscidində Gürcüstanın Borçalı və azərbaycanlıların məskunlaşdığı digər bölgələrindən gəlmiş nümayəndələrin iştirakı ilə Əliyevin vəfatının 40-cı gününə həsr olunmuş mərasim keçirildi.





Məscidin axundu Məşədi Əli mərhumun ruhuna dua oxudu. Mərasimdə çıxış edən natiqlər Heydər Əliyevin Vətən və xalq qarşısında böyük xidmətlərindən, vətəndən kənarda yaşayan azərbaycanlılara qayğısından, milli-mədəni dəyərlərimizin daha da inkişaf yönümündə əvəzsiz xidmətlərindən söhbət açdılar. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə onun nüfuzunun yüksəldilməsində Heydər Əliyevin əvəzsiz rolu vurğulandı. Sonra böyük ehsan süfrəsi açıldı, imkansızlara ehsan payı göndərildi.

Gürcüstanın azərbaycanlılar yaşayan bütün kənd və qəsəbələrində də Heydər Əliyevin vəfatının 40-cı günü ilə əlaqədar ehsan verildi.

## SANKT-PETERBURQDA 40-cı GÜN

AzərTAc-ın xüsusi müxbiri Ümumrusiya Azərbaycan Konqresinin Sankt-Peterburqda yerləşən icra aparatının sədr müavini Gündüz Həmzəyevə istinadla xəbər vermişdir ki, Azərbaycan diasporunun nümayəndələri bu şəhərdə anma mərasimi keçirdilər və Heydər Əliyevin nurlu xatirəsini yad etdilər.

Matəm mərasimində Sankt-Peterburqdakı Azərbaycan diasporunun başçısı Vaqif Məmişov çıxış edərək, bütün diasporun adından Azərbaycan xalqına və prezident Heydər Əliyevin ailəsinə dərin hüznlə başsağlığı verdi. O dedi ki, ölkəmizi bütün dünyada şöhrətləndirmiş Heydər Əliyev həmişə azərbaycanlıların iftixarı olmuş və olacaq, xalqımızın böyük oğlunun xatirəsi insanların qəlbində əbədi yaşayacaqdır.

Sankt-Peterburqdakı fəxri konsul Qüdsi Osmanov mərasimə toplaşanlara Heydər Əliyevin siyasi fəaliyyəti, Azərbaycan dövlətçiliyinin təşəkkülündə rolu, müdrik daxili və xarici siyasəti barədə danışdı.

## UKRAYNADA 40-cı GÜN

Yanvarın 18-də Heydər Əliyevin vəfatının 40-cı günü Ukraynanın bir çox bölgələrində matəm tədbirləri keçirildi. Tədbirlərə ukraynalılar, bu çoxmillətli ölkədə yaşayan başqa xalqların nümayəndələri də gələrək başsağlığı verdilər.

XARKOV. Xarkov vilayət Azərbaycan-Ukrayna dostluğu cəmiyyətinin sədri, Xarkovun Kiyev rayon sovetinin deputatı, professor Murad Ömərov bildirdi ki, yanvarın 18-də 131 nömrəli orta məktəbin (burada Azərbaycan

bazar günü məktəbi fəaliyyət göstərir) akt salonunda Heydər Əliyevin nurlu xatirəsinə həsr edilmiş matəm tədbiri keçirildi. Tədbirdə professor Eldar Vəliyev, akademik Zərifə Əliyevanın və xalqımızın lideri Heydər Əliyevin abidəsini hazırlayan heykəltəraş Seyfəddin Qurbanov, Xarkovun Kiyev rayon sovetinin deputatı Vəli Həsənov və digər azərbaycanlılar da iştirak edirdilər. Azərbaycanın Milli Qəhrəmanı, mərhum Viktor Seryoginin xanımı Qalina Mixaylovna da qızı Oksana və nəvəsi Lada ilə birlikdə buraya gəlmişdi. Bütün çıxışların başlıca mövzusu Azərbaycan prezidentinin Ukraynaya, onun böyük xalqına və Ukraynanın dahi Azərbaycan öndərinə məhəbbəti ilə bağlı idi. Bunu akademik, keçmiş SSRİ-nin Dövlət mükafatı laureatı, sabiq bakılı Yevgeni Aleksandroviç Morşakov da vurğuladı.

DNEPROPETROVSK. "Çənlibel" restoranında Ukrayna Azərbaycanlıları Konqresinin (UAK) Dnepropetrovsk regional təşkilatı matəm mərasimi təşkil etmişdi. Bu şəhərdə yaşayan həmvətənlərimiz və ukraynalılarla yanaşı, mərasimdə UAK-ın Novomoskovski və Pavloqrad təşkilatlarının nümayəndələri də iştirak edirdilər. Əvvəlcə "Heydər Əliyev: iki yüzilliyin fenomeni" sənədli filmi göstərildi. Matəm mərasimində bütün dünya azərbaycanlılarının lideri Heydər Əliyevin xatirəsinə ehsan verildi və dualar oxundu.

UAK-ın Dnepropetrovsk regional təşkilatı sədrinin müavini Eldar Tağıyev AzərTAc-ın müxbirinə bildirmişdir ki, bu şəhərdə diasporumuz əvəzsiz itki ilə əlaqədar hər cümə axşamı yas mərasimi keçirirdi. Bu mərasimləri Dnepropetrovsk televiziyasının "11-ci kanal" və "34-cü kanal"ının tamaşaçıları da izləyirdilər.

ZAPOROJYE. Yanvarın 18-də şəhərin "Bağçasaray" restoranında Heydər Əliyevin xatirəsinə ehsan verildi və müsəlman adət-ənənələrinə uyğun olaraq dualar oxundu.

Azərbaycan səfirinin Zaporojye vilayəti üzrə fəxri köməkçisi Miryaqub İbrahimov bildirdi ki, xatirə gecəsinə vilayət və şəhər rəhbərliyinin nümayəndələri də gəlmişdilər. Onlardan bəziləri Heydər Əliyev ilə şəxsən tanış idilər.

## DUBAYDA 40-cı GÜN

Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi yanvarın 18-də Dubayda Heydər Əliyevin əziz xatirəsinin yad edilməsinə həsr olunmuş mərasim keçirdi.





Səfirlikdən AzərTAc-a bildirmişlər ki, BƏƏ-də yaşayan Azərbaycan vətəndaşlarının və yerli vətəndaşların iştirak etdikləri mərasimdə çıxış edən səfir Eldar Səlimov dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin nəsillərə ornək olan ömür yolundan danışdı.

Mərasim Qurandan surələr oxunması və ehsan süfrəsi ilə başa çatdı.

## PARİSDƏ DƏ ÜMUMMİLLİ LİDERİN XATİRƏSİ ANILDI

Parisdə "Azərbaycan evi" Cəmiyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfat etməsinin 40-cı günü münasibətilə xatirəsini anma mərasimi keçirdi.

AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, mərasimin keçirildiyi salonda onun qara haşiyəyə alınmış fotoşəkli, qara lent bağlanmış Azərbaycanın dövlət bayrağı və ürək sözlərinin yazılması üçün matəm kitabı qoyulmuşdu.

Mərasimdə dünyanın tanınmış siyasətçilərindən biri olan Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Anma mərasimini cəmiyyətin prezidenti Səid İsmayılov açaraq xaricdə yaşayan azərbaycanlıların öz doğma Vətəni ətrafında sıx birləşmələri, Azərbaycan diasporunun yaradılması və xalqının dünyada tanınması sahəsində prezident Heydər Əliyevin fəaliyyətini xüsusi vurğuladı, ağır vaxtlarda xalqın tələbi ilə yenidən hakimiyyətə gələn rəhbərin ölkənin parçalanmasının qarşısının alınmasında, atəşkəsə nail olunmasında, Azərbaycanın bir dövlət kimi formalaşmasında və inkişafında, "Əsrin müqaviləsi"nin bağlanmasında əvəzsiz xidmətlərini qeyd etdi. Natiq həm də H. Əliyevin Azərbaycan ilə Fransa arasında hərtərəfli əlaqələrin inkişafına verdiyi töhfələrdən danışdı, Fransada yaşayan bütün azərbaycanlıların görkəmli dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin kədər hissləri keçirdiklərini və ümummilli liderin əziz xatirəsini daim qəlblərində yaşadacaqlarını bildirdi.

Rusiyanın Fransadakı səfiri Aleksandr Avdeyev prezident Heydər Əliyevin keçmiş SSRİ məkanında yüksək vəzifə tutduğunu və bu vəzifənin öhdəsindən layiqincə gəldiyini, geniş dünyagörüşə malik güclü şəxsiyyət olduğunu, Rusiyada böyük məhəbbətlə sevildiyini, son dövrlərdə Azərbaycan-Rusiya əlaqələrinin yaxşılaşmasına və inkişafına xüsusi diqqət göstərdiyini qeyd etdi.

Ukrayna və Gürcüstan səfirləri Yuri Sergeyev və Goşa Şogovadze çıxışlarında Azərbaycan xalqı ilə Ukrayna və gürcü xalqları arasında dostluq əlaqələrinin möhkəmlənməsində, GUÖAM təşkilatının yaradılmasında prezident Heydər Əliyevin xüsusi rolundan söhbət açdılar, bu ölkələrdə Heydər Əliyevə həmişə göstərilmiş böyük ehtiramdan danışdılar.

Türkiyənin böyük elçisi Uluş Ozulkerin çıxışı daha təsirli oldu. O, prezident Heydər Əliyevin simasında türk xalqlarının uzaqgörən bir siyasətçini, müdrik el ağsaqqalını itirməkdən dərin kədər hissləri keçirdiyini xüsusi vurğuladı, Azərbaycana həmişə dayaq olan Türkiyədə dahi insana böyük sevgilər bəslənildiyini açıqladı.

Azərbaycanın Fransadakı səfiri Eleonora Hüseynova prezident Heydər Əliyevin əziz xatirəsini yad etdiklərinə və fəaliyyətinə yüksək qiymət verdiklərinə görə səfirlərə, "Azərbaycan evi"nin prezidentinə və mərasimin iştirakçılarına minnətdarlığını bildirdi.

Fransa Prezident Aparatının, Xarici İşlər Nazirliyinin və Senatın məsul işçiləri, Parisin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr də anma mərasimində iştirak etdilər.





## VİDA SÖZLƏRİ

İstər böyük vətənimiz Sovet İttifaqı olsun, istərsə də suveren, müstəqil Azərbaycan olsun, Heydər Əliyevin həyat prinsipi həmişə ədalət, sülh, əmin-amanlıq və xalqın rifahı, dövlətin qüdrətinin və təhlükəsizliyinin möhkəmləndirilməsi olmuşdur. Bu kədərli xəbər sülhü və milli əmin-amanlığı həyatının amalı, ən yüksək mənəvi və insani hünər sayanların hamısının ürəyini ağrıtmışdır. Heydər Əlirza oğlunun böyük nüfuzu gərgin tarixi məqamda regionda sosial və iqtisadi sabitliyin, digər dövlətlərlə və xalqlarla əsrlər boyu bərqərar olmuş dostluğun qorunub saxlanmasını təmin etmişdir.

Fəxr edirəm ki, Heydər Əliyevi tanıyırdım, onunla dostluq edirdim. Onunla görüşlərin xatirəsi mənim üçün əzizdir. Heydər Əlirza oğlunun vəfatından doğan hədsiz kədər kimi onun əziz xatirəsi də uzun müddət qəlbimizdə qalacaqdır.

***A. KULİKOV,***
***Rusiya Dövlət Dumasının deputatı, ordu generalı.***

Azərbaycan xalqına ağır itki üz vermişdir. Bütün ömrünü xalqının tərəqqisinə həsr etmiş və Azərbaycanla Rusiya arasında çoxəsrlik dostluğun möhkəmlənməsinə böyük töhfə vermiş görkəmli xadim həyatdan getmişdir.

***Əhməd QƏDİROV,***
***Çeçenistan Respublikasının prezidenti.***

Heydər Əliyev Azərbaycan Respublikasının təşəkkülündə və inkişafında uzun illər müstəsna rol oynamışdır. O, nəinki müdrik siyasətçi, həm də dərin düşüncəli bir insan idi. Onu maraqlı müsahib və həssas bir insan kimi qiymətləndirirdilər.

Heydər Əliyev bənzərsiz natiq idi. Onun parlaq çıxışları və mühazirələri, - o cümlədən Fəxri doktoru olduğu Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tələbə və müəllimləri qarşısında, - həmişə böyük maraq doğururdu.

Heydər Əliyevin xatirəsi təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş sovet respublikaları ərazisində, onu tanıyanların hamısının qəlbində yaşayacaqdır.

Onunla ünsiyyətdə olanların, onu özünün şəxsi dostu hesab etmək istəyənlərin Heydər Əliyevi unutması çox çətindir.

***A. B. TORKUNOV,***
***RF XİN-in Moskva Dövlət Beynəlxalq***
***Münasibətlər İnstitutunun rektoru,***
***Rusiya Elmlər Akademiyasının müxbir üzvü.***

Rusiya Rəssamlıq Akademiyasının rəyasət heyəti və şəxsən mən XX əsrin görkəmli dövlət xadimi və siyasətçisi, öz doğma ölkəsinin böyük vətənpərvəri və "dünya vətəndaşı" Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar ən səmimi başsağlığımızı bildiririk.

Müxtəlif millətlərdən olan ən istedadlı gözəllik yaradanları birləşdirən Akademiyamızın sənətkarları Azərbaycanın, digər MDB ölkələrinin mədəniyyətinin inkişafı işinə misilsiz köməyinə və qayğısına görə, eləcə də yaradıcılıq niyyətlərinin həyata keçirilməsində bir çox rəssamlara şəxsən kömək etdiyinə görə Heydər Əliyevə hədsiz minnətdarlıq hissini həmişə qoruyub saxlayacaqlar.

***Zurab SERETELİ,***
***Rusiya Rəssamlıq Akademiyasının prezidenti.***

Hörmətli İlham Heydər oğlu!

Sizə, ailənizə və bütün Azərbaycan xalqına üz vermiş kədər, əvəzsiz itki - hamımızın əzizi Heydər Əlirza oğlunun vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığımı qəbul edin.

Sizinlə birlikdə kədərlənirəm.

Sizə dərin hörmət bəsləyən

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri.***





Hörmətli İlham Heydər oğlu!

Dünyamiqyaslı görkəmli siyasətçi, aqil və nəcib insan, müdrik ata və sadiq yoldaş, şəxsən çox yaxşı tanıdığım və həmişə böyük hörmət və rəğbət bəslədiyim Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar bütün Rusiya kinematoqrafçılarının və şəxsən mənim dərin hüznlə başsağlığımı qəbul edin.

Heydər Əliyevin vəfatı ilə, onun epoxası xoşbəxtlikdən bitməmişdir, çünki əminəm, Siz, hörmətli İlham Heydər oğlu - onun oğlu, dostu və varisi bu vəzifədə Azərbaycanın bütün sahələrdə yüksəlişi üçün prezident Heydər Əliyevin başladığı işi davam etdirəcəksiniz.

***Nikita MİXALKOV,***
***Rusiya Federasiyası***
***Kinematoqrafçılar İttifaqının sədri.***

Müstəqil Azərbaycan Respublikasının təşəkkülünə, Ukrayna ilə dostluq və səmərəli qarşılıqlı münasibətlərin inkişafına misilsiz töhfə vermiş böyük siyasi xadim həyatdan getmişdir.

Biz onu dövlət təfəkkürlü və heyranedici cazibə qüvvəsinə malik bir insan kimi xatırlayacağıq.

***Mixail PAPİYEV,***
***Ukraynanın əmək və sosial siyasət naziri.***

Azərbaycan tarixində bütöv bir epoxa, onun müstəqil, suveren dövlət kimi təşəkkül tapması Heydər Əlirza oğlunun adı ilə bağlıdır. Öz ölkəsinin və xalqının rifahı və tərəqqisini həyatının məqsədi hesab edən bu müdrik siyasətçinin unudulmaz surəti xatirimizdə əbədi qalacaqdır.

Heydər Əlirza oğlu Ukraynanın səmimi dostu idi, ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafı üçün çox iş görmüşdür. Onun vəfatı xəbəri həmvətənlərimin qəlbini ağrıtmışdır.

***Viktor YUŞENKO,***
***"Naşa Ukraina" fraksiyasının lideri,***
***Ukraynanın xalq deputatı.***

Hörmətli prezident!

Dəyərli atanız, çox böyük dövlət adamı, dost və qardaş Azərbaycan xalqının öndəri Heydər Əliyevin vəfatının doğurduğu dərin üzüntünü ürəkdən bölüşür, Sizə, sevgili ailənizə, dost və qardaş Azərbaycan xalqına başsağlığı verir, hörmət və sevgilərimi çatdırıram.

***Professor, doktor Tansu ÇİLLƏR,***
***Türkiyənin sabiq baş naziri.***

Zati-aliləri cənab İlham Əliyev!

Böyük dövlət və siyasət adamı hörmətli Heydər Əliyevin vəfatından üzüntü ilə xəbər tutdum.

Mərhum Heydər Əliyevə Cənabi-Allahdan rəhmət diləyir, Sizə və ailənizə, Azərbaycan xalqına başsağlığı verirəm.

Sayğılarımla,

***doktor Dövlət BAĞÇALI,***
***Milliyyətçi Hərəkat Partiyasının baş sədri.***

Hörmətli cənab prezident İlham Əliyev!

Hörmətli cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar öncə Sizə və bütün Azərbaycan xalqına başsağlığı verirəm.

Sayğılarla,

***Günay İZER,***
***Türkiyə Qadınları Birliyinin sədri.***

Görkəmli siyasətçi, Azərbaycan xalqının sədaqətli oğlu, ümumbəşəri ideallar uğrunda mübariz, gürcü xalqının dostu, Tbilisi Dövlət Universitetinin fəxri doktoru Heydər Əliyevin vəfatı bizi qəlbimizin dərinliyinədək sarsıtmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə ölkəniz həqiqi müstəqillik qazanmışdır, xalqlarımız, habelə universitetlərimiz arasındakı ənənəvi qardaşlıq münasibətləri onun müdrik və uzaqgörən siyasəti sayəsində yeni məzmun kəsb etmişdir.

Məhz dünya siyasətinə böyük töhfəsinə, gürcü və Azərbaycan xalqları arasında dostluq münasibətlərini möhkəmləndirdiyinə görə, TDU-nun Elmi





Şurası cənab Heydər Əliyevi fəxri doktor seçmişdir. Biz onun Elmi Şura qarşısında çıxışını yaxşı xatırlayırıq. Onun Gürcüstana məhəbbəti hər gəlməsində hiss olunurdu.

Bütün universitet, bütün Gürcüstan kədər içindədir.

***Roin METREVELİ,***
***akademik, Tbilisi Dövlət Universitetinin rektoru.***

Hörmətli cənab prezident!

Gürcüstan parlamenti yanında Auditor Fəaliyyəti Şurası və Gürcüstan Auditorlar Korpusu gürcü xalqının sadiq dostu, böyük siyasətçi və dövlət xadimi, prezident cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar şəxsən Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir. Gürcü xalqı cənab Heydər Əliyevi daim xatırlayacaqdır.

***Nodar KEBADZE,***
***Gürcüstan parlamenti yanında***
***Auditor Fəaliyyəti Şurasının sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin vəfatını böyük kədər hissi ilə qarşıladım.

Mərhuma Cənabi-Allahdan rəhmət diləyir, ailəsinə, bütün Azərbaycan xalqına və Azərbaycan prezidentinə başsağlığı verir və səbir arzulayıram.

***Baxış ŞANCİRAY,***
***Rumıniya müsəlmanlarının müftisi.***

Heydər Əliyev hamının nəzərində öz xalqını sevən və bütün qüvvəsini Azərbaycanın tərəqqisinə və dinc həyatına sərf edən müdrik və təcrübəli rəhbər idi. Rus Pravoslav Kilsəsinin Stavropol yeparxiyası Azərbaycan dövlətinin həyatı ilə tarixən bağlıdır və biz özümüz Heydər Əlirza oğlunun respublikada millətlərarası və dinlərarası sülhün qorunub saxlanması və dəstəklənməsi üçün çox işlər gördüyünü yaxşı bilirik.

Mərhumun nurlu xatirəsi Azərbaycanda, Rusiyada və bütün dünyada çox-çox insanların qəlbində yaşayacaqdır.

***FEOFAN,***
***Stavropol və Vladiqafqazın yepiskopu.***

Şəxsən tanış olduğum və mənə zaman-zaman görüşmək şərəfi nəsib olmuş Böyük Türk Dövlət adamı hörmətli Heydər Əliyevin vəfatı xəbərini böyük üzüntü ilə qarşıladım.

Sevgili böyüyümüz, böyük insan hörmətli Heydər Əliyevə rəhmətlər diləyir, türk dünyasına başsağlığı verirəm.

***Caner DOĞANELİ,***
***Türkiyə Boks Federasiyasının sədri, AİBA-nın baş katibi.***

Əziz Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri qəlbimizdə dərin kədər hissi doğurdu. Geniş qəlbli bu görkəmli dövlət xadiminə ailəmizdə dərin hörmət bəslənilirdi. Atamızı və Heydər Əlirza oğlunu qardaşlıq, dostluq, qarşılıqlı məhəbbət və sədaqət telləri birləşdirirdi. Hüznlü vida günlərində səmimi başsağlığımızı və təsəlli sözlərimizi qəbul edin. Heydər Əlirza oğlunun xatirəsi heç zaman unudulmayacaqdır.

***Özbəkistanın keçmiş rəhbəri***
***Şərəf RƏŞİDOVUN ailəsi.***

Cənab Prezident!

Atanız Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə qarşıladım. Onu şəxsən tanıyırdım və təşkilatımızın fəaliyyət və məqsədlərinə marağını yüksək qiymətləndirirəm.

Bu ağır hüznlü günlərdə Sizə və ailənizin üzvlərinə şəxsi kədər hisslərimi bildirirəm.

***Koiçiro MATSUURA,***
***YUNESKO-nun baş direktoru.***

Dəyərli dövlət xadimi, prezident Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndik.

Qardaş və dost Azərbaycanın yetirdiyi böyük dövlət adamı Heydər Əliyev ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdirilməsinə və dostluğumuzun möhkəmləndirilməsinə böyük töhfə vermişdir.

Mərhuma Allahdan rəhmət diləyir, ən səmimi başsağlığımızı veririk.

***Mustafa BAŞ,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı***
***Parlament Assambleyasında Türkiyə qrupunun sədri.***





Heydər Əliyevi siyasətçi və ictimai xadim kimi fenomenal keyfiyyətlərlə yanaşı, müstəsna şəxsi insani keyfiyyətləri də fərqləndirirdi və hər dəfə onunla təkbətək ünsiyyətdə olmaq şərəfi nəsib olanda buna heyran qalırdım.

Son günlərinədək Azərbaycan xalqına sədaqətli olan Heydər Əliyev bütün həyatını Vətənimizin tərəqqisinə həsr etmişdir. Bu gün bütün dünyada Azərbaycan xalqının hər bir oğlu, hər bir qızı bu əvəzsiz itki ilə əlaqədar kədər hissi keçirir.

Heydər Əliyevin həyatdan getməsi ilə Azərbaycanın ən yeni tarixində bütöv bir dövr də başa çatdı. İrəlidə bizi öz çətinlikləri və uğurları, sevincləri və kədərləri olan yeni dövr gözləyir.

***Nizami PİRİYEV,***
***"Stroy Trans Qaz-Oyl Proqress"***
***neft-qaz şirkətinin baş direktoru (Moskva).***

Müdrik və böyük dövlət xadimi və siyasi xadim, təvazökar, qayğıkeş, intellektual mədəni, istedadlı insanın - Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına səmimi başsağlığı verirəm. Bu mehriban və gözəl insanı, onun Bakı şəhəri üçün Kür su kəməri çəkdirməklə xalqa göstərdiyi qayğısını bütün ömrüm boyu xatırlayacağam. Qoy onun xatirəsi əbədi yaşasın.

***Professor PETROSOV,***
***"Xarkovkommunprovod"***
***İstehsalat Birliyinin baş direktoru.***

Hörmətli cənab İlham Əliyev!

Azərbaycanın ümummilli lideri, prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verərək, bu kədərli günlərdə səbir diləyirik. Başınız sağ olsun!

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

***Osman Saim DİNÇ,***
***Türk Petrolları Anonim Şirkətinin baş direktoru***
***və idarə heyətinin sədri.***

Azərbaycan Respublikasının dünyada nüfuzlu, böyük bir dövlət olmasında əvəzsiz xidmətləri olan və ömrünü türk dünyasına xidmətdə keçirən dəyərli dövlət xadimi Heydər Əliyevin vəfatı xəbəri bizləri dərindən kədərləndirmişdir. Bununla əlaqədar bütün Azərbaycan xalqına ən səmimi başsağlığı verir, "Bir millət, iki dövlət" fəlsəfəsi ilə yaşayan dostluğumuzun əbədiyyətə qədər davam etməsini arzulayıram.

***Hənəfi SÖZEN,***
***Türkiyənin Müstəqil Sənayeçi və***
***İş Adamları Dərnəyinin baş katibi.***

Əziz İlham Heydər oğlu!

Atanızın, hörmətli Heydər Əlirza oğlunun vəfatı barədə faciəli xəbəri dərin kədər hissi ilə eşitdik. Sizin üçün ağır olan bu günlərdə hər hansı bir təskinlik sözü Sizin və ailənizin düçar olduğu bu kədərlə müqayisədə mənasızdır. Sizin atanız heç də təkcə dövlətə on illərlə başçılıq etmiş dahi siyasətçi, bizə ünsiyyətdə olmaq şərəfi nəsib olmuş çox gözəl insan, mədəniyyət və incəsənətin sərraf bilicisi deyildi. O, hər şeydən əvvəl, öz xalqının və dövrünün ən yaxşı xüsusiyyətlərini özündə cəmləşdirmiş parlaq şəxsiyyət idi. Biz Sizinlə birlikdə kədərlənirik. Əminik ki, Siz atanızın işini layiqincə davam etdirəcək, qonaqpərvər ölkənizin tərəqqisi üçün əlinizdən gələni edəcəksiniz.

***İqor MOİSEYEV***
***və onun rəhbərlik etdiyi Rusiya Dövlət***
***Akademik Xalq Rəqs Ansamblı.***

Hörmətli cənab İlham Əliyev!

Azərbaycanın əvəzsiz lideri prezident Heydər Əliyevin vəfat etməsi ilə əlaqədar "Ukrayna Hava Yolları"nın kollektivi Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verir.

***"Ukrayna Hava Yolları"nın***
***Azərbaycandakı nümayəndəliyi.***





Türk dünyasının nüfuzlu dövlət adamı, dəyərli prezident Heydər Əliyevin vəfatı xəbərini kədər hissi ilə öyrəndik.

Mərhuma Allahdan rəhmət diləyir, onun ailəsinə və dost Azərbaycan xalqına başsağlığı verirəm.

Hamımızın başı sağ olsun.

***Rumıniyanın "Tuna" Təhsil, Mədəniyyət***
***və İnsanlıq Vəqfinin idarə heyəti adından***
***Mustafa DOĞAN.***

Hörmətli İlham Heydər oğlu!

Sizə səmimi hisslərlə başsağlığı veririk. Taqanroq Sizinlə birlikdə kədərlənir.

***A. FOMENKOV,***
***"Özünəqayıdış" İctimai Birliyinin sədri,***

***Y. İVANOVA,***
***"Sudarınya" İctimai Birliyinin sədri.***

Hörmətli cənab Prezident!

Kanadanın Kvebek vilayətində yaşayan həmvətənlərimiz bu böyük itkiyə görə Sizinlə birlikdə kədərlənirlər.

Eyni zamanda inanırıq ki, Siz Heydər Əliyevin tutduğu yolu şərəflə davam etdirəcək, xalqımızın xoşbəxt gələcəyi naminə əlinizdən gələni əsirgəməyəcəksiniz.

Allah rəhmət eləsin.

***Kvebek Azərbaycanlıları Federasiyası adından***
***Məsud ƏLİYEV.***

Bütün ömrünü Azərbaycan xalqının tərəqqisinə həsr etmiş böyük rəhbər, görkəmli, müdrik siyasi xadim və dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar Kareliya Respublikası Azərbaycanlılarının "Avesta" İctimai Birliyi Kareliyada yaşayan bütün azərbaycanlılar adından dərin hüznlə başsağlığı verir.

Heydər Əliyevin vəfatı xəbərini ürək ağrıları ilə qarşıladıq, biz kədər içindəyik. Xalqımızın böyük oğlu kimi onun xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

***Zaman RƏSULOV,***
***Kareliya Respublikası Azərbaycanlılarının***
***"Avesta" İctimai Birliyinin sədri.***

Həyatının son dəqiqələrinədək Heydər Əlirza oğlunun bütün fikri-düşüncəsi Azərbaycan xalqı ilə bağlı olmuşdur.

Heydər Əlirza oğlunun səyləri ilə Azərbaycan Respublikası vətəndaşlarının siyasi, iqtisadi, mənəvi əxlaqı bərpa edilmişdir.

Heydər Əlirza oğlunun dövlət başçısı kimi yaradıcı, sıx birləşdirici rolunu biz heç vaxt unutmayacağıq, övladlarımız və nəvələrimiz də unutmayacaqlar.

Belə nüfuzlu və müdrik dövlət xadiminin itkisindən doğan ağrı böyük və sonsuzdur.

***X. QƏMBƏROV,***
***Azərbaycan diasporu Sverdlovsk vilayət***
***ictimai təşkilatı idarə heyətinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin uzun sürən xəstəlikdən sonra 2003-cü il dekabrın 12-də vəfat etməsi xəbərini sarsıntı və dərin hüznlə xəbər tutdum.

Azərbaycan hökumətinin və xalqının, xüsusilə ağır itki vermiş ailənizin kədərinə səmimi qəlbdən şərik çıxdığımızı bildirir, Qana hökuməti və xalqı adından və öz adımdan başsağlığı verirəm.

Zati-aliləri, Sizə ən yüksək ehtiram bəslədiyimə əmin olmağınızı xahiş edirəm.

***Con Aqyekum KUFUR,***
***Qana Respublikasının prezidenti.***





Beynəlxalq miqyasda təsdiq edilmişdir ki, Heydər Əliyev müasir Azərbaycanın baş memarıdır. O, yeni minillikdə Azərbaycan üçün iki əsas amilin, yəni sülhün və firavanlığın təmin edilməsinin əhəmiyyətini bilirdi.

***Mark Mallok BRAUN,***
***Birləşmiş Millətlər Təşkilatının***
***İnkişaf Proqramının inzibatçısı.***

Görkəmli siyasi xadim, dərin zəkaya malik və valehedici insan həyatdan getmişdir. Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı, Qazaxıstan və Azərbaycan xalqları arasında çoxəsrlik dostluğun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

***Erik JUSUPOV,***
***Qazaxıstan Respublikasının***
***Rumıniyadakı müvəqqəti işlər vəkili.***

Əminəm ki, prezident Heydər Əliyevin İran İslam Respublikası ilə dostcasına əməkdaşlığın genişləndirilməsinə olan marağı əlaqələrin səviyyəsinin kəmiyyət və keyfiyyətcə yüksəldilməsi naminə daha böyük səylər üçün gözəl ruhlandırıcı qüvvə olacaqdır.

***Mehdi SƏFƏRİ,***
***İranın Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfatı ilə bağlı Sizə başsağlığı verirəm. Mərhumun öz ölkəsi qarşısındakı xidmətləri uzun müddət xatirələrdə qalacaq və həyatdan getməsi onu tanıyanları uzun zaman kədərləndirəcəkdir.

***Alvaro Gil ROBLES,***
***Avropa Şurasının insan hüquqları üzrə komissarı.***

Zati-aliləri cənab İlham Əliyev!

İcazə verin, atanızın - Azərbaycanın Böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə, ailənizə və bütün xalqınıza dərin hüznlə başsağlığı verim.

Ailəniz və bütün Azərbaycan üçün bu çətin anlarda biz Sizinlə birlikdə dua edirik və təkcə Azərbaycan xalqına deyil, həm də bütün tərəqqipərvər bəşəriyyətə üz vermiş bu ağır itkiyə görə kədərlənirik.

***Tariel LEBANİDZE,***
***Gürcüstanın Türkiyədəki səfiri.***

Əziz cənab Prezident!

İki il yarım bundan qabaq etimadnaməmi təqdim etmək şərəfinə nail olduğum atanız prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar ən səmimi başsağlığımı qəbul etməyinizi xahiş edirəm.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətləri Sizin rəhbərliyinizlə də səmərəli olacaqdır.

***Halina KOBEKAYTE,***
***Litvanın Türkiyə, Azərbaycan və Özbəkistandakı səfiri.***

Hörmətli İlham Heydər oğlu!

Dünya miqyaslı siyasi xadim və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Kürdüstanın Demokrat Partiyasının (İraq) və Kürdüstan regional hökumətinin rəhbərliyi adından Azərbaycan Respublikasının xalqına, prezidentinə və hökumətinə dərin hüznlə başsağlığı verirəm.

***Xoşəvi BABAKR,***
***KDP(İ)-nin Rusiyadakı nümayəndəsi.***

Azərbaycan böyük liderini, dünya böyük dövlət xadimini itirdi.

Heydər Əliyevin vəfatının 40-cı günü hər il Azərbaycanda qeyd olunan Şəhidlərin xatirə gününə təsadüf edir. Heydər Əliyev şəhiddir. O, xalqının qayğısına qalırdı və özünü xalqına fəda etdi. Dəfn mərasimi zamanı və matəm günlərində öz ehtiramını bildirməyə çox böyük sayda insanın gəlməsi onların Azərbaycanın xilaskarına sevgi, məhəbbət və hörmətin əyani təsdiqidir.

***Çlaubenq ÇU,***
***Sinqapurun "Keppel Ofşor ənd Merin Ltd" şirkətinin sədri və baş icraçı direktoru.***





Hörmətli cənab Prezident!

Azərbaycanın rəhbəri, hamımızın sevimlisi, görkəmli dövlət xadimimiz, prezidentimiz cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar özüm və ailəm adından Sizə və ailənizə, xalqımıza dərin hüznlə başsağlığı verirəm. Möhtərəm Heydər Əliyevin həyatdan getməsi bütün Azərbaycan xalqı üçün böyük və ağır itkidir. Bu xəbər bizi çox sarsıtdı və kədərləndirdi.

Allah rəhmət eləsin. Axır qəminiz olsun.

***Namiq KAMRANOV,***
***Westminster Şəhər İcra Hakimiyyətində müşavir.***

Azərbaycan tarixinin bütöv bir dövrü, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi böyük tarixi şəxsiyyət, dövlət xadimi və böyük vətənpərvər olan Heydər Əliyevin adı ilə bağlıdır. O, öz şərəfli ömrünü Azərbaycanın tərəqqisinə, xalqının rifahına həsr etmişdir. Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır.

***Fransadakı Azərbaycanlı Tələbələr Assosiasiyasının ümumi yığıncağı adından***
***Famil MƏMMƏDOV (sədr),***
***Elvin ABBASBƏYLİ (katib).***

Əziz cənab Prezident!

Atanızın, böyük dövlət xadiminin vəfatı ilə bağlı səmimi qəlbdən başsağlığı verirəm.

***Xanım Mod Dö BUR-BUKİKKİO,***
***Avropa Şurası baş katibinin müavini.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanızın vəfatı ilə bağlı Sizə səmimi qəlbdən başsağlığı verirəm. O, mənim çox böyük hörmət bəslədiyim bir adam idi. Mən onunla bir neçə dəfə Bakıda görüşmüşdüm.

***Lord NYUOLL,***
***Böyük Britaniya Lordlar Palatasının üzvü.***

Prezident Heydər Əliyevin vəfatı xəbəri məni və sədri olduğum Dünya İdman Jurnalistləri Birliyini də kədərləndirmişdir.

Dünya İdman Jurnalistləri Birliyi olaraq, hörmətli Heydər Əliyevə Tanrıdan rəhmət diləyir, bütün Azərbaycan xalqına başsağlığı veririk.

***Toqay BAYATILI,***
***Rumıniyadan Dünya İdman Jurnalistləri Assosiasiyasının prezidenti.***

Türk dünyasının dəyərli və çox böyük lideri olan hörmətli prezidentimiz Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə öyrəndik.

Hörmətli prezident İlham Əliyevə və Azərbaycan xalqına başsağlığı verirəm.

***Sabit DANIŞ,***
***Rumıniyadan Türk İş Adamları Dərnəyi Dobruca şöbəsinin sədri.***

Prezident Heydər Əliyevin adı bəşəriyyətin tarixi yaddaşında Böyük İpək yolunun bərpası ideyası ilə bağlı olaraq həmişəlik qalacaqdır.

Prezident Heydər Əliyevin sayəsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi layihəsi ixtisaslaşdırılmış proqram çərçivəsindən kənara çıxdı və ən yüksək dövlətlərarası səviyyədə çoxtərəfli əməkdaşlıq sahəsində geniş siyasi və sosial-iqtisadi əhəmiyyət kəsb etdi.

XXI əsrin Yeni İpək yolunun dirçəldilməsində və inkişafında özünün çox böyük zəhməti ilə əbədi iz qoymuş insanın və Azərbaycan Respublikasının dövlət rəhbərinin nurlu xatirəsi qarşısında dərin ehtiramla baş əyirik.

***TRASEKA üzrə hökumətlərarası komissiyanın Daimi Katibliyi.***

Hörmətli cənab Prezident!

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin işçiləri prezident Heydər Əliyevin vəfatı xəbərini eşidib dərindən kədərləndilər.





Biz dərdinizə şərik olaraq Sizə, ailənizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

Dərin hüznlə,

***Mixa VEDEKİND,***
***BQXK nümayəndəliyinin başçısı vəzifəsini icra edən.***

Məhz Heydər Əliyevin səyi nəticəsində bizim təşkilat Azərbaycanda işləməyə başlayıb və həmişə öz işimizlə Azərbaycana xidmət etməyə çalışmışıq.

O, daim bizim qəlbimizdə yaşayacaqdır. Qəbri nurla dolsun! Allah sizlərə səbir versin və rəhmi həmişə üstünüzdə olsun.

***Alf Henri RASMUSSEN,***
***"Norveç Humanitar Müəssisəsi" beynəlxalq təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri.***

Türk dünyasının ən böyük liderlərindən olan hörmətli prezident Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə öyrəndim. Türk dünyası çox görkəmli liderlərindən birini itirdi.

***Həsən EKŞİ,***
***Qaradəniz Qeyri-Hökumət Təşkilatları Birliyinin sədri.***

Hörmətli İlham Heydər oğlu!

Üz vermiş ağır itki - Azərbaycanın böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Mahaçqala sakinləri adından və şəxsən öz adımdan Sizə, ailənizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Ürəkdən kədərlənir və əvəzsiz itkinin ağrı-acısını Azərbaycan xalqı ilə bölüşürük.

***S. ƏMİROV,***
***Mahaçqala Şəhəri İcra Hakimiyyətinin başçısı, Dağıstanın Yerli Hakimiyyət Orqanları İttifaqının sədri.***

Biz - Almaniyada yaşayan azərbaycanlılar və türklər Azərbaycan xalqına baş vermiş böyük itki, tanınmış dövlət xadimi və dünya miqyaslı siyasətçi prezident Heydər Əliyevin vəfatı xəbərini böyük üzüntü ilə qarşıladıq.

Azərbaycan dövlətinin, Azərbaycan xalqının və bütün türk dünyasının başı sağ olsun.

Heydər Əliyev ürəyimizdə yaşayacaqdır.

***Əbdülqadir QARAOĞLAN,***
***Azərbaycan Federasiyasının həmsədri.***

Azərbaycan xalqının böyük oğlu, XX əsrin müdrik siyasətçisi Heydər Əliyevin vəfatı xəbərini ürək ağrıları ilə qarşıladıq. Bütün Azərbaycan xalqına səmimi qəlbdən başsağlığı veririk.

***A. MƏHƏRRƏMOV,***
***Ukrayna Azərbaycanlıları Konqresi***
***Nikolayev vilayət şöbəsinin sədri.***

Şərqi Qazaxıstan vilayətinin Ridder şəhərindəki "Dostluq" Azərbaycan Milli-Mədəni Mərkəzi prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir. Bütün Azərbaycan xalqı ilə birlikdə kədərlənirik.

***Hilal HÜSEYNOV,***
***"Dostluq" Milli-Mədəni Mərkəzinin sədri.***

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqına səmimi başsağlığı veririk. Məzarı nurla dolsun.

***Mehman HƏSƏNOV,***
***Primorye diyarı Azərbaycan diasporunun***
***"Xalq" təşkilatının katibi.***

Azərbaycan xalqının görkəmli oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatı barədə xəbəri böyük kədər və hüznlə qarşıladım.

Azərbaycanın çoxminillik tarixinin yetirdiyi bu nadir dövlət və siyasət xadiminin vəfatından təkcə bir təsəllimiz var - ölümü ilə ölümsüzləşən Heydər Əlirza oğlunun qurduğu və inkişaf etdirdiyi Azərbaycanın müstəqilliyi sarsılmazdır.

***Mübariz MƏNSİMOV,***
***"Palmali gəmi xidmətləri və agentlik Ltd"***
***şirkətlər qrupunun prezidenti (İstanbul).***

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Azərbaycan xalqının milli lideri, dahi siyasətçi Heydər Əliyevin xalqın tarixində və taleyində bənzərsiz xidmətləri vardır. Azərbaycan hökumətinin və bütün Azərbaycan xalqının başı sağ olsun.

***Nadir EROMİ,***
***"NAB Xarici Ticarət Ltd" şirkətinin***
***prezidenti (İstanbul).***

80 illik ömrünə həddindən artıq böyük işlər sığdıran bu böyük insan azad və demokratik bir ölkə, gələcəyə inamla baxan bir millət və beynəlxalq platformada nüfuzlu bir dövlət yaradaraq həyatdan getdi.

Mənə müxtəlif vaxtlarda nümayəndə heyətləri tərkibində 5 dəfə prezident Heydər Əliyev tərəfindən qəbul edilmək şərəfi nəsib olmuşdur. Bu böyük insanın qəbulunda olduğum anlar həyatımın çox müstəsna xatirələri kimi böyük dəyərini daim qoruyacaqdır.

Müstəqil və demokratik Azərbaycan Respublikası Onun açdığı yolda, Onun yandırdığı məşəlin işığında sonsuza qədər yaşayacaqdır.

***Sakit KATLANDUR,***
***"Bayraqdar Holdinq"in İdarə Heyətinin***
***üzvü (İstanbul).***

Prezident Heydər Əliyev narahat dövrlərdə Azərbaycanın inkişafına verdiyi töhfəyə görə heç bir vaxt unudulmayacaqdır. Azərbaycanın beynəlxalq strukturlara inteqrasiya yoluna çıxarılması ölkənin tarixində ən əhəmiyyətli nailiyyətlərdən biri kimi fərqlənəcəkdir.

***Doktor Yan Peter BALKENENDE,***
***Niderland Krallığının baş naziri.***



BÖYÜK İNSAN HAQQINDA

Əziz cənab İlham Əliyev!

Böyük dövlət xadimi, əvəzsiz insan və sevimli atanızın vəfatı xəbəri hamımızı çox dərindən kədərləndirmişdir. Sizə və ailənizə başsağlığı verir, ölkənizin əmin-amanlıq şəraitində xoşbəxt gələcəyə doğru irəliləməsini ürəkdən arzu edirəm.

***Barış PERİN,***
***Avropa Şurası Parlament Assambleyasının üzvü.***

Əziz İlham Heydər oğlu!

Şəxsi dostum, başlıcası isə Gürcüstanın ən sədaqətli dostu Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladım. Atanızın ənənələrini layiqincə davam etdirəcəyinizə və ölkələrimiz arasında dostluğun daha da möhkəmlənəcəyinə və dərinləşəcəyinə əminəm.

Səmimi ehtiram və kədər hissi ilə

***Lana QOQOBERİDZE,***
***Gürcüstanın Avropa Şurası yanında daimi nümayəndəsi, fövqəladə və səlahiyyətli səfir.***

Prezident cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin hüzn və kədər hisslərimi bildirirəm. Bu böyük itkiyə görə dost qonşu Azərbaycan Respublikası xalqına başsağlığı verirəm.

Böyük Allahdan mərhuma rəhmət, hörmətli ailəsinə, Azərbaycan Respublikasının böyük xalqına və hökumətinə isə səbir və əcr diləyirəm.

***Əli MÜHƏQQİR,***
***İran daxili işlər nazirinin müavini.***

Azərbaycan xalqına ağır itki üz verdiyi barədə kədərli xəbəri çox böyük təəssüf hissi ilə qarşıladıq. Bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk, əvəzsiz itkinin kədərini bölüşürük.

Əfsanəvi Heydər Əlirza oğlu Əliyev insanların xatirində əbədi yaşayacaqdır. Allah onun ruhunu şad eləsin.

***Həsən MİRZƏYEV,***
***Şəhər Məclisinin deputatı, Dərbənd İncəsənət və Mədəniyyət İnstitutunun rektoru, professor.***





Dünya şöhrətli belə bir rəhbər şəxsiyyətin qəfildən həyatdan getməsi bizi çox kədərləndirir. Onun öz xalqı qarşısında siyasi və sosial xidmətləri dünya tarixində əbədi qalacaqdır.

Əminik ki, Heydər Əliyevin oğlu və ölkənin yeni prezidenti kimi İlham Əliyev xalqının rifahı naminə atasının yolunu davam etdirəcəkdir.

***Volfqanq HAYNTSEN,***
***Almaniyanın "Haytek Hayntsen" şirkətinin icraçı direktoru.***

Öz ölkəsinin müstəqilliyinin möhkəmlənməsinə misilsiz töhfə vermiş dünya miqyaslı görkəmli siyasətçi prezident Heydər Əlirza oğlu Əliyevin həyatdan vaxtsız getməsi ilə əlaqədar dərin hüznlə və səmimiyyətlə başsağlığı veririk.

Parlaq və güclü şəxsiyyət olan Heydər Əlirza oğlu Əliyev nəsillərə dinc yanaşı yaşamağı nəsihət etmişdir. Buna görə də o, yaddaşlarda Azərbaycan xalqının Böyük Oğlu kimi qalacaqdır.

***Elxan MURADOV,***
***"Texnos" məhdud məsuliyyətli cəmiyyətinin baş direktoru (Yekaterinburq).***

Heydər Əliyev müdrikliyinə görə elə nadir siyasi xadim idi ki, bütün ömrü boyu xalqın mənafelərini əsas tuturdu, onun tərəqqisinə, firavanlığına, əmin-amanlığına çalışırdı, bir vaxtlar xalqlarımız üçün ümumi olmuş evin möhkəmlənməsi və qorunub saxlanması üçün hamıdan daha çox qüvvə sərf edirdi. Rusiya ictimaiyyəti onun Rusiya-Azərbaycan dialoqunun həyati əhəmiyyəti olduğunu başa düşərək, bu dialoqun möhkəmlənməsi üçün göstərdiyi səyləri yüksək qiymətləndirirdi. Çünki bir çox ruslar üçün Azərbaycan ikinci vətənə çevrilmişdir, bir çox azərbaycanlılar isə Rusiyada özlərinə ikinci ev tapmışlar.

Məhz buna görə Heydər Əliyev Rusiya Federasiyasının ali dövlət mükafatına - Müqəddəs Apostol Andrey Pervozvannı ordeninə və Rusiyanın ən nüfuzlu ictimai mükafatına - "Sivilizasiyaların dialoqu" Beynəlxalq Andrey Pervozvannı mükafatına layiq görülmüş yeganə şəxsdir. Möhtərəm Heydər Əlirza oğlunun həmin mükafatın təqdim edilməsi mərasimində dediyi bu sözlər

xatirimizdədir: "Nizamnaməsində sivilizasiyaların dialoqu sözləri olan Fondun mükafatını almaq böyük şərəfdir. Mən bunu Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında münasibətləri möhkəmlətmək və inkişaf etdirmək üçün daha bir imkan kimi qiymətləndirirəm".

Azərbaycan böyük şairlər, yazıçılar, bəstəkarlar, müğənnilər, filosoflar, alimlər diyarıdır. Azərbaycan xalqının bir çox nümayəndələrinin adları bəşər tarixinə qızıl hərflərlə yazılmışdır. Həmişə sevimli övladı olduğu Azərbaycan xalqının müdrikliyini, sülhsevərliyini və mərhəmətliliyini ömrünün sonunadək qəlbində saxlamış Azərbaycan prezidenti Heydər Əliyevin adı indi bu adlar arasında əbədi olaraq işıq saçacaqdır.

***V. YAKUNİN,***
***Milli Şöhrət Mərkəzi Qəyyumluq Şurasının sədri,***

***A. MELNİK,***
***Apostol Andrey Pervozvannı Fondunun prezidenti.***

Heydər Əliyevin millətimizi dünyanın inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq və daim sülh şəraitində yaşatmaq üçün apardığı mübarizəsini həmişə heyranlıqla izlədim.

Allah mənə ölkənizə gəlməyi qismət edərsə, ilk işim mərhum Heydər Əliyevin məzarını ziyarət edərək Fatihə oxumaq olacaq. Orada soydaşlarımızla qucaqlaşmaq ən böyük arzumdur.

***İ. Ertan DƏMİRƏR,***
***"Güneyli toxuculuq malları" şirkətinin prezidenti (Adana).***

Cənab prezident!

Atanızın, zati-aliləri prezident Heydər Əliyevin vəfatı xəbəri bizi çox kədərləndirdi.

Zati-alilərinizə, ailənizə və qardaş Azərbaycan xalqına səmimi qəlbdən və dərin hüznlə başsağlığı verir, Ulu və Qadir Allaha dua edirik ki, ona geniş rəhmətini əta etsin və bütün məğfirət qapılarını onun üzünə açsın və cənnətinin ən gözəl guşələrində Onu məskun etsin!

***İki Müqəddəs Məscidin xadimi***
***Səudiyyə Ərəbistanı Krallığının Məliki***
***Fəhd bin Əbdüləziz Al SƏUD.***





Zati-aliləri cənab İlham Əliyev!

Mən dərin kədər hissi ilə prezident cənab Heydər Əliyevin vəfatı xəbərini aldım.

İstərdim ki, Azərbaycana uzun illər dəyanət və fədakarlıqla xidmət etmiş atanızın vəfatı ilə bağlı ürəyimdən gələn kədər hisslərini bildirim.

Qoy Allah onun dünyadan köçmüş ruhunu rahat etsin, Sizə və ağır itkini yaşamış ailənizə bu sağalmaz ağrıya tab gətirmək üçün dözüm bəxş etsin.

***General Pərviz MÜŞƏRRƏF,***
***Pakistan İslam Respublikasının prezidenti.***

Prezident Heydər Əliyev Azərbaycanı müstəqillikdən sonra nümunəvi bir tərzdə irəli apardı. Azərbaycan xalqının etimadı və inamı onun alicənab liderlik keyfiyyətlərinə sayğının nümunəsi idi. Pakistan hökuməti və xalqı ölkələrimiz arasında yaxın və səmimi münasibətlərin inkişafı üçün görkəmli töhfələrinə görə prezident Heydər Əliyevi daim yadda saxlayacaqdır.

Qoy Allah onun köçmüş ruhuna daimi rahatlıq bəxş etsin.

***Mir Zəfərulla Xan CAMALİ,***
***Pakistan İslam Respublikasının baş naziri.***

Bu matəm günlərində mən əminəm ki, Azərbaycan xalqı təsəlli tapa bilər ki, Heydər Əliyev zəmanəmizin elə nadir liderlərindəndir ki, onlar müdrik idarəçilik bacarığı, uzaqgörən siyasəti və əzmi ilə öz ölkələri və xalqlarını müharibədən və digər çətinliklərdən çıxarıb dövlət quruculuğuna, sabitliyə, iqtisadi inkişafa və daha yaxşı gələcəyə gətirmişdir.

Heydər Əliyev müasir Azərbaycanın tarixini və bu gününü yaratdı.

Heydər Əliyev Azərbaycanı bugünkü səviyyəyə, bir çox gələcək imkanların astanasına gətirmiş, güclü, sabit və iqtisadi cəhətdən firavan ölkə yaratmış lider kimi xatırlanacaqdır.

***Moşe KATSAV,***
***İsrail dövlətinin prezidenti.***

Zati-aliləri, prezident Heydər Əliyevin vəfatı xəbərindən dərindən sarsıldım.

Onun şəxsində biz beynəlxalq siyasi həyatda görkəmli yer tutmuş siyasi xadimə, Macarıstan-Azərbaycan münasibətlərini dəstəkləyən dövlət rəhbərinə, macar xalqının böyük dostuna hörmət bəsləyirdik.

Biz Azərbaycan xalqının ağrı və kədərinə ürəkdən şərikik.

***Ferents MADL,***
***Macarıstan Respublikasının prezidenti.***

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Norveç hökuməti və xalqı adından dərin hüznlə başsağlığı verirəm. Heydər Əliyev ölkələrimiz arasındakı mövcud əlaqələrin inkişafında həlledici rol oynayıb və o, özü 1996-cı ildə Norveçə səfər etmişdi. Biz bütün Azərbaycan xalqının dərdinə şərik oluruq.

***Kyell Maqne BUNDEVİK,***
***Norveç Krallığının baş naziri.***

Zati-aliləri cənab İlham Əliyevə!

Böyük kədər və qüssə hissi ilə biz Sizin atanız, zati-aliləri cənab prezident Heydər Əliyevin vəfatı xəbərini öyrəndik.

İordaniya xalqı, hökuməti adından və öz adımdan mən istərdim ki, Siz zati-alilərinə və ailənizə dərin hüznlə başsağlığı verim və kədər hissimi ifadə edim.

***II ABDULLAH,***
***İordaniyanın kralı.***

O, ömrünün son illəri ərzində də öz Vətəninə və xalqına xidmət işində qüvvə və bacarığını əsirgəmədi, xeyirxah işlərlə məşğul oldu. Bütün bunları Azərbaycan xalqının gələcək nəsilləri minnətdarlıqla xatırlayacaqlar.

Ulu tanrıdan mərhuma mərhəmət göstərməyi və əbədi cənnətdə yerləşdirməyi diləyirik.

***Yasir ƏRƏFAT,***
***Fələstin dövlətinin prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri, Fələstin Milli Muxtariyyətinin sədri.***





Azərbaycanı uzun illər, tarixin həlledici məqamlarında uğurla irəli aparmış siyasətçi və dövlət xadimi, Heydər Əliyevin vəfatı xəbərini dərin təəssüf hissi ilə aldıq. Öz böyük nüfuzu və fəaliyyəti ilə o, Azərbaycanın davamlı tərəqqisi üçün əvəzsiz töhfə verdi.

Xahiş edirəm, Sloveniya xalqı adından və mənim adımdan səmimi başsağlığını qəbul edəsiniz.

***Doktor Yanez DRNOVŞEK,***
***Sloveniya Respublikasının prezidenti.***

Bizim hamımız cənab Heydər Əliyevi Azərbaycan Respublikasının inkişafı və vətəndaşlarının firavanlığı üçün yorulmadan çalışan islahatçı, demokratik yönümlü müasir siyasi xadim kimi tanıyırıq. Onun şəxsiyyəti və işləri bizim xatirəmizdə qalacaqdır.

***Boris TRAYKOVSKİ,***
***Makedoniya Respublikasının prezidenti.***

Mən istərdim ki, prezident Heydər Əliyevin vəfatı ilə bağlı keçirdiyim həyəcan və dərin kədər hisslərimi bildirim. Prezident Heydər Əliyev ilkin keçid dövrünün çətin zamanlarında Azərbaycanın sükanı arxasında durdu. O, ölkəni uzaqgörənliyi, nüfuzu və dövlət xadimi məharəti ilə irəli apardı. O, xalqının böyük kütlələrinin dəstəyini və sevgisini qazandı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Avropa Şurasına daxil oldu və demokratik dəyişikliklər üzrə üzərinə böyük öhdəliklər götürdü.

Bu missiyanı yerinə yetirməkdə Azərbaycan Avropa Şurasının dəstəyinə bel bağlaya bilər.

***Valter ŞVİMMER,***
***Avropa Şurasının baş katibi.***

Əziz cənab Prezident!

Xahiş edirəm, atanız Heydər Əliyevin vəfatı münasibətilə ən səmimi başsağlığımı qəbul edəsiniz. Bu kədərli gündə mən Azərbaycan xalqına

öz hörmətimi ifadə edir və Avropa İttifaqının Azərbaycanla əlaqələrinin daha da genişlənməsinə olan istəyini bildirirəm.

***Xavyer SOLANA,***
***Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik üzrə ali komissarı.***

Hörmətli Prezident!

Mən prezident cənab Heydər Əliyevin vəfatını dərin təəssüflə öyrəndim.

Avropa Komissiyası adından Sizə, prezident Heydər Əliyevin digər ailə üzvlərinə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı vermək istərdim.

Xahiş edirəm, ən yüksək diqqətlə hisslərimi qəbul edin.

***Romano PRODİ,***
***Avropa Komissiyasının sədri.***

Əziz cənab İlham Əliyev!

Bir neçə kəlmə ilə prezidentin, atanızın vəfat etməsindən nə qədər məyus olduğumu Sizə bildirirəm. Mən tam əminəm ki, tarix özü Sizin ölkənin çətin müstəqillik prosesində və müasir dövlət kimi güclənməsində onun layiq olduğu yeri müəyyən edəcəkdir.

Təəssüf ki, Sizin çəkdiyiniz bu şəxsi itkinin ağrısının sağalması üçün uzun zaman lazım olacaqdır.

***Gilermo Martines KASSAN,***
***Avropa Şurası Parlament Assambleyasında İspaniya nümayəndə heyəti sədrinin müavini.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız cənab Heydər Əliyevin bu yaxınlarda vəfat etməsi xəbərini dərin hüznlə öyrəndim.

Xahiş edirəm, bu kədərli hadisə ilə əlaqədar səmimi başsağlığımı qəbul edəsiniz.

***Fransua LAMORO,***
***Avropa Energetika və Nəqliyyat İttifaqının baş direktoru.***





Heydər Əliyev, həqiqətən, beynəlxalq səviyyəli dövlət xadimi və tarixi əhəmiyyətli milli lider idi. O, Azərbaycanın müstəqilliyinin, ölkənin firavanlığa doğru inkişafının və demokratiyaya doğru yolunun əsasını qoydu.

O, qətiyyətli, uzaqgörən və aydın düşüncəli idi. Bizim hər ikimiz onun qayğılı qonaqpərvərliyini hiss etdik, onu öz evimizdə qonaq kimi qəbul etmək şərəfini duyduq. Şəxsən mən onunla görüşlərdən Azərbaycan və Amerika arasındakı strateji əlaqələri formalaşdırmaq kimi nadir imkan əldə etdim. Üstəlik, olduqca maraqlı özəl söhbətlərimiz zamanı sovet tarixinin müxtəlif və çox vaxt da əvvəllər naməlum aspektləri haqqında öyrəndim.

***Zbiqnev BJEZİNSKİ,***
***ABŞ-ın Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru.***

Biz onunla Dağlıq Qarabağ münaqişəsinin həlli axtarışında sıx işlədik və bu münaqişənin sülh yolu ilə həll olunması işində göstərdiyi qətiyyətli əzmkarlığına və yorulmaq bilməyən səylərinə valeh olduq. Xüsusilə onun münaqişəni həll etmək və evlərindən didərgin düşmüş azərbaycanlıların əziyyətlərini aradan qaldırmaq işində nümayiş etdirdiyi məsuliyyət hissi bizdə rəğbət doğururdu.

***Səfir Rudolf PERİNA (ABŞ),***
***Səfir Anri JAKOLƏN (Fransa),***
***Səfir Yuri MERZLYAKOV (Rusiya),***
***ATƏT-in Minsk qrupunun həmsədrləri.***

Bir neçə il əvvəl mənə məlumat verildi ki, prezident Heydər Əliyev tibbi müayinə üçün Klivlendə gələcəkdir. O vaxtadək mən prezident haqqında, onun xalqı və ölkəsi haqqında heç nə bilmirdim. Buna görə də Azərbaycan ölkəsi və xalqı haqqında bilik toplamağa başladım.

O vaxt heç ağlıma da gəlmirdi ki, mənimlə Əliyevlər ailəsi və prezidenti müşayiət edənlər arasında xüsusi möcüzəli ünsiyyət yaranacaqdır. Biz hamımız dost olduq. Xoş vaxtlarda birlikdə sevinir, ağır vaxtlarda bir-birimizə təsəlli verirdik.

Heydər (mən özüm də babayam) ingiliscə çox danışmırdı. Amma onun mavi gözlərindən hiss edə bilirdim ki, nə deyir. Onun özünü yaxşı hiss etmədiyi günlər əlimi sıxmasından və sıcaq təbəssümündən özümü xoşbəxt hiss edərdim. Mənim soyadımı tam tələffüz edə bilmirdi və sadəcə "Salam, Houli" deyirdi. O sözlər, onun təbəssümləri və əlimi sıxması yaddaşımdan heç zaman silinməyəcəkdir.

Heydər tarixin gedişində dönüş yaratmış şəxs idi. Mən fəxrlə deyə bilərəm ki, onu tanıyırdım. Onu müşayiət edənlərlə də yaxşı dost olduq. Bu xatirələri uzun illər ürəyimizdə təsəlli kimi saxlayacağam. Heydərin vəfatı ilə bağlı ən dərin kədər hisslərimi çatdıraraq, mən həm də inkişaf etdirdiyimiz dostluğa, məni şəxsi səviyyədə özünə yaxın buraxdığına görə onun ruhu qarşısında ürəkdən gələn minnətdarlığımı bildirirəm. Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə.

***Herri HOULİHƏN,***
***Klivlend klinikası təhlükəsizlik xidmətinin rəisi.***

Prezident Heydər Əliyev Azərbaycanda baş verən inkişaf proseslərində olduqca vacib rol oynamış görkəmli dövlət xadimi və ŞƏXSİYYƏT idi. Azərbaycanın müasir tarixinin ən böhranlı dövründə onun liderliyi xalqına sülh və sabitlik gətirdi. Onun Azərbaycanın mövqeyini beynəlxalq səhnədə möhkəmləndirmək və Azərbaycanla Dünya Bankı arasında əlaqələri gücləndirmək sahəsindəki səylərinin təsiri uzun müddət davam edəcəkdir.

***Şigeo KATSU,***
***Dünya Bankının vitse-prezidenti.***

Mənə üç dəfə Bakıda Heydər Əliyevi şəxsən görmək başucalığı nəsib olmuşdu. Məndə onun şəxsiyyəti, sükutu yaran daxili qüvvəsi və müdrikliyi dərin təəssürat oyatdı. Heydər Əliyev böhranlı dövrdə, mübarizə anlarında taleyüklü qərarlar qəbul ediləcək vaxtda millətin ehtiyac duyduğu LİDER idi. Mən həmişə onu eyni yaşda ikən İsraili faciəli dövrdə idarə edən müəllimim, bizim mərhum baş nazirimiz və liderimiz İshak Rabinlə müqayisə edirəm.

***Doktor Efraim SNEH,***
***İsrail parlamentinin üzvü.***





Hörmətli İlham Heydər oğlu!

Heydər Əlirza oğlunun - Azərbaycanla Dağıstan arasında əməkdaşlığın inkişafına, Qafqaz və Rusiya Federasiyası xalqları arasında dostluğun möhkəmlənməsinə böyük töhfə vermiş görkəmli siyasi və ictimai xadimin, dövlət xadiminin vəfatı ilə əlaqədar səmimi başsağlığını qəbul edin. Bütün Azərbaycan xalqı üçün əvəzsiz itkinin kədərini Sizinlə, əzizləriniz və doğmalarınızla bölüşürəm. Heydər Əlirza oğlunun nurlu siması və onun əziz xatirəsi ürəklərimizdə əbədi yaşayacaqdır.

***Muxu ƏLİYEV,***
***Dağıstan Respublikası Xalq Məclisinin sədri.***

Heydər Əlirza oğlunu tanıyan adamlara onun haqqında "olmuşdur" demək çətindir. Bu ələmli sözdən poemalar, romanlar, elmi əsərlər yaranacaq və onlar Heydər Əliyevin tarixi simasını tam əzəməti ilə işıqlandıracaqdır. O tarixi sima Azərbaycanın taleyinin həll edildiyi son on il yarımda özünün ən yüksək zirvəsinə çatmışdı.

Heydər Əliyev XX yüzilliyin ən güclü ideyalarının çox parlaq ifadəçisi idi. Bir çox ölkələrdə yeni zəmanənin yaradıcıları onun nadir təcrübəsindən mütləq bəhrələnəcəklər.

Heydər Əliyev işıqlı, geniş və təhlükəsiz Xalq Evi kimi müstəqil dövlət yaratmağı arzulayırdı. Prezidentliyinin on ili ərzində bunun üçün çox işlər görə bildi.

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstan Respublikasının***
***YUNESKO yanında daimi nümayəndəsi.***

Cənab Prezident!

Allahın təqdirinə inanaraq, həyatı boyunca Vətəni və xalqı üçün çalışan Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə öyrəndim.

Allahdan ruhuna rəhmət dilərkən məkanının cənnət olmasını arzu edirəm.

Azərbaycan xalqının rifahının yaxşılaşması və inkişafı üçün atanızın keçdiyi yolu davam etdirmənizi arzulayıram. Allahdan gəldik, yenə Onun hüzuruna qayıdacağıq!

***Həsən bin TƏLAL,***
***İordaniya şahzadəsi.***

Cənab prezident!

Azərbaycan tarixinə parlaq səhifə yazmış Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığımı qəbul etməyinizi xahiş edirəm. Onun həyatı və fəaliyyəti həmişə öz xalqına sədaqətli xidmət nümunəsi olmuşdur. Heydər Əliyevin indi Sizə həvalə olunmuş işinin davam etdirilməsi ona ən yaxşı abidə olacaqdır.

***Pyotr LUÇİNSKİ,***
***Moldova Respublikasının sabiq prezidenti.***

Heydər Əlirza oğlu Əliyev XX əsrin ən parlaq siyasətçilərindən biri idi. Böyük siyasi xadimə xas qeyri-adi təfəkkürə malik olaraq, o, Azərbaycanı inkişaf edən sənaye respublikasına, dünya birliyində layiqli yer tutan ölkəyə çevirə bilmişdir.

Biz Azərbaycanla Rusiya arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın və mehriban qonşuluğun inkişafına və dərinləşməsinə, ölkələrimizin xalqlarının tarixi dostluq ənənələrinin möhkəmlənməsinə onun töhfəsini yüksək qiymətləndiririk.

***Valentina TEREŞKOVA,***
***Rusiya Beynəlxalq Elmi və Mədəni Əməkdaşlıq Mərkəzinin rəhbəri.***

Heydər Əlirza oğlu ilə məni uzun illər birgə səmərəli işimiz bağlamışdır və bu nurlu insanın xatirəsi qəlbimdə həmişəlik qalacaqdır. Heydər Əlirza oğlu haqqında keçmiş zamanda danışmaq çətindir. Azərbaycan dövlətinin təşəkkülünə, Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafına onun verdiyi töhfə qədirbilən həmvətənlərimizin xatirəsində həmişəlik qalacaqdır.

***Nikolay RIJKOV,***
***RF Federasiya Şurasının üzvü,***
***Rusiya Əmtəə İstehsalçıları İttifaqının prezidenti.***





Hörmətli prezident cənab İlham Əliyev!

Atanızın - müstəqil Azərbaycan yurdunun, türk dünyasının böyük lideri Heydər Əliyevin vəfatı bizləri çox kədərləndirmişdir. Sizə və qardaş Azərbaycan yurddaşlarına başsağlığı diləyir, hörmət və ehtiramlarımı bildirirəm.

***Gülhanə Hərbi Tibb Akademiyasının sabiq rəisi, professor, general-leytenant***
***Əli Çətin HARMANKAYA və xanımı.***

Heydər Əlirza oğlunun öz həyat və peşə yolunu necə ləyaqətlə keçməsi ona bütün dünyada insanların dərin hörmətini qazandırmışdır.

Heydər Əlirza oğlunun Bakıda görüşümüzdən sonra fotoşəklin üstündə mənə yazdığı xoş, xeyir-dualı sözləri və onun Nyu-Yorkda BMT-nin 50 illiyi münasibətilə bayram şənliklərində iştirakı zamanı mənə göstərdiyi mehribanlığı həmişə minnətdarlıqla xatırlayır və qəlbimdə saxlayıram.

***David ÇİKVAİDZE,***
***BMT-nin İnsan Hüquqları üzrə Ali Komissiyasının üzvü.***

Cənab İlham Əliyev!

Sizə və Azərbaycan xalqına, xüsusilə o böyük insanın mənim kimi dostlarına faciəli bir itki sayılan hörmətli atanızın vəfatı münasibətilə başsağlığı verir və ulu Tanrıdan ona rəhmət və Sizlərə səbir, dözüm və sağlıq diləyirəm.

***Professor, doktor Cavad HEYƏT,***
***"Varlıq" jurnalının təsisçisi və baş redaktoru (Tehran).***

Əziz İlham Heydər oğlu!

XX əsrin böyük siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar ailənizlə və bütün Azərbaycan xalqı ilə bərabər dərindən kədərlənirik. O, sovetlər ölkəsinin, öz xalqının qayğısına qalmağı bacarırdı.

Ümidvarıq ki, onun xatirəsi doğma torpağında, bütün azərbaycanlıların qəlbində əbədi yaşayacaqdır.

Dərin hörmətlə, Yazıçılar İttifaqları Beynəlxalq Birliyinin İcraiyyə Komitəsi:

***Sergey MİXALKOV, Yuri BONDEREV, Arseni LARİONOV, Valentin SOROKİN, Mustay KƏRİM, Rinat MÜHƏMMƏDİYEV, Şövkət NİYAZİ.***

Heydər Əlirza oğlu Əliyev zəmanəmizin görkəmli siyasətçisi idi. O, bütün dünyada böyük hörmət sahibi idi. Lakin o, ilk növbədə, öz xalqının böyük lideri idi. Tarixdə özündən sonra bütün epoxaya öz adını qoyub getmiş bu cür siyasi xadimlər çox azdır. Biz sizinləyik, Azərbaycan xalqı iləyik.

***Mixail MARGELOV,***
***RF Federasiya Şurasının Beynəlxalq Məsələlər Komitəsinin sədri.***

Dəyərli dövlət adamı Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndim. Mərhum Heydər Əliyev Azərbaycanda və bölgəmizdə sabitlik və inkişafın təmin edilməsində nadir dövlət adamına xas olan xüsusiyyətləri, beynəlxalq münasibətlər sahəsindəki zəngin təcrübəsi ilə mühüm rol oynamış və böyük bir lider kimi tarixdə öz yerini tutmuşdur.

***Erkan MUMCU,***
***Türkiyə Respublikasının mədəniyyət və turizm naziri.***

Dost və qardaş Azərbaycanın inkişaf etmiş və sabitlik şəraitində olan bir ölkə kimi beynəlxalq aləmdə öz yerini tutmasında böyük xidmətləri olan müdrik dövlət xadimi Heydər Əliyevin vəfatı bizləri dərindən yaralamışdır.

Bununla əlaqədar öz adımdan və Türkiyə Böyük Millət Məclisinin Xarici İşlər komissiyasının üzvləri adından mərhuma Allahdan rəhmət diləyir, qardaş Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

***Mehmet DÜLGƏR,***
***Türkiyə Böyük Millət Məclisinin Xarici İşlər komissiyasının sədri.***





Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasının müəllim və tələbələri zəmanəmizin görkəmli, dünya miqyaslı siyasi və dövlət xadimi, prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı barədə kədərli xəbəri dərin hüznlə eşitdilər. Azərbaycan xalqına əvəzsiz itki üz vermişdir.

Heydər Əliyev rəhbər kimi bütün istedadını, təşkilatçılıq qabiliyyətini, təcrübəsini və müdrikliyini öz xalqına xidmətə həsr etmişdir. Ən çətin vəziyyətlərdə yeganə düzgün və dəqiq qərar tapmaq bacarığı həm ölkədə, həm də bütün dünyada ona şöhrət və hörmət qazandırdı.

Heydər Əliyev elmin inkişafına, gənclərin təhsil və təcrübəsinə, Azərbaycan Respublikası üçün yüksək ixtisaslı kadrlar hazırlığına xüsusi diqqət yetirirdi. Fəxr edirik ki, bizim akademiyanın Ukrayna-Azərbaycan Sosial Elmlər İnstitutu Heydər Əlirza oğlunun razılığı ilə onun adını daşıyır. Bu, bizim üçün böyük şərəf və həm də böyük məsuliyyətdir.

***Georgi ŞYOKİN,***
***Regionlararası İşçi Heyətini İdarəetmə Akademiyasının prezidenti (Kiyev).***

Biz azərbaycanlılar ömrünün son anınadək ölkəmizin müstəqilliyi, Azərbaycan xalqının rifahı uğrunda mübarizə aparmış dünya şöhrətli bir siyasətçini itirdik.

Atasından möhtərəm İlham Əliyevə böyük bir miras qalmışdır və mən inanıram ki, onun siyasətini Azərbaycan xalqı üçün İlham Əliyev davam etdirəcək.

***Rza TALİBİ-DƏRYANİ,***
***Almaniyanın Köln Texniki Universitetinin professoru.***

Otlarla Müalicə üzrə Beynəlxalq Federasiyanın və onun Ali Məclisinin üzvləri, habelə Sinay səhrasındakı bədəvi qəbiləsinin mənsubları və şeyxləri adından səmimi qəlbdən dərin hüznlə başsağlığı verirəm.

Allah-təaladan mərhumu öz dərgahına qəbul edib ən sadiq bəndələri, şəhidləri yanında yerləşdirməsini rica edirik. "Hamımız Allaha məxsusuq və Onun dərgahına qayıdacağıq".

***Şeyx Salih Zaid Salih Əli ƏBDÜLƏZİZ,***
***Birləşmiş Ərəb Əmirliklərindən Otlarla Müalicə Beynəlxalq Federasiyasının təsisçisi və Ali Məclisinin baş katibi, Sinay səhrasındakı bədəvi qəbilələrinin şeyxi.***

İstedadlı və bənzərsiz siyasətçi, böyük və geniş qəlbli insan olan Heydər Əlirza oğlu görkəmli dövlət xadimləri sırasına daxildir.

Biz kədərlənir və Tanrıdan ona mərhəmət göstərməyi, yerini behiştlik etməyi diləyirik.

"Həqiqətən biz Allaha məxsusuq və Onun dərgahına qayıdacağıq".

***İ. BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanlarını Əlaqələndirmə Mərkəzinin sədri.***

Əziz cənab İlham Əliyev!

Atanız cənab Heydər Əliyevin vəfatı xəbərini dərin hüznlə öyrəndik.

Bu kədərli hadisə ilə əlaqədar səmimi qəlbdən başsağlığı veririk. Allah ona rəhmət eləsin.

Səmimiyyətlə, Sizin

***Əbdüllətif əl-MULLA,***
***Vauqhan DENNİS,***
***Dubay Milli Bankının London təmsilçiləri.***

Bu insan vətəni üçün ən çətin anlarda onun müstəqilliyini, suverenliyini və azadlığını qoruyub saxlaya, iqtisadi inkişafın yeni mərhələlərinə çıxara bilmiş böyük vətənpərvər kimi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Onun Azərbaycanla Latviya xalqları arasında dostluğun möhkəmləndirilməsinə necə səmimi qəlbdən və diqqətlə yanaşdığını biz həmişə xatırlayacağıq. Latviya və Azərbaycan arasında iqtisadi və humanitar əlaqələrin qaydaya salınmasını hər cəhətdən məhz Heydər Əliyev dəstəkləmişdir. Bu da iki ölkənin sahibkarları arasında geniş əməkdaşlığın inkişafına kömək etmişdir. Azərbaycanda işlədiyimiz uzun müddətdə əldə etdiyimiz təcrübə onun belə bir fikrinin uzaqgörənliyini sübut etdi ki, ölkələrimiz bir-birindən çox uzaqda olsa da, onların arasında ümumi cəhətlər çoxdur. Ölkələrimizin ikisi də dəniz sahillərində yerləşir, gözəl limanları vardır. Bizim ölkələrimiz üçün dünya tranzit yolları həddindən artıq vacibdir və bizim aramızda həmişə əməkdaşlıq və bir-birinə hörmət ruhu mövcud olmuşdur. Latviya nümayəndə heyətini qəbul edərkən onun əlimi möhkəm sıxması və xoş təbəssümü şəxsən mənim xatirimdə həmişəlik qalacaqdır. Həmin qəbulda onun hərtərəfli biliyi, ölkəsinin və bütün dünya birliyinin inkişaf perspektivlərini görməsi böyük təəssürat buraxdı. O, həqiqətən də, dünya miqyaslı bir insan idi!





***Valeri KARGİN,***
***"PARES BANK"ın prezidenti (Riqa).***

Görkəmli siyasi xadim, millətin atası, yeni Azərbaycanın bünövrəsini qoymuş bir insan həyatdan getdi. Heydər Əlirza oğlu bütün qüvvəsini, siyasi lider təcrübəsini, iradəsini və insani müdrikliyini bu işə həsr etdi. Şübhəsiz ki, onun əsas xidməti respublikada və bütövlükdə Cənubi Qafqaz regionunda vəziyyəti sabitləşdirməsi, ölkəni dövlət müstəqilliyi və demokratik inkişaf yoluna çıxarması, Azərbaycanın dünya birliyinə inteqrasiyasına nail olmasıdır.

***T. BAĞIROV,***
***Moskva Beynəlxalq Neft-Qaz Klubunun prezidenti.***

Möhtərəm Prezident İlham Əliyev!

Bu xəbər təkcə Sizi deyil, bütün Azərbaycan xalqını və dünyanı, həqiqətən də, çox kədərləndirir.

Azərbaycan xalqı və bütün dünya Sizin atanızla bərabər görkəmli mütəfəkkiri və böyük şəxsiyyəti itirdi. Biz Sizin dərdinizə şərik oluruq.

Sizin keçirdiyiniz hissləri mən də keçirirəm və həyatınızın bu kədərli anında Sizin ailəniz və xalqınız haqqında səmimi qəlbdən düşünürəm.

***Məhəmməd Adil ƏNSARİ,***
***"Karim Aseuşiits LTD" şirkətinin baş icraçı direktoru.***

Çox hörmətli İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığımı qəbul edin. Atanızın - tanınmış milli liderin vəfatı ilə əlaqədar Sizinlə və bütün Azərbaycan xalqı ilə birlikdə kədərlənirəm. Bütün dünyada layiqli hörmət və çox böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir.

***Faiq ƏSGƏROV,***
***"Arsenal" ASC-nin baş direktoru (Sankt-Peterburq).***

Görkəmli dövlət xadimi, Azərbaycanın ümummilli lideri, dünya miqyaslı siyasətçi, dahi şəxsiyyət Heydər Əliyevin vəfatı barədə xəbər bizi dərindən sarsıtdı. Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin inkişafı sahəsindəki xidmətləri əvəzsizdir. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası dünya miqyasında tanınmış dövlətlərdən birinə çevrilmişdir. Azərbaycanın inkişafında ən dəyərli tarixi hadisələr onun adı ilə bağlıdır.

***Fikrət ƏLİYEV,***
***"LUKoyl" ASC-nin prezidentinin Azərbaycan, Gürcüstan və Türkiyədəki nümayəndəsi.***

Hörmətli cənab İlham Əliyev!

Ölkəniz və bizim üçün çox dəyərli bir insan olan atanız Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndik. Ona Allahdan rəhmət, Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına səbir diləyirəm.

***Professor Tuncalp ÖZGƏN,***
***Hacettepe Universitetinin rektoru (Ankara)***

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar səmimi və ürəkdən gələn başsağlığımı qəbul edin.

Tale mənə Heydər Əlirza oğlu ilə şəxsən tanış olmaq səadəti bəxş etmişdir. Prezidentin mənə bağışladığı və imzası olan portreti kabinetimdə divardan asılmışdır.

***Aleksandr BRONŞTEYN,***
***İ. M. Seçenov adına Moskva Tibb Akademiyasının yeni tibb texnologiyaları kursunun rəhbəri, Rusiya Təbiət Elmləri Akademiyasının akademiki.***

Heydər Əlirza oğlu Əliyev humanist bir insan, Azərbaycan millətinin fəxri, dahi siyasətçi idi və xalqımızı bütün dünyada ləyaqətlə təmsil edirdi. Bu, Azərbaycanda və onun hüdudlarından kənarda yaşayanların hamısı üçün böyük itkidir. Mən çox illərdir ki, Sankt-Peterburqda yaşayıram və prezident Heydər Əlirza oğlunun rəhbərliyi altında doğma Azərbaycanımın tərəqqisi ilə həmişə fəxr etmişəm. Mən onun bizimlə olmadığına inanmıram, o, mənim xatirimdə həmişə yaşayacaqdır. Mən İlham Əliyevlə tanış deyiləm, lakin bir alim kimi ondan xahiş edirəm ki, Azərbaycan xalqının səadəti naminə Heydər Əliyevin elmi, insani və siyasi irsini qoruyun!





***Azad ABIŞOV,***
***Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü, Avropa Kimya-terapiya Cəmiyyətinin üzvü, kimya elmləri doktoru, professor, Sankt-Peterburq Elmi-Tədqiqat Vaksinlər və Zərdablar İnstitutunun "Dərman preparatlarının kimyası və texnologiyası" elm-istehsal kompleksinin rəhbəri.***

Hörmətli prezident!

Dəyərli və hörmətli dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin kədərinizi bölüşür, mərhuma Allahdan rəhmət, Sizə, dostlarınıza və dəyərli Azərbaycan xalqına səbir diləyir, başsağlığı verirəm.

***Q. Gül KILIÇASLAN,***
***"Siyasət" jurnalının İdarə Heyətinin sədri (Ankara)***

Heydər Əliyev kimi dahi siyasətçi həyatdan gedəndə, adətən, deyirlər ki, bütöv bir epoxa da onunla getdi. Bu sözləri Heydər Əliyev şəxsiyyətinə şamil etsək, cəsarətlə üç, hətta dörd epoxadan danışmaq olar. Onun səksən yaşı vardı, lakin buna baxmayaraq, o, bütün Cənubi Qafqazda ən əsas şəxsiyyət idi və bizim yaddaşımızda belə də qalacaqdır. Onun şəxsi töhfəsinin nəticəsidir ki, Azərbaycanı bu gün cəsarətlə müstəqil ölkə adlandırmaq olar.

Məhz Heydər Əliyevin sayəsində Rusiya ilə Azərbaycan arasında qarşılıqlı surətdə faydalı dostluq münasibətləri yaranmışdır. Heç şübhə yoxdur ki, MDB-nin möhkəmlənməsi də onun müdrikliyi və yorulmaz əməyi sayəsində mümkün olmuşdur. O, həyatının son günlərinədək Azərbaycanda sülhün və əmin-amanlığın bərqərar olunması üçün əlindən gələni etmişdir. O, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə nizama salınması üçün də çox iş görmüşdür. Heydər Əliyev Əfqanıstan və İraq kimi narahat ölkələrdə terrorizmlə mübarizəyə də böyük töhfə vermişdir.

Heydər Əliyev müdrik, hər şeyi ölçüb-biçən siyasətçi, mehriban, ədalətli və qayğıkeş bir insan idi, onun rəhbərliyi altında yüzlərlə iş görülmüş və yüzlərlə problem həll olunmuşdur. O, öz xalqının və respublikasının fəxri idi.

Heydər adı "öndə gedən" kimi tərcümə olunur. Biz ümid edirik ki, onun bütün işləri və təşəbbüsləri xalq tərəfindən layiqincə davam etdiriləcək, gələcək nəsillər isə onu hörmətlə xatırlayacaqlar.

***D. Ç. ŞAMOYAN,***
***Kürd Xalq Konqresi İcraiyyə Komitəsinin üzvü,***
***Tambov vilayət dumasının deputatı.***

Böyük siyasi xadim, türk dünyasının öndəri Heydər Əliyevin vəfatı ilə əlaqədar hamıya dərin hüznlə başsağlığı veririk!

Heydər Əliyev nadir bir şəxsiyyət idi. Onun azərbaycançılığı, dövlətçilik quruculuğunda gördüyü işlər əvəzsizdir!

Bu ağır günlərdə bütün xalqımızı onun müqəddəs ideyaları ətrafında, dövlətimiz ətrafında birləşməyə çağırırıq!

***Sahil QASIMOV,***
***"Azərbaycan-Niderland" cəmiyyətinin prezidenti.***

Hörmətli İlham Heydər oğlu!

Heydər Əliyev bizim hamımız üçün Azərbaycan xalqının birliyi və tərəqqisi rəmzi olmuşdur və olaraq qalır.

Onun vəfatı hamımız üçün ağrılı-acılı və əvəzsiz itkidir.

Azərbaycanlılar üçün bu ağır günlərdə əminik ki, Heydər Əliyevin Azərbaycanın bütün dünya birliyinin nüfuz və hörmətini qazanmasına gətirib çıxarmış xəttini və siyasətini Siz Azərbaycan Respublikasının indiki prezidenti olaraq davam etdirəcəksiniz.

***Tofiq MUSAYEV,***
***"Dostluq-Drujba" beynəlxalq***
***ictimai təşkilatının prezidenti (Tula).***

Heydər Əlirza oğlu Əliyev bütöv bir epoxa idi və Azərbaycan Respublikası onun sayəsində sovet dövründə dinamik inkişaf etmişdir. Azərbaycan dövlətçiliyinin təşəkkülü və tərəqqisi isə, şübhəsiz, onun adı ilə bağlıdır. Heydər Əlirza oğlunun təkcə Azərbaycan dövləti qarşısında deyil, həm də bütün dünya ictimaiyyəti qarşısında böyük xidmətləri danılmazdır və Azərbaycanın gələcək siyasətçiləri üçün bütöv bir məktəbdir. Geniş miqyaslı bir insan olan Heydər Əlirza oğlu bütün azərbaycanlıların xatirində uzun illər boyu yaşayacaqdır. Azərbaycanın planetimizin bütün aparıcı dövlətləri arasında layiqli yer tutması və Azərbaycan Respublikasının gələcək uğurları dünya miqyaslı görkəmli siyasətçi Heydər Əlirza oğlu Əliyevin yaratdığı ictimai-siyasi və sosial-iqtisadi bazalara əsaslanacaqdır.

***K. SADIQOV,***
***Rusiya Azərbaycanlıları Federal Milli-Mədəni***
***Muxtariyyətinin prezidenti.***

Hörmətli Prezident!

Atanız - XX əsrin böyük siyasətçisi, Azərbaycan xalqını müstəqilliyə və tərəqqiyə qovuşduran Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar Ümumrusiya Azərbaycan Konqresinin Lipetsk regional şöbəsi, əslən Azərbaycandan olanlar Sizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirlər.

Biz Sizinlə birlikdə kədərlənir və yas saxlayırıq. Böyük azərbaycanlının xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

***Z. ŞABANOV,***
***ÜAK-nın Lipetsk regional şöbəsinin sədri,***

***F. ƏZİZOV,***
***İcraçı direktor.***

Hörmətli cənab İlham Əliyev!

Böyük Novqoroddakı "Bakinets" Azərbaycan Mədəniyyət Mərkəzi Azərbaycanın böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar bütün xalqımızla birlikdə dərindən kədərlənir və cənab Prezident, Sizə səmimi başsağlığı verir. Əminik ki, ağır itkiyə baxmayaraq, Azərbaycan xalqı Sizin ətrafınızda birləşərək, atanızın işini davam etdirə biləcək və bu yolda bütün çətinliklərin öhdəsindən gələcəkdir.

***Q. ABBASOV,***
***İdarə heyətinin sədri.***

Hörmətli prezident İlham Əliyev!

Prezident Heydər Əliyevin vaxtsız vəfatı ilə əlaqədar dərindən kədərlənirik.

***POPOV, LANÇİKOV, XLEBNİKOV,***
***Bakı metropoliteninin ilk xəttinin moskvalı layihəçiləri.***

Əziz İlham Heydər oğlu!

Atanızın və atamızın vəfatı ilə əlaqədar Sizinlə birlikdə kədərlənirik. Həyatdan böyük bir insan getdi. Ona layiq olun.

***RÜSTƏMOV, QUBİN, MAXMİRZOYEV, ALEKSANYAN, SULİMANOV,***
***C. Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin keçmiş məzunları, Baykonurda qulluq edən zabitlər.***

Zati-aliləri İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin vəfatı xəbəri məni sarsıtdı və dərindən kədərləndirdi.

Bu hüznlü anda Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına, xüsusilə mərhum zati-aliləri cənab Əliyevin ailəsinə öz adımdan, İndoneziya xalqı və hökuməti adından dərin hüznlə başsağlığı verirəm.

Qoy qadir Allah əvəzsiz itkinin ağrısına dözmək üçün onun ailəsinə güc və mənəvi dözüm bəxş etsin.

***Xanım Meqavati SUKARNOPUTRİ,***
***İndoneziya Respublikasının prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Əziz atanız prezident Heydər Əliyevin vaxtsız vəfatı xəbərini böyük sarsıntı və hüznlə öyrəndim.

Sizə, ağır itki üz vermiş ailənizə və Azərbaycan xalqına Namibiya Respublikasının xalqı və hökuməti adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Allah ona rəhmət eləsin!

***Sem NUYOMA,***
***Namibiya Respublikasının prezidenti.***





Əlbəttə, dahilər haqqında söz söyləmək çox çətindir. Hələ sağlığında əfsanələşmiş cənab Heydər Əliyevin Azərbaycan və Türkiyə xalqlarının qəlbində xüsusi bir yeri vardır. Azərbaycana rəhbərlik etmək onun ən böyük istəyi idi. O, Azərbaycan və dünya siyasətinə yön verən, önəmli məsələlərin həllində rol oynayan nadir siyasətçilərdən idi.

Tükənməz enerjisi ilə günün 18-20 saatını dövlətinə və millətinə ayıran, dünyada hər kəsə qismət olmayan qədər xalqının sevgisini qazanan şəxsiyyət kimi Heydər Əliyev Azərbaycan Respublikasının sürətli yüksəlişində, ölkənin iqtisadiyyatının gücləndirilməsində və gənc dövlətin hərc-mərclikdən xilas edilməsində misilsiz rol oynamışdır. Tariximizin önəmli dövlət adamına çevrilən Heydər Əliyev doğma yurdun mənafeyini hər şeydən üstün tutaraq, xalqına və vətənini sevənlərə müstəqil Azərbaycanı bəxş edib getdi. Onun əziz xatirəsinin qiymətini bilənlər Azərbaycana xidmət etməlidirlər.

Azərbaycan tarixində ən mühüm və çətin məsələlərin həlli onun adı ilə bağlıdır. Azərbaycanı dünyaya tanıdan böyük öndər, dahi şəxsiyyət və dövlət adamı bu məziyyətləri ilə türk və dünya tarixində layiq olduğu yeri tutmuşdur.

Həyatını xalqına həsr edən və "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" - deyən böyük siyasət ustadı Heydər Əliyevin bu sözü Azərbaycan xalqının qəlbində silinməz iz buraxmışdır.

***Nurəddin ARAS,***
***Türkiyənin İğdır bələdiyyəsinin sədri.***

Bu gün Rusiyanın Şimal paytaxtında yaşayan, ad-san qazanan azərbaycanlı müəssisə rəhbərləri, alimlər vaxtilə Heydər Əliyevin buraya təhsil almağa göndərdiyi soydaşlarımızdır.

Heydər Əliyev Sankt-Peterburqla xüsusi tellər bağlayırdı. O, bu şəhərə gələndə Azərbaycan diasporunun nümayəndələri ilə görüşər, hamımızı birliyə və həmrəyliyə, Vətənimizin adını uca tutmağa çağırardı. Təsadüfi deyil ki, buradakı diasporumuz şəhərin ictimai-siyasi həyatına fəal təsir göstərə bilən bir qüvvəyə çevrilməkdədir.

Hamımız üçün ağır itki ilə əlaqədar Sizə və Azərbaycan xalqına bir daha dərin hüznlə başsağlığı verir, kədərinizə şərik olduğumuzu bildirmək istəyirik.

***Cabir HƏBİBOV,***
***"Hidroliz" Elmi Tədqiqat İnstitutunun baş direktoru.***

Heydər Əlirza oğlu Əliyev bizim üçün, ilk növbədə, xeyirxah, həssas və qayğıkeş insan, eyni zamanda dünya şöhrətli siyasətçi və dahi rəhbər idi. Biz Vətənimiz Azərbaycanla birlikdə kədər hissləri keçiririk. Vətənimizin tərəqqisi və sabitliyi unudulmaz Heydər Əliyevimizin rəhbərliyi ilə bağlıdır. O, bütün həyatı boyu xalqımızın ancaq tərəqqisi və firavanlığı barədə düşünmüşdür və onun ömür yolu Vətənə sədaqətli xidmətə parlaq örnək olacaqdır.

***Timur HƏSƏNOV,***
***Volqoqrad vilayətinin***
***Azərbaycanlı Sahibkarlar İttifaqının sədri.***

Hörmətli cənab Prezident!

Atanızın vəfatı ilə əlaqədar səmimi başsağlığımızı qəbul edin. Kollektivimiz kədər içindədir.

***Saleh ABBASOV,***
***"Yunonstroy" səhmdar cəmiyyətinin direktoru (Perm).***

XX əsrin görkəmli siyasi xadimi, əsl tarixi şəxsiyyət olaraq Heydər Əliyev Azərbaycanın inkişafında yeni bir dövr yaratmış, respublikamızın dünya coğrafi-siyasi məkanında yerini həmişəlik müəyyənləşdirmişdir.

Heydər Əlirza oğlunun xatirəsi əbədi yaşayacaqdır.

***Mais MƏMMƏDOV,***
***"Energetik" regionlararası mənzil tikintisi şirkətinin***
***idarə heyətinin sədri.***

Hörmətli Prezidentim!

Atanızın vəfatı xəbəri bütün Azərbaycan xalqı kimi, bizim də ürəyimizdə böyük hüzn doğurmuşdur. Kədərinizi bölüşür, mərhuma Allahdan rəhmət diləyirəm. Məzarı nurla dolsun.

Hörmətlə,

***Yaşar YALÇIN,***
***"H.A.K. Nəqliyyat və Turizm Ltd."***
***şirkətinin sədri (İstanbul).***





Biz Heydər Əliyevin Vətən qarşısındakı xidmətləri ilə fəxr edirik. Azərbaycan vətəndaşları onun öz ölkəsi üçün gördüyü işləri heç zaman unutmayacaqlar. O, hamımız üçün örnək kimi qəlbimizdə daim yaşayacaqdır.

***N. HƏSƏNOV,***
***Ümumrusiya Azərbaycan Konqresi***
***Belqorod regional şöbəsinin sədri.***

Görkəmli dövlət xadimi, bütün dünyada, haqlı olaraq, böyük hörmət və nüfuz qazanmış Heydər Əlirza oğlu Əliyev on illər ərzində Azərbaycanın tərəqqisi üçün çox iş görmüşdür. Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində dünyanın bütün qüdrətli dövlətləri, o cümlədən Rusiya Federasiyası ilə strateji tərəfdaşlığın əsasını qoymaq mümkün olmuşdur ki, bu da Rusiya ilə Azərbaycan arasında dostluğun və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə onun böyük şəxsi töhfəsidir.

***F. BÜRCÜYEV,***
***Ümumrusiya Azərbaycan Konqresi***
***Tümen regional şöbəsinin sədri.***

Heydər Əlirza oğlu Əliyevin vəfatı barədə kədərli xəbər xalqımız, Yer kürəsinin müxtəlif guşələrində yaşayan bütün azərbaycanlılar üçün böyük zərbə oldu.

Heydər Əlirza oğlu Əliyevin müstəqil Azərbaycan dövlətinin təşəkkülündə və inkişafında, Azərbaycanın ən yeni tarixində misilsiz rolunu qiymətləndirmək çox çətindir. Onun öz ölkəsinin, xalqının səadəti naminə möhtəşəm fəaliyyəti gələcək nəsilləri də heyran edəcəkdir.

Bu itki bir də ona görə əvəzsizdir ki, təkcə dahi rəhbər və siyasətçi deyil, həm də müdrikliyi və mehribanlığı ilə bizim hamımıza yaxın olan bir insan həyatdan getmişdir.

***Camal MƏMMƏDOV,***
***Ümumrusiya Azərbaycan Konqresi Perm şöbəsinin sədri.***

Heydər Əlirza oğlu 34 il ərzində bütün qüvvəsini, biliyini və təcrübəsini xalqımızın və Vətənimizin səadətinə həsr etmişdir.

O, planetimizin bütün siyasi xadimləri arasında görkəmli şəxsiyyət idi, həm xarici ölkələrin liderləri, həm də bütün dünya birliyi onunla hesablaşırdı.

Digər ölkələrin xalqları da onun fəaliyyətini yüksək qiymətləndirirdi. Dağlıq Qarabağda minlərlə insanın həyatına son qoymuş müharibənin dayandırılması bu müdrik şəxsiyyətin böyüklüyünü tam qiymətləndirmək üçün kifayətdir.

***R. ƏFƏNDİYEV,***
***Ümumrusiya Azərbaycan Konqresi***
***Kirov regional şöbəsinin sədri.***

Həştərxan vilayətində yaşayan bütün azərbaycanlılar Azərbaycan xalqının böyük kədərinə şərikdirlər. Eyni zamanda hamımızın sevimlisi Heydər Əlirza oğlunun ideyalarının bundan sonra da davam etdiriləcəyinə və əməli təcəssümünü tapacağına inanırlar.

***M. HÜSEYNOV,***
***Ümumrusiya Azərbaycan Konqresi***
***Həştərxan regional şöbəsinin sədri.***

Heydər Əliyev bizim üçün Azərbaycanın rəmzi olmuşdur və olaraq qalır. Onun Vətənin hüdudlarından kənardakı diaspora atalıq qayğısı həmişə hiss edilirdi.

Heydər Əliyev Azərbaycan və azərbaycanlılardan ötrü əlindən gələni əsirgəmirdi. O, Vətənimizin daha da tərəqqisi üçün bünövrə qoymuşdur.

Allah rəhmət eləsin!

***A. KƏRİMOV,***
***ÜAK Taymır regional şöbəsinin sədri,***
***"Azadi" ictimai hərəkatı şurasının sədri.***

Heydər Əlirza oğlunun xalqımızın rifahı, MDB və dünya ölkələri ilə dostluğun, əməkdaşlığın təmin olunması naminə möhtəşəm fəaliyyəti onun Vətənimizin tərəqqisinə yönəldilmiş plan və amallarının həyata keçirilməsi məqsədilə bizə, həmyerlilərinə prezident İlham Əliyevin ətrafında sıx birləşməyə imkan vermişdir.

***E. HƏSƏNOV,***
***ÜAK Çuvaşiya regional şöbəsinin sədri.***





Çox hörmətli İlham Heydər oğlu!

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığımızı qəbul edin. Biz həmişə Sizinləyik.

Səmimiyyətlə,

***Qalib ZEYNALOV,***
***Ümumrusiya Azərbaycan Konqresi***
***Penza vilayət şöbəsinin sədri.***

Bu matəm günündə Azərbaycanın oğul və qızları adı sivilizasiya tarixinə əbədi yazılmış bir insanın tabutu önündə başlarını əymişlər. Odessa bölgəsində yaşayan azərbaycanlılar Heydər Əlirza oğlu Əliyevi - xalqların mənafeyini, daim öz xalqının taleyini düşünən bu böyük siyasətçini yaxşı xatırlayırlar və dünya miqyaslı bu insanı həmişə xatırlayacaqlar. Adını hər bir həmvətənimizin qəlbinə yazmış və Azərbaycanı fəlakətlər girdabından çıxararaq, gələcək inkişaf yoluna çıxarmış bir insan dünyasını dəyişmişdir. Öz dövrünün nəsillərinin dilində danışan, Şərqin mürəkkəb qitələrarası mənafelər düyününü açan və Azərbaycan xalqını bütün dünyada tanıdan bir insan - dahi müəllim həyatdan getmişdir. Bütün dünya birliyi onunla hesablaşırdı. Bütün odessalılar - həm qocalar, həm də gənclər Heydər Əlirza oğlu Əliyevin məzarı önündə sükut içərisində baş əyirlər.

***Ukrayna Azərbaycanlıları Konqresinin***
***Odessa vilayət təşkilatı .***

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Ukraynanın İvano-Frankovsk vilayətində yaşayan azərbaycanlılar Azərbaycan xalqının dahi və əziz oğlu, dünya siyasətinin öncül və yenilməz rəhbəri, milli dövlətçiliyimizin qurucusu Heydər Əliyevin vəfatı ilə əlaqədar olaraq dərin hüznlə başsağlığı verirlər.

Bu ağır günlərdə biz azərbaycanlılar daha sıx birləşərək, Vətənimizin xoşbəxt gələcəyi uğrunda bütün imkanlarımızdan istifadə etməyə söz veririk.

***Mətləb NƏCƏFOV,***
***Ukrayna Azərbaycanlıları Konqresi***
***vilayət təşkilatının sədri.***

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan diasporu Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladı. Heydər Əliyev xalqımızın yaddaşında müstəqil Azərbaycanın prezidenti, bütün həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş, ölkənin siyasi və ictimai həyatında sabitliyin təminatçısı olmuş bir şəxs kimi qalacaqdır.

Bu kədərli günlərdə əmin olduğumuzu bildiririk ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası atanız Heydər Əliyevin banisi olduğu Azərbaycanın müstəqilliyi ideologiyasına əsaslanan daxili və xarici siyasətdə uğurlar əldə edəcəkdir. Azərbaycan Sizin rəhbərliyinizlə dünyanın aparıcı dövlətlərindən biri olacaqdır - bu, Heydər Əliyevin siyasi vəsiyyətidir.

Atanızdan əxz etdiyiniz müdriklik və ədalətlilik Azərbaycan xalqının səadəti naminə fəaliyyətinizdə Sizə yol göstərəcəkdir.

Oğullar atalarının yolu ilə gedir. Hörmətli İlham Heydər oğlu, cənab Heydər Əliyev də, haqlı olaraq, Sizinlə fəxr edirdi. Yolu yol gedən dəf edər. Bu kədərli dəqiqələrdə Sizi əmin edirik ki, bütün dünya azərbaycanlıları Heydər Əliyevin arzusunu yerinə yetirərək, Sizin ətrafınızda daha sıx birləşəcəklər.

***Akif AĞATALIBOV,***
***Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası idarə heyətinin sədri (Daşkənd).***

Cənab Prezident!

Qazaxıstan Respublikasının Pavlodar vilayətindəki "Vətən" Azərbaycan Milli Mədəni Mərkəzinin üzvləri prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar xalqımızla birgə dərin hüzn içindədir. Biz - qürbətdə yaşayanlar Heydər Əliyevin Azərbaycan xalqını bütün dünyada şöhrətləndirən müdrik siyasətini həmişə dəstəkləmişik. Azərbaycan xalqına birlik, həmrəylik və bundan sonra da tərəqqi arzulayırıq.

***"Vətən" Azərbaycan Milli Mədəni Mərkəzinin Ağsaqqallar şurası və rəyasət heyəti,***

Cənab Prezident, Azərbaycanın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Sizə və xalqımıza dərin





hüznlə başsağlığı verir və Vətənimizin övladları kimi bu ağır dərdə şərik olduğumuzu bildiririk. Allah rəhmət eləsin.

***Vyetnamda çalışan Azərbaycan neftçiləri.***

Müdrik siyasətçi, xalqının azadlığı və müstəqilliyi uğrunda mətin mübariz, sözü və əməlləri ilə uzun illər xalqın səadəti yolunda var qüvvəsini və sağlamlığını əsirgəməyən Heydər Əliyevin vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir, dərdinizə şərik oluruq. Onun xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

***Vaqif ƏLİYEV,***
***Şimali Osetiya-Alaniya Respublikasındakı "Azəri" milli-mədəniyyət mərkəzinin sədri.***

Cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı ilə bağlı şəxsən öz adımdan və hökumətim adından Sizə dərin hüznlə başsağlığı verirəm.

***Xose Maria ASNAR,***
***İspaniya hökumətinin sədri.***

Prezident Heydər Əliyevin əbədiyyətə qovuşmağı haqqında kədərli məlumat məni, həqiqətən, çox sarsıtdı.

Bu böyük şəxsiyyətin ölkəsi qarşısındakı əvəzsiz xidmətlərini və İtaliya ilə hərtərəfli dostluq əlaqələrinin qurulmasına verdiyi töhfəni xatırlatmaq istəyirəm.

***Karlo Adzelyo ÇAMPİ,***
***İtaliya Respublikasının prezidenti.***

Dərin qüssə hissi ilə mən prezident Heydər Əliyevin vəfatı barədə qəmli xəbəri aldım.

Bu matəm saatlarında mən istərdim ki, yunan xalqı adından və öz adımdan Azərbaycan xalqına dərin hüznlə başsağlığı verim və ürəkdən kədərləndiyimizi bildirim.

***Konstantinos STEFANOPULOS,***
***Yunanıstan Respublikasının prezidenti.***

Mən Koreya-Azərbaycan münasibətlərinin inkişafında prezidentin xidmətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, onun xidmətləri ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsinin möhkəm təməli olacaqdır.

Mən prezidentin ruhuna dua oxuyuram və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı vermək istəyirəm.

***No Mu HYUN,***
***Koreya Respublikasının prezidenti.***

Həmişə nur saçan bizim əziz Qardaşımız və dostumuz, prezident zatialiləri Heydər Əliyevin 2003-cü il dekabrın 12-də cümə günü Amerikanın Ohayo ştatının Klivlend şəhərindəki xəstəxanada dünyasını dəyişməsi xəbərini dərin qüssə və əvəzsiz itki hissi ilə aldım. Bizim fikirlərimiz və dualarımız özünü tamamilə xalqına xidmətə həsr etmiş, ölkəsində müstəqillik, sabitlik, sülh və inkişafın əsasını qoyub gücləndirmiş böyük, beynəlxalq səviyyəli dövlət xadiminin qəfil itkisini ağlayan qardaş Azərbaycan xalqı ilədir.

Bu böhranlı zamanda onun Qafqazda sülh yolunu seçməsi, regional və qlobal təhlükəsizliyi möhkəmlətmək işinə sədaqəti bizim xatirələrimizdən silinməz.

***Olusequn OBASANCO,***
***Nigeriya Federativ Respublikasının prezidenti.***

Öz adımdan və Yəmən Respublikasının xalqı adından Azərbaycan xalqına və mərhumun ailəsinin bütün üzvlərinə bu itki ilə əlaqədar ən səmimi başsağlığımızı bildirirəm. Ulu, Qadir Allahın mərhuma öz geniş mərhəmətini şamil etməsini, onu ucsuz-bucaqsız cənnətində məskun etməsini, Azərbaycan xalqına heç bir pislik nəsib etməməsini diləyirəm.

"O hər şeyi eşidən və diləklərə cavab verəndir. Həqiqətən, biz Allaha məxsusuq və Onun dərgahına qayıdacağıq".

***Əli Abdulla SALEH,***
***Yəmən Respublikasının prezidenti.***





Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfat etməsi xəbəri bizi dərin qəmə qərq etdi. İstərdik ki, zati-alinizə, ölkənizin hökumətinə, təsəlli tapa bilməyən ailənizə və Azərbaycan xalqına bu böyük itki ilə bağlı ən dərin kədərimizi bildirək və başsağlığı verək.

***Qabus bin SƏİD,***
***Omanın sultanı.***

Prezident Heydər Əliyevin vəfatı ilə bağlı kədərli xəbəri eşidərkən Şimali Kiprin türk əsilli kiprliləri və mən qəmə batdıq.

Şəxsən öz adımdan və xalqım adından Azərbaycan xalqına ürəkdən kədərləndiyimizi bildirir və başsağlığı verirəm.

***Rauf DENKTAŞ,***
***Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti.***

Mərhum prezident Heydər Əliyev Cənubi Qafqaz və Xəzər hövzəsi regionunun sabitliyi, Azərbaycanın keçmiş Sovet İttifaqı ölkələri arasında aparıcı olması üçün öz töhfələri ilə nadir irs qoymuşdur. O, Birləşmiş Ştatlar və Azərbaycan arasında əlaqələri və dostluğu möhkəmləndirmişdir. Bunun nəticəsi kimi dövlətlərimiz yeni səviyyədə strateji əməkdaşlıq qurmuşlar, Azərbaycan azad və demokratik cəmiyyət istiqamətində inkişafını davam etdirir. Terrora qarşı müharibə, enerji məsələləri üzrə əməkdaşlıq, İpək Yolunun bərpası, GUÖAM-la bağlı səyləri və yardımı, açıq qapı iqtisadi siyasəti onun davamlı irsinin sütunlarıdır. Bunlar və digər əlamətdar işlər onun çox sevdiyi millətə uzun illər boyu bəhrə verməkdə davam edəcəkdir.

***Kurt UELDON,***
***ABŞ Konqresinin üzvü.***

Hörmətli cənab Prezident!

Əvəzsiz itki, Atanız Heydər Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığımı bildirirəm. Heydər Əliyevin vəfatı bütün Azərbaycan xalqının və onun dostlarının dərdidir. Müdriklər demişlər ki, insan xatirələrdə ya-

şadıqca sağdır. Heydər Əliyevin adı və Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü şanlı işlər qədirbilən nəsillərin xatirində əbədi yaşayacaqdır.

*Mark DAVİDOVİÇ,*
***Cənubi Bruklin Demokrat Partiyasının lideri.***

Prezident Heydər Əliyevin töhfələri uzun müddət yaddaşlarda qalacaqdır. O, müstəqil Azərbaycan dövlətini ərsəyə gətirdi. O, ölkəsinin və xalqının sabit və davamlı inkişafı siyasətini təmin elədi. O, böyük səylərlə ölkə daxilində və bütün regionda sülhü və sabitliyi yenidən bərqərar etdi.

Biz, həqiqətən, iftixar duyuruq ki, prezident Heydər Əliyevin uzaqgörən enerji strategiyasının nəticəsi kimi, olduqca sərfəli yollarla bir sıra əsas neft və qaz layihələrini həyata keçirmiş, bununla da Azərbaycan dövlətinin inkişafında üzərimizə düşən rolu oynamışıq.

İcazə verin, bir daha təsdiq edim ki, biz öhdəliyimizə sadiq qalaraq "Əsrin müqaviləsi" ilə bağlı tikinti və əməliyyat işlərini cədvəl üzrə və beynəlxalq standartlara uyğun yerinə yetirəcəyik. Bizim bu işi yerinə yetirə bilməyimiz Azərbaycan xalqına, onun dözümünə, beynəlxalq sərmayəçilərlə səmərəli işləmək qabiliyyətinə olan inamın birbaşa nəticəsidir. Bu da Heydər Əliyevin uzaqgörən siyasəti idi.

***Lord Con BRAUN,***
***BP şirkətinin prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız zati-aliləri prezident Heydər Əliyevin vəfatı xəbərini kədərlə öyrəndim.

İcazə verin, Azərbaycan hökumətinə və xalqına səmimi başsağlığı verim və ailənizin bütün üzvlərinə dərin rəğbətimizi bildirim.

***Əhməd Mahir əl-SƏYİD,***
***Misirin xarici işlər naziri.***

Prezident Heydər Əliyevin vəfat etməsi xəbərini eşidib çox kədərləndim. Mərhum prezidentlə çox görüşümüz olmuşdur və o, bizim yadımızda son dərəcə iradəli bir şəxsiyyət kimi qalmışdır.





Azərbaycanın müstəqillik qazanmasında misilsiz xidmətləri olan prezident Heydər Əliyev ölkəsinin gələcək inkişafının da təməlini qoymuşdur.

Fransanın böyük dostu Heydər Əliyevi fransızlar unutmayacaq, onun əziz xatirəsini ürəklərində yaşadacaqlar.

***Kristian PONSÖLE,***
***Fransa Senatının sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Bu günlərdə Atanız cənab Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbəri məni dərindən kədərləndirdi.

Xahiş edirəm, bu hadisə ilə əlaqədar səmimi başsağlığımı qəbul edəsiniz.

***F.BENSARSA,***
***Avropa Komissiyasının Energetika və***
***Nəqliyyat üzrə Baş Direktorluğunun təmsilçisi.***

Hörmətli İlham Heydər oğlu!

Atanızın - Azərbaycanın görkəmli siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı xəbərini Başqırdıstan Respublikasında ürək ağrısı ilə eşitdik.

İcazə verin, Sizə, doğmalarınıza və yaxınlarınıza, eləcə də dost Azərbaycanın bütün xalqına səmimi qəlbdən başsağlığımızı bildirim. Kədərinizə şərik olur, Sizə mətanət və dözüm arzulayırıq.

***Rafael BAYDÖVLƏTOV,***
***Başqırdıstan Respublikası prezidentinin***
***vəzifələrini icra edən, baş nazir.***

Böyük dövlət adamı, prezident Heydər Əliyevin müalicə olunduğu Amerika Birləşmiş Ştatlarında vəfat etdiyini eşidib çox sarsıldım. İyun ayında Azərbaycana səfərim zamanı tanış olmaq şərəfinə nail olduğum bu dahi insanın həyatdan getməsindən böyük üzüntü duyuram.

***Professor, doktor Rəcəb AKDAĞ,***
***Türkiyə Respublikasının səhiyyə naziri.***

Böyük siyasətçi və görkəmli səxsiyyət öz həyatını Azərbaycan xalqının tərəqqisi və firavanlığına həsr etdi. Onun ideyaları Azərbaycana qulluq etdi, amma bunlar bütün Qara dəniz regionu üçün çox dəyərli və mühüm idi.

Bizim hamımız onun əvəzsiz töhfə və məsləhətlərinin yoxluğunu hiss edəcəyik. Biz əlimizdən gələni edəcəyik ki, onun regionu firavan və sabit görmək istəyi həqiqətə çevrilsin.

***Səfir Valeri ÇEÇELAŞVİLİ,***
***Qara dəniz İqtisadi Əməkdaşlıq***
***Təşkilatının baş katibi.***

Bütün dünyada hörmət qazanmış görkəmli dövlət xadimi həyatdan getdi. O, Azərbaycanla Rusiya arasında dostluq, tərəfdaşlıq münasibətlərinin bünövrəsini qoymuşdur. Onun Müstəqil Dövlətlər Birliyinin təşəkkülündə xidməti böyükdür.

Heydər Əliyevin taleyi Leninqradla, Sankt-Peterburqla sıx bağlı idi, bütün ömrü boyu bu şəhəri unutmamışdır.

Peterburqlular bu itkinin acısını Azərbaycan xalqı ilə bölüşürlər.

***Valentina MATVİYENKO,***
***Sankt-Peterburqun qubernatoru.***

Hamı ilə birlikdə kədərlənirəm.

Həyatımda ondan daha gözəl və müdrik kişi tanımırdım.

Qəbri nurla dolsun.

***Alla PUQAÇOVA,***
***SSRİ xalq artisti.***

Mən onun qonaqpərvərliyini, yumorunu və mədəniyyət nümayəndələrinə xüsusi münasibətini tez-tez xatırlayıram. O öz vətəninin həqiqi oğlu və Gürcüstanın böyük dostu idi.

***Vaxtanq KİKABİDZE,***
***Gürcüstanın xalq artisti,***
***Dövlət mükafatı laureatı.***





Hörmətli İlham Əliyev!

Sizə və dəyərli ailənizə üz vermiş böyük acını ürəyimdə yaşayıram. Azərbaycan xalqının ən böyük lideri Heydər Əliyev haqqın rəhmətinə getdi. Amma o, ürəklərdə daim sevgi ilə qalacaqdır. Türk xalqının ona məhəbbətini ifadə edirəm. Çox dəyərli övladları İlham Əliyevə və Sevil Əliyevaya başsağlığı verirəm.

Sevgi və sayğılarla,

***Müşərrəf AKAY,***
***Məşhur türk müğənnisi.***

Cənab Prezident!

Mən sarsılmışam, bu itkidən kədərlənirəm.

Azərbaycan xalqı və dünya siyasi elitası İnsan, vətənpərvər, humanist, iyirmi birinci əsrin görkəmli şəxsiyyətlərindən birini itirmişdir.

Mən Heydər Əliyevin mərdanə, müdrik işi qarşısında baş əyirəm.

***Yordan MUTAFOV,***
***Bolqarıstan aktyoru, "Heydər Əliyev"***
***filmində akademik Cəlal Əliyevin rolunun ifaçısı.***

Prezident cənab Heydər Əliyevin vəfatı xəbərini böyük kədərlə öyrəndik.

Dərin hüzn hissləri keçiririk və istərdik ki, onun ailəsinə və ölkəsinə əzab verən bu itki ilə bağlı kədərimizi bildirək.

***Doktor Cahangir TALEBİ,***
***Avstriya-Azərbaycan İqtisadi***
***Assosiasiyasının prezidenti.***

O, həyatını dövlətinə və xalqına xidmətə həsr etmiş, görkəmli ictimai və siyasi xadim kimi şöhrət qazanmış bir insan idi. Heydər Əliyevin adı təkcə Azərbaycan xalqının qəlbində deyil, həm də bütün bəşəriyyətin tarixində əbədi qalacaqdır.

***Akademik İoan Pop de POPA,***
***senator, Rumıniya-Azərbaycan***
***Dostluq Cəmiyyətinin baş katibi.***

Həyat yolu, şübhəsiz, örnək üçün nümunə olan və özünün bütün ömrünü Azərbaycan xalqına xidmətə həsr etmiş, müdrik və uzaqgörən siyasətçi kimi dünyada məşhur olan və tanınmış insan həyatdan getdi.

Onun xatirəsi qəlbimizdə həmişəlik yaşayacaqdır.

***Professor Dumitru BALAN,***
***Rumıniya-Azərbaycan Dostluq cəmiyyətinin sədri.***

Hörmətli İlham Heydər oğlu!

Xaricdə ezamiyyətdə olarkən Atanızın vəfat etdiyini böyük kədər hissi ilə eşitdim.

Ağır itki ilə əlaqədar Rusiya Olimpiya Komitəsi adından səmimi başsağlığımızı bildiririk. Biz Sizin Atanızı - xalqınıza uzun illər sədaqətlə xidmət etmiş böyük insanı həmişə xatırlayacağıq.

***Leonid TYAQAÇOV,***
***Rusiya Olimpiya Komitəsinin prezidenti.***

Çox hörmətli İlham Heydər oğlu!

Üz vermiş ağır itki - Atanızın - böyük siyasi xadim Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Rusiya İdman Güləşi Federasiyası adından, bütün güləş ictimaiyyəti adından və şəxsən öz adımdan Sizə və ailənizə, qardaş Azərbaycan xalqına səmimi qəlbdən başsağlığımı bildirirəm. Bu ağır dəqiqələrdə biz Sizinlə bir yerdə kədər içindəyik.

***Mixail MAMİAŞVİLİ,***
***Rusiya İdman Güləşi Federasiyasının prezidenti.***

Hörmətli cənab Prezident!

Ağır itki - Atanızın vəfatı ilə əlaqədar Ukrayna Milli Olimpiya Komitəsi, ölkəmizin olimpiyaçılar ailəsi Sizə və ailənizə dərin hüznlə başsağlığı verirlər.

***İ. FEDORENKO,***
***Ukrayna Milli Olimpiya Komitəsinin birinci vitse-prezidenti,***
***V. GERAŞŞENKO,***
***baş katib.***





Azərbaycan xalqının böyük oğlu, parlaq şəxsiyyət və zəmanəmizin görkəmli siyasətçisi Heydər Əliyevin vaxtsız vəfatı barədə kədərli xəbər ürəyimi ağrıtdı.

Bütün Azərbaycan üçün bu matəm günlərində Mərkəzi Asiya regionu ölkələrinin idman ictimaiyyəti adından və şəxsən öz adımdan ən dərin hüznlə başsağlığını qəbul edin.

Bu böyük və əvəzsiz itkidən biz qardaş Azərbaycan xalqı ilə birlikdə kədərlənir və bu ağır və çətin vaxtda xalqınıza mətanət, əmin-amanlıq və sülh arzulayırıq.

***Qafur RƏHİMOV,***
***Asiya Olimpiya Şurasının vitse-prezidenti,***
***AİBA-nın vitse-prezidenti.***

XX əsrin görkəmli siyasi xadimi olan Heydər Əliyev müdrik siyasətçi, strateq və novator kimi xələflərin xatirəsində əbədi yaşayacaqdır. Onun bütün həyatı və fəaliyyəti doğma Azərbaycanın daha da inkişaf edib çiçəklənməsinə yönəldilmişdir.

***İrakli MEDZMARİAŞVİLİ,***
***Gürcüstan Dövlət İdman Departamentinin sədri.***

Azərbaycan Respublikası prezidentinin yüksək vəzifəsində uzun illər ölkənizə rəhbərlik etmiş zati-aliləri cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar olaraq turizm sahəsində 142 dövlətin, o cümlədən Azərbaycanın mənafeyini təmsil edən Dünya Turizm Təşkilatı adından ən dərin hüznlə başsağlığı verirəm.

2002-ci ilin sentyabr ayında Azərbaycana rəsmi səfərim zamanı Heydər Əliyevlə olan səmərəli görüşümüzü mən ömrüm boyu unutmayacağam. Biz onu həmişə nüfuzlu dövlət xadimi, Azərbaycan turizminin və Dünya Turizm Təşkilatının böyük dostu kimi xatırlayacağıq.

***Françesko FRANJİALLİ,***
***Dünya Turizm Təşkilatının baş katibi.***

Ürəyimin ən dərin guşəsində hörmət bəslədiyim və şəxsiyyətindən nümunə götürməyə çalışdığım əziz bir Böyüyümü itirməyimin üzüntüsünü yaşamaqdayam.

***Atilla COMƏRD,***
***Türkiyə Milli Olimpiya Komitəsi İdarə Heyətinin üzvü.***

Hörmətli İlham Heydər oğlu!

Zəmanəmizin çox böyük siyasi və ictimai xadimi olan Atanızın vəfat etməsi ilə əlaqədar, icazə verin, Sizə ən dərin hüznlə başsağlığı verdiyimi bildirim. Bu itki təkcə Sizin yox, həm də bizim bütün xalqımızın ürəyini ağrıdır.

***O. QRDZELİŞVİLİ,***
***Gürcüstan Karate Federasiyasının prezidenti.***

Onun Azərbaycana rəhbərliyinin 34 ili ərzində əldə edilmiş sosial-iqtisadi uğurlar danılmazdır və bütün dünyada dərin hörmət doğurur.

MDB ölkələrinin qiymətləndiriciləri Böyük Azərbaycanlının həyatdan getməsindən Azərbaycan xalqı ilə birlikdə kədərlənir və əmindirlər ki, onun işi və ənənələri davam etdiriləcək, Azərbaycan isə daha güclü və demokratik dövlət olacaqdır.

***N. TRİFONOV,***
***MDB Qiymətləndiricilər Birlikləri Şurasının baş direktoru.***

Azərbaycan xalqının itkisi, görkəmli siyasətçi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar İnquşetiya Respublikası müsəlmanlarının ruhani mərkəzi Azərbaycan xalqına səmimi başsağlığı verir.

Qoy Ulu Tanrı Azərbaycan xalqının rifahı naminə çoxillik əməyinə görə onu cənnətməkan etsin. Allahın salamı, rəhni və bərəkətləri üzərində olsun.

Hörmətlə və xeyirxah dualarla,

***Məhəmmədhacı ALBOQAÇİYEV,***
***İnquşetiya Respublikasının müftisi.***





Elə insanlar var ki, mübaliğəsiz olaraq onlar tarixi yaradırlar. Heydər Əliyev belə insanlar sırasına daxildir. Təkcə Azərbaycan deyil, həm də Sovet İttifaqında yaşamış və çalışmış olan insanların hamısı onun vəfatından kədərlənir. O öz xalqı üçün də, keçmiş SSRİ xalqları üçün də, Rusiya-Azərbaycan dostluğunun qorunub saxlanması və inkişafı üçün də olduqca çox işlər görmüşdür. Heydər Əlirza oğlunu şəxsən və yaxından tanıyanların hamısı - əlbəttə, mən də onların sırasına daxiləm - bu gözəl insanı, böyük rəhbəri, böyük cəfakeşi və vətənpərvəri heç zaman unutmayacaqdır.

***Yevgeni PRİMAKOV,***
***Rusiya Federasiyası Ticarət-Sənaye Palatasının prezidenti, Dövlət Dumasının deputatı.***

Azərbaycan xalqının böyük oğlu həyatdan getdi. Vətənimizdə taleyüklü nailiyyətlərin əldə edilməsində Heydər Əlirza oğlunun tarixi töhfəsini qiymətləndirmək qeyri-mümkündür. Azərbaycan 1970-80-ci illərdə onun rəhbərliyi ilə iqtisadiyyatın və mədəniyyətin bütün sahələrində irəliyə doğru nəhəng sıçrayış etmişdir. Heydər Əliyevin işə münasibətindən ruhlanan bizlər - sıravi zəhmətkeşlərdən tutmuş sahə rəhbərlərinədək, hamımız hiss edirdik ki, əvvəlkindən də daha çox və daha yaxşı işləyə bilərik, öz gücümüzə inanırdıq. Mən Heydər Əlirza oğlunun rəhbərliyi ilə uzun müddət işləyərək onun titanik əməyinin, nöqsanlarla barışmaz mübarizəsinin, meydana çıxan problemlərin kökünə varmaq istedadının və ən mürəkkəb məsələlərin səhvsiz qərarını tapmasının şahidi olmuşam.

Gənc, müstəqil dövlətin böhran dövründə Heydər Əlirza oğlu qayıtmağa özündə qüvvə tapdı, yenidən sabitliyi, ardıcıl inkişafı, azərbaycanlıların vətənin gözəl gələcəyinə inamını təmin edə bildi.

Heydər Əlirza oğlu tarixi şəxsiyyətdir. Onun vəfatı təkcə bizim üçün, ona yaxın olan adamlardan ötrü deyil, həm də bütün bəşəriyyət üçün itkidir.

***Polad POLADZADƏ,***
***Rusiyanın "Vodstroy" şirkətinin prezidenti.***

Heydər Əlirza oğlu uzun illər ölkəyə rəhbərlik edərək bütün dünyada böyük hörmət qazanmışdır. Onun adı siyasətçi və dövlət xadiminin ən yüksək nüfuzu və müdrikliyinin təcəssümü olmuşdur. Agentliyimizdə olarkən

Heydər Əlirza oğlu ilə səmimi görüşlərimiz, jurnalistlərlə səmimi və açıq söhbətləri TASS əməkdaşlarının xatirində əbədi qalacaqdır. Biz əminik ki, respublikanın iqtisadi, sosial və mədəni inkişafının möhkəmlənməsi, Rusiya ilə Azərbaycan arasında ənənəvi dostluq əlaqələrinin hərtərəfli genişləndirilməsi sahəsində Heydər Əlirza oğlu Əliyevin gördüyü işlər bundan sonra da inkişaf edəcəkdir ki, bu da Azərbaycan xalqının böyük oğlu üçün ən yaxşı abidə olacaqdır.

***Vitali İQNATENKO,***
***İTAR-TASS-ın baş direktoru,***

***Mixail QUSMAN,***
***baş direktorun birinci müavini.***





# HEYDƏR ƏLİYEVİN ADI ƏBƏDİLƏŞDİRİLİR

Heydər Əliyevin vəfatından sonra Azərbaycanın neçə-neçə əmək müəssisələrinin kollektivləri öz müəssisələrinə, neçə-neçə kənd və şəhər zəhmətkeşləri öz kənd və şəhərlərinə, ayrı-ayrı küçə və prospektlərə Heydər Əliyevin adının verilməsi barədə ölkə rəsmilərinə müraciət etdilər. Müraciətlərin sayı o qədər çox idi ki, Azərbaycan dövləti Heydər Əliyevin adının əbədiləşdirilməsi ilə məşğul olacaq xüsusi komissiya yaratmağa məcbur oldu.

Xarici ölkələrdə də dünya miqyaslı siyasətçinin adının əbədiləşdirilməsi gündəmdə idi.

## TÜRKİYƏ HÖKUMƏTİ CEYHAN TERMİNALINA HEYDƏR ƏLİYEVİN ADININ VERİLMƏSİ BARƏDƏ QƏRAR QƏBUL ETDİ

Türkiyə Respublikasının energetika və təbii ehtiyatlar naziri Hilmi Gülərin fevralın 2-də Bakıda, Prezident sarayındakı çıxışından:

- Bakı-Tbilisi-Ceyhan layihəsi bizim son dərəcədə böyük əhəmiyyət verdiyimiz və çox ciddi surətdə izlədiyimiz bir layihədir. Bu layihənin yerinə yetirilməsi vaxtında başa çatdırılacaqdır. Biz bununla əlaqədar bütün işləri görmüşük.

Eyni zamanda bu layihənin ən önəmli nöqtəsi olan Ceyhan terminalına mərhum prezident Heydər Əliyevin adını vermək barədə qərar qəbul etmişik. Beləliklə, bu adı daşımaqla Ceyhan terminalı daha böyük əhəmiyyət və məna kəsb edəcəkdir. Biz bundan çox böyük xoşbəxtlik duyacağıq.

## TÜRKİYƏNİN TV-8 KANALI HEYDƏR ƏLİYEV HAQQINDA FİLM ÇƏKDİ

Türkiyənin TV-8 kanalının Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çəkdiyi yeni film yanvarın 16-da Azərbaycan televiziyasının 1-ci proqramı ilə nümayiş etdirildi. Film bu sözlərlə başlayır:

"... DTK, Sovetlərin gizli xidmət orqanı. Bu orqanda general rütbəsinə qədər yüksələn ilk türk Əlirza oğlu Heydər Əliyev.

Necə oldu ki, Heydər Əliyev DTK generalı rütbəsinə, oradan Siyasi Büronun zirvəsinə qalxdı, dünyada tanınan 5-6 şəxsiyyətdən biri oldu?!".

Filmin ssenari müəllifi Banu Avar bu şərəfli yola işıq salır, Heydər Əliyevin həyatını, Azərbaycan xalqı qarşısındakı xidmətlərini diqqətə çəkir.

Filmdə daha sonra deyilir:

...Heydər Əliyev gənc yaşlarında Dövlət Təhlükəsizliyi Komitəsində işə cəlb olunur. Dünya İkinci Cahan müharibəsinin astanasındadır. SSRİ-nin ağır dövrü. Heydər Əliyev hadisələri, siyasi prosesləri dəqiq təhlil etmək bacarığı ilə başqalarını üstələyir. Sovetlər müharibədən qalib çıxır. Stalin erası başa çatandan sonra ermənilərin Siyasi Büroda gürcüləri üstələdikləri bir dövrdə belə onu dayandıra bilmirlər. Heydər Əliyev öz bacarığı ilə nəinki vəzifə pillələrində irəliləyir, O, həmçinin azərbaycanlıları, Azərbaycanı bəlalardan qoruyur.

...Siyasi proseslər, hakimiyyət dəyişiklikləri. Leonid İliç Brejnev hakimiyyətə gəlir. 1969-cu ildə Heydər Əliyev Azərbaycana rəhbər təyin olunur. Azərbaycanın çiçəklənməsi, inkişafı da məhz bu dövrdən başlayır. Ölkənin iqtisadiyyatı dirçəlməyə başlayır.

...1982-ci il. Onun idarəçilik bacarığı yenə də diqqətdən kənarda qalmır və bu dəfə Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosuna üzv seçilir, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksəlir. Burada da Heydər Əliyev doğma Azərbaycanının qayğısını çəkir. O, nəinki Azərbaycanın, eləcə də bütün türk dünyasının qeydinə qalır.

...L. İ. Brejnevin ölümündən sonra yenə də hakimiyyət oyunları. Bir tərəfdən də ermənilər öz çirkin əməllərindən əl çəkmir, Heydər Əliyevə, Azərbaycana qarşı hücuma keçirlər. Bir Türk oğlunun dünyada tanınan 5 liderdən biri olması, Azərbaycanın çiçəklənməsi mənfur qonşuları rahat buraxmır. Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ermənilərə şans verir. 1988-ci ildən başlayaraq, ermənilər Azərbaycana, Heydər Əliyevə qarşı açıq müharibəyə qalxır, Azərbaycanın bir hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edirlər. Qorbaçovun fitnəkarlığı onları daha da azğınlaşdırır. Qorbaçov və onun ermənipərəst ətrafı Heydər Əliyevi hər tərəfdən blokadaya alırlar. Bu zaman Azərbaycana rəhbərlik edənlərin səriştəsizliyi üzündən xaos başlayır. 1990-cı il yanvar ayının 20-də sovet qoşunları Bakıya girir, günahsız dinc insanlar şəhid olur, yaralanır və itkin düşür. Heydər Əliyev buna etiraz olaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, öz həyatını böyük və ciddi təhlükə altına ataraq hadisəni və onu törədənləri qətiyyətlə pisləyir. Belə ağır məqamda Vətəninə gəlmək, xalqının yanında olmaq istəyir. Ancaq buna imkan verilmir. Onun Azərbaycana gəlməsini istəyənlər çoxdur. Biri Əjdər Xanbabayev. Amma onu öldürürlər. Buna baxmayaraq, Heydər Əliyev yenə də öz həyatını təhlükə altına ataraq gizli yolla Naxçıvana gələ bilir. Naxçıvan Ali Məclisinin sədri seçilir. Burada ona rahatlıq yoxdur. Ermənilər Naxçıvana hücumlar təşkil edir, torpaqları işğal etməyə çalışırlar. Azərbaycan daha qarışıq vəziyyətdədir. Bu zaman Heydər Əliyev qardaş Türkiyəyə üz tutur və Süleyman Dəmirəllə görüşməyə nail olur. Qardaş Türkiyənin dəstəyi ilə Naxçıvana təcavüzün qarşısını ala bilir. Amma bu hələ bütün Azərbaycan deyildi.

...1992-ci il. Ayaz Mütəllibov DTK generallarının gücü hesabına hakimiyyəti əldən vermək istəmir. Azərbaycan Xalq Cəbhəsi silah gücünə hakimiyyəti devirir və Əbülfəz Elçibəy prezident seçilir. Amma iş bununla bitmir. Bir tərəfdən ermənilər bir-birinin ardınca Azərbaycan torpaqlarını işğal edir, digər tərəfdən isə daxili çəkişmələr baş alıb gedir. Gəncədən Surət Hüseynov adlı birisi Elçibəydən hakimiyyəti ona verməyi tələb edir. Ölkə vətəndaş müharibəsi ilə üz-üzə qalır. Xalq Heydər Əliyevi Azərbaycana dəvət edir və Elçibəy Bakıdan Kələkiyə qaçır.

...Heydər Əliyev Azərbaycanı belə ağır vəziyyətdə başsız qoya bilməzdi. O, Bakıya gəlir və Surət Hüseynova barışıq təklif edir, onu baş nazir qoyur. Sonra isə onun necə bacarıqsız olduğunu xalqa nümayiş etdirməklə öz yerində oturdur. Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olur. Bu, Azərbaycanda ordu quruculuğuna başlamağa və ölkənin iqtisadi potensialını gücləndirməyə, eləcə də siyasi sabitlik yaratmağa imkan verirdi.

...Heydər Əliyev Azərbaycanın iqtisadi inkişafı, ölkəsini dünyaya tanıtmaq üçün nələr etmir. Amma nə edəsən ki, hələ də qara qüvvələr, qara buludlar Azərbaycanın başı üzərindən çəkilmirdi. Radikal müxalifət xarici qüvvələrin dəstəyi ilə ölkədə qarşıdurma yaratmağa çalışırdı. Heydər Əliyev Nyu-Yorkda olarkən Bakıda dövlət çevrilişinə cəhd edilir, onun yaxın silahdaşlarından ikisi qətlə yetirilir.

...Heydər Əliyevin özünə sui-qəsd hazırlanır. O, bu təhlükədən də qorxmur, Vətənə qayıdır. Əsrin müqaviləsini imzalaya bilir. Sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi ilə bağlı layihələrin gerçəkləşməsi üçün qətiyyətli addımlar atır. Amma bunlar bu böyük insanın sağlamlığı-


BÖYÜK İNSAN HAQQINDA

na ziyan vurmaya bilməzdi. O, yorulmadan çalışırdı. Bu qədər gərginlik onun sağlamlığına təsir etməyə bilməzdi. Heydər Əliyev ilk öncə Türkiyəyə gəlir, sonra isə ABŞ-a üz tutur. Azərbaycanda yeni prezident seçkiləri və Heydər Əliyev siyasi kursunun qələbəsi. Müxalifət bu dəfə də hakimiyyətə zorla gəlmək istəyir. Onlara imkan verilmir.

Bu gün böyük türk oğlu yoxdur. Amma həyat davam edir. Azərbaycan həyatın gələcək sınaqlarından uğurla çıxacaqdır. Bunu gələcək göstərəcəkdir.

Filmdə görkəmli siyasi xadim, Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl, Azərbaycanın İstanbuldakı Baş konsulu İbrahim Yaqubov, tanınmış jurnalist-siyasi şərhçi İrfan Ülki, mədəniyyət xadimi Namiq Kamal Zeybək Prezident Heydər Əliyevlə bağlı xatirələrini danışırlar.

## TÜRKİYƏDƏ ORTA MƏKTƏBƏ HEYDƏR ƏLİYEVİN ADI VERİLDİ

Türkiyənin Qaziantep vilayətinin valiliyindən Azərbaycanın Ankaradakı səfirliyinə daxil olan məktubda bildirilir ki, bu vilayətin Şahinbəy qəsəbəsində inşası ötən ilin sonlarında başa çatdırılan və 700 nəfərdən çox şagirdin təhsil aldığı orta məktəbə valiliyin qərarı ilə Heydər Əliyevin adı verilib və xalqımızın milli liderinin xatirəsini əbədiləşdirmək məqsədilə məktəbin qarşısında Heydər Əliyevin büstünün qoyulması nəzərdə tutulub.

## KİYEVDƏ HEYDƏR ƏLİYEVƏ ABİDƏ QOYULACAQ

Ukrayna dövləti dünya miqyaslı siyasətçi Heydər Əliyevə Kiyevdə abidə qoyulması barədə qərar qəbul etdi

* * *

Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev xəbər verdi ki, yanvarın 17-də səfirliyin önündəki bağda, prezident Heydər Əliyevin abidəsinin ucaldılacağı yerdə təməl daşı qoyulması münasibətilə matəm mitinqi keçirildi.

* * *

Rusiyada və bir neçə MDB ölkələrində də Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üçün müəyyən təşəbbüslər irəli sürüldü. Belə təşəbbüslər bundan sonra da irəli sürüləcək. Axı, Heydər Əliyev əbədi yaşayacaq bir şəxsiyyətdir.





## DAŞKƏNDDƏ HEYDƏR ƏLİYEVİN ADINA KÜÇƏ OLACAQDIR

Azərbaycanın Özbəkistandakı səfiri Aydın Əzimbəyovin verdiyi məlumata görə Azərbaycan Mədəniyyət Mərkəzi "Heydər Əliyev adına Azərbaycan evi" adlandırılıb. Binanın qarşısında ümummilli liderin büstü qoyulub. Burada "Heydər Əliyev muzeyi" də fəaliyyət göstərəcəkdir. Binanın yerləşdiyi küçə isə Heydər Əliyevin adını daşıyacaqdır. Daşkənd Şəhər İcra Hakimiyyəti bununla bağlı qərar qəbul etmişdir.

## KONRAD İSTANBUL QRUPUNUN TƏKLİFİ

Türk dünyasının böyük oğlu, Türkiyə xalqının sədaqətli dostu Heydər Əliyevin xatirəsini əbədiləşdirmək barədə qardaş Türkiyədə bir çox təkliflər irəli sürülüb.

Konrad İstanbul və Aksov Qrupunun sədri Eldar Aksoy da belə bir təkliflə Azərbaycanın Türkiyədəki səfirliyinə müraciət edib.

Eldar Aksoyun müraciətində deyilir: "Konrad İstanbul Qrupu prezident Heydər Əliyevin çox sevdiyi və İstanbula gələrkən qaldığı Konrad mehmanxanasının xarici ölkələrin prezidentləri üçün nəzərdə tutulmuş xüsusi otağına və bu mehmanxananın böyük konfrans salonuna "Heydər Əliyev otağı" və "Heydər Əliyev konfrans salonu" adı verilməsi barədə qərar qəbul etmişdir".

## TÜRKİYƏ - AZƏRBAYCAN DOSTLUQ, ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK VƏQFİ "HEYDƏR ƏLİYEV TƏQAÜDÜ" TƏSİS ETDİ

Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün bu dahi insanın fəxri sədr olduğu Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfi "Heydər Əliyev təqaüdü" təsis etdi.

Azərbaycanın Türkiyədəki səfirliyindən AzərTAc-a bildirmişlər ki, bu təqaüd Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri, prezident Heydər Əliyevin sədaqətli dostu, professor İhsan Doğramacının təşəbbüsü ilə təsis edilmişdir. Təqaüd Türkiyənin Universitetlərində təhsil alan ən nümunəvi tələbələrə veriləcəkdir.

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşayan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması onun qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Azərbaycanın müasir tarixində 1969-cu il respublikanın sosial-iqtisadi və mədəni inkişafında dönüş ili olmuşdur. Heydər Əliyevin rəhbərliyi altında respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji 70-ci illərin bariz əlamətinə çevrildi. Bu illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Kənd təsərrüfatının inkişafında böyük nailiyyətlər əldə edildi. Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur islahatları həyata keçirildi. Yeni sənaye





sahələri yaradıldı, sənayenin qabaqcıl sahələrində, ilk növbədə, maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma işləri, neft emal edən sənayenin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişləndirilməsi prosesi başlandı. Azərbaycan bu illərdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil hissələri, mineral gübrələr, çini-saxsı, xalça və xalçaçılıq məmulatı istehsalı üzrə keçmiş SSRİ-də aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda buraxılan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Əslində, Azərbaycanın dövlət suverenliyi və müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş iqtisadi potensiala əsaslanır.

Dinamik inkişaf edən iqtisadiyyatı yüksək ixtisaslı kadrlarla təmin etmək üçün Azərbaycanda orta ixtisas və ali təhsil məktəbləri şəbəkəsi nəzərəçarpacaq dərəcədə genişləndirildi, hər il Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin aparıcı elm və təhsil ocaqlarına gənclərin göndərilməsi həmin illərdə bir ənənəyə çevrildi.

Azərbaycanda Cəmşid Naxçıvanski alına hərbi məktəbin yaradılması, gənc və yeniyetmə azərbaycanlı oğlanların həmin məktəbə, habelə respublikadan kənarda ali hərbi məktəblərə cəlb olunması Azərbaycan üçün peşəkar hərbi kadrlar hazırlanması işinə böyük təkan verdi. Beləliklə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində gələcəkdə müstəqil Azərbaycan Milli Ordusunun formalaşması üçün kadr probleminin həlli yolunda mühüm addım atıldı.

Azərbaycanın elmi, mədəniyyəti və incəsənəti həmin illərdə böyük yüksəliş dövrü yaşadı. Respublikanın paytaxtı Bakı şəhərinin, digər şəhər və rayonların inkişafı və abadlaşması sahəsində kompleks tədbirlər həyata keçirildi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra, ilk illərdə ölkədə hakimiyyət uğrunda başlanan silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə ağır zərbələr vurdu. Ölkədə yaranmış ictimai-siyasi xaos, anarxiya, zorakılıq halları, milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına rəvac verirdi. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə

vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxarmaq üçün gərgin işə başladı. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Azərbaycanın daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir. Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Dəfn mərasimindən dərhal sonra ölkə vətəndaşları öz yığıncaqlarında, kütləvi informasiya vasitələrində, müxtəlif tədbirlərdə ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirməklə bağlı çoxsaylı müraciətlər etdi. Müraciətlərə baxılması üçün Azərbaycan Respublikası prezidentinin 26 dekabr 2003-cü il tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradıldı. Dövlət Komissiyası Azərbaycan Respublikası Milli Məclisinin, ictimai qurumların, qeyri-hökumət təşkilatlarının, beynəlxalq təsisatların, ölkə vətəndaşlarının çoxsaylı müraciətlərini nəzərdən keçirərək, öz təkliflərini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etmişdir.

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq, onun xatirəsini əbədiləşdirmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı təsis edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti Heydər Əliyev Mükafatının Əsasnaməsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.





2. Bakı və Naxçıvan şəhərlərində "Heydər Əliyev" xatirə memorial kompleksləri yaradılsın. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, respublikanın müvafiq yaradıcılıq ittifaqları ilə birlikdə komplekslərin layihələrinin müsabiqəsini keçirsin və üç ay ərzində təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeninin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

4. Azərbaycan Ali Hərbi Məktəbinə Heydər Əliyevin adı verilsin.

5. Bakı Beynəlxalq Aeroportuna Heydər Əliyevin adı verilsin.

6. Bakı Dərin Özüllər Zavoduna Heydər Əliyevin adı verilsin.

7. Respublika sarayına Heydər Əliyevin adı verilsin.

8. Bakı şəhərindəki İdman-Konsert Kompleksinə Heydər Əliyevin adı verilsin.

9. Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

10. Azərbaycanın şəhər və rayonlarında küçə və meydanlardan birinə Heydər Əliyevin adı verilsin.

11. Heydər Əliyevin şərəfinə platin, qızıl və gümüş xatirə sikkələri buraxılsın.

12. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin adının əbədiləşdirilməsi ilə əlaqədar olaraq bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənsin.

13. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

14. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 mart 2004-cü il

# VİDA SÖZLƏRİ

Heydər Əliyevlə görüşmək şərəfinə 2001-ci ilin sentyabr ayında, Senatın Fransa-Azərbaycan dostluq qrupunun o vaxtkı sədri, keçmiş həmkarım Jan Buayenin müşayiəti ilə Azərbaycana ilk səfərim zamanı nail olmuşdum.

Ölkəsində hüquqi dövlət qurulması, beynəlxalq aləmdə onun yerinin möhkəmləndirilməsi və Azərbaycan xalqının iqtisadi və sosial həyatının daha da yaxşılaşdırılması yolunda bu dövlət xadiminin siyasi uzaqgörənliyi məndə güclü təəssürat oyatmışdı.

Mən Dağlıq Qarabağ kimi ağrılı bir məsələnin sülh yolu ilə həlli yolunun axtarılmasında prezident Heydər Əliyevin yorulmaz fəaliyyətini unutmuram.

***Ambruaz DÜPON,***
***Senatın Fransa-Qafqaz***
***parlamentlərarası qrupunun sədri.***

Prezident Heydər Əliyevin vəfatı xəbərini eşitdikdə dərindən kədərləndim.

Heydər Əliyevin vəfatı Azərbaycan və onun xalqı üçün dərin itkidir. O, Azərbaycana siyasi və iqtisadi sabitlik, xalqa sülh və əmin-amanlıq gətirmişdir. Həqiqətən də, O, Azərbaycanı dünyada tanıdan bir simvol idi.

***Faiz Məhəmməd XOSO,***
***Pakistan Xarici İşlər Nazirliyi***
***Avropa İdarəsinin baş direktoru.***

Əziz İlham Heydər oğlu!

Azərbaycanın görkəmli siyasi xadimi və Gürcüstanın böyük dostu Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Gürcüstanın İsveçrədəki səfirliyinin əməkdaşları adından və şəxsən öz adımdan başsağlığımızı qəbul edin.

***Aleksandr ÇİKVAİDZE,***
***Gürcüstanın İsveçrə və Vatikandakı səfiri.***





Türk dünyasının iftixarı, qardaş Azərbaycanın siyasi həyatının nüfuzlu simalarından olan əzm və mübarizə insanı, ömrünü türk dünyasına xidmətdə keçirən dəyərli dövlət adamı və Azərbaycanın taleyinə 34 il damğasını vuran prezident Heydər Əliyevin vəfatı xəbərini təəssüflə öyrəndim. Mərhuma Allahdan rəhmət diləyir, oğlu - Azərbaycan Prezidenti İlham Əliyev və ailəsi başda olmaqla bütün dostlarına və yaxınlarına, bizimlə eyni tarixə, dilə, dinə və taleyə malik olan dost Azərbaycan xalqına başsağlığı verirəm.

***Raqip GÖKÇEL,***
***Lumina Təhsil Müəssisələri Birliyinin***
***baş direktoru (Buxarest).***

Əziz cənab prezident Əliyev, atanızın vəfatı məni kədərləndirir. Allah rəhmət eləsin. Onun vəfatı ağır itkidir. Türklər onun üçün çox uzun müddət darıxacaqlar. Azərbaycanlılar onun böyüklüyünü gələcəkdə daha çox dərk edəcəklər.

***doktor Sami KENT,***
***Londondakı "Kent" mehmanxanasının sahibi.***

Allah-Təalanın razılıq və rəhmətini qazanan bu böyük şəxsiyyət xalqı və müsəlman ümməti qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmiş, ölkəsinin maraqlarını daim qoruyan və xalqına sədaqətlə xidmət edən dövlət başçısı olmuşdur.

***Bədr ibn Məhəmməd əl-EYVAN,***
***"Delta oyl" şirkəti idarə heyətinin sədri.***

Prezident cənab Heydər Əliyevin vaxtsız vəfatı Avstriyanın "Pado Oil and Chemical Equipment Trading GmbH" təşkilatı idarə heyətinin üzvlərini dərindən kədərləndirmişdir.

Heydər Əliyev bütün ömrünü Azərbaycanın qurulmasına və zəhmətkeş xalqının əmin-amanlığına həsr etmişdir.

***Dimitrios LAPATSANİS,***
***icraçı direktor.***

Dərdiniz böyük, dərdimiz böyükdür, başınız sağ olsun, başımız sağ olsun! Türk dünyasının başı sağ olsun! XX əsrin böyük şəxsiyyəti, böyük lider Heydər Əliyevi itirməyimizin kədəri içindəyik. Kədərimizi az da olsa, yüngülləşdirən və bizlərə təsəlli olan Azərbaycanda o böyük liderin açdığı yol və rəhbərlik tərzinin İlham Əliyev vasitəsilə davam etdirilməsidir. Təxminən 40 illik bir müddət ərzində Azərbaycan xalqına işıq tutan bu möhtərəm şəxsin nuru oğlu vasitəsilə, inşallah, daha neçə 40 illiklər davam edəcəkdir.

***Mendese DƏMİR,***
***"Osmaniyyə" Qəzetçilər Birliyinin sədri və xanımı.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı veririk. O, Azərbaycanı çox ağır böhran dövründən çıxardı və ölkənin beynəlxalq aləmdə tanınmasına nail oldu. Ümidvarıq ki, Azərbaycan Heydər Əliyevin seçdiyi demokratik yolla bundan sonra da irəliləyəcəkdir.

***İbrahim ƏHRARİ,***
***Dünya şöhrətli rəssam.***

Heydər Əliyev qəlbimizdə və yaddaşımızda müdrik, çox möhkəm iradəli və Azərbaycan xalqına böyük xeyirxahlıq münasibəti bəsləyən adam kimi yaşayacaqdır. Əminik ki, onun Azərbaycan Respublikasının inkişafına verdiyi çox böyük töhfə daim məhəbbətlə yad olunacaq və onun təşəbbüsü ilə başlanmış işlər bundan sonra da davam etdiriləcəkdir. Heydər Əliyev yaddaşlarda daim çox böyük enerjiyə və müstəsna bacarığa malik adam kimi qalacaqdır.

***Adil MƏSİMOV, Fuad MUSTAFAYEV,***
***Ulduz RƏHİMOV, Tatyana SADIQOVA, Azər SƏFƏR.***
***Kanadalı Azərbaycanlılar Assosiasiyasının***
***Direktorlar Şurasının üzvləri.***

Çox hörmətli İlham Heydər oğlu!

Sizə üz vermiş ağır itki ilə əlaqədar "Mir" Dövlətlərarası Teleradio Şirkətinin (MDTŞ) kollektivi adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm. Biz Heydər Əlirza oğlunun Müstəqil Dövlətlər Birliyinin





və onun mühüm tərkib hissəsi olan MDTŞ-nin inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfəsini həmişə minnətdarlıqla xatırlayacağıq. Biz atanızın - Azərbaycanın görkəmli siyasi xidməti xadimi Heydər Əlirza oğlu Əliyevin nurlu xatirəsini həmişə qəlbimizdə yaşadacağıq. Onun xeyirxahlığına və müdrikliyinə həmişə ehtiyacımız olacaqdır.

***Viktor SENİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri.***

Rusiyada bir çox insanlar kimi, mən də baş vermiş hadisədən kədərlənirəm. Heydər Əlirza oğlu öz xalqının böyük oğlu, müasir dünyanın görkəmli xadimi olmuşdur və olaraq qalır.

Onun vəfatı ilə əlaqədar səmimi başsağlığımı qəbul edin. Mənim xatirimdə o, öz ölkəsinə görə məsuliyyəti ən çətin anlarda üzərinə götürmüş və onu sabit və çiçəklənən dövlətə çevirmiş cəsur və sədaqətli insan kimi qalacaqdır.

Onun yeri bizim üçün həmişə görünəcəkdir.

***A.ABRAMOV,***
***Rusiya Dövlət Qiymətli Əşyalar***
***Saxlancı rəhbərinin müavini.***

Çox hörmətli cənab Prezident!

Sizə, ailənizə, bütün Azərbaycan xalqına üz vermiş əvəzsiz itki - dünyada tanınmış, görkəmli siyasi xadim Heydər Əliyevin vəfatı ilə əlaqədar ən səmimi başsağlığımızı qəbul edin. Əminəm ki, Siz ölkə üçün bütün mühüm taleyüklü qərarları Azərbaycanın ümummilli lideri, müdrik və mərd insan olan atanız Heydər Əliyevin eyni vəziyyətdə hansı mövqe tuta biləcəyi ilə fikrən tutuşduraraq qəbul edəcəksiniz. Ölkədə və onun hüdudlarından kənarda yaşayan bütün həmvətənləriniz kimi, biz də Sizinlə birlikdə dərindən kədərlənirik.

***Ələsgər TAĞIYEV,***
***Beynəlxalq Hüquqşünaslar İttifaqı sədrinin müavini,***
***Rusiya Hüquqşünaslar İttifaqının vitse-prezidenti, professor.***

Hörmətli cənab İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfatı ilə bağlı dərdinizə şərik olur, ailənizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

***Tomas RÜEQQ,***
***İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin***
***Cənubi Qafqaz üzrə regional əlaqələndiricisi.***

Hörmətli cənab İlham Əliyev!

Atanız prezident Heydər Əliyevin vəfat etməsi xəbəri xaricdə yaşayan azərbaycanlıların da dərin kədərinə səbəb olmuşdur. Zəngin siyasi təcrübəsi və Azərbaycan dövlətinin qorunması, möhkəmlənməsi və dünyada tanıdılması üçün əvəzsiz xidmətləri olan atanız Heydər Əliyevin vəfatından kədərləndiyimi bildirir, Sizə, bütün Azərbaycan xalqına öz adımdan və Rusiyada yaşayan azərbaycanlılar adından dərin hüznlə başsağlığı verir, təmkin və Allahdan səbir arzulayıram.

***Gülağa QƏNBƏROV,***
***Moskva Şəhər Dumasının üzvü.***

Heydər Əlirza oğlu Əliyev, həqiqətən, dünya şöhrətli böyük, əfsanəvi insan, Azərbaycan xalqının atası və Rusiyanın dostu idi. Onun yüksək peşəkarlığı, adamlarla işləmək bacarığı sayəsində Azərbaycanda istər dövlətdaxili, istərsə də xarici siyasət səviyyəli bir çox problematik məsələlər uğurla həll edilirdi.

Onun otuz ildən artıq rəhbərliyi dövründə Azərbaycan Respublikası iqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilmişdi və bütün MDB ölkələri və habelə dünyanın digər dövlətləri ilə münasibətlərini sabit şəkildə inkişaf etdirirdi.

Heydər Əlirza oğlu Əliyevin vəfatı təkcə Azərbaycan xalqı üçün deyil, həm də bütün bəşəriyyət üçün əvəzsiz itkidir.

Heydər Əlirza oğlu Əliycvin nurlu xatirəsi Azərbaycanın və Rusiyanın tarixində, habelə bütün xalqların qəlbində daim yaşayacaqdır.

***Fazil İZMAYLOV,***
***Moskva şəhəri Sokol Rayonu***
***İcra Hakimiyyətinin başçısı.***





Azərbaycan dövlətçiliyinin banisi, müdrik siyasətçi, prezidentimiz Heydər Əlirza oğlu Əliyevin vəfatı Slovakiyada yaşayan azərbaycanlıları hədsiz kədərləndirmişdir. Biz Heydər Əliyevin vəfatının Azərbaycan xalqı üçün ağır itki olmasını dərk edirik.

***Cəlal QASIMOV,***
***Slovakiyadakı Azərbaycan İcmasının rəhbəri.***

Hörmətli İlham Heydər oğlu!

Atanız, öz xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Kustanay vilayətindəki "Heydər" Azərbaycan İcması Sizinlə birlikdə dərindən kədərlənir.

Azərbaycanın böyük oğlunun adı verilmiş "Heydər" Azərbaycan İcması ürəkdən əmindir ki, Siz Vətənimizin tərəqqisi naminə onun nurlu işlərinin və amallarının layiqli davamçısısınız.

***Fəyyaz AXUNDOV,***
***Qazaxıstanın Kustanay vilayətindəki***
***"Heydər" Azərbaycan İcmasının sədri.***

Mesxeti türklərinin beynəlxalq "Vətən" Cəmiyyəti Azərbaycanın görkəmli oğlu, dünya şöhrətli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar Azərbaycan xalqı ilə birlikdə ürəkdən kədərlənir, öz xalqı adından dərin hüznlə səmimi başsağlığı verir.

Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***S.M.BARBAKADZE,***
***cəmiyyətin sədri.***

Heydər Əliyevin vəfatı barədə xəbər cəmiyyətimizin bütün üzvlərini kədərləndirdi. Başsağlığı vermək üçün milli cəmiyyətlərdən bizə daxil olan çoxsaylı telefon zəngləri bu böyük insana, bütün Azərbaycan xalqına sədaqəti və hörməti nümayiş etdirir. Heydər Əliyev bütün dünya diplomatiyası üçün həmişə örnək olacaqdır.

***Balaşirin AĞAYEV,***
***"Start-oyl" Beynəlxalq Şirkətinin***
***baş direktoru (Nijnevartovsk).***

Heydər Əlirza oğlu Azərbaycan SSR-in dövlətçiliyinin və iqtisadi qüdrətinin inkişafına böyük töfhə verməklə yanaşı, Sovet İttifaqının dəmiryol nəqliyyatının işi üçün böyük məsuliyyət daşıyaraq, dəmiryol ölkəsi olan sovetlər ölkəsinin sadə dəmiryol əməkçilərinə diqqət və qayğı göstərmiş, onların hörmət və məhəbbətini qazanmışdı. Bizim ailəmiz Heydər Əlirza oğlu ilə tanış idi və ona böyük hörmət bəsləyirdi. O, yollar nazirinin müavini B.A.Morozova həmişə kömək etmiş, Sovet İttifaqının dəmiryol nəqliyyatı təsərrüfatının inkişafına əvəzsiz töhfə vermişdi. Azərbaycanın və sovetlər ölkəsinin əfsanəvi rəhbərinin xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***A.B.MOROZOV,***
***"Mejtrans" QSC-nin baş direktoru.***

Bu cəsarətli və mərd insan öz xalqının işıqlı gələcəyə doğru yolunu birincilər sırasında açmışdır.

Onun adı Azərbaycanın əzəmətli qələbələrinin rəmzi kimi əbədi yaşayacaqdır.

O, hamı üçün - doğmalar, dostlar, həmkarlar üçün etibarlı, qayğıkeş, müdrik bir insan olmuşdur, xalq onu məhz belə tanıyırdı.

***F.MƏMMƏDOV,***
***"İnter-Sever" ASC-nin vitse-prezidenti (Moskva).***

Dünyamiqyaslı siyasətçi, Azərbaycan xalqının böyük oğlu, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi üçün çox işlər görmüş Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar uralmaşçılar dərindən kədərlənirlər.

Azərbaycanın müasir dövlətçiliyinin banisi məhz Heydər Əlirza oğlu olmuşdur. Uralmaşçılar Heydər Əlirza oğlunun rəhbərliyi altında ölkənin necə tərəqqi etdiyini öz gözləri ilə görmüşlər.

***Ural ağır maşınqayırma zavodunun idarə heyəti və kollektivi adından***

***baş direktor F.VOROPAYEV.***





Çox hörmətli Prezident İlham Əliyev!

Tanınmış şəxsiyyət, uzun illər ümummilli lider olmuş atanızın vəfatı ilə əlaqədar Sizinlə və bütün Azərbaycan xalqı ilə birlikdə dərin kədər hissi keçirirəm. Bütün dünyada haqlı olaraq böyük hörmət və nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir.

***Faiq ƏSGƏROV,***
***"Arsenal" Səhmdar Cəmiyyətinin baş direktoru (Sankt-Peterburq).***

Azərbaycan dövlətçiliyinin yaradılmasında, onun iqtisadiyyatının inkişafında, müstəqilliyinin möhkəmləndirilməsində əvəzsiz xidmətləri olan, dünya miqyasında tanınmış siyasətçi Heydər Əlirza oğlu Əliyevin vəfatı bizi çox kədərləndirir və məyus edir. Azərbaycanda fəaliyyət göstərən bütün iş adamları daim onun diqqət və qayğısını hiss edirdilər.

***Doktor İbrahim PALAZ,***
***Hallibörton Yureyja Limited şirkətinin Avrasiya regionu üzrə meneceri.***

O, təkcə Azərbaycanın deyil, bütün türk dünyasının siyasi lideri idi. Türkdilli xalqların inteqrasiyasında və vahid türk dünyasının yaradılmasında müstəsna xidmətləri olan bir liderin vəfatı hamımız üçün çox böyük itkidir.

***Hüseyn DİNLƏMƏZ,***
***"Azərbaycan Samanyolu Yayınçılıq Xidmətləri Ltd" şirkətinin baş direktoru.***

Hörmətli Prezidentim İlham Əliyev!

Böyük dövlət xadimi, çox dəyərli və hörmətli atanız zati-aliləri Heydər Əliyevin vəfatından dərindən kədərləndiyimi bildirmək və Sizə, bütün ailənizə uca Allahdan səbir diləmək istəyir, başsağlığı verirəm. Sizin şəxsinizdə bütün Azərbaycan xalqına başsağlığı vermək və çox sevdiyim, hörmət bəslədiyim böyük insanın vəfatından dərin kədər hissi keçirdiyimi bildirmək istəyirəm.

Zati-aliləri, böyük insan və böyük dövlət xadimi hörmətli Heydər Əliyevə uca Allahdan rəhmət diləyərkən Sizə və bütün Azərbaycan xalqına səbir arzu edirəm.

***Məhsun QIRMIZIGÜL,***
***türk müğənnisi.***

Zati-aliləri cənab İlham Əliyev!

Özbəkistan Respublikasının Səmərqənd şəhərindəki "Azərbaycan-Özbəkistan" Mədəni-İqtisadi Əlaqələr Mərkəzinin idarə heyəti vətəninin və bütün dünyadakı Azərbaycan diasporunun sədaqətli oğlu prezident Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar 10 minlik Azərbaycan diasporu adından Sizə, doğmalarınıza və yaxınlarınıza, xalqınıza dərin hüznlə başsağlığı verir. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***S. OCİYEV,***
***Mərkəzin sədri.***

Tarixin səhifələrində məşhur şəxsiyyətlər vardır. Bu liderlər yaşadıqları dövrdə gördükləri mükəmməl işlərlə tarixə istiqamət verir, tarixi yenidən yazırlar.

Heydər Əliyev də türk dünyasının yetirdiyi, yaxın tariximizə damğasını vuran nadir şəxsiyyətlərdən biridir.

Azərbaycanın əbədi lideri Heydər Əliyev bütün ömrünü ölkəsinin inkişafına həsr etmiş, vətəni olan can Azərbaycan üçün həyatını vermiş, yetirdiyi dahiyanə siyasətlə Azərbaycanı hərtərəfli inkişaf etdirmişdir. Hərbi, mədəni sahədə, siyasətdə, iqtisadiyyatda, beynəlxalq münasibətlərdə və idmanda, Azərbaycanın sərvətlərinin işlənilməsini müəyyənləşdirdiyi neft strategiyası sayəsində ölkəsini çox qısa bir müddət ərzində dünyada layiq olduğu yerə gətirmişdir.

O, ömrünü, sadəcə, Azərbaycana yox, türk dünyasına həsr edən əvəzedilməz dahi bir liderdir.

***Hidayət QARACA,***
***Samanyolu televiziyasının baş əlaqələndiricisi.***





Əziz cənab Prezident!

Böyük rəğbət hissi ilə məktub yazıb bu çox ağır anda Sizə səmimi qəlbdən başsağlığı verirəm. Qoy atanızın xatirəsi əbədi yaşasın. Allah onun ruhunu şad eləsin. Sizə, ailənizə və atanızın uzun illər boyu xidmət etdiyi bütün Azərbaycan xalqına dua etdiyimizi bilməyinizi xahiş edirəm.

"Frontera" korporasiyasındakı bütün dostlarınız Sizə səmimi qəlbdən başsağlığı verir. Ölkəyə rəhbərliyinizdə Sizə böyük müvəffəqiyyətlər arzulayır və xeyir-dualar diləyirik.

***Stiv K. NİKANDROS,***
***Amerikanın "Frontera Risorsiz" korporasiyasının prezidenti və baş icraçı direktoru.***

Əziz cənab Prezident!

Atanız Heydər Əliyevin vəfatı xəbərini dərin hüznlə öyrəndik. Bu itki Sizin ailəniz və Azərbaycan xalqı üçün əvəzedilməzdir. Atanızın Azərbaycan üçün gördüyü işlər və göstərdiyi xidmətlər xalqınızın yaddaşında və qəlbində əbədi yaşayacaqdır.

Beynəlxalq birlik bu ağır itki ilə əlaqədar Sizin və ölkənizin dərdinə şərik olur.

***Əvəz NƏZƏROV,***
***Böyük Britaniyanın "Ansol Qrup" şirkətinin rəhbəri.***

Heydər Əliyev Azərbaycanın müstəqillik əldə etməsində, eləcə də ölkədə demokratiyanın bərqərar olması və inkişaf etdirilməsində misilsiz rol oynamışdır.

Azərbaycan xalqının ən böyük oğlunu itirməsi ilə əlaqədar kədərimizi bildiririk.

Xalqınız üçün bu faciəli itki ilə əlaqədar dərdinizə şərik oluruq.

***Riçard PETTİQRYU,***
***İsveçrənin "Bi-Es-Ay İnspekterit" şirkətinin icraçı direktoru.***

Zəmanəmizin görkəmli xadimi, unudulmaz Heydər Əlirza oğlunun vəfatı ilə əlaqədar Dağıstan Respublikasının Dərbənd şəhərindəki 6 nömrəli internat məktəbin çoxmillətli kollektivi adından Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

***Dərbənd şəhərindəki 6 nömrəli internat məktəbin kollektivi.***

Moskva şəhərinin dağ yəhudiləri icması Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar səmimi başsağlığı verir. Bizim üçün - əslən Azərbaycandan olan azsaylı xalqların nümayəndələri üçün o, həmişə sabitliyin və dinc yanaşı yaşamağın təminatçısı olmuşdur.

***A. RƏHİMOV, icmanın sədri.***

Yapon xalqı ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məqsədilə cənab Heydər Əliyevin atdığı ilk tarixi addımın əhəmiyyətini çox yüksək qiymətləndirir. Biz çox inanırıq ki, Azərbaycan hökuməti cənab Heydər Əliyevin konstruktiv səylərini davam etdirəcəkdir.

***Nabuo KATSUMATA, Yaponiyanın "Marubeni" korporasiyasının prezidenti, baş icraçı direktoru.***

Avstriyanın "PADO oyl ənd Kemikal" şirkətinin rəhbərliyi müstəqil Azərbaycanın prezidenti cənab Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar dərindən kədərlənir. Heydər Əlirza oğlu bütün həyatını Azərbaycanın və onun əməksevər xalqının inkişafına və tərəqqisinə həsr etmişdir.

***Şirkətin rəhbərliyi (Vyana).***

Ömrünün otuz ilindən çoxunu xalqına həsr edən Böyük İnsan, istedadlı rəhbər, çoxmillətli Azərbaycan xalqını öz ətrafında birləşdirən, qarışıq





dövrdə qardaş qırğınını dayandıran və respublikanı inkişaf, quruculuq və tərəqqi yoluna çıxaran İnsan həyatdan getmişdir.

Gözəl ailə başçısı, ər və ata həyatdan getmişdir.

Biz ümumi kədərimizi səmimi qəlbdən bölüşürük.

***Mixail YUMAN, Danimarkanın "D. B. Qəs ənd Oyl ApS" şirkətinin baş direktoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Atanızın - sovet və postsovet dövrü dövlətçiliyinin patriarxı, prezident cənab Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar ən səmimi başsağlığımızı qəbul edin.

Biz cənab Heydər Əliyevin ölkələrimizin sivilizasiyalı informasiya birliyinin yaradılmasına verdiyi böyük töhfəni həmişə xatırlayacağıq.

***O. POPTSOV, Avrasiya Televiziya Akademiyasının prezidenti, "TV-Sentr" telekanalının prezidenti.***

Hörmətli İlham Heydər oğlu!

Atanız Heydər Əlirza oğlu Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığımızı qəbul edin. Biz Heydər Əlirza oğlunu görkəmli dövlət xadimi, müdrik siyasətçi, gözəl insan kimi həmişə xatırlayacağıq.

***Natalya STETSENKO, Andrey KOZLOV, Boris KRYUK, "Nə? Harada? Nə vaxt" Klubları Beynəlxalq Assosiasiyasının "İqra" teleşirkətinin nümayəndələri.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə, ailənizə və Azərbaycan vətəndaşlarına dərin hüznlə başsağlığı verirəm. Əminəm ki, bu itki respublikanın xalqlarını ölkənin yeni prezidenti ətrafında sıx birləşdirəcəkdir.

Azərbaycan Respublikasının demokratiya və sosial-iqtisadi inkişaf yolu ilə daha da irəliləməsi Azərbaycanın böyük oğluna ən yaxşı abidə olacaqdır.

***Abubakar ARSAMAKOV,***
***Çeçenistan Respublikasını məcburi tərk etmiş vətəndaşlar birliyinin lideri, Moskva Sənaye Bankının prezidenti.***

Cənab Prezident!

Atanızın - hörmətli prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar başsağlığımı qəbul etməyinizi rica edirəm.

Hörmətlə,

***I Xuan KARLOS,***
***İspaniyanın kralı.***

Hörmətli Prezident!

Bu ağır itki ümummilli liderin, böyük vətənpərvərin və müdrik rəhbərinizin vəfatı ilə əlaqədar zati-alinizə, Sizin vasitənizlə mərhumun ailəsinin bütün üzvlərinə, qardaş Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Məruz qaldığınız bu böyük itki ilə bağlı dərdə və kədərinizə səmimqəlbdən şərik çıxıram və Allah-Təaladan hamınıza səbir və təskinlik bəxş etməsini, mərhumu özünün müntəhasız rəhmətinə layiq görüb, cənnətməkan etməsini rica edirəm.

***VI MƏHƏMMƏD,***
***Mərakeşin məliki.***

Zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan xalqının ümummilli lideri zati-aliləri cənab Heydər Əliyevin vəfat etməsi ilə bağlı Sizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Səmimiyyətlə,

***Janni BOSÇER,***
***Avropa Komissiyasının Avropa Evinin əlaqələndiricisi.***





Zati-aliləri cənab İlham Əliyev!

Ölkəsini istiqlaliyyətə çatdırmış və milli birlik üçün mübarizə aparmış böyük dövlət xadimini itirməsi ilə əlaqədar Azərbaycan xalqına üz vermiş hədsiz kədərə qoşulur, bu qəmli anda Sizə və xalqınıza dərin hüznlə başsağlığı verirəm.

Allahdan mərhuma rəhmət, Sizə və Azərbaycan xalqına səbir və təsəlli diləyirəm.

***Doktor Əbdülvahid BİLQƏZİZ,***
***İslam Konfransı Təşkilatının baş katibi.***

Azərbaycanda sülhün, sabitliyin və inkişafın bərqərar olmasında mühüm rol oynamış cənab Əliyevin vəfatı böyük itkidir. Ölkəsinin görkəmli oğlu kimi o, uzun illər xalqının xidmətində duraraq, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin gücləndirilməsinə və həmçinin Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı ilə səmərəli əməkdaşlığının inkişafına böyük töhfə vermişdir.

***Bohdan NAHAYLO,***
***BMT-nin rezident-əlaqələndiricisinin əvəzi.***

Zati-aliləri cənab İlham Əliyev!

2000-ci ilin oktyabrında ölkənizə rəsmi səfərim zamanı görüşdüyüm Sizin atanız, zati-aliləri cənab Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə qəbul etdim.

Mənim adımdan və Beynəlxalq Miqrasiya Təşkilatının bütün əməkdaşları adından səmimi başsağlığını qəbul etməyinizi xahiş edirəm.

***Branson MAKKİNLİ,***
***Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident cənab Heydər Əliyevin vəfat etməsi xəbərini böyük kədər hissi ilə aldıq. Bu böyük dövlət xadimini itirdiyinə görə, icazə verin, öl-

kənizin xalqına dərin hüznlə başsağlığı verim. Bu itki ilə bağlı öz kədər hisslərimizi ifadə etmək istərdim.

***Sodzi MOTOOKA,***
***Yaponiya parlamenti müşavirlər palatası sədrinin müavini.***

Zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan xalqının milli lideri, dəyərli dövlət başçısı hörmətli prezident Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə öyrəndim. Mərhuma Allahdan rəhmət diləyir, Sizə və yaxınlarınıza başsağlığı verir, hörmət və ehtiramlarımı çatdırıram.

***Musa KÜÇÜKKUT,***
***İğdır valisi.***

Prezident Heydər Əliyev müstəqil Azərbaycanın inkişaf etdirilməsində öz həmvətənlərinə böyük töhfə verdiyinə görə yadda qalacaqdır. On ildən çox müddət ərzində onun rəhbərliyi daha da güclü ölkənin və daha da sabit regionun qurulmasına kömək etmiş və Azərbaycanın dünya ölkələri arasında layiqli yer tutmasında həlledici rol oynamışdır. Onun nailiyyətləri arasında ən əhəmiyyətlisi ölkənin inkişafının və müasirləşdirilməsinin stimullaşdırılması məqsədilə xarici sərmayələrin cəlb olunması, xüsusilə ölkənin neft sektoruna cəlb edilməsi üçün atdığı böyük addımlardır. Bu davamlı irsdən gələcək nəsillər də faydalanacaqdır.

***Çarlz R.UİLİAMSON,***
***Amerikanın "YUNOKAL" korporasiyasının sədri və baş icraçı direktoru.***

İlham müəllim!

Atanızın vəfatı ilə əlaqədar böyük ürək ağrısı və hüznlə səmimi başsağlığımı verirəm. Sizin yaxın adamınızı itirməyinizlə bağlı dərdinizə, eləcə də, həqiqətən, tarixi şəxsiyyəti itirmiş Azərbaycan xalqının kədərinə şərik oluram. Azərbaycan tarixində Heydər Əliyev bu ölkəyə iftixar, nüfuz və qüdrət bəxş etmiş adam kimi yadda qalacaqdır. Atanızın irsini heç vaxt unutmayacağam və xahiş edirəm, davamlı dostluğuma və atanızın Azərbaycanı daha yaxşı və çiçəklənən ölkəyə çevirmək siyasətinin davamçısı kimi Heydər Əliyevin irsini yaşatdığınızı görmək istəyimə əmin olasınız.





***S.Rob SÜBHANİ,***
***Amerikanın "Kaspian Enerji Konsaltinq" şirkətinin prezidenti.***

Prezident Heydər Əliyevin vəfatı xəbərini böyük təəssüf hissi ilə öyrəndim. Azərbaycana rəhbərliyi ilə və ölkənizdə islahatların aparılması, iqtisadiyyatın inkişaf etdirilməsi və Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün atdığı təsirli addımlarla prezident Heydər Əliyev bizi heyran etmişdir. Azərbaycan Respublikası onun etibarlı rəhbərliyi ilə çox böyük müvəffəqiyyətlərə nail olmuşdur.

Bu çətin vaxtda "Pi-Ey Konsaltinq Qrupu"nun 3300 nəfərlik kollektivinin başsağlığını qəbul etməyinizi xahiş edirəm.

***Kennet İ.RUBİN,***
***Amerikanın "Pi-Ey Konsaltinq Qrupu"nun prezidenti və baş icraçı direktoru.***

Hörmətli cənab Prezident!

Mən böyük kədər hissi ilə atanızın, prezident Heydər Əliyevin vəfatı xəbərini aldım. "Total" qrupu adından Sizə, ailənizə və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Dərin hörmət və ehtiramla,

***Tyerri DEMARE,***
***"Total" şirkətinin prezidenti (Paris).***

Heydər Əliyevin simasında Azərbaycan adı ölkənin müvəffəqiyyətli iqtisadi və siyasi inkişafı ilə bağlı olan böyük bir şəxsiyyəti itirmişdir. On il ərzində Sizin atanız prezident kimi Azərbaycanın taleyini həll etmiş və bununla da regionda siyasi sabitliyi təmin etmək və iqtisadiyyatın, infrastrukturun inkişafı yolunda işlərinə görə dünya miqyasında tanınmışdır.

Biz, həmçinin böyük hörmət və minnətdarlıqla onun bizim firma ilə qarşılıqlı inama əsaslanan əməkdaşlığa olan böyük diqqətini qeyd etmək istərdik.

***Henrix fon PİRER,***
***Almaniyanın "Simens" SC İdarə heyətinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Mixail Zukkov Fondu təbiət və ətraf mühit üzrə Sizin ölkənizdə fəaliyyət göstərən ilk fonddur. Ona görə də bizə Sizin atanızın təbiətə və təbii ehtiyatlara necə böyük əhəmiyyət verdiyini şəxsən müşahidə etmək şərəfi nəsib olmuşdur. Ötən ilin may ayında onunla görüşümüz zamanı mən bunu yəqin etdim.

"Təbiət" devizi ilə biz təbiət mühafizəçiləri də Sizin xeyirxah himayənizin altına keçmişik. Siz təbiətlə birlikdə çox mühüm miras alırsınız. Bu, vüqarlı millətinizin Böyük Qurucusundan qalan mirasdır.

***Mixail ZUKKOV,***
***Almaniyanın Mixail Zukkov Fondunun prezidenti.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyevin vəfatı xəbəri "Konsolideytid Kontraktrz" şirkətində bizim hamımızı dərindən kədərləndirdi.

Bu itki ilə bağlı şirkətin rəhbərliyi və əməkdaşları adından Sizə, ailənizə və Azərbaycan xalqına səmimi başsağlığımızı vermək istəyirəm.

Qoy Allah hamınızı hifz etsin və bu çətin vaxtda Sizə qüvvə bəxş etsin.

***Samir XURİ,***
***Yunanıstanın "Konsolideytid Kontraktrz" beynəlxalq şirkətinin əməliyyatlar üzrə icraçı vitse-prezidenti.***

Cəsarət edib deyirəm ki, əzabkeş Azərbaycan xalqı Heydər Əlirza oğlunun simasında bütün milli tarixi ərzində miqyasına və səviyyəsinə görə bənzəri olmayan qətiyyətli, etibarlı və müdrik rəhbərə malik idi.

Bu gün mən unudulmaz Heydər Əlirza oğlunu və doğma qardaşım Rəsul Həmzətovu necə səmimi, qardaşcasına dostluq telləri bağladığını çox





aydın xatırlayıram. Bu iki sədaqətli və görkəmli qafqazlı fani dünyamızı taleyin hökmü ilə bir ildə, hər iki dost və məsləkdaş 80 yaşında ikən tərk etdi.

***Hacı HƏMZƏTOV,***
***Rusiya Elmlər Akademiyasının akademiki.***

Çox hörmətli cənab Prezident!

İstedadlı dövlət xadimi Heydər Əliyevin vəfatı ilə əlaqədar Sizə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk. Rusiya Diplomdan sonrakı Tibb Təhsili Akademiyası dərdinizə şərik olur. Sizə və bütün yaxınlarınıza səmimi başsağlığı veririk.

***L.K.MOŞETOVA,***
***RDTTA-nın rektoru, Moskvanın baş oftalmoloqu, Rusiya Tibb Elmləri Akademiyasının müxbir üzvü.***

Heydər Əlirza oğlu uzun ömür sürdü və Yer üzündə özü haqqında gözəl xatirə qoydu. Adi əməliyyat işçisindən dövlətin ən ali vəzifələrinədək hər bir yerdə Heydər Əlirza oğlu həmişə yüksək peşəkarlığı, özünə tələbkarlığı, düzlüyü, alicənablığı, səmimiliyi və prinsipiallığı, xeyirxahlığı və insanlara diqqətcilliyi ilə fərqlənirdi. O, Azərbaycanın əsl oğlu idi.

Heydər Əlirza oğlu öz ölkəsini sevirdi, onu böyük, qüdrətli və güclü görmək istəyirdi. O, qüvvəsini, sağlamlığını əsirgəmir, yuxu və istirahəti unudur, həmişə ilk növbədə ölkə barədə, sonra isə özü haqqında düşünürdü.

***Boris ŞKOLNİKOV,***
***Milli Reklam Assosiasiyasının prezidenti (Rusiya).***

Heydər Əlirza oğlu təkcə Azərbaycanın dövlətçiliyinin və iqtisadi qüdrətinin inkişafına böyük töhfə verməmiş, həm də Sovet İttifaqının dəmir yolu nəqliyyatı üçün yüksək məsuliyyət daşıdığı vaxtlarda gözəl insani keyfiyyətləri - sadə dəmiryolçulara diqqətcil və səmimi münasibətilə onların hörmət və məhəbbətini qazanmışdı. Bizim ailəmiz Heydər Əlirza oğlunu tanıyır və ona dərin hörmət bəsləyirdi. O, SSRİ yollar nazirinin müavini

B.A.Morozova daim kömək edərək, Sovet İttifaqının dəmir yol nəqliyyatı təsərrüfatının inkişafına əvəzsiz töhfə vermişdi. Azərbaycanın və Sovet İttifaqının əfsanəvi rəhbərinin xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***A.B.MOROZOV,***
***"Mejtrans" QSC-nin baş direktoru (Moskva).***

Heydər Əlirza oğlu Əliyevin bilavasitə iştirakı ilə Azərbaycanda "Avtovaz" ASC-nin firma avtoservis sistemi yaradılıb və fəaliyyət göstərir. Sovet İttifaqının dağıldığı ağır vaxtlarda onun həlledici sözü "Avtovaz" ASC-nin Azərbaycanda firma şəbəkəsini və avtomobillərin satışı və onlara texniki xidmət üzrə qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığı qoruyub saxlamağa imkan verdi. Biz buna görə mərhum Heydər Əlirza oğluna minnətdarıq.

***V.V.ŞARAYEV,***
***"Avtovaz" ASC-nin ixrac və xarici bazarların inkişafı üzrə direktoru (Tolyatti).***

Heydər Əlirza oğlu Əliyev nəqliyyat tikintisinə böyük diqqət yetirirdi. Azərbaycanın və MDB ölkələrinin nəqliyyat infrastrukturunun çox sayda ən mürəkkəb mühəndis qurğuları onun bilavasitə iştirakı ilə inşaa olunmuşdur. Nəqliyyat inşaatçıları onun bu sahəyə daimi qayğısını və marağını həmişə hiss edirdilər. Heydər Əlirza oğlu işdə fədakarlığı və yüksək peşəkarlığı, insani keyfiyyətləri və alicənablığı ilə fərqlənirdi.

***V.BREJNEV,***
***Rusiyanın "Transstroy" korporasiyasının prezidenti (Moskva).***

Əziz İlham Heydər oğlu!

Ailənizə üz vermiş itki ilə əlaqədar başsağlığımı qəbul edin. Mənim yaddaşımda atanız gözəl ailə başçısı, müdrik, maraqlı və qayğıkeş insan kimi qalacaqdır.

***Aleksandr MALİK,***
***"Beynəlxalq tərəfdaşlıq" vəkillər kollegiyasının sədri.***





Türk milləti olaraq başımız sağ olsun. Türk dünyası və Azərbaycan xalqı Atatürkünü itirdi. İki dövlət bir millət olaraq, sonsuz kədər içindəyik. Azərbaycan xalqının böyük öndəri türk dünyasının tarixdə ən böyük liderlərindən biri idi. Onun alovlandırdığı məşəl türk millətlərinə sonsuza qədər işıq saçacaqdır. Millət olaraq kədərimiz böyükdür.

***Süleyman DAŞQINSU,***
***İğdır Sənayeçilər Şurasının sədri.***

Təkcə Azərbaycanın yox, bütün türk dünyasının əvəzedilməz liderlərindən olan hörmətli prezident Heydər Əliyevin yasını mən də ürəyimdə hiss edirəm. Sülhsevər, dost, sənətsevər, bütün həyatını ölkəsinin mənafeyinə həsr edən hörmətli Heydər Əliyevi, bütün türk xalqı kimi, mən də əsla unutmayacağam. Daim hörmət, sevgi və minnətdarlıqla xatırlayacağam.

***Türkan ŞORAY,***
***Türk kino aktyoru.***

Türk dünyasının böyük dövlət xadimi, hörmətli Heydər Əliyev ilə 1974-cü ildə Azərbaycanda verdiyim konsertlər zamanı tanış olmaq şərəfinə nail olmuşdum. Son dəfə Türkiyə Cümhuriyyətinin yaradılmasının 75-ci ildönümü ilə bağlı mərasimdə hörmətli prezidentlə çox səmimi şəkildə, köhnə dostlar kimi görüşmüşdüm. Bütün türk xalqı kimi, mən də türk dünyasının böyük lideri olan Heydər Əliyevi çox sevmişdim. Onun yoxluğu bütün türk dünyası kimi, məni də çox kədərləndirmişdir. Məkanı Cənnət olsun. Hamımızın başı sağ olsun!

***Emel SAYIN,***
***Türkiyə Cümhuriyyətinin dövlət sənətçisi.***

Zati-aliləri cənab İlham Əliyev!

2003-cü ilin aprel ayında ziyarət etdiyim dəyərli ailə başçınız və Azərbaycan Respublikasının simvoluna çevrilən hörmətli Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndik. Mərhuma Uca Tanrıdan rəhmət

diləyir, zati-aliniz başda olmaqla, bütün ailə üzvlərinizə və xalqınıza başsağlığı veririk.

Xeyir-dualarımızla,

***İstanbul Rum patriarxı***
***I BARTOLOMEOS.***

Böyük insan, cəfakeş, öz xalqı və bütün türk dünyası üçün son dərəcə çox işlər görmüş Heydər Əlirza oğlu həyatdan getdi.

Azərbaycan xalqının rifahı naminə Sizə, ailənizə səbir, cansağlığı arzulayıram.

Allah rəhmət eləsin!

***Rəşid İBRAYEV,***
***Qazaxıstanın Baltikyanı ölkələrdəki səfiri.***

Bəşəriyyət onun simasında sülh və xalqlar dostluğu uğrunda ardıcıl, müdrik mübarizi, Azərbaycan Respublikasının suverenliyi və müstəqilliyinin təşəkkülünə və inkişafına böyük şəxsi töhfə vermiş bir insanı itirdi.

Çox təcrübəli siyasətçilərdən biri kimi şəksiz nüfuza malik olan Heydər Əlirza oğlunun fəaliyyəti bir çox dünya dövlətlərinin liderləri üçün nümunə idi. Biz hamımız bu dahi insanın müasirləri olduğumuzdan qürur hissi duymalıyıq.

***T.SULTANOV,***
***"Dağıstan-Azərbaycan" Regional Dostluq Cəmiyyətinin sədri, Dərbənd şəhəri İcra Hakimiyyəti başçısının birinci müavini,***

***Seyid HƏŞİM,***
***Dərbənd şəhərindəki Cümə məscidinin imamı.***

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə!

Bəşəriyyət özünün ən yaxşı oğullarından birini itirdi. Elə oğul ki, onun həyatı Azərbaycan xalqına, bütün müsəlman dünyasına, bütün tərəqqipərvər bəşəriyyətə şərəflə xidmət etmək nümunəsi idi. Heydər Əlirza oğlu





Əliyev təkcə Azərbaycan xalqı üçün deyil, həm də bütün Şimali Qafqaz xalqları üçün, o cümlədən də repressiya edilmiş və cəmi 80 minlik əhalisinin 10.000 nəfərini müharibə cəbhələrində itirmiş qaraçay xalqı üçün müdafiə sipəri idi.

***Kazım-hacı KATÇİYEV,***
***Qaraçay-Çərkəz Respublikası Çerkessk şəhərinin Müsəlman icmasının sədri.***

Zəmanəmizin böyük dövlət və siyasi xadimi Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi və ürək ağrısı ilə qarşıladıq. Azərbaycan xalqının bütün nailiyyətləri, o cümlədən də müdrik milli siyasət onun adı ilə bağlıdır. Azərbaycanda yaşayan müxtəlif millətlərin və xalqların nümayəndələri bu siyasət səviyyəsində özlərini müstəqil dövlətin tam hüquqlu vətəndaşları hiss edirlər.

***Zaur GİLALOV,***
***Dünya Dağ Yəhudiləri Konqresinin prezidenti.***

Azərbaycanın iqtisadiyyatda və mənəvi həyatda əldə etdiyi nailiyyətlər, ölkənin öz tarixinin dönüş mərhələsində dirçəlişi və inkişafı, beynəlxalq birlikdə dövlətin nüfuzunun artması Heydər Əlirza oğlunun adı ilə sıx bağlıdır.

Heydər Əlirza oğlu Müstəqil Dövlətlər Birliyinin qardaş ölkələri və xalqları arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsinə, qədim Qafqaz torpağında sülhün və mehriban qonşuluq əlaqələrinin yaranmasına misilsiz töhfə vermişdir.

Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyəndə, eləcə də sonrakı illərdə onunla bir neçə dəfə görüşmüşəm və həmişə də onun mühakimələrinin müdrikliyinə, yüksək intellektinə, böyük şəxsi cazibədarlığına əmin olmuşam.

***V.P.ŞERBAKOV,***
***Ümumi Həmkarlar İttifaqları Konfederasiyasının sədri (Moskva).***

Şərq-Qərb İnstitutunun adından Sizə ən səmimi başsağlığımızı yetiririk. Heydər Əliyev Azərbaycanın indiki və gələcək nəsilləri üçün dövlət quruculuğu irsini qoyubdur. Biz onun əsas natiq kimi iştirak etdiyi bir neçə tədbiri maliyyələşdirmək şərəfinə nail olmuşduq. Onun uzaqgörənliklə praktikliyi tarazlaşdırmaq bacarığı daim heyrət doğurmuşdur.

***Con Edvin MROZ,***
***Şərq-Qərb İnstitutunun***
***prezidenti və təsisçisi (Nyu-York).***

Zati-aliləri cənab İlham Əliyev!

Atanız zati-aliləri prezident Heydər Əliyevin vəfatı ilə əlaqədar Asiya İnkişaf Bankı adından Sizə dərin kədərimi bildirir və ən səmimi başsağlığı verirəm. 10 illik prezidentliyi dövründə atanız Azərbaycan Respublikasının sabitliyi və tərəqqisinin təmin edilməsinə müvəffəq olmuşdur və əminəm ki, Sizin güclü liderliyinizlə onun irsi zamanın sınağından uğurla çıxacaqdır.

***Tadao ÇİNO,***
***Asiya İnkişaf Bankının prezidenti.***

Linkoln Universitetinin fəxri doktoru diplomunu prezident Heydər Əliyevə təqdim etmək məqsədilə may ayının əvvəlində Azərbaycana səfərim zamanı Heydər Əliyev ilk dəfə xəstələnmişdi və mən onun əvəzinə cənab İlham Əliyevlə görüşmək şərəfinə nail oldum.

Heydər Əliyevlə heç vaxt görüşmədiyimə görə şəxsi təəssüratlarımdan söz aça bilmirəm. Lakin xanımım əslən moskvalıdır, onunla 1991-ci ildə, Amerikaya gəlişindən sonra tanış olmuşam. Heydər Əliyevə fəxri doktor diplomunu təqdim etmək üçün Azərbaycana gedəcəyimi ona deyəndə xanımım 1980-ci illərin əvvəlində çox gənc oğlu ilə hələ Moskvada olarkən, yaşadığı bir gün haqqında mənə danışdı. Həmin gün oğlu ilə birlikdə küçədə gəzərkən onun oğlu üzərində 10 liderin fotoşəkli, o cümlədən H. Əliyevin fotoşəkli əks olunmuş böyük lövhəni görür. Oğlan lövhədə Sizin atanızın fotoşəklini göstərir və onun gözəl olduğunu, lövhədə əks olunmuş digər liderlərin isə çox məhzun göründüyünü deyir.

***Alan A.SAMSON,***
***Amerikanın Linkoln Universitetinin***
***Qəyyumluq Şurasının sədri.***





Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə tanınması və etimad qazanmasının əsasını qarşılıqlı anlaşma siyasətində tarazlıq yaratmaqla qoymuşdur. O, həm də Almaniya və Azərbaycan arasında tarixi dostluq əlaqələrinin yaradılmasının banisidir. Buna görə biz onun şəxsiyyətini daim minnətdarlıqla xatırlayacağıq.

***H.Y.KESLER,***
***AFR-in sabiq naziri.***

Zati-aliləri cənab İlham Əliyev!

Prezident Heydər Əliyev həyatı boyu öz millətinin, Azərbaycan xalqının rifahı və inkişafı üçün əlindən gələni etmişdir.

Onun Azərbaycan üçün xidmətləri unudulmayacaqdır.

İnanırıq ki, Sizin hazırda prezidentliyiniz Azərbaycan Respublikasında sabitlik və onun iqtisadi inkişafı üçün çox əhəmiyyətlidir və buna görə Sizə ən xoş arzularımızı bildiririk.

***Professor Əhəd RƏHMANZADƏ,***

***professor, doktor V.ŞUD,***

***professor, doktor Ernst SUREK,***
***Keçid problemləri və inkişaf siyasəti üzrə***
***Bonn tədqiqat qrupunun rəhbərləri.***

Azərbaycan millətinin başı sağ olsun!

Prezident cənab Heydər Əlirza oğlu Əliyev uzun xəstəlikdən sonra, 81 yaşında dünyasını dəyişdi. Biz bu böyük itki ilə əlaqədar Azərbaycan xalqına, dünyada yaşayan bütün azərbaycanlılara və Azərbaycanın yeni Prezidenti cənab İlham Əliyevə və onun ailəsinə başsağlığı veririk. Millətimizin və dövlətimizin dünya varkən azad və müstəqil yaşamasını arzu edirik.

***Azərbaycan Kültür Ocağı***
***Almaniyanın Bavariya əyaləti.***

Heydər Əlirza oğlunun Azərbaycan üçün yüksək ixtisaslı kadrlar hazırlanması ilə bağlı uzaqgörən və müdrik siyasəti sayəsində mən, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun üçüncü kurs tələbəsi,

1973-cü ildə təhsilimi davam etdirmək üçün Drezden Texniki Universitetinə göndərilmiş və 1974-cü ildə oranı əla qiymətlərlə bitirmişəm. Heydər Əlirza oğlunun tələbəsi kimi bu yardıma görə dərin minnətdarlıq hissini qəlbimdə əbədi yaşadacağam.

***F.B.QASIMOV,***
***Almaniyanın "KASUS" şirkətinin icraçı direktoru.***

Mən Heydər Əliyevə onunla olan görüşlərimi çox böyük məmnuniyyətlə hələ də xatırlayıram. Bu görüşlərdə biz Azərbaycan Respublikasının energetika sektorunun inkişaf etdirilməsi planlarını müzakirə etmişik. Biz prezident Heydər Əliyevin şəxsi qayğısı və xeyir-duası ilə iki böyük layihədə - 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzinin və "Şimal" DRES-in tikilməsində iştirak etmişik.

Bir daha dərin hüznlə başsağlığımı qəbul edin.

***Bruno BERQQREN,***
***İsveçrənin "ABB Asea Braun Boveri Ltd" şirkətlər qrupunun 1-ci vitse-prezidenti.***

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının və keçmiş Sovet İttifaqının görkəmli dövlət və siyasi xadimi, respublikanın bərpasına və inkişafına, yaxın və uzaq xarici ölkələrlə mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə çox böyük töhfə vermiş Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı ilə əlaqədar Sizə, doğmalarınıza və yaxınlarınıza, Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk.

***Məlik MİRZƏYEV,***
***MDB-nin üzvü olan ölkələrin Neft-Qaz Qurğuları Tikintisi İşçiləri Həmkarlar İttifaqları Beynəlxalq Konfederasiyasının sədri.***

Prezident cənab Heydər Əliyevin bu günlərdə vəfatı xəbərini dərin hüznlə aldım. Bu hadisə ilə əlaqədar Azərbaycan xalqına ən səmimi başsağlığı vermək istərdim. Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin sabitliyinin və iqtisadi inkişafının təminatına verdiyi çox böyük töhfə, haqlı olaraq geniş miqyasda etiraf edilmişdir.

***Ria KEMPER,***
***Hökumətlərarası Enerji Xartiyası Katibliyinin baş katibi.***

Biz bilirik ki, bu müdrik insan respublikada etnik qrupların milli, mədəni inkişafı üçün hər cür şərait yaratmış və xaricdəki bütün Azərbaycan diasporunu eyni bir ümummilli ideya ətrafında birləşməyə çağırmışdır.

Onun vətəninə, xalqına göstərdiyi xidmətlər hədsizdir. O, müstəqil Azərbaycan Respublikasının qurucusu və xilaskarı olmuş, xalqını, vətənini qəlbən sevmiş və müstəqil Azərbaycanı bütün dünyaya tanıtmışdır.

Biz əminik ki, dünyaya Heydər Əliyev kimi bir oğul bəxş edən xalq, dünyasını dəyişmiş oğlunun həllinə macal tapmadığı problemlərin tədricən həllinə çalışacaq və müstəqil Azərbaycan Respublikasının daha da inkişafı üçün var qüvvəsini sərf edəcəkdir.

***Nyu-York şəhərində fəaliyyət göstərən "Azərbaycan yəhudiləri" cəmiyyəti.***

Əfsanəvi, sülhsevər, bütün ömrünü öz xalqına xidmətə həsr etmiş insan, ölkənin siyasi və ideoloji həyatının lideri, dərin zəka sahibi, böyük natiq, gözəl təşkilatçı və ilhamverici Heydər Əlirza oğlu Əliyevin vaxtsız vəfatı xəbəri bütün dünya ictimaiyyətini dərindən kədərləndirmişdir.

Biz, Vətənin qədirbilən övladları, sevimli şəhərimizin adını daşıyan "Bakı-Palas" restoranının həmrəy kollektivi Sizə və bizim hamımıza üz vermiş kədər qarşısında baş əyirik.

***"Baku-Palace", "Apsheron" restoranlarının kollektivi, şirkətin prezidenti Mixail DAVIDOV (Nyu-York).***

MDU-nun fəxri professoru Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasının təşəkkülünə və inkişafına, Azərbaycanın və keçmiş Sovet İttifaqının təhsil, elm və mədəniyyətinin inkişafına çox böyük töhfə vermişdir.

Moskva Universiteti Heydər Əlirza oğlu Əliyevin universitetimizə göstərdiyi çox böyük diqqəti xatırlayır və yüksək qiymətləndirir. Moskva

Universiteti Heydər Əlirza oğlu Əliyevin xatirəsini əbədi yaşadacaq və xalqlarımız arasında dostluğun möhkəmlənməsi və inkişafı üçün bütün lazımi işləri görəcəkdir.

***Viktor SADOVNİÇİ,***
***Moskva Dövlət Universitetinin rektoru,***
***Rusiya Elmlər Akademiyasının akademiki.***

Biz fəxr edirik ki, Heydər Əliyev sarsıntılar və ağır sınaqlar dövründə öz xalqı ilə birlikdə olmuşdur. O, Cənubi Qafqazda müharibəni dayandırdı və bununla da minlərlə öz həmvətəninin həyatını qoruyub saxladı. Heydər Əliyevin azad Vətənimiz qarşısında xidmətləri böyükdür. Onlardan başlıcası Azərbaycanın müstəqilliyi, ölkənin daxilində sabitlik, dövlətin beynəlxalq aləmdə nüfuzudur.

***Tamara VOLKOVA,***
***Ümumrusiya Azərbaycan Konqresinin***
***Primorye diyar regional şöbəsinin təmsilçisi.***

Təkcə Azərbaycanın yox, dünya türklüyünün görkəmli liderlərindən biri olan fəxri sədrimiz Heydər Əliyevin yeri uzun illər doldurulmayacaqdır.

Bizə təsəlli olan ən mühüm amili isə Onun ali ideallarının zati-aliləri İlham Əliyevin əllərində formalaşacağıdır. Başqa sözlə desək, əmanət etibarlı əllərdədir.

***Doktor Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial***
***Araşdırmalar Vəqfinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Böyük dövlət adamı Heydər Əliyevin vəfatı ilə əlaqədar dərin kədər hissi keçiririk. Sizə və bütün xalqınıza başsağlığı veririk.

***Av.Xurşid YILDIRIM,***
***Ədalət və İnkişaf Partiyası Kadıköy***
***Gənclər Təşkilatının sədri.***





Böyük türk dünyasının tanınmış lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Azərbaycan və türk xalqının dahi oğlu Heydər Əliyevin vəfatı xəbəri Bakı və Naxçıvan aeroportlarını tikən 750 türk işçiyə böyük üzüntü verdi.

Bu, xalqımız üçün çox ağır və əvəzolunmaz itkidir.

Möhtərəm Heydər Əliyevin xalqlarımızın rifahı və gələcəyi naminə gördüyü işlər və misilsiz xidmətləri ölkələrimizin tarixində, nəsillərin yaddaşında qalacaq, onun əziz xatirəsi qəlblərimizdə əbədi yaşayacaqdır.

***Doktor Gültəkin EREN,***
***"EREN Holdinq"in prezidenti.***

Böyük dövlət adamı, dəyərli insan prezident Heydər Əliyevin vəfatı xəbərini kədər hissi ilə öyrəndim.

Türk dünyası mümtaz bir şəxsiyyətini itirmişdir. Mərhuma Allahdan rəhmət diləyir, ailəsinə, yaxınlarına, Azərbaycan xalqına və türk dünyasına səbir arzu edirəm.

***Harun KAYACI,***
***Türkiyənin "Meltem" və "Mesaj"***
***televiziyalarının baş direktoru .***

Böyük dövlət adamı prezident Heydər Əliyevin vəfatı xəbərini dərin kədər hissi ilə öyrəndim. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, dünya siyasətində öz yerini tutması və ölkənin inkişafı üçün mühüm addımlar atmış, Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfələr vermişdir. İş yoldaşlarım adından və öz adımdan böyük dövlət adamının vəfatından kədərləndiyimizi bildirirəm.

***Professor Ümid ÖZDAĞ,***
***Avrasiya Strateji Araşdırmalar Mərkəzinin rəhbəri.***

Azərbaycan xalqına böyük itki üz vermişdir. Azərbaycanın dahi zəkası, həyatını xalqının xoş gələcəyi naminə ağır iş fəaliyyətinə həsr etmiş görkəmli ictimai-siyasi xadim, fəxri və əvəzolunmaz bir dahi, türk dünyasının

sevimlisi, dünya şöhrətli siyasətçi, Azərbaycan tarixində təkzibedilməz həlledici rola malik olan Heydər Əlirza oğlu Əliyev dünyasını dəyişmişdir.

Dahi rəhbər aramızdan ayrılsa da, əməlləri, dəyərli tövsiyələri azad, müstəqil gələcəyə doğru daim irəliləyən Azərbaycan xalqının yolunu hər zaman işıqlandıracaq.

***Əhməd ƏRƏNTOK,***
***"Ata Holdinq" şirkətlər qrupu***
***Müşahidə Şurasının sədri.***

Hörmətli İlham Heydər oğlu!

Atanızın - görkəmli dövlət xadiminin vəfatı ilə əlaqədar ən dərin hüznlə başsağlığımı qəbul edin.

Heydər Əlirza oğlu Əliyevi siyasi cəsarətinə, insani müdrikliyinə, öz vətəninə fədakarcasına xidmətinə görə ölkəmizdə yaxşı tanıyır və hörmət bəsləyirdilər.

Əminəm ki, Sizin üçün bu çətin vaxtda Azərbaycan xalqı atasının işinin etibarlı davamçısı olan öz prezidenti ətrafında daha sıx birləşəcəkdir.

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının prezidenti.***

Hörmətli cənab Prezident!

Sizə və Azərbaycan xalqına üz vermiş ağır itki - atanız prezident Heydər Əliyevin uzun sürən xəstəlikdən sonra vəfat etməsi ilə əlaqədar monqol xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Xalqımız onu yaxın dost, bütün ömrünü vətənin - müstəqil Azərbaycan Respublikasının inkişafına və çiçəklənməsinə həsr etmiş görkəmli övlad kimi yaxşı tanıyır. Onun nurlu xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

***Natsagiyn BAQABANDİ,***
***Monqolustanın prezidenti.***

Hörmətli cənab Prezident!

Ehtiramla, prezident cənab Heydər Əliyevin vəfatı ilə əlaqədar cənabınıza, Azərbaycan Respublikasının şərafətli xalqına dərin hüznlə başsağlığı verirəm.





Əminəm ki, bu böyük şəxsiyyətin iki qonşu və müsəlman ölkəsi olan İran İslam Respublikası və Azərbaycan Respublikası arasında əlaqələrin daha da dərinləşməsi və genişlənməsi sahəsində göstərdiyi dəyərli səylər cənabınız tərəfindən davam etdiriləcəkdir.

***Kamal XƏRRAZİ,***
***İran İslam Respublikasının xarici işlər naziri.***

2001-ci ildə Avropa İttifaqı - Azərbaycan Parlamentlərarası Əməkdaşlıq Komitəsində iştirak etmək məqsədilə Bakıya gəlişimizdə Heydər Əliyevlə keçirdiyim görüşü yaxşı xatırlayıram. Mən Azərbaycanın inkişafı üçün onun öz üzərinə öhdəlik götürməsindən, xüsusilə təəssüratlandım. O, Azərbaycanın rifahına yardım edən bir çox əhəmiyyətli islahatlar həyata keçirmişdir. Mən, həmçinin onun Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin möhkəmlənməsi sahəsində əməyini yüksək dəyərləndirirəm.

***Ursula ŞLEYXER,***
***Avropa İttifaqı - Azərbaycan Parlamentlərarası***
***Əməkdaşlıq Komitəsinin sədri.***

Heydər Əliyevin ötən on ildə xalqınıza və respublikanıza rəhbərliyi sahəsində xidməti həm ölkənizdə, həm də onun hüdudlarından kənarda ehtiramla xatırlanacaqdır. Mərhum prezident Azərbaycana sədaqətlə və məsuliyyətlə xidmət etdi. Mən bilirəm ki, Azərbaycan Respublikasının sosial-iqtisadi sahədə əldə etdiyi nəhəng tərəqqi və müvəffəqiyyətlər onun səmərəli rəhbərliyi nəticəsində mümkün olmuşdur. O, hər zaman Pakistan ilə Azərbaycan arasında dərin qardaşlıq əlaqələrinin qurucusu kimi yad olunacaq.

***Çaudri Şücaət HÜSEYN,***
***Pakistan Müsəlman Liqasının sədri.***

Böyük dövlət adamı, gözəl insan, dəyərli dostum prezident Heydər Əliyevin vəfatı xəbərini kədər hissi ilə öyrəndim. Sovet İttifaqının dağılmasından sonra böhranlı bir dövrdə bir çox təhlükəyə sinə gərərək, Azərbaycanın varlığını qorumaq üçün böyük bacarıq nümayiş etdirən bu şəxsiyyəti tarix

iftixarla yad edəcəkdir. Türk dünyası mümtaz bir şəxsiyyətini itirmişdir. Ancaq o, ən böyük əsəri olan Azərbaycanın simvoluna çevrilərək, könüllərdə yaşayacaqdır. Mərhuma Allahdan rəhmət diləyirəm.

***Professor, doktor Heydər BAŞ,***
***Müstəqil Türkiyə Partiyasının sədri.***

Hörmətli Prezident!

Allahın izni ilə məğfirətə qovuşacaq əziz atanız, prezident cənab Heydər Əliyevin vəfatı xəbərini dərin hüzn və kədər hissi ilə qarşıladım.

Əzizinizin vəfatı ilə əlaqədar Sizə şəxsən öz adımdan və Beynəlxalq İslama Çağırış Cəmiyyətinin şura və idarə heyətinin üzvləri və əməkdaşları adından ən səmimi başsağlığı verir, Ulu və Qadir Allaha dua edirik ki, onu geniş rəhməti ilə qəbul etsin və Cənnətin ən gözəl guşələrində məskun etsin!

***Doktor Məhəmməd Əhməd ŞƏRİF,***
***Liviya Beynəlxalq İslama Çağırış Cəmiyyətinin katibi.***

Ölkənin müdrik və görkəmli rəhbərinin, gözəl insanın və bütün ömrünü öz vətəninə və xalqına fədakarcasına xidmətə həsr etmiş Azərbaycanın sədaqətli oğlunun vəfatı ilə əlaqədar ən dərin hüznlə başsağlığımı qəbul edin. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin təşəkkülü və möhkəmlənməsində, beynəlxalq aləmdə ölkənin nüfuzunun yüksəlməsində görkəmli rol oynamışdır.

Azərbaycan xalqının görkəmli oğlunun xatirəsi qəlbimdə daim yaşayacaqdır.

***Takehiro TOQO,***
***"Mitsui" Qlobal Strateji Araşdırmalar İnstitutunun baş müşaviri (Tokio).***

Heydər Əliyevin vəfatı xəbəri məni sarsıtmışdır. Bu əfsanəvi insanı şəxsən tanıdığıma, fəxrlə özümü onun dostu saydığıma görə bu itki mənim üçün ikiqat ağırdır.





Mənim iki Vətənim var - Böyük Britaniya və Hindistan. Mən bu ölkələrin dahi şəxsiyyətləri ilə fəxr edirəm. Heydər Əliyev haqqında düşünərkən mən onu, mübaliğəsiz olaraq, Uinston Çörçill və Cəvahirləl Nehru ilə müqayisə edirəm. Bu dahi insanlar bütün şüurlu həyatlarını öz xalqlarının xöşbəxtliyinə və səadətlərinə həsr etmişlər. Müasir dünyada ikinci elə rəhbər tanımıram ki, Heydər Əliyev kimi o öz sələflərindən miras qalmış, dağılmaq təhlükəsi qarşısında olan bir ölkəni qəbul edib, qısa bir müddət ərzində onu çiçəklənən və sürətlə inkişaf edən bir ölkəyə çevirmiş olsun.

***Caşvant ŞAH,***
***"M.C.Grup" şirkətinin prezidenti (London).***

Heydər Əliyev xoşbəxt insan idi. Bir insan ömrü ərzində bu qədər iş görmək hər adama nəsib olmur. Heydər Əliyev özünün heç də sadə olmayan ömrünü xalqının ləyaqətli oğlu kimi başlamış, şərəfli həyat sürmüş, həyatını xalqının layiqli Atası kimi başa vurmuşdur.

Onu Hollandiyada yaxşı tanıyırdılar. Məhz onun apardığı müdrik və məqsədyönlü siyasət nəticəsində bütün dünya Sizin gözəl ölkəni - Azərbaycanı da tanımışdır.

Onun hərtərəfli ölçülüb-biçilmiş daxili siyasəti nəticəsində Azərbaycan dünyanın investisiya və energetika mərkəzlərindən birinə çevrilmişdir.

Belə bir kəlam var: insan öz ömrü boyu ağac əkməli, ev tikməli və oğul böyütməlidir. Heydər Əliyev bu işlərin hamısını görmüşdür!

Heydər Əliyev öz ömrü boyu çiçəklənən Azərbaycan adlı bir bağ salmışdır.

Heydər Əliyev öz ömrü boyu adı müstəqil Azərbaycan olan bir ev qurmuşdur.

Heydər Əliyev öz ömrü boyu, onun şərəfli və məsuliyyətli işini bu gün davam etdirən, Azərbaycan xalqının gələcəyini etibar etdiyi ləyaqətli bir oğul böyütmüşdür.

***Villem Van't VOUT***
***"Fondel Metal Participations" şirkəti Direktorlar Şurasının sədri (Rotterdam).***

19. - 626

Cənab Heydər Əliyev Azərbaycan tarixində parlaq bir şəxsiyyət kimi özünü göstərdi. O, Azərbaycanın müstəqilliyini təmin edib dövlətin sükanı arxasında duraraq, Azərbaycanı inamla irəliyə apara bildi, Azərbaycan dövlətinin indiki və gələcək inkişafı üçün möhkəm təməl qoydu.

Heydər Əliyevin fəaliyyəti, nadir siyasi və diplomatik məharəti, uzaqgörənliyi sayəsində Azərbaycanın adı beynəlxalq səviyyədə səslənməyə başladı, dünya miqyasında onun əhəmiyyəti artdı.

Heydər Əliyev Azərbaycanı dünyanın ən qüdrətli dövlətləri ilə birbaşa ünsiyyətə çıxarıb onun tam mənada müstəqil dövlət olduğunu sübut edə bildi.

***Səid İSMAİLOFF,***
***Parisdəki Azərbaycan Evinin sədri.***

Zati-aliləri cənab İlham Əliyev!

Böyük dövlət adamı, prezident və zati-alinizin dəyərli atası hörmətli Heydər Əliyevin vəfatı xəbərini böyük kədər hissi ilə öyrənmişik. Sizin şəxsinizdə Əliyevlər ailəsinə, onu ürəkdən sevən Azərbaycan və Türkiyə xalqlarına və türk-islam aləminə Rumıniyadakı Türk İş Adamları Dərnəyinin üzvləri adından başsağlığı verir, mərhuma Allahdan rəhmət diləyirəm.

***İsmət İsmayıl BAYINDIR,***
***Türk İş Adamları Dərnəyi İdarə Heyətinin sədri.***

Hörmətli cənab İlham Əliyev!

Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli siyasətçi, Azərbaycan dövlətinin qurucusu cənab Heydər Əliyevin vəfatı xəbəri Azərbaycan xalqı kimi, bizi də çox sarsıtdı.

Allah qəni-qəni rəhmət eləsin, başınız sağ olsun!

***Pol HART,***
***"Prokter ənd Gembl" şirkətinin Qafqaz və***
***Mərkəzi Asiya respublikaları üzrə***
***baş meneceri və vitse-prezidenti.***





Heydər Əliyev uzun və hadisələrlə dolu siyasi həyatında sülh və milli barışıq adamı kimi, beynəlxalq hüququn ədalətli prinsipləri əsasında böyük Qara dəniz regionunda və bütün dünyada konstruktiv əməkdaşlığın qətiyyətli himayəçisi kimi şəksiz nüfuz qazanmışdır.

Onunla şəxsən görüşdüyümüzə və müdrik sözlərini dinlədiyimizə görə bu kədərli və əbədi itki bizi, xüsusilə mütəəssir etmişdir.

***Yannis PAPANİKOLAU,***
***Qara dəniz Araşdırmaları üzrə Beynəlxalq***
***Mərkəzin baş direktoru (Afina).***

Prezident Heydər Əliyev Azərbaycan tarixində tutduğu ən yüksək fəxri pilləni həmişə qoruyub saxlayacaqdır. Qafqazı tanıyan hər bir şəxs razılaşar ki, cənab Heydər Əliyev bu regionun tarixində rəhbərlik etmiş ən böyük lider, öz ölkəsini qurmuş və ona yenidən həyat vermiş bir şəxsiyyət olmuşdur.

Şəxsən öz adımdan deyə bilərəm ki, mən səfir olduğum illər ərzində Heydər Əliyevlə yaxından işləmək şərəfinə nail olmuşam. Onun müdrikliyi, peşəkar liderlik qabiliyyəti, beynəlxalq diplomatiyada göstərdiyi ustalıq və Qafqazın siyasi-iqtisadi mürəkkəbliklərini tam başa düşməsi Azərbaycan və Birləşmiş Ştatlar arasında mövcud olan iqtisadi və siyasi münasibətləri möhkəmləndirmiş, ölkədə genişmiqyaslı islahatların həyata keçirilməsinə zəmin yaratmış, Azərbaycanın yaxın və işıqlı gələcəyinin təməlinin qoyulmasında öz əsas rolunu oynamağa imkan vermişdir. Mən bu prosesin xoşbəxt şahidi olmuşam və indi çox kədərlənirəm ki, cənab Heydər Əliyev səylərinin bütün nəticəsini görə bilmədən bizi tərk etdi.

***Stenli T.ESKUDERO,***
***Azərbaycandakı Amerika Ticarət***
***Palatasının birinci vitse-prezidenti.***

# BU KİTABIN MÜƏLLİFİ MİLYONLARDIR

Siz əbədiyyətə qovuşmuş Böyük insan haqqında söylənən milyonlarla vida sözlərinin ancaq bir hissəsi ilə tanış oldunuz. Onların hamısını yazmağa isə neçə-neçə cildlər də bəs etməzdi.

Biz - azərbaycanlılar, bu Böyük insanın həmyerliləri olduğumuzdan, bəlkə də onun dünyada tutduğu əsl yeri görmürük. Heydər Əliyev zirvədir. Dağın zirvəsi isə heç vaxt dağın ətəyindən görünməz...

Sıravi bir amerikalı, kasıb bir ərəb, sadə bir afrikalı - dünyanın hər bir yerindən adidən adi insanların Bakıya minlərlə başsağlığı teleqramı ünvanlaması çox şeydən xəbər verir.

Və son olaraq bir epizodu qeyd edək. Heydər Əliyev dəfn olunan gün hazırda Heydər Əliyevin adını daşıyan "Respublika" sarayının yaxınlığında 5-6 yaşlı bir qız uşağı hönkürə-hönkürə ağlayırdı. Onu ovundurmaq istəyən valideynləri heç cür buna nail ola bilmirdilər. Haçandan-haçana qız hıçqıraraq dedi:

- Heydər baba niyə öldü? Mən böyüyəndə həkim olacaqdım, onu sağaldacaqdım...



## MÜNDƏRİCAT


Təsəlli ... 3
Proloq ... 5
Qara xəbər ... 15
Nekroloq ... 16
Qərənfillər və şamlar ... 28
Cənazə Vətənə gətirildi ... 29
Ümumxalq vidalaşma mərasimi ... 31
Fəxri xiyabanda dəfn ... 35
Bir dəqiqəlik sükut ... 37
Dəfndə iştirak edən xarici qonaqlar ... 38
Dünyanın ən nüfuzlu şəxslərinin ürək sözləri ... 46
Ölkə matəm içində ... 49
Bir ölümün əks-sədası ... 60
Vida sözləri ... 74
Azərbaycanın millət vəkillərinin xalqa müraciəti ... 103
Xalqın baş ziyarətgahı ... 106
Dost ziyarəti ... 108
Xaricdə yaşayan soydaşlarımızın ağrısı ... 110
Xalqın xatirə kitabı ... 112
Vida sözləri ... 129
Heydər Əliyevi dünyanın bütün guşələrində sevirlər ... 166
Bu dərdi mən yazmadım ... 168
Qırx gün keçdi ... 175
Vida sözləri ... 191
Heydər Əliyevin adı əbədiləşdirilir ... 247
Vida sözləri ... 258
Bu kitabın müəllifi milyonlardır ... 292

Kitabın nəşrinə göstərdiyi köməyə görə yaradıcı heyət **“ANT inşaat”** şirkətinə öz minnətdarlığını bildirir.

Kitabda “AzərTAc-ın və “Azərbaycan” qəzetinin rəsmi materiallarından, Azər TAc-ın və F. Bağırovun fotolarından istifadə olunmuşdur.

Redaktor
*Varis Yolçiyev*

Texniki redaktor
*Elmira Tağıyeva*

Kompüter işləri
*Nüsrət Quliyev*
*Nazim Rzaquliyev*

Bu kitab satış üçün nəzərdə tutulmayıb. Gəlir götürmək məqsədilə kitabın satılması qadağandır.

---

Çapa imzalanmışdır 20.05.2004. Kağız formatı 70x100 1/16.
Şərti çap vərəqi 24,58. Uçot-nəşr vərəqi 22,75. Ofset kağızı.
Qarnituru Times. Tirajı 500. Sifariş 626.

---

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
Az 1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.
Tel.: (99412) 38-00-10.
Fax: (99412) 98-97-75. E-mail:azerbneshr(a)azerin.com.